# Mizanul – hikmət

*(xülasəsi)*

Peyğəmbər(s) və İmamlar(ə)ın
mübarək hədisləri

# II cild

**Mizanul – hikmət**

*(xülasəsi)*

Peyğəmbər (s) və İmamların (ə) mübarək hədisləri

**Toplayan:**

Ayətullah Məhəmməd Məhəmmədi Reyşəhri

**Tərcüməçilər:**

Ağabala Mehdiyev,

Elşən Mahmudov,

Etibar Quliyev

**Redaktorlar:**

**İxtisas redaktoru**

Höccətül –İslam vəl-müslimin

Hacı Adil Mövlayi

**Ədəbi redaktor:**

Dürdanə Cəfərli

# 231

# Doğruluq

***1084. Doğruluq***

**Quran:**

«Ey iman gətirənlər! Allahdan qorxun və doğrularla birgə olun.»[1]

**Hədis:**

3467. Allahın Peyğəmbəri (s): «Cənnət qapılarından biri olan doğruluğu sizə tövsiyə edirəm.»[2]

3468. İmam Əli (ə): «Doğruluq – danışığın ilahi fitrətə uyğunluğu, yalan isə danışığın ilahi fitrətdən uzaqlaşmasıdır.»[3]

3469. İmam Əli (ə): «Doğruluq haqqın dilidir.»[4]

3470. İmam Əli (ə): «Doğruluq ondan qorxsan da sənə nicat verər, yalan isə ondan özünə bir təhlükə hiss etməsən də, səni məhv edər.»[5]

3471. İmam Əli (ə): «Doğruluq, hər şeyin düzgünlüyünün, yalansa hər şeyin fəsadının mayasıdır.»[6]

3472. İmam Əli (ə): «Doğruluq – əmanətə sadiq qalmaq, yalan isə xəyanətdir.»[7]

3473. İmam Əli (ə): «Kişinin dəyəri onun səyi, onun doğruluğu isə insaniyyəti qədərdir.»[8]

3474. İmam Əli (ə): «İman odur ki, insan onun ziyanına olmuş olsa belə, doğruluğu xeyrinə olan yalandan üstün tutsun.»[9]

---

[1] Tövbə, ayə 119
[2] Tarixe Bağdad, c.11, hədis 82
[3] Ğurərul-Hikəm, hədis 1552
[4] Ğurərul-Hikəm, hədis 275
[5] Ğurərul-Hikəm, hədis 118
[6] Ğurərul-Hikəm, hədis 1115
[7] Ğurərul-Hikəm, hədis 15
[8] Nəhcül-Bəlağə, hikmət 47
[9] Nəhcül-Bəlağə, hikmət 458

3475. İmam Baqir (ə): «Söz danışmaqdan əvvəl doğru danışmağı öyrənin»[1]

3476. İmam Sadiq (ə): «Doğruluq izzətdir.»[2]

3477. İmam Sadiq (ə): «Doğru danışanın əməli pakdır.»[3]

***1085. Doğru danışan***

3478. İmam Əli (ə): «Doğru danışan nicat və alicənablığın astanasında, yalançı isə uçurum və xarlığın kandarında dayanmışdır.»[4]

3479. İmam Sadiq (ə): «İnsanların namazına, orucuna aldanmayın. Çünki bəzən insan namaza, oruca o qədər adət edir ki, onları tərk etsə, qorxu hissi keçirir. Əslində, onları doğru danışmaq və əmanətdarlıqla sınayın.»[5]

3480. İmam Sadiq (ə): «Doğruluqdan daha yaxşısı onu danışan, yaxşı işdən daha yaxşısı ona əməl edəndir.»[6]

***1086. Ən doğru sözlər***

**Quran:**

«Allah, Ondan başqa məbudun olmadığıdır. Şübhəsiz ki, heç bir şəkkin olmadığı qiyamət günü (Allah) sizi bir yerə toplayacaqdır. Allahdan daha sadiq (doğru danışan) kim ola bilər?»[7]

**Hədis:**

3481. İmam Əli (ə): (*ən yaxşı söz barədə suala cavabından)* «Allahdan başqa heç bir məbudun olmadığına şəhadət vermək.»[8]

3482. İmam Əli(ə): «Sözlərin ən yaxşısı hal əhlinin sözüdür.»[9]

---

[1] əl-Kafi, c.2, səh. 104, hədis4
[2] Biharül-Ənvar, c.78, səh. 269, hədis109
[3] əl-Kafi, c.2, səh. 104, hədis3
[4] Nəhcül-Bəlağə, xütbə 86
[5] əl-Kafi, c.2, səh. 104, hədis2
[6] Əmali-Tusi, səh. 223 hədis 385
[7] Nisa, ayə 87
[8] Biharül-Ənvar, c.77, səh.378, hədis 1
[9] Ğurərul-Hikəm, hədis 3302

# 232

# Dost

***1087. Dost***

3483. Allahın Peyğəmbəri (s): «İnsan öz dostunun dinindədir. Beləliklə, hər biriniz kiminlə dostluq etməyinizin fərqində olun.»[1]

3484. İmam Əli (ə): «Dost, yaxınların ən yaxınıdır.»[2]

3485. İmam Əli (ə): «Dostu olmayan kəsin ehtiyat azuqəsi olmaz.»[3]

3486. İmam Əli (ə): «Dostlar müxtəlif bədənlərdə bir ruhdurlar.»[4]

***1088. Nəfslərin oxşarlığı***

3487. İmam Əli(ə): «Nəfslər müxtəlifdir. Bir-birinə bənzəyənlər bir yerə yığılar və öz bənzərlərinə daha çox meyl edərlər.»[5]

3488. İmam Əli (ə): «Hər insan öz oxşarına tərəf meyl edər.»[6]

***1089. Dostluğa layiq olanlar***

3489. Allahın Peyğəmbəri (s): «Ən xoşbəxt insan böyük insanlarla yoldaşlıq edəndir.»[7]

3490. İmam Əli (ə): «Ən böyük düzgünlük və mənfəət ağıllı, iman və mənəviyyat sahibi olan insanlarla yoldaşlıq etməkdədir.»[8]

3491. İmam Əli(ə): «Səni əbədiyyət sarayına çağıran və o saraya çatmaq üçün işləməkdə sənə kömək edən şəxs, həmin qayğıkeş dostundur.»[9]

---

[1] Əmali-Tusi ,səh. 518, hədis 1135
[2] Ğurərul-Hikəm, hədis 674
[3] Ğurərul-Hikəm, hədis 8760
[4] Ğurərul-Hikəm, hədis 2059
[5] Biharul-Ənvar, c.78, səh.92, hədis 100
[6] Ğurərul-Hikəm, hədis 6865
[7] Biharul-Ənvar, c.74, səh.185, hədis 2
[8] Ğurərul-Hikəm, hədis 3129
[9] Ğurərul-Hikəm, hədis8775

3492. İmam Sadiq(ə): «Heç kimsəni üç şeydə sınamamış, öz dostun bilmə; onu qəzəbləndir və bax gör bu qəzəb onu haqqdan batilə çəkirmi, pul və qızılla, onunla səfərə çıxmaqla.»[1]

3493. İmam Sadiq(ə): «O kəslə dostluq et ki, onunla zinət taparsan, səninlə zinətlənənlə dostluq etmə.»

(İlk baxışda, hədisin məqsədi budur ki, elə bir şəxslə yoldaşlıq et ki, yoldaşlığınız hər ikinizin zinətlənmənizə səbəb olsun. Onu zinətləndirdiyin, ancaq sənin zinətlənməyinə səbəb olmayan şəxslə yoldaşlıq etmə).[2]

### *1090. Ləyaqətsiz yoldaşlar*

**Quran:**

«Bir gün zalım öz əllərini didər və deyər: «Ey kaş, Allahın Peyğəmbəri getdiyi yolu gedəydim. Vay olsun mənə, kaş filankəslə dostluq etməyəydim. Quran mənə gəlib çatdıqdan sonra, o, məni Allahı yad etməkdən yayındırdı. Şeytan həmişə insanı yalqız qoyub gedəndir.»[3]

**Hədis:**

3494. Allahın Peyğəmbəri(s): «Özünə nəzərdə tutduğu və bəyəndiyi şeyi səninçün bəyənməyən bir şəxslə yoldaşlıqda sənə heç bir fayda yoxdur.»[4]

3495. İmam Əli(ə): «Bircə bilsəydin, nəfsinlə mübarizədə sənə kömək etməyən şəxslə yoldaşlığın sənə necə də ağır bir yükdür.»[5]

3496. İmam Əli(ə): «Fasiq, əxlaqsız, günahkar şəxslərlə yoldaşlıq etməkdən çəkin.»[6]

3497. İmam Əli(ə): «Nadan adamın dostu əziyyət və çətinlikdədir.»[7]

3498. İmam Əli(ə): «Fasiqlərlə (günahkarla) yoldaşlıq etməkdən çəkin. Çünki pislik pisliyə bağlanar.»[8]

3499. İmam Əli(ə) (*əziz oğlu Həsənə (ə) tövsiyəsindən):* «Oğlum! Axmaqla dostuq etməkdən çəkin. Çünki o sənə xeyir vermək istəyər, amma ziyan vurar.»[9]

---

[1] Əmali-Tusi, səh. 646, hədis 1339

[2] Biharul-Ənvar, c.76, səh.267,hədis 9

[3] Furqan, ayə 27-29

[4] -d-Durrətul-Bahirə, səh. 19

[5] Ğurərul-Hikəm, hədis 9041

[6] Ğurərul-Hikəm, hədis 2601

[7] Ğurərul-Hikəm, hədis 5829

[8] Biharul-Ənvar, c.74, səh. 199, hədis36

[9] Biharul-Ənvar, c.74, səh. 198, hədis35

3500. İmam Səccad (ə) (*əziz oğlu Həzrət Baqirə (ə) tövsiyəsindən):* «Öz qohum-əqrəbası ilə əlaqəsini kəsən adamla yoldaşlıq etməkdə ehtiyatlı ol. Çünki Allah kitabının üç yerində belə şəxsin lənətləndiyini gördüm.»[1]

3501. İmam Rza (ə): «Nadan adamın dostu əziyyətdədir.»[2]

### *1091. Dostluğu pozan amillər*

3502. İmam Əli (ə): «Kişi öz qardaşını narahat (ya xəcalətli) edən zaman onu itirər.»[3]

3503. İmam Əli (ə): «Dostun dosta paxıllıq etməsi, dostluğun sağlam olmamasından irəli gəlir.»[4]

3504. İmam Əli(ə): «Heç vaxt bədgümanlıq sənə qalib gəlməsin. Çünki bu səninçün heç kəslə dostluq etməyə yer qoymaz.»[5]

3505. İmam Əli(ə): «Öz dostunun hər bir işinə irad tutanın dostluq telləri tez qırılar.»[6]

3506. İmam Əli(ə): «Qardaşları ilə yola getməyən şəxsin dostları azalar.»[7]

3507. İmam Sadiq (ə): «Əgər müsəlman qardaşının səninlə dostluğunun xalis qalmasını istəyirsənsə, heç vaxt onunla zarafat və münaqişə etmə, onun qarşısında öyünmək və düşmənçilikdən çəkin.»[8]

3508. İmam Hadi(ə): «Bir-birinizlə çəkişməyiniz köhnə dostluğu pozar, möhkəm düyünləri açar. Belə ki, mübarizədə biruzə verilən ən az şey, birinin digərinə üstün gəlmək istəyidir. Bu istək isə dostluq əlaqələrinin kəsilməsinin əsas amilidir.[9]

### *1092. Dostluğun sərhədləri*

3509. İmam Əli(ə): «Həqiqi dost sənin eyblərinin aradan getməsi üçün nəsihət edən, sən olmadığın vaxt sənin malının, sərvətinin qeydinə qalan və səni özündən üstün biləndir.»[10]

---

[1] Biharul-Ənvar, c.2, səh. 377, hədis7
[2] Biharul-Ənvar, c.78, səh.352 hədis 9
[3] Biharul-Ənvar, c.74, səh.281 hədis 28
[4] Nəhcül-Bəlağə, hikmət 218
[5] Biharul-Ənvar, c.77, səh.207, hədis 1
[6] Ğurərul-Hikəm, hədis 8582
[7] Ğurərul-Hikəm, hədis 8772
[8] Biharul-Ənvar, c.78,səh.291, hədis 2
[9] Əlamud-din,səh. 311
[10] Ğuərul-həkim, hədis 1904

3510. İmam Əli(ə): «Nə qədər məhəbbətin var, dostuna bəşx elə, amma inamının hamısını onun ayağı altına atma.»[1]

3511. İmam Sadiq (ə): «Dostluğun sərhədləri var. Kim onların hamısına, ya bir neçəsinə malik olsa dostdur, əks halda, onu əsla dost bilmə: birincisi, zahirdə və batində sənə qarşı eyni olsun; ikincisi, sənin abrını öz abrı, sənin eybini və rüsvayçılığını öz eybi və rüsvayçılığı bilsin; üçüncüsü, sərvət və məqam onun sənə qarşı münasibətini dəyişməsin; dördüncüsü, əlindən gələn köməyi səndən əsirgəməsin və beşinci, bütün xislətləri özündə çəm edir; çətinliklərdə səni tənha qoymasın.»[2]

***1093. Ən yaxşı dostlar***

3512. Allahın Peyğəmbəri (s): «Ən yaxşı dost, səninlə uyğunsuzluğu az və uyğunluğu çox olandır.»[3]

3513. İmam Əli (ə): «Allaha itaət yolunda sənə kömək edən şəxs, ən yaxşı dostdur.»[4]

***1094. Dostun haqqı***

3514. İmam Əli(ə): «Heç bir dostla, naşükr olsa da, əlaqəni kəsmə.»[5]

3515. İmam Səccad (ə): «Dostun haqqı, onunla mehriban və insafla rəftar etməyindir. Eləcə də, sənə hörmət etdiyi qədər sən də ona hörmət etməlisən. Heç bir bəxşişdə səni qabaqlamağa imkan vermə, əgər qabaqlasa bu yaxşılığının əvəzini çıx. Səni sevdiyi qədər, sən də onu sev. Əgər bir günah etməyi qərara alsa, onu günahdan çəkindir. Onun üçün zəhmət və məhəbbət mənşəyi ol, onun əzabına bais olma.»[6]

---

[1] Birahədisul-Ənvar, c.74, səh. 165 , hədis29
[2] Birahul-Ənvar, c.78, səh. 249 , hədis90
[3]Tənbihul-Xəvatir, c.2, səh. 123
[4] Ğurərul-Hikəm, hədis 1142
[5] Ğurərul-Hikəm,hədis 10196
[6] Biharul-Ənvar, c.74, səh.7

**233**

# Sədəqə

***1095. Sədəqənin fəziləti***

**Quran:**

«Onların mallarından sədəqə çıx ki, bunun vasitəsilə onları pak və təmiz edəsən. Onlar üçün dua et. Çünki sənin duan onlar üçün bir sakitlikdir. Allah eşidən və biləndir.»[1]

**Hədis:**

3516. Allahın Peyğəmbəri (s): «Qiyamətin torpağı (bütövlüklə) atəşdir, möminin kölgəsindən başqa. Çünki verdiyi sədəqə onun üzərinə kölgə salar.»[2]

3517. Allahın Peyğəmbəri(s): «Qiyamət günü insanlar arasında məhkəmə başlayanadək, hər kəs öz sədəqəsinin kölgəsindədir.»[3]

3518. Allahın Peyğəmbəri(s) : «Sədəqə Allahın qəzəbini yatırar.»[4]

3519. İmam Əli(ə): «Sədəqə cəhənnəm odunun qarşısında bir sipərdir.»[5]

***1096. Allah sədəqələri qəbul edəndir***

**Quran:**

«Məgər bilməmişlər ki, bəndələrindən tövbəni və sədəqələri qəbul edən yalnız Allahdır. Allah tövbələri qəbul edən və rəhimlidir.» [6]

**Hədis:**

3520. İmam Sadiq(ə) : «Allah-taala buyurur: Yalnız sədəqdən başqa elə bir şey yoxdur ki, onu götürməyə bir nəfəri məmur etməyim. Sədəqəni dərhal öz əlimlə qəbul edərəm.»[1]

---

[1] Tövbə, ayə 103

[2] əl-Kafi, c.4, səh.3, hədis6

[3] Kənzul-Ummal, hədis 16068

[4] Kənzul-Ummal , hədis 16114

[5] Vəsailuş-Şiə, c.6, səh. 258 , hədis17

[6] Tövbə, ayə 104

***1097. Sədəqə və bəlanın qarşısını almaq***

3521. Allahın Peyğəmbəri(s): «Sədəqə yetmiş növ bəlanın qarşısını alar, onların ən sadəsi cüzam və dəri xəstəliyidir.[2]

3522. Allahın Peyğəmbəri(s): «Sədəqə şərrin yetmiş qapısını bağlayar.»[3]

3523. Allahın Peyğəmbəri(s): «Sədəqə pis və dəhşətli ölümün qarşısını alar.»[4]

3524. Allahın Peyğəmbəri(s): «Sədəqə verin və öz xəstələrinizi sədəqə ilə müalicə edin. Çünki sədəqə xoşagəlməz hadisələrdən və xəstəliklərdən qoruyar, ömrü və savabları artırar.»[5]

3525. İmam Əli(ə) : «Sədəqə faydalı dərmandır.»[6]

***1098. Sədəqə ruzinin açarıdır***

3526. Allahın Peyğəmbəri(s) : «Çox sədəqə verin ki, ruziniz artsın.»[7]

3527. İmam Əli(ə) : «Ruzini, sədəqə verməklə başınızın üzərinə endirin.»[8]

3528. İmam Əli(ə): «Kasıb vaxtınızda sədəqə (malı) ilə Allahla sövdələşin (ticarət edin).»[9]

3529. İmam Sadiq (ə): «Bəzi vaxtlar mən kasıblayıram və sədəqə vasitəsilə Allahla sövdələşirəm.»[10]

3530. İmam Sadiq (ə): «Sədəqə vermək borcu ödəyər və bərəkət gətirər.»[11]

***1099. Hər bir yaxşı iş sədəqədir***

3531. Allahın Peyğəmbəri(s) : «Müsəlman hər gün sədəqə verməlidir.» Ərz etdilər: «Buna kimin qüdrəti çatar?» Həzrət buyurdu: «Ziyan vuran şeyləri yoldan götürüb kənara qoymaq sədəqədir. Bir kimsəyə yol

---

[1] Biharul-Ənvar, c.96, səh. 134, hədis68
[2] Kənzul-Ummal, hədis 15982
[3] Birahul-Ənvar, c.96, səh. 132, hədis24
[4] əl-Kafi, c.4, səh.2, hədis1
[5] Kənzul-Ummal, hədis 16113
[6] Nəhcül-Bəlağə, hikmət 7
[7] Əlamud-Din, səh. 333
[8] Biharul-Ənvar, c.78 səh.68 , hədis13
[9] Nəhcül-Bəlağə, hikmət 258
[10] Biharul-Ənvar, c.78, səh.206 , hədis54
[11] Biharul-Ənvar, c.96, səh. 134 , hədis68

göstərmək, xəstəyə baş çəkmək yaxşılığa dəvət etmək və pislikdən çəkindirmək sədəqədir. Salamın cavabını vermək də sədəqədir.»[1]

3532. Allahın Peyğəmbəri(s) : «Hər bir yaxşı iş sədəqədir.»[2]

3533. Allahın Peyğəmbəri(s): «Dilini saxla. Çünki bu iş özünə verdiyin sədəqədir.»[3]

3534. Allahın Peyğəmbəri(s): «Pislikdən çəkinmək sədəqədir.»[4]

3535. İmam Sadiq (ə): «Allahın sevdiyi sədəqə bunlardır: insanların bir-birilə əlaqələri pozulan zaman onlar arasında sülh yaratmaq və bir-birlərindən uzaqlaşanda onları yaxınlaşdırmaq.»[5]

3536. İmam Sadiq (ə): «Kara, təngə gəlmədən bir sözü başa salmaq gözəl sədəqədir.»[6]

3537. Allahın Peyğəmbəri(s): «Ən üstün sədəqə sağlam olduğun, həyata ümid bəslədiyin və yoxsulluğa düçar olmağından qorxduğun vaxt verdiyin, canın bədənindən çıxmasını (ölüm yatağına düşməyini) və «bu qədər mal filankəsin olsun, o qədər mal da bəhmənin olsun.» deməyi gözləmədiyin sədəqədir. Çünki o vaxt həmin mal filankəsin və bəhmənin malı olacaq.»[7]

3538. Allahın Peyğəmbəri(s): «Ən üstün insan qüdrəti çatdığı qədər sədəqə verəndir.»[8]

3539. Allahın Peyğəmbəri(s) : «Ən üstün sədəqə gizlində yoxsula verilən və kasıb vaxtı verilən sədəqədir.»[9]

3540. Allahın Peyğəmbəri(s): «Ən üstün sədəqə elə bir dilin sədəqəsidir ki, onunla qanların tökülməsinin, xoşagəlməz hadisənin qarşısını alasan və müsəlman qardaşına xeyir gətirəsən.»[10]

3541. Allahın Peyğəmbəri(s): «Ən yaxşı sədəqə müsəlman şəxsin bir elm öyrənməsi və sonra onu müsəlman qardaşına öyrətməsidir.»[11]

3542. Allahın Peyğəmbəri(s) *(ən yaxşı sədəqə barədə olan sualın cavabında):* «Kin bəsləyən qohumuna verdiyin sədəqədir.»[1]

---

[1] Biharul-Ənvar, c.75 səh. 50 , hədis4
[2] əl-Xisal, səh.134 , hədis145
[3] əl-Kafi, c.2, səh. 114 , hədis7
[4] Biharul-Ənvar, c.77, səh.160 , hədis7
[5] əl-Kafi, c.2, səh. 209 , hədis1
[6] Biharul-Ənvar, c.74 səh. 388 , hədis1
[7] Kənzul-Ummal, hədis 16251
[8] Kənzul-Ummal, hədis 16084
[9] Kənzul-Ummal, hədis 16250
[10] Qisəsul-Ənbiya, səh.188 , hədis235
[11] Kənzul-Ummal, hədis 16357

3543. Allahın Peyğəmbəri(s): «Ən yaxşı sədəqə Allah yolunda qurulan çadırın kölgəsidir.»[2]

3544. Allahın Peyğəmbəri (s): «Ən üstün sədəqə Ramazan ayında veriləndir.»[3]

3545. İmam Sadiq (ə): «Ən yaxşı sədəqə yanğılı ciyəri su ilə sərinlətməkdir.»[4]

3546. İmam Kazim (ə): «Sənin imkansızlara köməyin ən üstün sədəqələrdəndir.»[5]

### *1101.Gizli sədəqənin fəziləti və nəticələri*

**Quran:**

«Sədəqəni aşkar şəkildə versəniz, yaxşı iş görmüsünüz. Əgər gizlində və yoxsullara versəniz, sizin üçün daha yaxşıdır və günahlarınızı yuyar. Allah etdiklərinizdən agahdır.» [6]

**Hədis:**3547. İmam Əli(ə): «Pak və Uca Allaha pənah gətirənlərin istifadə etdiyi ən yaxşı vasitə Allaha, onun Rəsuluna iman, günahları pak edən gizli sədəqə, eləcə də pis ölümün qarşısını alan aşkar sədəqədir.»[7]

3548. İmam Baqir (ə) *(İmam Səccad (ə) barədə):* «O Həzrət (ə) gecə yarısı torbanı çiyninə atıb evdən çıxar və bir-bir evləri gəzib qapıları döyərdi. Kim qapını açsaydı, bir şey verərdi. O Həzrət (ə) yoxsula bir şey verəndə üzünü gizlədərdi ki, onu tanımasın.»[8]

3549. İmam Sadiq (ə): «İnsanlar səni tərifləsinlər deyə, onların gözü qabağında sədəqə vermə. Belə olan surətdə, öz mükafatını hər an almış olarsan. Əslində sağ əlinlə verdiyin sədəqədən sol əlinin xəbəri olmamalıdır. Çünki Onun xatirinə sədəqə verdiyin sənin mükafatını aşkar surətdə verəcəkdir.»[9]

3550. İmam Sadiq (ə): «Allaha and olsun, gizli sədəqə aşkar sədəqədən yaxşıdır. Allaha and olsun, gizli ibadət aşkar ibadətdən yaxşıdır.»[10]

---

[1] Səvabul-Əmal, səh. 171 , hədis18
[2] Kənzul-Ummal, hədis 16362
[3] Kənzul-Ummal, hədis 16249
[4] Biharul-Ənvar, c.96, səh. 172 , hədis8
[5] Tuhəful-Uqul, səh. 414
[6] Bəqərə, ayə 271
[7] Nəhəcül-Bəlağə, xütbə 110
[8] Biharul-Ənvar, c.46, səh. 19 , hədis77
[9] Biharul-Ənvar, c.78, səh. 284 , hədis1
[10] əl-Kafi, c.4, səh. 8 , hədis2

3551. İmam Sadiq (ə): «Gecənin sədəqəsi Allahın qəzəbini yatırar, böyük günahı yuyar və sorğu-sualı asanlaşdırar. Gündüzün sədəqəsi mal və sərvəti artırar, ömrü uzadar.»[1]

### *1102. Sədəqənin ölçüsü*

**Quran:**

«Əlini boynuna bağlama (yəni əldən bərk olma) və tamamilə açıq saxlama ki, danlaq altında qalıb peşman olarsan.» [2]

**Hədis:**

3552. Allahın Peyğəmbəri (s): «Sədəqə verməkdə həddini aşan, sədəqə verməyən şəxs kimidir.»[3]

3553. İmam Kazim (ə): «Özündən heç nəyi qardaşlarına bağışlama ki, onun sənə olan ziyanı, onlara olan xeyrindən çoxdur.»[4]

### *1103. Sədəqə kimə verilər?*

**Quran:**

«Bu sədəqələr Allah yolunda çətinliyə düşənlər, iş və qazanc məqsədilə səfərə çıxa bilməyənlər üçündür. Tanımayan, onları çox həyalı olduqlarından varlı hesab edər. Sən onları üzlərindən tanıyarsan. Onlar insanlardan israrla heç bir şey istəməzlər.»[5]

**Hədis:**

3554. Allahın Peyğəmbəri (s): «Miskin, küçələri dolanan dilənçi və iki parça çöreklə iki xurma dənəsini əlinə alıb gedən şəxs deyil. Əslində, miskin həyasına və nəfsinin izzətinə görə kömək əlini insanlara açmayan yoxsuldur. Heç kəs onun yoxsul olduğunu başa düşməz ki, ona sədəqə versin.»[6]

3555. İmam Sadiq (ə) *(«Evin qapısını döyən dilənçilərə sədəqə vermək olarmı, ya bu işdən çəkinmək və sədəqəni möhtac olan qohumlara vermək lazımdır?» sualının cavabında):* «Xeyr, dilənçilərə vermək lazım deyil. Ehtiyacı olan qohumlara göndərsinlər ki, bu işin savabı daha çoxdur.»[7]

---

[1] Biharul-Ənvar, c.96, səh. 125 , hədis39
[2] İsra, ayə 29
[3] Kənzül-Ummal, hədis 16246
[4] əl-Kafi, c.4, səh. 33 , hədis2
[5] Bəqərə, ayə 273
[6] Kənzul-Ummal, hədis 16552
[7] Səvabul-Əmal, səh. 171 , hədis20

3556. İmam Sadiq (ə) *(«dilənçi və məhrum üçün..»ayəsi barədə):* «Məhrum alverdə, ticarətdə əli gətirməyən bəxtsiz və ruzisiz bir şəxsdir.»[1]

***1104. Sədəqə verməyin qaydası***

**Quran:**

«Ey iman gətirənlər! Özünü insanlara göstərmək üçün malından sədəqə verən və qiyamət gününə iman gətirməyən şəxs kimi, öz sədəqələrinizi minnət qoymaqla və əziyyət verməklə batil etməyin. Onun əhvalatı, üstündə bir qədər torpaq olan daşa bənzər ki, leysan yağışı onun üzərinə yağanda torpağı yuyub aparar və yerində saf daş qalar.»[2]

**Hədis:**

3557. Allahın Peyğəmbəri (s): «Verdiyiniz sədəqədə gözünüz qalmasın. Çünki belə olarsa sədəqənin savabı aradan gedər.»[3]

3558 İmam Əli(ə): «Bəhanə gətirmək və minnət qoymaqla ehsanı xoşagəlməz etməyin.»[4]

---

[1] əl-Kafi, c.3, səh. 500 , hədis12
[2] Bəqərə, ayə 264
[3] Tənbihul-Xəvatir, c.2, səh. 120 , hədis120
[4] Ğurərul-Hikəm, hədis 1595

**234**

# Sirat

***1105. Doğru yol***

**Quran:**

«Bizi doğru yola yönəlt»[1]

**Hədis:**

3559. İmam Sadiq (ə): «İnsanlar sağa-sola azdılar, ancaq biz və şiələrimiz doğru yola hidayət olunduq.»[2]

***1106. Doğru yolun (Siratul müstəqimin) mənası***

**Quran:**

«Həqiqətən mənim Rəbbim, sizin Rəbbinizdir. Elə isə Ona ibadət edin ki, doğru yol budur.» [3]

«Allahın ayələri sizə oxunduğu və Onun Rəsulu sizin aranızda olduğu halda necə küfr edirsiniz? Kim Allahın ipindən yapışsa, şübhəsiz ki, doğru yola (siratul müstəqimə) hidayət olunmuşdur.»[4]

**Hədis:**

3560. İmam Sadiq (ə) *(sirat sözünün mənası barədə):* «O, Allahı tanımağın yoludur və iki növdür: dünyada sirat və axirətdə sirat. Dünya siratı, elə itaəti vacib olan imamdır. Dünyada imamı tanıyan və onun göstərdiyi yolu gedən şəxs, cəhənnəmin üzərində körpü olan axirət siratından keçəcək.»[5]

3561. İmam Sadiq (ə): «Doğru yol (Siratul müstəqim) Əmir-əl-mömінin Əlidir (ə).»[6]

---

[1] Fatihə, ayə 6
[2] əl-Kafi, c.2, səh. 264 , hədis5
[3] Ali-İmran, ayə 51
[4] Ali-İmran, ayə 101
[5] Biharul-Ənvar, c.24, səh. 11 , hədis3
[6] Məaniyul-Əxbar, səh. 32 , hədis2

***1107. Axirət siratı və onun üzərindən keçmək***

3562. Musa (ə) *(dualarının birində*): «İlahi! Sənin hikmətini aşkar və gizli şəkildə oxuyan şəxsin mükafatı nədir?» Buyurdu: «Siratdan ildırım sürətilə keçər.»[1]

3563. Allahın Peyğəmbəri(s): «Sizlərdən sirat üzərində ən sabit qədəmliniz, mənim Əhli-Beytimə (ə) daha çox məhəbbəti olanınızdır.»[2]

3564. Allahın Peyğəmbəri(s): «Dəstəmazı kamil şəkildə al ki, siratdan bulud kimi keçəsən.»[3]

3565. Allahın Peyğəmbəri (s): «Sirat tükdən nazik, qılıncdan itidir.»[4]

3566. İmam Sadiq (ə) *(«Həqiqətən, sənin Rəbbin pusquda bərk dayanmışdır»[5] ayəsi barədə):* «Pusqu, Sirat üzərində olan bir körpüdür ki, oradan boynunda hətta bir məzləmə (yəni insanlar qarşısında boynunda olan hər bir haqq və xirda, az miqdarda olan pul borcları) olan şəxs də keçə bilməz.»[6]

3567. İmam Sadiq (ə): «İnsanlar sirat üzərindən keçməkdə bir neçə dəstəyə böünürlər: bəziləri ildırım sürətilə keçər, bəziləri çapar at kimi, bəziləri sürünə-sürünə, bəziləri də ondan asılmış və bədənlərinin bir hissəsini od bürürmüş halda keçəcək.»[7]

---

[1] Biharul-Ənvar, c.92, səh. 197 , hədis3
[2] Fəzailuş-Şiə, səh. 48 , hədis3
[3] Biharul-Ənvar, c.76, səh. 4 , hədis8
[4] Biharul-Ənvar, c.8, səh. 65 , hədis2
[5] Fəcr, ayə 14
[6] Səvabul-Əmal, səh. 321 , hədis2
[7] Əmali-Səduq, səh. 149 , hədis4

**235**

# Uşaqlıq dövrü

***1108. Uşaqlıq dövrü***

3568. Allahın Peyğəmbəri(s): «Uşağın balaca vaxtı dəcəlliyi (və şeytanlığı), böyüyəndə əqlinin çoxluğuna dəlalət edir.»[1]

3569. İmam Əli(ə): «Uşaqlıq dövrü özünü əziyyətə və çətinliyə salmayan şəxs, böyüyəndə şərəfə çatmaz.»[2]

3570. İmam Əli(ə): «Uşaqlığında soruşan böyüyəndə cavab verər.»[3]

3571. İmam Əli(ə): «Uşaqlığında öyrənməyən böyüyəndə inkişaf etməz.»[4]

3572. İmam Əli(ə): «Nadan, qoca olsa da uşaqdır. Alimsə, yeniyetmə olsa da böyükdür.»[5]

3573. İmam Kazim (ə): «Oğlanın uşaqlıq dövründə dəcəlliyi (və şeytanlığı), böyüyəndə dözümlülüyünə səbəb olduğuna görə bəyənilibdir.»[6]

---

[1] Kənzul-Ummal, hədis 30747
[2] Ğurərul-Hikəm, hədis 8272
[3] Ğurərul-Hikəm, hədis 8273
[4] Ğurərul-Hikəm, hədis 8973
[5] Biharul-Ənvar, c.1, səh. 183 , hədis 85
[6] əl-Fəqih, c.3, səh. 493 , hədis4748

**236**

# Əl ilə görüşmək

***1109. Əl ilə görüşmək***

3574. Allahın Peyğəmbəri (s): «Bir-birinizlə üz-üzə gələndə, salam verib əl tutmaqla görüşün. Bir-birinizdən ayrılan zaman, günahlarınızın bağışlanması arzusu ilə ayrılın.»[1]

3575. Allahın Peyğəmbəri(s) : «Bir-birinizlə əl verməklə görüşün. Çünki əl vermək kin-küdurəti aradan götürər.»[2]

3576. Allahın Peyğəmbəri(s): «Bir-birinizə əl verin ki, bu kini aparar.»[3]

3577. İmam Baqir (ə): «İki nəfər kişi əl ilə görüşəndə, əlini saxlayan şəxsin savabı əlini buraxandan daha çoxdur. Bilin ki, bu əməl (yəni əl ilə görüşmək) onların günahlarını tamamilə qurtaranadək yuyub aparar.»[4]

3578. İmam Sadiq (ə): «Müsəlmanlar Allahın Rəsulunun (s) qoşununda müharibəyə çıxanda sıx ağaclıq olan yerdən keçib açıqlığa çıxan zaman Bir-birinə baxıb əl verərdilər»[5]

3579. İmam Sadiq (ə): «Peyğəmbər (s) hər bir şəxsə əl verən zaman, həmin şəxs əlini çəkməyincə heç vaxt birinci öz əlini çəkməzdi.»[6]

***1110. Qadına əl verməyin qadağan olması***

3580. Allahın Peyğəmbəri(s): «Mən qadınlara əl vermirəm.»[7]

3581. İmam Sadiq (ə): «Evlənməyi halal olan (yəni, məhrəm olmayan) qadına, yalnız paltarın üstündən istisna olmaqla, əl vermək olmaz. Belə olan surətdə də əli sıxmaq olmaz.»[8]

---

[1] əl-Kafi, c.2, səh. 181 , hədis11
[2] Biharul-Ənvar, c.77, səh. 158 , hədis149
[3] Biharul-Ənvar, c.77, səh. 165 , hədis2
[4] əl-Kafi, c.2, səh. 181 , hədis13
[5] əl-Kafi, c.2, səh. 181 , hədis12
[6] əl-Kafi, c.2, səh. 182 , hədis15
[7] Kənzul-Ummal, hədis 475
[8] əl-Kafi, c.5 səh. 525 , hədis1

**237**

# Sülh

***1111. Müharibə vaxtı sülh***

**Quran:**

«Əgər sülhə meyl etsələr, sən də sülhə doğru get və Allaha təvəkkül et ki, Allah eşidən və biləndir.» [1]

**Hədis:**

3582. İmam Əli (ə): «İslama zəiflik gətirməyən halda, mən sülhü müharibədən daha faydalı bilirəm.»[2]

3583. İmam Əli (ə) *(Malik Əştəri Misirə vali təyin etdiyi fərmanından):* «Əgər düşmən səni sülhə çağırsa və Allahın razılığı bunda olsa, onu rədd etmə. Çünki sülh, qoşununun və sənin özünün qüssələrdən rahat, asudə olmağının və vətəninin əmin-amanlığının mənşəyidir. Amma sulhdən sonra düşmənindən çox ehtiyatlı və agah ol. Belə ki, bəzən düşmən qəflətən hücum etmək üçün özünü sənə yaxınlaşdırar. Beləliklə, ehtyiatlı və uzaqgörən ol, düşmənə  arxayın və nikbin olma.»[3]

***1112. İmam Həsənin (ə) sülhü***

3584. İmam Əli(ə): *(ibn Mülcəmin qılınc zərbəsindən sonra öz alicənab oğlu Həsənə (ə) tövsiyəsindən):* «Bil ki, Muaviyə mənə müxalif olduğu kimi sənin də əleyhinə çıxacaqdır. Beləliklə, əgər onunla sülhə və barışığa gəlsən, Bəni Zömrə və Bəni Əşcə qəbilələri ilə sülh bağlayan cəddin peyğəmbərin (s) yolunu getmiş olarsan. Düşməninlə müharibə etmək istəsən, (bil ki,) atanın tərəfdarlarında olan xeyir və vəfalılıq heç vaxt sənin tərəfdarlarında olmayacaq.»[4]

---

[1] Ənfal, ayə 61
[2] Ğürərlül-Hikəm hədis 10138
[3] Nəhcül-Bəlağə, məktub 53
[4] Nəhcül-Suadə, c.2, səh. 742

3585. İmam Sadiq (ə): «Həsən ibn Əli (ə) özünə qarşı sui-qəsddən sonra o Həzrətin (ə) ardıcılları onunla mübahisəyə qalxanda xilafət işini Müaviyəyə təhvil verdi. Bu vaxt onun şiələri Həzrətə(ə) belə salam verdilər: Salam olsun sənə, ey möminləri xar edən. Həzrət (ə) buyurdu: Mən möminləri xar edən deyiləm, əslində möminlərə izzət bəxş edənəm. Sizin düşmən muqabilində qüdrətiniz olmadığını görəndə işi ona təhvil verdim ki, mən və siz onların arasında olaq. Belə ki, o müdrik (Xızır peyğəmbər (ə)) gəminin öz sahiblərinə qalmasından ötrü onu deşdiyi kimi, onların arasında qalmağımız üçün mənim və sizin əhvalatınız də buna bənzər.»[1]

### *1113. İnsanlar arasında barışıq yaratmağın əhəmiyyəti*

**Quran:**

«Həqiqətən, möminlər bir-biri ilə qardaşdır. Buna görə də qardaşlar arasında barışıq yaradın və Allahdan qorxun. Ümid var ki, Allah sizə rəhm etsin.»[2]

«Onların pıçıldaşmalarının çoxunda bir xeyir yoxdur, yalnız sədəqə verməyi, ya yaxşı iş görməyi, ya da insanlar arasında sülh yaratmağı əmr edənlərdən başqa. Kim Allah razılığına xatir belə edərsə, tezliklə ona böyük mükafat verərik.»[3]

**Hədis:**

3586. Allahın Peyğəmbəri(s): «Sizə namazdan, orucdan, sədəqədən (zəkatdan) daha fəzilətli bir şeydən xəbər verimmi? Bu, insanlar arasında sülh yaratmaqdır. Çünki insanlar arasında əlaqənin pozulması ölümə və dinin aradan götürülməsinə bərabərdir.»[4]

3587. İmam Sadiq (ə): «İnsanlar Bir-birilə ixtilafa və düşmənçiliyə düçar olanda onların arasında sülh yaratmaq, bir-birlərindən uzaqlaşan zaman onları yaxınlaşdırmaq, Allahın sevdiyi bir sədəqədir.»[5]

3588. İmam Sadiq (ə): *(Müfəzzələ xitabən):* «Bizim şiələrdən iki nəfərin çəkişdiyini gördükdə, mənim malımdan ixtilafa səbəb olan xərci ödəməklə, onların arasında barışıq yarat.»[6]

---

[1] Biharul-Ənvar, c.78, səh. 278 , hədis2
[2] Hücurat, ayə 10
[3] Nisa, ayə 114
[4] Kənzul-Ummal, hədis 5480
[5] əl-Kafi, c.2, hədis 209 , hədis1
[6] əl-Kafi, c.2, hədis 209 , hədis3

***1114. Barışıq xatirinə yalana icazə verilməsi***

3589. İmam Sadiq (ə): «Barışıq yaradan yalançı deyil.»[1]

3590. İmam Sadiq (ə): «Söz üç növdür: doğru, yalan və insanlar arasında sülh yaratmaq üçün deyilən söz.» İmama (ə) dedilər: «Sənə fəda olaq, insanlar arasında sülh yaratmaq nədir?» Buyurdu: «Bir nəfərin digəri barədə, həmin şəxsin qulağına çatarsa onun narahatçılığına səbəb ola biləcək sözlər dediyini eşitdikdə, sən o biri şəxsi görəndə «filankəsin, sənin yaxşılığın barədə …. dediyini eşitdim.» deyərsən.» [2]

---

[1] əl-Kafi, c.2, hədis 210 , hədis5

[2] əl-Kafi, c.2,  hədis 341 , hədis16

**238**

# Namaz (1)

***1115. Namaz***

**Quran:**

«Namazlarınızdan və orta namazınızdan riayət edin və təvazökarlıqla Allah(a itaət) üçün ayağa qalxın.»[1]

«Namaz qılandan sonra Allahı (bütün hallarda) ayaq üstə, oturaraq, uzandığınız halda yad edin və qəlbiniz arxayın olanda namazı (kamil surətdə) qılın ki, namaz möminlər üçün müəyyən vaxtlarda təyin edilmişdir.»[2]

«Ey Rəbbim! Məni də, nəslimdən olanları da namaz qılanlardan et. Ey Rəbbim, duamı qəbul et.»[3]

**Hədis:**

3591. Allahın Peyğəmbəri (s): «Hər şeyin siması var, sizin dininizin də siması namazdır.»[4]

3592. Allahın Peyğəmbəri (s): «Allah-taala namazı mənim gözlərimin nuru etdi. Yemək acın, su təşnənin məhbubu olduğu kimi, namazı da mənim məhbubum etdi. Fərq yalnız budur ki, ac insan çörək yeyəndə, təşnə də su içəndə sudan doyar, ancaq mən namazdan doymaram.»[5]

3593. İmam Əli(ə) : «Namaz Allahın rəhmətini yerə endirər.»[6]

3594. İmam Əli(ə): «Allahın Rəsulu(s) nə şam yeməyini, nə də başqa bir yeməyi namazdan önə salmazdı. Namaz vaxtı çatanda, elə bil nə ailəsini tanıyardı, nə də mehriban dostunu.»[7]

---

[1] Bəqərə, ayə 238
[2] Nisa, ayə 103
[3] İbrahim, ayə 40
[4] Dəaimul-İslam, c.1, səh. 133
[5] Məkarimul-Əxlaq, c.2, səh. 366
[6] Ğürərul-Hikəm, hədis 2214
[7] Tənbihul-Xəvatir, c.2, səh. 78

3595. İmam Əli(ə): «Namaz hər bir təqvalı üçün Allaha yaxınlaşmağın vasitəsidir.»[1]

3596. İmam Baqir (ə): «Namaz dinin sütunudur. Namaz çadırın sütununun bənzər. Sütun möhkəm olsa, mıxlar və kəndirlər də möhkəm qalacaq, sütun əyilsə və sınsa, nə mıx möhkəm qalacaq, nə də kəndir.»[2]

3597. İmam Sadiq (ə): «Allahın yanında ən sevimli iş namazdır və o

peyğəmbərlərin insanlara son tövsiyyəsidir.»[3]

3598. İmam Sadiq (ə) *(«Allah yanında ən üstün və ən çox sevilən əməl» barədə sualın cavabında):* «Allahı tanımaqdan sonra, namazdan üstün heç bir şey tanımıram. Məgər saleh bəndə İsa ibn Məryəmin «Mənə namazı tövsiyə etdi...!:» dediyini görmürsənmi?»[4]

***1116. Namazın təsiri***

**Quran:**

«Kitabdan sənə vəhy olunanları oxu və namaz qıl ki, namaz pis və bəyənilməyən işdən çəkindirər. Şübhəsiz ki, Allahı yad etmək hər ibadətdən üstündür. Allah etdikləriniz əməlləri bilir.»[5]

**Hədis:**

3599. Allahın Peyğəmbəri(s): «Kimin namazı onu pislikdən və haramdan çəkindirməsə, onda Allahdan uzaqlaşmaqdan başqa bir şey artmaz.»[6]

3600. Allahın Peyğəmbəri (s) *(onunla bərabər namaz qılan və eyni halda çirkin işlərlə məşğul olan kişi barədə):* «Günlərin biri, onun namazı onu pis işlərdən çəkindirəcək.» Çox keçmədi ki, həmin kişi tövbə etdi.»[7]

3601. Allahın Peyğəmbəri(s): «Həqiqətən dinin sütunu namazdır və Adəm övladından soruşulan ilk şey namaz olacaqdır. Namazı doğru olsa, o biri əməllərinin hesabatı aparılacaqdır. Doğru olmasa, digər əməllərinin hesabatı aparılmayacaq.»[8]

---

[1] əl-Xisal, səh. 620
[2] əl-Məhasin, c.1, səh. 116, hədis117
[3] əl-Fəqih, c.1,səh.210, hədis638
[4] əl-Kafi, c.3, səh. 264, hədis1
[5] Ənkəbut, ayə 45
[6] Kənzul-Ummal, hədis 20083
[7] Biharul-Ənvar, c.82, səh. 198
[8] Biharul-Ənvar, c.82, səh.227, hədis54

3602. İmam Əli(ə): «Kim namazı onun həqiqətini dərk edərək qılsa, günahları bağışlanar.»[1]

3603. Xanım Fatimeyi Zəhra (ə): «Allah-taala insanı təkəbbürdən çəkindirmək üçün namazı ona vacib etdi.»[2]

3604. İmam Baqir (ə): «Bəndədən soruşulacaq ilk şey namazdır, əgər qəbul olunsa, digər əməlləri də qəbul olunacaq.»[3]

3605. İmam Baqir (ə): «Namaz ixlası möhkəmləndirər və təkəbbürü uzaqlaşdırar.»[4]

3606. İmam Sadiq (ə): «Əgər sizlərdən birinizin qapısının ağzından bir arx axarsa və gündə beş dəfə o arxda yuyunsa, bədənində bir çirk və natəmizlik qalarmı? Namaz da, həmin bu paklayan, təmizləyən su arxına bənzəyir. İnsan namaz qılanda, namaz yalnız onu imandan çıxardan və israrla əməl etdiyi günahdan başqa, bütün günahlarını təmizləyər.»[5]

***1117. Namaz qılanın məqamı***

3607. Allahın Peyğəmbəri(s): «Namazda olduğun müddətdə Qadir padşahın evinin qapısını döyürsən. Kim padşahın qapısını çox döysə, axırda qapı onun üzünə açılacaqdır.»[6]

3608. İmam Əli(ə): «Əgər namaz qılan, Allahın cəlalından hansı tacının onu əhatə etdiyini bilsəydi, başını səcdədən qaldırmaq istəməzdi.»[7]

3609. İmam Əli(ə): «Bir şəxs namaza dayananda, Allahın bəndəni əhatə edən rəhmətini görən iblis paxıllıqla ona baxar.»[8]

***1118. Namazda xuşu****(Allahın qarşısında kiçilərək Ona müti olub boyun əymək.)*

**Quran:**

«Həqiqətən, möminlər nicat tapdılar. O kəslər ki, namazlarında xuşu halında olarlar.» [9]

**Hədis:**

---

[1] əl-Xisal, səh. 628, hədis10
[2] Biharul-Ənvar, c.82, səh. 209, hədis19
[3] əl-Kafi, c.3, səh. 268, hədis4
[4] Əmali-Tusi, səh. 296, hədis582
[5] Biharul-Ənvar, c.82, səh. 236, hədis66
[6] Məkarimul-Əxlaq, c.2, səh. 366, hədis2661
[7] əl-Xisal, səh. 632, hədis10
[8] əl-Xisal, səh. 632, hədis10
[9] Muminun, ayə 1, 2

3610. Allahın Peyğəmbəri (s): «Namazda xuşu (və mütilik) halında olmayanın namazı, namaz deyil.»[1]

3611. Allahın Peyğəmbəri (s) *(«xuşu nədir?» sualının cavabında)*: «Namazda mütilik və bəndənin tam qəlbi ilə öz Rəbbinə üz tutmasıdır.»[2]

3612 Cəfər ibn Əli Qummi: «Allahın Peyğəmbəri (s) namaza dayanan zaman Allah-taalanın qorxusundan üzünün rəngi qaçırdı.» [3]

3613. İmam Əli (ə): «İnsan namazda xuşu halında olmalıdır. Qəlbi Allahın qarşısında xuşu halında olan şəxsin bədən üzvləri də xuşu halında olar və buna görə, heç bir əzası ilə oynamaz.» [4]

3614. «Dəaimul İslam»: «İmam Əli (ə) namaza dayananda möhkəm bina, ya düz sutun kimi tərpənməzdi. Bəzən rukuda, səcdə halında (o qədər aram və hərəkətsiz) olurdu ki, quş gəlib o Həzrətin (ə) belində otururdu. Əli ibn Əbutalibdən (ə) və Əli ibn Hüseyndən (ə) başqa heç kəsin Peyğəmbərin (s) namazı kimi namaz qılmağa taqəti yox idi.» [5]

3615. «Biharul-Ənvar»: «İmam Əli (ə) dəstəmaz almağa başlayanda, Allah qorxusundan üzünün rəngi dəyişərdi.» [6]

3616. «Biharul- Ənvar»: «Xanım Fatimeyi Zəhranın (ə) namazda Allah–taalanın qorxusundan nəfəsi çətin gedib-gələrdi.» [7]

3617. «Biharul-Ənvar»: «İmam Həsən (ə) dəstəmaz alanda üzünün rəngi dəyişərdi. Bədəninin oynaqları titrəyərdi. Bunu səbəbini soruşduqda, buyurdu: Ərşin Allahının qarşısında dayanan şəxsin rəngi dəyişməli və bədəninin oynaqları titrəməlidir.» [8]

3618. «Dəaimul İslam»: «O Həzrət (imam Səccad (ə)) namaz üçün dəstəmaz alanda və özünü namaz qılmağa hazırlayanda üzü saralar və rəngi qaçardı. Bir dəfə bu barədə soruşduqda, buyurdu: «Mən böyük Padşahın qarşısında dayanmaq istəyirəm.» [9]

3619. İmam Baqir (ə): «İmam Səccad (ə) namaza dayananda, sanki ağacın gövdəsi olurdu. Küləyin əsməyi ilə hərəkətə gələn şeylərdən başqa, ondan heç nə tərpənmirdi.» [10]

---

1 əl-Firdovs, c.5, səh. 195 , hədis7935
2 Dəaimul-İslam, c.1, səh.158
3 Fəlahus-Sail, səh. 161
4 əl-Xisal, səh. 628
5 Dəaimul- İslam, c.1, səh.159
6 Biharul-Ənvar, c.70, səh. 400 , hədis72
7 Biharul-Ənvar, c.70, səh. 400 , hədis72
8 Biharul-Ənvar, c. 80, səh. 364 , hədis30
9 Dəaimul- İslam, c.1, səh. 158
10 əl-Kafi, c.3, səh. 300 , hədis4

3620. Əbu Əyyub: «İmam Baqir (ə) və İmam Sadiq (ə) namaza dayananda üzlərinin rəngi qaçardı. Gah qızarar, gah da saralardı, sanki gördükləri bir kəsə öz sirlərini pıçıldayırdılar.» [1]

***1119. Namazın qəbul olunmasının şərtləri və maneələri***

3621. Allahın Peyğəmbəri (s): «Əgər kamantək əyilənədək namaz qılsanız və kamana bənzəyənədək oruc tutsanız, pəhrizkar olub günahlardan çəkinməyincə Allah-taala (bu əməlləri) sizdən qəbul etməz.» [2]

3622. Allahın Peyğəmbəri (s): «Allah-taala mənə vəhy etdi: «Ey Rəsullar nəslindən olan! Ey qorxudanlar nəslindən olan! Öz xalqına bəyan et ki, onlardan hər birinin boynunda Mənim bəndələrimin birinin bir məzləmə və haqqı olanadək Evlərimin heç birinə daxil olmayacaqlar. Çünki o haqqı qaytarmayınca, Mənim qarşımda namaza durduğu müddətdə ona lənət edərəm.» [3]

3623. Allahın Peyğəmbəri (s): «Kim müsəlman kişi və ya qadının qeybətini edərsə, qeybət olunan onu bağışlamayınca, Allah qırx gecə–gündüz onun namaz və orucunu qəbul etməz.» [4]

3624. Allahın Peyğəmbəri (s): «Əgər bir şəxs şərab içsə qırx gün namazı hesaba alınmaz.» [5]

3625. İmam Əli (ə): «Bax gör, hansı paltar və libasla namaz qılırsan. Əgər onu düzgün və halal yolla qazanmamısansa, namazın qəbul deyil.» [6]

3626. İmam Səccad (ə) *(namazın qəbul olunmasına səbəb olan şey barədə sualın cavabında):* «Bizim məhəbbətimiz və vilayətimiz, eləcə də, düşmənlərimizə nifrət etmək.» [7]

3627. İmam Sadiq (ə): «Allah-taala kimin bir namazını qəbul edərsə, ona əzab verməz, kimin bir xeyir əməlini qəbul edərsə,ona əzab verməz.»[8]

3628. İmam Sadiq (ə): «Kim öz ata-anasına ona zülm etmiş olsalar belə, düşmən baxışı ilə baxsa, Allah-taala onun namazını qəbul etməz.»[9]

***1120. Namazları qəbul olunmayanlar***

---

[1] Fəlahus – Sail, səh. 161
[2] Biharul – Ənvar, c.84, səh. 258 , hədis56
[3] Bihədisarül – Ənvar, c.84, səh. 257 , hədis55
[4] Camiul – Əxbar, səh. 412 , hədis1141
[5] İləluş-Şəraye, səh. 345 , hədis1
[6] Bəşarətul – Mustəfa, səh. 28
[7] əl-Münaqibu li ibni Şəhr Asub 4 c.səh. 131
[8] əl – Kafi, c.3, səh. 266 , hədis11
[9] əl – Kafi, c.2, səh. 349 , hədis5

3629. Allahın Peyğəmbəri (s): «Səkkiz nəfərin namazı qəbul deyil: fərari qul öz sahibinin yanına qayıdanadək, əri ondan narazı olan dikbaş qadın, zəkat verməyən şəxs, dəstəmazı olmayan şəxs, namazını baş örtüyü olmadan qılan həddi buluğa çatmış qız, xalq ondan narazı olduğu halda onlarla birgə namaz qılan rəhbər, məst və zəbin adamın, yəni öz sidiyini və nəcisini güclə saxlayan şəxsin.» [1]

### *1121. Namazın qəbul olunmasında ürəklə qılınmağın rolu*

3630. Allahın Peyğəmbəri (s): «Allah-taala ürəyi bədəni ilə birgə olmayan şəxsin namazını qəbul etməz.» [2]

3631. Allahın Peyğəmbəri (s): «Bəzən bəndə namaz qılar, ancaq o namazın altıda biri, hətta onda biri belə onunçün yazılmaz. Bəndənin namazından yalnız Allahı tanımaqla və diqqətini Ona yönəltməklə qıldığı qədəri hesaba alınar.» [3]

3632. Allahın Peyğəmbəri (s): «Təfəkkürlə müşayiət olunan iki rəkət namaz, gecəni sübhədək namaz qılmaqla keçirməkdən daha yaxşıdır.» [4]

3633. İmam Baqir (ə) və İmam Sadiq (ə): «Namazından yalnız ürəkdən qıldığın qədəri qəbul olunur. Beləliklə, əgər bir şəxs bütün namazı boyu səhv edərsə (fikri tamamilə dağınıq olarsa), ya onu qılmaqdan qafil olarsa (vaxtında qılmasa) həmin namazı əski parçası kimi büzüşdürüb onun üzünə çırparlar.» [5]

3634. İmam Sadiq (ə): «Kim iki rəkət namaz qılsa və onun əsnasında nə dediklərini bilsə, namazı qurtaran kimi, Allahla onun arasında heç bir günah qalmaz.» [6]

### *1122. Namazı namaz olmayan şəxs*

3635. Allahın Peyğəmbəri (s): «Namazın ruku və səcdəsini düzgün yerinə yetirməyənin namazı namaz deyil.» [7]

3636. Allahın Peyğəmbəri (s): «Kim namaz əsnasında qəsdən sağında və solunda kimin olduğunu başa düşsə, namazı namaz deyil.» [8]

---

[1] Məkarimul – Əxlaq, c.2, səh. 324 , hədis2656
[2] əl – Muhasin, c.1, səh. 406 , hədis921
[3] Biharul – Ənvar, c.84, səh. 249 , hədis41
[4] Səvabul – Əmal, səh. 68 , hədis1
[5] Biharul – Ənvar, c.84, səh. 260 , hədis59
[6] əl-Kafi, c.3, səh. 266 , hədis12
[7] Biharul – Ənvar, c.72, səh. 198 , hədis26
[8] Biharul – Ənvar, c.84, səh. 249 , hədis41

3637. İmam Sadıq (ə): «Zəkat verməyən şəxsin namazı düzgün deyil.» [1]

3638. İmam Sadiq (ə): «Haqinin, haqibin və haziqin namazı düzgün deyil. Haqin sidiyini sıxıb saxlayan kimsə, haqib nəcis ona sıxıntı verən və haziq də ayağına geydiyi şeydən sıxılan şəxsdir.» [2]

### *1123. Namazda zəiflik və süstlüyün qadağan olması*

**Quran:**

«Münafiqlər Allaha hiylə gələrlər, halbuki, Allah onlara hiylə gələcəkdir. Namaza dayananda tənbəlliklə qalxar, xalqla riyakarlıqla davranar və Allahı çox az yad edərlər.»[3]

**Hədis:**

3639. «Biharül-Ənvar»: Merac hədisində deyilir ki: «Ey Əhməd! Üç bəndəyə təəccüb edirəm: namaza duranda əllərini kimə tərəf uzatdığını və kimin qarşısında dayandığını bilən və bununla belə, yuxulu və süst olan bəndəyə …» [4]

3640. İmam Əli (ə): «Namaz vaxtı səni yuxu aparanda, namazını saxla və yat. Çünki belə halda özünə dua, yoxsa lənət etdiyini bilmirsən.»[5]

3641. İmam Baqir (ə): «Yuxulu, süst və ağır halda namaza dayanma. Çünki bunlar ziyankarlığın xislətlərindəndir və Allah-taala, möminlərə məst halda, yəni yuxunun məstliyində namaza dayanmağı qadağan etmişdir.» [6]

### *1124. Namazın vaxtlarına riayət etmək*

**Quran:**

«Vay olsun namaz qılanlara. O kəslərə ki, namazlarından qafildirlər.»[7]

«Və namazlarından riayət edənlər. Onlardır varis olanlar.»[8]

**Hədis:**

3642. Allahın Peyğəmbəri (s): «İnsanın dindarlığı üçün, namazlarından çox muğayat olması kifayətdir.»[9]

---

[1] Mişkətul – Ənvar, səh. 46
[2] Əmali-Saduq, səh. 337 , hədis12
[3] Nisa, ayə 142
[4] Biharul – ənvar, c.77, səh. 22 , hədis6
[5] Biharul – ənvar, c.84, səh. 283 , hədis5
[6] Təfsirul – Əyyaşi, c.1, səh.242
[7] Maun, ayə 4, 5
[8] Muminun, ayə 9, 10
[9] Tənbihul-Xəvatir, c.2, səh. 122

3643. İmam Əli (ə) *(Məhəmməd ibn Əbubəkrə məktubundan):* «Namazın vaxtına riayət et və onu vaxtında qıl. Nə bekar olduğuna görə onu vaxtından əvvəl qıl, nə də işinə görə onu öz vaxtından sonraya keçirmə.» [1]

***1125. Namazı ilk vaxtda qılmağa həvəsləndirmək***

3644. İmam Baqir (ə): «Bil ki, həmişə vaxtın əvvəli daha yaxşıdır. Beləliklə, bacardığın qədər xeyir işə tələs. Allah yanında ən sevimli iş, az da olsa insanın daim gördüyü işdir.» [2]

3645. İmam Sadiq (ə): «İlk vaxtın (qılınan namazın), vaxtın sonu üzərində olan üstünlüyü axirətin dünya üzərində olan üstünlüyü kimidir.»[3]

3646. Qəzzaz: «Həzrət İmam Rza (ə) bir neçə Ələvini qarşılamaq üçün evindən çıxdı və bu zaman namazın vaxtı çatdı. Həzrət (ə) yolunu yaxınlıqdakı qaladan saldı və bir qayanın kölgəsində oturub, buyurdu: «Azan ver.» Ərz etdim: «Gözləyək, dostlarımız gəlib bizə qoşulsunlar.» Həzrət (ə) buyurdu: «Allah səni bağışlasın, heç vaxt bir səbəb olmadan ilk vaxt namazı təxirə salma, həmişə vaxtın əvvəlinə riayət et.» Bu vaxt mən azan verdim və biz namaz qıldıq.» [4]

***1126. Binamaz və küfr***

**Quran:**

«Bağların içində bir-birindən soruşarlar. Günahkarlar barədə: «Sizi cəhənnəm atəşinə gətirən nə oldu? Deyərlər: Biz namaz qılanlardan deyildik.»[5]

**Hədis:**

3647. Allahın Peyğəmbəri (s): «Müsəlmanla kafir arasında vacib namazı qəsdən tərk etməkdən və ya onu yüngül tutub qılmamaqdan başqa bir fasilə yoxdur.» [6]

3648. İmam Sadiq (ə) *(«Niyə namaz qılmayan kafir adlanır, amma zinakar yox?» sualına cavabından):* «Çünki zina və bu kimi günahları edən şəxs şəhvətin ona qalib gəldiyinə görə belə işlərə əl atır. Amma

---

[1] Biharul-Ənvar, c.83, səh. 14 , hədis25
[2] əl-Kafi, c.3, səh. 274, hədis8
[3] Səvabul-Əmal, səh. 58, hədis2
[4] Biharul – Ənvar, c.83, səh. 21, hədis38
[5] Mudəssir, ayə 40-43
[6] Səvabul – Əmal, səh. 275 , hədis1

namaz qılmayan, namazı yüngül saymasından və onu əhəmiyyətsiz bildiyindən qeyri bir şeyə görə onu tərk etmir.» [1]

***1127. Namazı yüngül hesab etməyin!***

3649. İmam Baqir (ə): «Namazı yüngül sayma! Çünki Allahın Peyğəmbəri (s)dünyadan köçəndə «Namazı yüngül sayan məndən deyil» deyə buyurdu.» [2]

3650. Əbu Bəsir: «İmam Sadiqin (ə) vəfatı ilə əlaqədar başsağlığı vermək üçün Humeydənin yanına getdim. Humeydə ağlayıb dedi: Ey Əbu Məhəmməd! Kaş, o Həzrət (ə) vəfat edəndə burada olaydın. Gözlərini yumub mənə buyurdu: Qohumlarımı və yaxınlarımı yanıma çağırın. Hamı o Həzrətin (ə) başına yığılanda buyurdu: Bizim şəfaətimiz heç vaxt namazı yüngül sayana çatmaz.» [3]

***1128. Camaat namazı***

3651. Loğman (ə) *(oğluna nəsihətindən):* «Nizənin ucunda olsa da, namazı camaatla qıl.»[4]

3652. Allahın Peyğəmbəri (s) *(namaz qılmaq üçün məscidə gəlməyən bəzi müsəlmanlar barədə):* «Bəzi adamlar məsciddə namaz qılmağı tərk ediblər. Az qalıb əmr edək ki, odun gətirsinlər, onların qapılarının ağzına qoyub od vursunlar və başlarının üstündə evlərini yandırsınlar.» [5]

3653. Allahın Peyğəmbəri (s): «Beş namazı camaatla qılan şəxsin haqqında yaxşı fikirdə olun.» [6]

***1129. Camaat imamı nəyə riayət etməlidir?***

3654. İmam Əli(ə) *(Məhəmməd ibn Əbubəkri Misirə vali təyin edərkən):* «Öz namazına fikir ver gör necədir. Çünki sən öz xalqının rəhbərisən. (Sənə layiq olan budur ki,) Namazını kamil qılmalısan. Onu yüngül və naqis yerinə yetirməməlisən. Belə ki, camaat imamı ilə birgə qılınan namazda, namaz qılanların namazında nə əskiklik və nöqsan olarsa, hamısı camaat imamının boynuna gələr və onların namazından heç nə əskilməz. Namazını kamil qıl və ondan muğayat ol ki, onların hamısının

---

[1] İləluş – Şəraye, səh. 339, hədis1
[2] əl – Kafi, c.3, səh.269 , hədis7
[3] Mustədrəkul-Vəsail, c.3, səh.25 , hədis2923
[4] əl-Məhasin, c.2, səh.126, hədis1348
[5] Vəsailuş-Şiə, c.3, səh. 487 , hədis2
[6] əl-Kafi, c.3, səh. 371, hədis3

qazandığı savab qədər savab qazanarsan və bu onların savabından heç nəyi azaltmaz.» [1]

3655. İmam Əli (ə) (*şəhər valilərinə yazdığı məktubundan*): «Onlarla, namaza ən az taqətləri olanlar kimi namaz qılın (və uzun namazla) fitnəkarlıq etməyin.»[2]

3656. İmam Sadıq (ə) *(«Camaat imamlığına kim daha layiqdir?» sualına cavab olaraq):* «Allahın Rəsulu (s) buyurmuşdur: Camaat imamlığını Quranı daha çox oxuyan (ya qiraəti daha yaxşı olan) öz öhdəsinə götürsün. Əgər qiraətdə bərabər səviyyədə olsalar, daha əvvəl hicrət edən şəxs camaat imamı olsun. Hicrətdə də eyni olsalar, yaşı çox olan öz öhdəsinə alsın. Əgər həmyaşıd olsalar, Peyğəmbərin sünnəsini və fiqhi (şəriətin hökmlərini) daha yaxşı bilən, imamlıq etsin. Sizlərdən heç kəs başqasının evində ev sahibinə və başqasının nüfuz dairəsində olan yerdə nüfuz sahibinə namazda pişnamazlıq etməsin.»[3]

---

[1] Əmali – Tusi, səh. 29, hədis31
[2] Nəhcüll – Bəlağə, məktub 52
[3] ə-Kafi, c.3, səh. 376, hədis5

**239**

# Namaz (2)

## Gecə namazı

***1130. Gecə namazının fəziləti***

**Quran:**

«Və gecənin bir hissəsini oyaq qal ki, bu (gecə namazı) sənin üçün nafilə ibadətidir. Ümid var ki, Rəbbin səni bəyənilmiş bir məqama çatdırsın.»[1]

«Şübhəsiz ki, gecə yuxudan qalxmağın əziyyəti daha çoxdur və sözləri (o zaman) daha doğrudur.»[2]

**Hədis:**

3657. Allahın Peyğəmbəri (s): «Cəbrayıl ibadət üçün gecə oyaq qalmağı mənə o qədər tövsiyə etdi ki, ümmətimin ən yaxşı şəxslərinin, heç vaxt gecələr yatmayacağını güman etdim.»[3]

3658. Allahın Peyğəmbəri (s): «Allahın rəhməti olsun, gecə yarısı yuxudan qalxan, namaz qılan, öz həyat yoldaşını namaz qılmaq üçün oyadan və əgər qalxmaq istəməsə onun üzünə su çiləyən kişiyə. Allahın rəhməti olsun, gecə yarısı yuxudan qalxan, namaz qılan, ərini namaz üçün oyadan və əgər imtina edərsə, onun üzünə su çiləyən qadına.»[4]

3659. Allahın Peyğəmbəri (s): «Bəndə qaranlıq gecənin yarısında öz Ağası ilə xəlvətə çəkilib onunla öz sirlərini və ehtiyaclarını bölüşdürərsə, Allah-taala onun qəlbində nuru sabit edər.. Sonra mələklərinə buyurar: Ey mənim mələklərim! Baxın mənim bəndəmə, qaranlıq gecənin yarısında batil əhli boş və hədər işlərlə məşğul olduğu və qafillər yatdığı zaman mənimlə xəlvətə çəkilmişdir. Şahid olun ki, Mən onu bağışladım.» [5]

---

[1] İsra, ayə 79
[2] Muzəmmil, ayə 6
[3] Əmali– Səduq, səh. 349, hədis1
[4] Sunəni İbni Əbu – Davud, hədis 1450
[5] Əmali – Səduq, hədis 230, hədis9

3660. Allahın Peyğəmbəri(s):«İbadət üçün gecə oyaq qalmağı sizə tövsiyə edirəm ki, bu sizdən əvvəlki ləyaqət sahiblərinin həyat tərzidir.Gecə oyaq qalmaq Allaha yaxınlaşmaq və günahlardan çəkinməyin vasitəsidir.» [1]

3661. İmam Əli (ə): «İbadət üçün gecə oyaq qalmaq bədənin sağlamlığının, Allah-taalanın razılığının, Allahın rəhməti altında olmağın və peyğəmbərlərin əxlaqından yapışmağın mənşəyidir.» [2]

3662. İmam Əli (ə): «Peyğəmbərin (s) «Gecə namazı nurdur» sözünü eşitdiyim vaxtdan gecə namazını tərk etmədim.» İbn Həvva soruşdu: «Hətta hərir[3] gecəsi də?» Buyurdu: «Bəli, hətta hərir gecəsi də.» [4]

3663. İmam Sadiq (ə): «Möminin şərəfi onun gecə namazı və izzəti isə xalqın abrını tökməkdən çəkinməyidir.» [5]

3664. İmam Sadiq (ə): «İbadət üçün gecə oyaq qalmağı tərk etmə. Çünki uduzan o olacaq ki, gecə oyaq qalmağı uduzsun.» [6]

3665. İmam Sadiq (ə): «Quranda gecə namazından başqa bəndənin gördüyü hər bir xeyir iş üçün savab vardır. Gecə namazı Allah-taalanın yanında o qədər əhəmiyyətlidir ki, O, onun savabını məlum etməmiş və buyurmuşdur: «Yanları yataqlardan ayrılar… Onlar üçün etdikləri əməllərə görə gözlərinin işığına səbəb olacaq nə mükafat hazırladığımı heç kəs bilməz.[7]» [8]

3666. İmam Sadiq (ə): «Gecə namazı üzü ağ və nurani edər. Gecə namazı insanı xoş ətirli edər, gecə namazı ruzi gətirər. [9]

### *1131. Gecə namazından məhrum olmağın amilləri*

3667. İmam Əli(ə) *(bir kişi «Mən gecə namazından məhrum olmuşam.» deyə ərz edərkən):* «Sən elə bir adamsan ki, günahların səni zəncirləmişdir.»[10]

3668. İmam Sadiq (ə): «İnsan hər bir yalanı danışar və buna görə, gecə namazından məhrum olar.»[1]

---

[1] Kənzul – Ummal, hədis 21428
[2] Bihədisarul – Ənvar, c.78, səh. 143, hədis17
[3] Hərir gecəsi – Siffeyn mühribəsində gecəni sübhədək davam edən şiddətli döyüş kimi tanınmışdır.
[4] Biharul – Ənvar, c.41, səh.17,hədis10
[5] əl – Kafi, c.3, səh. 488, hədis9
[6] Məani – Əxbar, səh. 342, hədis1
[7] Səcdə, ayə 16
[8] Biharul- Ənvar, c.8, səh. 126, hədis
[9] İləluş – Şəraye, səh. 363, hədis1
[10] əl-Kafi, c.3, səh.450, hədis34

***1132. Gecə namazı qılmaq niyyətində olan və yuxuya gedən şəxsin savabı.***

3669. Allahın Peyğəmbəri (s): «Namaz qılmaq üçün gecənin bir hissəsini oyaq qalmağı niyyət edən, amma yuxuya qalan elə bir bəndə yoxdur ki, onun yuxusu, Allahın onun tərəfindən verdiyi sədəqə və etdiyi niyyət, bir savab kimi onunçün yazılmasın.» [2]

---

[1] İləluş – Şəraye, səh. 362, hədis2

[2] Kənzul-Ummal, hədis 21475

**240**

# Namaz (3)

## Cümə namazı

***1133. Cümə namazı***

**Quran:**

«Ey iman gətirənlər! Cümə gününün namazına çağırıldığınız zaman, Allahı yad etməyə tələsin və ticarətinizi saxlayın. Əgər bilsəydiniz bu sizin üçün xeyirlidir.»[1]

**Hədis:**

3670. Allahın Peyğəmbəri (s): «Kim cümə namazını ona əhəmiyyət verməmdiyindən tərk edərsə, Allah-taala onun qəlbinə qəflət möhürü vurar.»[2]

3671. Allahın Peyğəmbəri (s): «Cümə namazı yoxsulların həccidir.»[3]

3672. Allahın Peyğəmbəri (s): «Kim imanla və Allah xatirinə cümə namazında iştirak edərsə, əməllərini yenidən başlamışdır. (Allah mükafat olaraq onun keçmiş günahlarını bağışlayar və onun üçün yeni əməl naməsi açar)» [4]

3673. İmam Baqir (ə): «Cümə namazı vacibdir və imamın olduğu halda, onun üçün toplanmaq vacibdir. Beləliklə, bir üzrü olmadan üç cümə namazını tərk edən şəxs, üç vacib əməli tərk etmişdir və bir səbəb olmadan üç vacibatı münafiqdən qeyri heç kim tərk etməz.» [5]

***1133. Xütbəyə qulaq asmaq qaydası***

3674. İmam Əli (ə): «Cümə imamı xütbə oxuyanda söhbət etmək və üzü namazda icazə verilən həddən artıq qiblədən çevirmək olmaz.» [6]

---

[1] Cümə, ayə 9
[2] Vəsailuş – Şiə, c.5, səh. 6 , hədis25
[3] əd – Dəvat, səh. 37 , hədis91
[4] əl-Fəqih, c.1,səh.427 , hədis1260
[5] Biharul – Ənvar, c.89, səh.184 , hədis21
[6] əl-Fəqih ,c.1,səh.427 , hədis1230

**241**

# Namaz (4)

**Peyğəmbərə və onun ailəsinə salavat göndərmək**

***1135. Peyğəmbərə və onun ailəsinə salavat göndərmək***

**Quran:**

«Allah və onun mələkləri peyğəmbərə salavat göndərirlər. Ey iman gətirənlər, ona salavat göndərin və onun əmrinə yaxşı tərzdə təslim olun.»[1]

**Hədis:**

3675. Allahın Peyğəmbəri (s): «Harada olsanız mənə salavat göndərin, Çünki sizin salavatınız mənə gəlib çatır.» [2]

3676. Allahın Peyğəmbəri (s): «Mənə salam və salavat göndərmək, sirat üstündə bir nurdur.» [3]

3677. Allahın Peyğəmbəri (s): «Kim bir yazıda mənə salavat göndərsə, mənim adım həmin yazıda olanadək, mələklər daim onun günahlarının bağışlanmasını dilərlər.» [4]

3678. Allahın Peyğəmbəri (s): «Ən xəsis insan, onun yanında mənim adım çəkiləndə mənə salavat göndərməyəndir.» [5]

3679. İmam Əli (ə): «Peyğəmbərə (s) salavat göndərməyənədək hər bir dua hicab altındadır.» [6]

3680. İmam Baqir (ə) və ya İmam Sadiq (ə): «Qiyamət günü tərəziyə qoyulacaq ən ağır əməl Məhəmməd və Ali Məhəmmədə salavat göndərməkdir.»[7]

***1136. Peyğəmbərə və onun ailəsinə salavat göndərməyin usulu***

---

[1] Əhzab, ayə 56
[2] Kənzul – Ummal, hədis 2147
[3] Kənzul – Ummal, hədis 2149
[4] Kənzul – Ummal, hədis 2243
[5] Kənzul – Ummal, hədis 2144
[6] Kənzul – Ummal, hədis 2153
[7] Biharul- Ənvar, c.94, səh. 49, hədis 9

3681. Allahın Peyğəmbəri (s) *(O Həzrətə (s) salavat göndərməyin tərzinə dair sualın cavabında):* «İlahi! Məhəmməd və Ali Məhəmmədə salavat göndər, necə ki, İbrahimə (ə) və Ali İbrahimə salavat göndərmisən. Sən çox tərif olunan və böyüksən. Məhəmməd və Ali Məhəmmədə (ə) bərəkət ver, necə ki, İbrahimə və Ali İbrahimə bərəkət vermisən. Sən çox tərif olunan və böyüksən – deyin.» [1]

---

[1] Kənzul – Ummal, hədis 3993

# 242

# Sükut

***1137 Süküt***

3682. Allahın Peyğəmbəri (s) *(Əbuzərə nəsihətindən):* «Dörd şey var ki, mömindən başqa heç kimin ona əli çatmaz: ibadətin başlanğıcı olan sükut.»[1]

3683. İmam Əli (ə): «Sükut fərasətin əlaməti və ağlın meyvəsidir.» [2]

3684. İmam Əli (ə) *(möminin vəsfində):* «Sakit qalmağı çoxdur və vaxtı tamamilə (Allah və axirət işlərinə, düşüncələrinə) sərf olunar.»[3]

***1138 Sükutun səmərələri***

3685. Allahın Peyğəmbəri (s) : «Çox susmağı sənə tövsiyə edirəm. Çünki bu şeytanın qovulmasının səbəbi və din işlərində sənin yavərindir.» [4]

3686. İmam Əli (ə): «Daim sükut etməyi seç ki, onun ən az faydası salamat qalmağındır.» [5]

3687. İmam Əli (ə): «Sükut təfəkkürün bağıdır.» [6]

3688. İmam Həsən (ə): «Sakit insan çox heybətlidir.» [7]

3689. İmam Həsən (ə): «Hərçənd gözəl natiq olsan da, çox vaxt susmaq necə də yaxşı köməkçidir.» [8]

3690. İmam Rza (ə): «Sükut hikmət qapılarından biridir. Sükut məhəbbət gətirər, sükut insana hər bir xeyrin və yaxşılığın yolunu göstərər». [9]

---

[1] Məkarimul – Əxlaq, c.27, səh. 377
[2] Ğurərul-Hikəm, hədis 1343
[3] Nəhcül – Bəlağə, hikmət 333
[4] Biharul – Ənvar, c.71, səh. 279 , hədis19
[5] Ğurərul – Hikəm, hədis 2314
[6] Ğurərul – Hikəm, hədis546
[7] Biharul – Ənvar, c.78, səh. 113 , hədis7
[8] Məani – Əxbar, səh. 401 , hədis62
[9] əl – Kafi, c.2, səh.113 , hədis1

***1139. Bəyənilmiş sükut***

3691. İmam Əli (ə): «Dili hikmətə bağlamaqda bir xeyir yoxdur. Həmçinin nadanlıqla söz danışmağın da bir xeyri yoxdur.» [1]

3692. İmam Əli (ə) *(təqvalının əlamətlərini bəyan edərkən):* «Sükut etməyi seçsə, sükutu onu qəmgin etməz və gülsə səsini ucaltmaz.»[2]

[1] Nəhcül-Bəlağə, hikmət 182

[2] Nəhcül-Bəlağə, xutbə 193

# 243

# Müsibət

***1140 . Müsibətlərin əcri***

3693. İmam Həsən (ə): «Müsibətlər əcrin açarlarıdır.»[1]

***1141. Ən böyük müsibət***

3694. İmam Əli (ə) *(«ən böyük müsibət» barədə sualın cavabında):* «Dində (faciə və) müsibətdir.» [2]

3695. İmam Əli (ə): «Ən böyük müsibət qəlbi dünyaya bağlamaqdır.» [3]

3696. İmam Əli (ə): «Ən böyük müsibət nadanlıqdır.» [4]

3697. İmam Sadiq (ə) *(oğlunun ölümünə görə çox dözümsüz olan kişiyə xitabən):* «Ay kişi! Sən kiçik müsibətə dözmürsən amma, böyük müsibətdən xəbərin yoxdur! Əgər sən oğlun getdiyi yerə hazırlıqlı olsaydın, heç vaxt ona görə səbrsizlik etməzdin. Sənin o günə hazırsızlığının müsibəti oğlunun müsibətindən daha böyükdür.»[5]

***1142. Müsibət vaxtı istirca[6] (qayıdış) istəmək***

**Quran :**

«Həqiqətən, sizi bir qədər qorxu, aclıq, malın azlığı, can və mallarınızla imtahan edərik. Səbrlilərə müjdə ver. O kəslərə ki, başlarına müsibət gələndə «həqiqətən, biz Allah üçünük və ona tərəf qayıdarıq» deyərlər.»[7]

**Hədis:**

---

[1] Əlamud – Din, səh. 297
[2] Əmali-Səduq, səh. 323 , hədis4
[3] Ğurərul – Hikəm, hədis 3081
[4] Ğurərul – Hikəm, hədis 2844
[5] Uyunu Əxbari Rza (ə), c.2, səh. 5 , hədis10
[6] İstirca – yəni انا لله و انا اليه راجعون həqiqətən Biz Allah üçünük və ona tərəf qayıdacağıq» kəlməsidir.
[7] Bəqərə, ayə 155, 156

3698. Allahın Peyğəmbəri (s): «Kimə müsibət vaxtı «İstirca» kəlməsi ilham olunsa, cənnət ona vacib olar.» [1]

### *1143. Müsibətdə özünü aparmaq qaydası*

3699. Allahın Peyğəmbəri (s): «Şivən qoparmaq cahilliyyətin işidir.»[2]

3700. Allahın Peyğəmbəri (s): «Müsibətləri, xəstəlikləri və sədəqə verməyi gizlətmək yaxşılığın xəzinələrindəndir.»[3]

3701. Aişə: «İbrahim dünyadan köçəndə Peyğəmbər (s) göz yaşları mübarək yanaqlarına axana gədər ağladı. Dedilər: «Ey Allahın Rəsulu, siz ağlamağı qadağan edir, amma özünüz ağlayırsınız?» Həzrət (s) buyurdu: «Bu ağlamaq deyil, bu rəhm etməkdir. Kim rəhm etməsə, ona rəhm olunmaz.»[4]

3702. Əbu Hüreyrə: «Allahın Rəsulunun (s) ailəsindən bir nəfər vəfat etdi. Qadınlar yığışıb ona ağı deməyə başladılar. Ömər yerindən qalxıb, ağlamağı onlara qadağan etdi və yığıncaqlarını dağıtdı. Allahın Rəsulu (s) buyurdu: «Ey Ömər! Onları rahat burax, çünki gözləri yaşlı, qəlbləri dağlı və müsibətləri təzədir.»[5]

3703. İmam Əli (ə): «Peyğəmbər (s) buyurmuşdur: İki səs lənətlənib və Allah onlara nifrət edir: müsibət vaxtı ahüzar edib şivən qoparmaq və nemət vaxtı (məstliyindən) səslər çıxarmaq. Yəni, nalə çəkmək və mahnı oxumaq.»[6]

### *1144. Musibətləri yüngülləşdirən amillər*

3704. Allahın Peyğəmbəri (s): «Kim qəlbindən dünya məhəbbətini çıxarsa müsibətlər ona asan gələr.»[7]

3705. Allahın Peyğəmbəri (s): «Kimə böyük bir müsibət üz verəndə mənim müsibətimi yad etsə, müsibəti ona yüngül gələr.»[8]

3706. İmam Əli(ə): «Ölümü, qəbirdən qalxıb Allah qarşısında dayanacağınız günü çox yad edin ki, müsibətlər sizə asan olsun.»[9]

---

[1] Səvabul – Əmal, səh. 235 , hədis2
[2] Biharul-Ənvar, c.2, səh. 103 , hədis50
[3] Biharul-Ənvar, c.2, səh. 103 , hədis50
[4] Əmali-Tusi, səh. 388 , hədis850
[5] Sunəni Nəsai, c.4, səh. 19
[6] Dəaimul-İslam, c.1, səh. 227
[7] Kənzul-Fəvaid, c.2, səh. 163
[8] Biharul-Ənvar, c.82, səh. 84 , hədis26
[9] əl-Xisal, səh. 616 , hədis10

3707. İmam Sadiq (ə) *(müsibət üz verən zaman):* «Şükr olsun Allaha ki, o məni dinimdə müsibətə salmadı. Şükr olsun o Allaha ki, əgər istəsəydi müsibətim bundan da böyük olardı. Şükr olsun o Allaha ki, bir işin baş verməsini istədi və o da baş verdi.»[1]

3708. İmam Sadiq (ə): «Bir nəfər öləndə Allah-taala onun ailə üzvlərindən ən çox naharat olanının yanına bir mələk göndərər. Bu mələk onun qəlbinə sığal çəkər və qəm yanğısını, dağını ondan götürər. Əgər belə olmasaydı, dünya abad olmazdı.»[2]

***1145. Başqalarının müsibətinə şadlanmaq***

3709. İmam Sadiq (ə): «Kim qardaşının müsibətinə şad olarsa, müsibət görməmiş dünyadan köçməz.»[3]

---

[1] Biharul-Ənvar, c.78, səh. 268 , hədis183
[2] əl-Kafi, c.3, səh. 227 , hədis1
[3] əl-Kafi, c.2 hədis 359 , hədis1

# 244

# Səs

***1146. Səsi uçaltmağın qadağan olması***

**Quran:**

«Yerişini rahat yeri (nə çox tez, nə də çox asta yeri) və (danışanda) səsini ucaltma ki, səslərin ən pisi uzunqulağın səsidir.» [1]

**Hədis:**

3710. Allahın Peyğəmbəri (s): «Allah-taala asta səsi sevər və uca səsə (qışqıra-qışqıra danışmağa) nifrət edər.»[2]

3711. Allahın Peyğəmbəri (s) (*Əbuzərə tövsiyəsində*): «Ey Əbuzər! Cənazələrin dəfnində, müharibədə və Quran oxunanda səsini astadan çıxar.»[3]

3712. İmam Əli(ə): «Üç şey alicənablıq əlamətidir: baxışları aşağı salmaq, səsi astadan çıxarmaq və yolu rahat yerimək.»[4]

3713. İmam Əli(ə): «Astadan danışmaq, baxışları aşağı salmaq, rahat yol yerimək imanın və gözəl dindarlığın nişanələrindəndir.»[5]

---

[1] Loğman, ayə 19
[2] Munyətul-Murid, səh. 213
[3] Biharul-Ənvar, c.77, səh. 82
[4] Ğurərul-Hikəm, hədis 4660
[5] Ğurərul-Hikəm, hədis 5073

245

# Oruc

***1147. Oruc***

**Quran:**

«Ey iman gətirənlər! Sizdən qabaqkılara təyin olunduğu kimi, sizlərə də oruc təyin olundu. Bəlkə təqvalı olasınız.»[1]

**Hədis:**

3714. Allahın Peyğəmbəri (s): «Oruc tutmağı sənə tövsiyə edirəm ki, oruc şəhvət damarlarını kəsər və lovğalığı aradan götürər.»[2]

3715. Allahın Peyğəmbəri (s): «Hər şeyin zəkatı var, bədənin zəkatı da orucdur.»[3]

3716. Allahın Peyğəmbəri (s): «Oruc tutun ki, sağlam olasınız.»[4]

3717. Allahın Peyğəmbəri (s): «Oruc tutan öz yatağında yatsa belə, müsəlmanının qeybətini etməyincə, Allaha ibadət halındadır.»[5]

3718. Allahın Peyğəmbəri (s): «Hər bir oruc tutan, yemək yeyən şəxslərin arasına daxil olanda, onun bədən əzaları Allaha təsbih söylər, mələklər ona salam göndərər və dua edərlər. Belə ki, duaları onun günahlarının bağışlanması istəyi ilə olar.»[6]

3719. Allahın Peyğəmbəri (s): «Oruc od qarşısında bir sipərdir.»[7]

3720. Xanım Fatimeyi Zəhra (s.ə): «Allah-taala orucu ixlasın möhkəmliyi üçün vacib etmişdir.»[8]

3721. İmam Baqir (ə): «Oruc və həcc qəlblərə rahatlıq bəxş edər.»[9]

3722. İmam Sadiq(ə): «Allah-taala buyurur: Oruc Mənim üçündür və onun mükafatını Özüm verəcəyəm.»[1]

---

[1] Bəqərə, ayə 183
[2] Kənzul-Ummal, hədis 23610
[3] Fəzailuş-Şəhrus-Səlasəti, c.75, səh.57
[4] əl-Dəvat, səh. 76 , hədis179
[5] Səvabul-Əmal, səh.75 , hədis1
[6] Səvabul-Əmal, səh. 77 , hədis1
[7] əl-Kafi, c.4, səh. 62 , hədis1
[8] Biharul-Ənvar, c.96, səh. 368 , hədis4
[9] Əmali-Tusi, hədis 296 , hədis582

3723. İmam Sadiq (ə): «Oruc tutanın yuxusu ibadət, sükutu təsbih, əməli qəbul olunmuş və duası müstəcabdır.»[2]

3724. İmam Sadiq(ə): «Oruc tutanın iki sevinci var: bir sevinci iftar vaxtı və digəri öz Rəbbi ilə görüşəndədir»[3]

3725. İmam Sadiq(ə): «Oruc tutana iftar verənin savabı, oruc tutanın savabı qədərdir.»[4]

3726. İmam Əskəri (ə) *(orucun vacib olmasının səbəbini bəyan edərkən):* «Varlı aclıq dərdini dadsın və yoxsula kömək etsin.»5

***1148. Könüllü və müstəhəb oruc tutmağa həvəsləndirmək***

3727. Allahın Peyğəmbəri (s): «Kim könüllü olaraq bir gün oruc tutsa, əgər ona yer üzü qədər qızıl da verilsə öz mükafatını tam şəkildə almamış olar və yalnız hesab günü mükafatını bütünlüklə alar.»[6]

3728. Allahın Peyğəmbəri (s): «Kim İlahi savab qazanmaq üçün bir gün könüllü oruc tutarsa, mütləq bağışlanar.»[7]

3729. Allahın Peyğəmbəri (s): «Kim hər ay üç gün oruc tutsa, ömrü boyu oruc tutmuş şəxs kimidir. Çünki Allah-taala buyurur: Kim bir xeyir əməl görərsə, ona on dəfə artıq savabı yazılar.»[8]

3730. İmam Sadiq (ə): «İnsan İlahi mükafatı qazanmaq üçün bir gün könüllü oruc tutar və Allah-taala buna görə onu cənnətə aparar.»[9]

***1149. Oruc tutmağın ədəbi***

3731. Allahın Peyğəmbəri (s): «Allah-taala buyurur: «Kimin bədən üzvləri Mənim haramlarımdan oruc tutmursa, Mənə görə yeməkdən, içməkdən çəkinməyə heç bir ehtiyacım yoxdur.»[10]

3732. İmam Əli(ə): «Oruc insanın yeməkdən, içməkdən çəkindiyi kimi, haramlardan da uzaqlaşmasıdır.»[11]

---

[1] əl-Kafi, c.4, səh. 63 , hədis6
[2] əl-Fəqih, c.2,cəh.76, hədis1783
[3] əl-Kafi, c.4, səh. 65, hədis15
[4] əl-Kafi, c.4, səh. 68, hədis1
[5] Biharul-Ənvar, c.96, səh. 369, hədis50
[6] Məani-Əxbar, səh. 409, hədis91
[7] Əmali-Səduq, səh. 443, hədis2
[8] Dəaimul-İslam, c.1, səh. 283
[9] əl-Kafi, c.4, səh.63, hədis5
[10] əl-Firdovs, c.5, səh.242, hədis8075
[11] Biharul-Ənvar, c.96, səh. 294, hədis21

3733. Xanım Fatimeyi Zəhra (s.ə): «Əgər oruc tutan öz dilini, qulağını, gözünü, əl-ayağını, bədən üzvlərini haramlardan saxlamırsa, orucunun nə faydası var?»[1]

3734. Məhəmməd ibn Muslim: «İmam Sadiq (ə) buyurdu: Oruc tutanda gərək qulağın, gözün, saçın, bədəninin dərisi də oruc tutsun. O Həzrət (ə) digər əzaları da sadaladı və buyurdu: Oruc tutduğun gün, oruc tutmadığın gün ilə eyni olmasın.»[2]

***1150. İsti havada və qışda oruc tutmağın fəziləti***

3735. Allahın Peyğəmbəri (s): «Qışın orucu fərəh bəxş edən bir qənimətdir.»[3]

3736. İmam Sadiq(ə): «Ən üstün cihad, isti havada oruc tutmaqdır.»[4]

3737. İmam Sadiq(ə): «Qış fəsli möminin baharıdır. Gecəyarı ibadəti üçün onun uzun gecələrindən kömək alar və oruc tutmaqdan ötrü qısa gündüzlərində imdad axtarar.»[5]

---

[1] Dəaimul-İslam, c.1, səh. 268
[2] əl-Kafi, c.4, səh. 87, hədis1
[3] əl-Fəqih, c.4, səh.356, hədis5762
[4] Biharul-Ənvar, c.96, səh. 256, hədis38
[5] Məani-Əxbar, səh. 228, hədis1

**246**

# Gülüş

***1151. Gülüş və təbəssüm***

3738. İmam Əli(ə): «Peyğəmbərin (s) gülüşü təbəssüm idi.»[1]

3739. İmam Baqir(ə): «Qəhqəhə ilə güləndən sonra de: İlahi! Mənə qəzəblənmə.»[2]

3740. İmam Sadiq(ə): «Qəhqəhə çəkmək şeytandandır.»[3]

3741. İmam Sadiq(ə) : «Möminin gülüşü təbəssümdür.»[4]

3742. İmam Sadiq (ə): «Kim öz qardaşına təbəssüm etsə, həmin təbəssüm ona bir savab olar.»[5]

***1152. Çox gülməyin məzəmməti***

3743. Allahın Peyğəmbəri (s): «Çox gülməkdən ehtiyatlı ol ki, qəlbi öldürər.»[6]

3744. Allahın Peyğəmbəri (s): «Əgər mən bildiyimi siz bilsəydiniz, az gülüb çox ağlayardınız.»[7]

3745. «İrşadul Qulub»: Merac hədisində deyilir: «Allah-taala buyurur: Mənim ondan razı, ya narazı olduğumu bilmədiyi halda gülən bəndəyə təəccüb edirəm.»[8]

3746. İmam Əli(ə): «Çox gülənin zəhmi aradan gedər.»[9]

3747. İmam Əskəri(ə): «Təəccübə görə olmayan gülüş nadanlıq nişanəsidir.»[10]

---

[1] Əmali-Tusi, səh. 552, hədis1156
[2] əl-Kafi, c.2, səh. 664, hədis13
[3] əl-Kafi, c.2,səh. 662, hədis10
[4] əl-Kafi, c.2, səh. 662, hədis5
[5] əl-Kafi, c.2, səh. 206, hədis1
[6] Məani-Əxbar, səh. 335, hədis1
[7] Nurus-Səqəleyn, c.1, səh. 249, hədis261
[8] İrşadul-Qulub, səh. 200
[9] Tuhəful-Uqul, səh. 96
[10] Biharul-Ənvar, c.76,səh.59, hədis10

**247**

# Müstəzəf (zəifliyiə düçar edilmiş)

***1157. Mustəzəflərin fəziləti***

3748. Allahın Peyğəmbəri (s): «Sizi Allahın ən pis bəndələrindən xəbərdar etməyimmi? Təkəbbürlü kobud. Sizi Allahın ən yaxşı bəndəsindən agah edimmi? Aciz müstəzəf.»[1]

3749. Allahın Peyğəmbəri (s): «Məni zəiflər arasında axtarın. Çünki siz zəif insanların vasitəsilə ruzi yeyir və kömək olunursunuz.»[2]

3750. Allahın Peyğəmbəri (s): «Əslində, Allah-taala bu ümmətə, onun zəiflərinin duası, namazı və ixlası vasitəsilə kömək edir.»[3]

***1154. Müstəzəflərin dövləti***

**Quran:**

«İstədik yer üzündə zəif saxlanılanlara yaxşılıq edib, onları insanların rəhbərləri təyin edək və yer üzünün varisləri qərar verək.»[4]

3751. İmam Əli(ə) *(İstədik yer üzündə zəif saxlanılanlara...» ayəsi barədə):* «Onlar Məhəmməd nəslinin müstəzəfləridir. Allah-taala, göstərdikləri səylərdən sonra onların Mehdilərini göndərəcək və onları əziz, düşmənlərini zəlil edəcək.»[5]

***1155. Mənəvi zəiflik***

**Quran:**

«Yalnız çarəsiz qalıb bir yol tapa bilməyən müstəzəf kişilər, qadınlar və uşaqlardan başqa. Ola bilsin Allah onları bağışladı. Allah mehriban və bağışlayandır» [6]

---

[1] Kənzul-Ummal, hədis 5944
[2] Kənzul-Ummal, hədis 6019
[3] -d-Durrul-Mənsur, c.2, səh.724
[4] Qəsəs, ayə 5
[5] Nurus-Səqəleyn, c.4, səh. 110
[6] Nisa, ayə 98-99

3752. İmam Əli(ə): «Allahın höccəti və dəlili ona çatan, qulağı ilə onu eşidən və qəlbi ilə onu başa düşən şəxsə müstəzəf deyilməz.»[1]

3753. İmam Baqir (ə) *(«Yalnız çarəsiz qalıb, bir yol tapa bilməyən müstəzəf kişilər, qadınlar və uşaqlardan başqa» ayəsi barədə):* «Müstəzəf, kafir olmaq gücündə olmayan, eyni halda, mömin olmaq üçün iman yolunu tapa bilməyəndir. Uşaqların, əqli və fikirləri uşaq səviyyəsində olan kişi və qadınların üzərindən şəriət vəzifələri götürülmüşdür. (yəni, onlar şəriət hökmləri qarşısında cavabdeh deyillər)»[2]

3754. İmam Kazım(ə): «Zəif, dəlil və sübutların yetişmədiyi (müxtəlif fikirlərdəki) ixtilafı ayırd etməyən şəxsdir. Əgər (fərdlərin fikirlərdəki) ixtilaflardan agah olarsa, müstəzəf deyil.»[3]

---

[1] Nəhcül-Bəlağə, xütbə 189
[2] Məani-Əxbar, səh. 201, hədis4
[3] əl-Kafi, c.8, səh. 125 , hədis95

**248**

# Azğınlıq

***1156. Azğınlığın səbəbləri***

**Quran:**

«Kim imanı küfrlə əvəz etsə, həqiqətən, doğru yolu azmışdır.»[1]

«Kim Allaha, mələklərə, kitablara və Onun rəsullarına küfr etsə, şübhəsiz ki, uzaq və uzun azğınlığa düçar olmuşdur.»[2]

«Kim Allaha və Onun Rəsuluna itaətsizlik edərsə, şübhəsiz ki, açıq-aşkar azğınlığa düşmüşdür.»[3]

«Nəfsi istəyini, həvəsini öz məbudu edən şəxsi gördünmü? Allah-taala onu elmi olduğu halda azğınlığa buraxdı, onun qulağına, qəlbinə möhür vurdu, gözləri önünə pərdə çəkdi. Allahdan başqa onu kim hidayət edər? Məgər nəsihət götürmürsünüzmü?»[4]

3755. İmam Əli(ə): «Hər azğınlıqçün bir səbəb və hər əhdi sındırmaq üçün bir şübhə var.»[5]

3756. İmam Əli(ə): «Bilin ki, dinin hökmləri (şəriət) vahid və yolları məqsədə çatdırandır. Kim bu yollara qədəm qoysa, məqsədə çatar və xeyir qazanar. Kim bu yolları getməkdən imtina etsə, azğın və peşiman olar.»[6]

3757. İmam Əli(ə): «Peyğəmbərimizin əhli-beytinə baxın, onların yol və üslubundan ayrılmayın... Onlardan qabağa keçməyin ki, yolu azarsınız və onlardan geri də qalmayın ki, məhv olarsınız.»[7]

3758. İmam Əli(ə): «Kim hidayəti, onun əhli olmayandan istəyərsə, yolunu azar.»[8]

---

[1] Bəqərə, ayə 108
[2] Nisa, ayə 136
[3] Əhzab, ayə 36
[4] Casiyə, ayə 23
[5] Nəhcül-Bəlağə, xütbə 148
[6] Nəhcül-Bəlağə, xütbə 120
[7] Nəhcül-Bəlağə, xütbə 97
[8] Ğurərul-Hikəm, hədis 7501

***1157. Yolu azdıranlar***

3759. İmam Əli(ə): «Allah yanında ən pis insan, özü azğın və başqalarının azğınlığına səbəb olan, əməl olunan sünnəni aradan götürən və tərk olunmuş bidəti bərpa edən zalım rəhbərdir.»[1]

3760. İmam Əli(ə): «Allahın yanında iki nəfər ən nifrət olunmuş şəxs var. Bunlardan biri Allahın onu özbaşına buraxdığı şəxsdir. Belə şəxs doğru yoldan azmış və qəlbini bidətəbənzər sözlərə, azdırıcı dəvətlərə bağlamışdır. Buna görə də, ona aldanan şəxslərin fitnə və fəsadına səbəb olur. O, ata-babalarının doğru yolundan çıxıb və öz ardıcıllarını azdırır. Həyatı zamanı və ölümündən sonra başqalarının günahlarının yükünü öz çiyninə çəkər və xətalarının girovu olar...»[2]

3761. İmam Əli(ə) *(münafiqləri təsvir edərkən):* «Sizi münafiqlərdən uzaq durmağa çağırıram. Çünki onlar həm özləri azıblar, həm də başqalarını azdırarlar, özləri büdrəyiblər və başqalarını da büdrədərlər.»[3]

***1157. Azğınlığın əsaslarını dağıdan amillər***

3762. İmam Əli(ə): «Çətinliyə düşəndə Qurandan kömək alın. Çünki Quran ən böyük dərdlərin -yəni küfr, nifaq, əyinti və azğınlıq kimi dərdlərin şəfasıdır.»[4]

3763. İmam Əli(ə): «Bu İslam Allahın dinidir, onu özünüzçün seçin... və onun əsasları azğınlığın əsaslarını viran edər.»[5]

---

[1] Nəhcül-Bəlağə, xütbə 164
[2] Nəhcül-Bəlağə, xütbə 17
[3] Nəhcül-Bəlağə, xütbə 194
[4] Nəhcül-Bəlağə, xütbə 176
[5] Nəhcül-Bəlağə, xütbə 198

**249**

# Dəymiş zərər ödəmə

***1159. Dəymiş zərər ödəmə***

3764. Allahın Peyğəmbəri (s): «Əl, götürdüyü hər bir şeyin qaytarılmasına zamindir.» [1]

3765. Allahın Peyğəmbəri (s): «Həkim xəstəni, baytar heyvanı müalicə edən zaman, xəstənin yiyəsindən, yaxud da heyvanın sahibindən bəraətnamə və icazə almalıdır. Əks təqdirdə (mala və cana vurduğu zərərə, xəsarətə görə) onun qarşısında zamindir.»[2]

3766. İmam Sadiq (ə): «Kimsə muzdla bir işi görməkçün tutularsa, həmin işi zay etdiyi halda, zamindir. Əmirəl-möminin (ə) fəhləni zamin bilirdi»[3]

3767. İmam Sadiq (ə) *(öz ata-babalarından nəql edir*): «Sənətkarlar bir şeyi istər səhvən, istərsə də qəsdən xarab etsələr, müəyyən qazanc müqabilində işləyirlərsə, zamindirlər.»[4]

***1160. Zamin durmağın və zəmanət verməyin məzəmməti***

3768. İmam Əli(ə): «Bir işin öhdəsindən gəlmirsənsə, zəmanət vermə.»[5]

3769. İmam Sadiq(ə): «Kəfil (yəni bir şəxsin cavabdehliyini öz öhdəsinə götürmək və zamin durmaq) olmaq xəsarətdir, cərimədir, peşmançılıqdır.»[6]

***1161. Ariyənin[1] ödənişi yoxdur***

---

[1] Mustədrəkul-Vəsail, c.17, səh. 88 , hədis20819
[2] Mustədrəkul-Vəsail, c.14, səh. 37 , hədis16038
[3] Mustədrəkul-Vəsail, c.14, səh. 37 , hədis16039
[4] Mustədrəkul-Vəsail, c.14, səh. 31 , hədis16040
[5] Ğurərul-Hikəm , hədis 10178
[6] əl-Fəqih, c.3, səh. 97 , hədis3405

3770. İmam Sadiq(ə): «Ariyə aradan gedib xarab olarsa, ariyə götürən əmin və etibarlı adam olduqda öhdəsində heç bir ödəniş haqqı olmaz.»[2]

---

[1] Ariyə – bir şeyi müvəqqəti istifadə etmək, ya saxlamaq üçün, ya borc kimi bir şəxsə verməkdir.

[2] əl-Kafi, c.5, səh. 239 , hədis5

**250**

# Qonaqpərvərlik

***1162. Qonaqpərvərlik***

3771. Allahın Peyğəmbəri (s): «Allaha və qiyamət gününə iman gətirən şəxs öz qonağına hörmət etməlidir.»[1]

3772. Allahın Peyğəmbəri (s): «Qonaq öz ruzisini gətirər və ev əhlinin günahlarını aparar.»[2]

3773. Allahın Peyğəmbəri (s): «Yemək verən şəxsin ruzisi və yeməyi, onunçün bıçağın dəvənin hörgücünə batmasından daha sürətlə gəlib çatar»[3]

3774. Allahın Peyğəmbəri (s): «Qonaq gəlməyən evə mələklər daxil olmaz.»[4]

3775. İmam Əli(ə): «Allah kimə sərvət versə, onunla öz qohumlarına kömək əlini uzatmalı və qonaqpərvərlik etməlidir»[5]

3776. «Biharul-ənvar»: Bir gün İmam Əlini (ə) qəmli halda gördülər. Səbəbini soruşanda Həzrət(ə) buyrdu: «Yeddi gündür ki, evimizə bir qonaq gəlməyib.»[6]

***1163. Qonaqlığa layiq olanlar***

3777. Allahın Peyğəmbəri (s): «Allaha xatir sevdiyin şəxsi öz yeməyinə qonaq et.»[7]

3778. Allahın Peyğəmbəri (s): «Öz süfrəsinə varlıları qonaq edən və yoxsulları çağırmayan şəxsin dəvətini qəbul etmək məkruhdur.»[8]

***1164. Mömінin dəvətini qəbul etməyə həvəsləndirmək***

---

[1] Camiul-Əxbar, səh. 377, hədis1053
[2] Biharul-Əvnar, c.75, səh. 461, hədis14
[3] əl-Məhasin, c.2, səh.147 , hədis1388
[4] Camiul-Əxbar, səh. 378 , hədis1058
[5] Nəhcül-Bəlağə, xütbə 142
[6] Biharul-Əvnar, c.41, səh. 28 , hədis1
[7] Kənzul-Ummal, səh. 25881
[8] əl-Dəvat, səh.141 , hədis358

3779. Allahın Peyğəmbəri (s): «Öz ümmətimdən burada olanlara və olmayanlarına tövsiyə edirəm ki, müsəlmanın dəvətini beş mil məsafədən olsa da, qəbul etsinlər. Çünki bu iş dinin bir hissəsidir.»[1]

3780. Allahın Peyğəmbəri (s): «Kişinin, bir qonaqlığa dəvət olunduqda dəvəti qəbul etməməsi və yaxud qəbul edib, amma yemək yeməməsi ədəbsizlikdir.»[2]

3781. Allahın Peyğəmbəri (s): *(Əbuzərə nəsihətində):* «Fasiq (günahkar) insanların yeməyindən yemə.»[3]

### *1165. Qonağın xatirinə özünü zəhmətə salmaq*

3782. Allahın Peyğəmbəri (s): «Qonaq qəbul edən şəxs üçün elə bu günah bəsdir ki, öz qardaşlarının qabağına qoyduğu yeməyi az hesab etsin. Qonaqlara da elə bu günah bəsdir ki, qardaşlarının onların qabağına qoyduğu yeməyi az hesab etsinlər.»[4]

3783. Allahın Peyğəmbəri (s): «Heç kəs qonaqların xatirinə özünü imkanından artıq zəhmətə salmamalıdır.»[5]

3784. İmam Sadiq(ə): «Qardaşın sənin evinə çağrılmamış gəlsə, evdə olan yeməyi onun üçün gətir. Elə ki, onu dəvət etdin, onun qulluğunda zəhmət çək.»[6]

3785.İmam Rza(ə):«Bir kişi Əmirəl-möminini(ə) qonaq dəvət etdi. Həzrət(ə) buyurdu: «Dəvətini bu şərtlə qəbul edərəm ki, üç şeyi mənə söz verəsən.» Ərz etdi: «Nəyi söz verim, ey Əmirəl-möminin (ə) ?» Buyurdu: «Bayırdan mənim üçün bir şey almayasan, evində hazırladığını məndən əsirgəməyəsən, arvad-uşağına əziyyət verməyəsən.» Ərz etdi: «Bu şərti qəbul edirəm, ey Əmirəl-möminin(ə).» Bununla da, Əli(ə) onun dəvətini qəbul etdi»[7]

### *1166. Qonaq qəbul etməyin qaydası*

3786. Allahın Peyğəmbəri (s): «Kim Allahın və Onun rəsulunun (s) məhəbbətini qazanmaq istəyirsə, öz qonağı ilə birgə yemək yesin.»[8]

---

[1] Məhasin, c.4, səh.180 , hədis151
[2] Qurbul-İsnad, cəh.160, hədis583
[3] Biharul-Ənvar, c.77, səh. 84 , hədis3
[4] əl-Məhasin, c.2, səh.186 , hədis1533
[5] Kənzul-Ummal, səh. 25876
[6] əl-Məhasin, c.2, səh.179 , hədis1506
[7] Uyunu Əxbari Rza, c.2, səh. 42 , hədis138
[8] Tənbihul-Xəvatir, c.2, səh.116

3787. Allahın Peyğəmbəri (s): «Sizlərdən biriniz qonaq dəvət olunanda övladını özü ilə aparmasın. Əgər belə etməsə, haram iş görmüşdür və itaətsizliklə dəvət edənin evinə daxil olmuşdur.»[1]

3788. Allahın Peyğəmbəri (s): «Qonağı iki gecə qəbul edərlər. Üçüncü gecədən ailə üzvündən sayılar və evə hər nə ruzi gəlsə, ondan yeyər.»[2]

3789. Allahın Peyğəmbəri (s): «Qonaq qəbul etmək bir gün, iki gün, üç gündür. Ondan sonra ona hər nə versən sədəqə sayılar.»[3]

3790. Allahın Peyğəmbəri (s): «Qonaqlıq vermək bir gün haqdır, ikinci gün ehsandır. İki gündən sonra riya və şöhrət axtarmaq hesab olunur.»[4]

3791. İmam Baqir(ə): «Sizlərdən biriniz qardaşının evinə daxil olan zaman ev sahibinin göstərdiyi yerdə otursun. Çünki ev sahibi öz otağının vəziyyətini qonaqdan yaxşı bilir.»[5]

3792. İbn Əbi Yəfur: «İmam Sadiqin (ə) evində bir qonaq gördüm. Bir gün o, durub iş görmək istədi. Həzrət (ə) ona icazə vermədi və şəxsən özü o işi yerinə yetirərək buyurdu: Allahın Rəsulu (s) qonağa iş gördürməyi qadağan etmişdir.»[6]

---

[1] əl-Məhasin, c.2, səh. 181 , hədis1515
[2] əl-Kafi, c.6, səh. 283 , hədis1
[3] əl-Kafi, c.6, səh. 283 , hədis2
[4] əl-Kafi, c.5, səh. 368 , hədis4
[5] Biharul-Ənvar, c.75, səh. 451 , hədis2
[6] əl-Kafi, 6 c, səh. 283 , hədis1

**251**

# Tibb

***1167.Həqiqi həkim***

3793. Allahın Peyğəmbəri (s): «Həkim Allahdır, sənsə mehriban dost.»[1]

***1168. İnsanı təbabətdən ehtiyacsız edən şey***

3794. İmam Əli(ə) *(oğlu Həsənə (ə) tövsiyəsindən):* «Oğlum! Sənə dörd incə məqamı öyrədimmi ki, onlara riayət eməklə təbabətdən ehtiyacsız olasan?» Ərz etdi: «Bəli, ey Əmirəl-möminin (ə).» Həzrət (ə) buyurdu: «Acmamış yemək yemə, doymamış yeməkdən əlini çək, yeməyi yaxşı çeynə və yatmaqdan qabaq ayaqyoluna gedib rahatlan. Əgər bu məqamlara riayət etsən, həkimə ehtiyacın olmaz.»[2]

3795. İmam Əli (ə): «Havaların soyumağının əvvəlində özünüzü soyuqdan qoruyun (soyuq hava fəslinin) sonunda ona üz tutun. Çünki soyuq ağaclarla etdiyini, bədənlərlə də edir. Əvvəldə (ağacların yarpaqlarını) yandırar, və sonda yarpaqları bitirər.»[3]

***1169. Təbibdən daha yaxşı həkim***

3796. İmam Əli(ə): «Təcrübəli insan təbibdən daha yaxşı həkimdir.»[4]

3797. İmam Əli(ə): «Həkimlik edən şəxs Allahdan qorxmalı, xeyirxah olmalı və öz səyini əsirgəməməlidir.»[5]

---

[1] Kənzul-Ummal , hədis28100
[2] əl-Xisal, səh. 229 , hədis68
[3] Şərhi Nəhcül-Bəlağə, c.18, səh.319
[4] Ğurərul-Hikəm , hədis1203
[5] Dəamul-İslam, c.2, səh. 144 , hədis503

# 252

# Yemək vermək

***1170. Aca yemək verməyin fəziləti***

**Quran:**

«Allahı sevdiklərinə görə miskinə, yetimə və əsirə yemək verərlər. (Deyərlər) Biz yalnız Allahın razılığına xatir sizə yemək veririk, sizdən nə mükafat istəyirik, nə də təşəkkür.» [1]

«Ya ac günlərində qohum olan yetimi, ya tamamilə yoxsullaşmış insanı yedirtmək.»[2]

3798. İmam Əli (ə): «Bədənlərin xörəyi qida məhsulları, canların (ruhun) xörəyi isə yemək yedirtməkdir.»[3]

3799. İmam Əli(ə): «Yediyin şey gedəcək, yedirtdiyin şey bol və bərəkətli olacaqdır.»[4]

3800. İmam Baqir (ə): «Allah-taala yemək yedirtməyi və qurban kəsməyi sevər.»[5]

3801. İmam Sadiq (ə): «Cənnətə və bağışlanmağa səbəb olan amillərdən biri ac insana yemək verməkdir.» Sonra Allah-taalanın bu kəlamını oxudu: «Ya aclıq günündə yemək yedirtməkdir... [6]» [7]

3802. İmam Sadiq (ə): «Əmirəl-möminin(ə) yemək və qidalanma cəhətdən Allahın Rəsuluna (s) ən çox bənzəyən insan idi. Özü (arpa) çörək, sirkə və yağ yeyər, camaata isə (buğda) çörək və ət yedirərdi.»[8]

---

[1] Dəhr, ayə 8, 9
[2] Bələd, ayə 14-16
[3] Mişkətul-Ənvar, səh. 325
[4] Ğurərul-Hikəm , hədis9634
[5] əl-Məhasin, c.2, səh.143 , hədis1370
[6] Bələd, ayə14
[7] əl-Məhasin, c.2, səh.145, hədis1381
[8] əl-Məhasin, c.2, səh. 279 , hədis1901

**253**

# Təlaq

***1171. Təlağın pislənilməsi***

3803. Allahın Peyğəmbəri (s): «Allah-taala, təlaq qədər nifrət etdiyi heç bir şeyi halal etməmişdir.»[1]

3804. Allahın Peyğəmbəri (s): «Allah-taala daim öz zövqünü dəyişən kişi və qadınları düşmən bilər, ya Öz rəhmətindən uzaqlaşdırar.»[2]

3805. İmam Baqir (ə): «Allah-taala qadına çox təlaq verən və hər zaman da bir qadını sınaqdan çıxaran kişilərə nifrət edər.»[3]

3806. İmam Sadiq (ə): «Allahın halal buyurduğu şeylərdən Onun yanında təlaq kimi nifrət olunmuş qeyri bir şey yoxdur. Allah-taala çox qadına təlaq verən və hər zaman da bir qadını sınaqdan çıxaran kişini düşmən bilir.»[4]

3807. İmam Sadiq(ə): «Allah-taala, içində toy olan evi sevər və içində təlaq olan evi düşmən bilər. Allah yanında təlaqdan mənfur qeyri bir şey yoxdur.»[5]

***1172. Üç dəfə təlaqdakı hikmət***

**Quran:**

«Əgər (əri üçünçü dəfə) ona təlaq versə, başqa kişi ilə evlənməyincə ona halal olmaz. Əgər (ikinci əri) ona təlaq versə, (əvvəlki ər və arvad) Allahın hüdudlarını yerinə yetirə biləcəklərini başa düşdükləri təqdirdə (yeni bir kəbinlə) Bir-birinin yanına qayıtmalarında heç bir günah yoxdur. Bunlar anlayan bir camaat üçün Allahın açıqladığı hökmlərdir.» [6]

**Hədis:**

---

[1] Kənzul-Ummal , hədis27871
[2] əl-Kafi, c.6, səh. 54, hədis1
[3] əl-Kafi, c.6, səh.55, hədis 4.
[4] əl-Kafi, c.6, səh.54, hədis 2.
[5] əl-Kafi, c.6, səh.54, hədis 3.
[6] Bəqərə, ayə 230.

3808. İmam Rza (ə): *(«Nəyə görə «iddi» təlağı ilə (yəni üç dəfə təlaq verilmiş) qadın başqa kişi ilə evlənməyincə öz ərinə halal olmaz?» sualına cavabı):* «Allah-taala iki dəfəyə qədər təlağa icazə vermiş və buyurmuşdur: «Təlaq iki dəfədir. Ləyaqətlə saxlamaq, ya yaxşılıqla boşamaq.» Yəni, üçüncü təlaqda. Kişi üçüncü təlaqla Allahın xoşuna gəlməyən bir iş gördüyünə görə Allah-taala həmin qadını ona haram etmişdir. Başqa kişi ilə evlənməyincə qadını ona halal bilməmişdir ki, insanlar təlağa yüngül yanaşmasınlar və qadınlara ziyan dəyməsin.»[1]

3809. İmam Rza (ə) *(«üç dəfə təlağın səbəbi barədə Məhəmməd ibn Sənana yazdığı məktubunda):* «Üç dəfə təlağın müəyyən olunmasının səbəbi budur ki, birinci təlaqdan üçüncü təlaqa qədər ailə həyatını yenidən başlamağa meyl, rəğbət yaranması, ya əgər arada əsəbilik və qəzəb olmuşsa onun aradan getməsi, həmçinin qadınların görub ibrət götürməklə ərlərinə itaətsizlik etməkdən çəkinmələri üçün bir fürsət vardır. Çünki qadın ərinə itaətsizlik kimi nalayiq əməlinə görə ayrılmağa və təlağa layiq olmuşdur. Doqquz dəfə təlaqdan sonra qadının kişiyə əbədi haram olmasının səbəbi isə budur ki, kişi təlağı bir oyuncağa çevirməsin, qadına əziyyət verməsin, öz işlərində gözüaçıq, ibrətgötürən olsun və bilsin ki, doqquz dəfə təlaqdan sonra onunla birgə yaşamaq ona əbədi haram olacaq.»[2]

---

[1] Uyunu- Əxbar Reza(ə), c.2, səh.85, hədis 27.
[2] İləluş-Şəraye, səh.507, hədis1.

254

# Tamah

***1173. Tamahın pislənilməsi.***

3810. Allahın Peyğəmbəri (s): «Tamah alimin qəlbindən hikməti aparar.»[1]

3811. Allahın Peyğəmbəri (s): «Tamah elə sürüşkən qaya parçasıdır ki, alimlərin ayağı onun üzərində sabit qalmaz.»[2]

3812. Allahın Peyğəmbəri (s): «Tamahdan ehtiyatlı ol ki, o nəqd olan yoxsulluqdur.»[3]

3813. İmam Əli (ə) : «Tamahkarlıq əbədi köləlikdir.»[4]

3814. İmam Əli(ə): «Kim ömrünü azad yaşamaq istəyirsə öz qəlbində tamaha yer verməsin.»[5]

3815. İmam Əli(ə): «Tamahkar xarlığa düçar olubdur.»[6]

3816. İmam Əli(ə): «Kim tamah libasını əyninə geysə, özünü xar edər.»[7]

3817. İmam Əli(ə): «Tamahkardan zəlil adam yoxdur.»[8]

3818. İmam Əli(ə): «Ağılların ən sürüşkən yeri tamahların parıltısı altındadır.»[9]

3819. İmam Əli(ə): «Təqva və tamahkarlıq bir yerə sığmaz.»[10]

3820. İmam Baqir(ə): «Necə də pis bəndədir, rəhbəri tamah olan şəxs.»[11]

3821. İmam Kazım(ə) *(Hişama nəsihətindən):* «Tamahdan çəkin və insanların malına göz dikmə. Xalqa göz dikmək adətini öz qəlbindən çıxar.

---

[1] Kənzul-Ummal, Hədis 7576
[2] Tənbihul-Xəvatir, c.1, səh.49
[3] Kənzul-Ummal, Hədis 8852
[4] Nəhcül-Bəlağə, hikmət 180
[5] Tənbihul-Xəvatir, c.1, səh.49
[6] Şərhi Nəhcül-Bəlağə, c.19, səh.50
[7] Şərhi Nəhcül-Bəlağə, c.18, səh.84
[8] Ğurərul-Hikəm, Hədis 10593
[9] Şərhi Nəhcül-Bəlağə, c.19, hədis 41
[10] Ğurərul-Hikəm, hədis 10578
[11] əl-Kafi, c.2, səh.320, hədis 2

Çünki tamah hər zəlalətin açarıdır. O, əqli oğurlayar, insaniyyəti didər, abrı ləkələyər və elmi aradan götürər.»[1]

3822. İmam Hadi (ə): «Tamah çirkin xislətdir.»[2]

3823. İmam Əskəri (ə): «Necə də pisdir mömində onu xarlığa çəkən istəyin olması.»[3]

***1174. Yaxşı tamah.***

**Quran:**

«Yanlarını yataqlardan ayırarlar. Qorxudan və (ümidə) tamahla Öz Rəbblərini çağırar və onlara verdiyimiz ruzidən ehsan edərlər.»[4]

«Niyə Allaha və haqdan bizə tərəf gələnlərə iman gətirməyək? Halbuki Rəbbimizin bizi layiqlilərin cərgəsinə (cənnətə) çıxaracağına tamah salmışıq?»[5]

**Hədis:**

3824. İmam Səccad (ə) *(duada):* «Ey Ağam! Öz günahlarıma baxıram, qorxuram. Sənin bağışlamağına baxıram, (ümidə) tamahlanıram.»[6]

3825. İmam Səccad(ə) *(yenə də duada):* «İlahi! Sənə bəslədiyim çoxdankı ümidimə, Səndən umduğum böyük təmənnaya görə, Sənin Özünə vacib etdiyin mehribanlıq və rəhmətə xatir dərgahına dilək əllərimi açıram.»[7]

---

[1] Biharul-Ənvar, c.78, səh.315, hədis35.
[2] -d-Durrətul-Bahirə hədis 42
[3] Biharul-Ənvar, c.78, səh. 374, hədis35.
[4] Səcdə, ayə 16
[5] Maidə, ayə 84
[6] Biharul-Ənvar, c.98, səh.83, hədis 2
[7] İqbalul-Əmal c.1, səh.168

**255**

# Təharət və paklıq

***1175. Təharət (dəstəmaz, qüsl, təyəmmüm).***

3826. Allahın Peyğəmbəri (s): «Təharət imanın bir hissəsidir (ya yarısıdır).»[1]

3827. Allahın Peyğəmbəri (s): «Qiyamət günü bəndədən soruşulan birinci şey təharətdir.»[2]

3828. Allahın Peyğəmbəri (s): «Təharətsiz heç bir namaz qəbul olunmaz.»[3]

***1176. Pak edənlər.***

**Quran:**

«Öz rəhmətindən (yağışdan) qabaq müjdə verən küləkləri göndərən Odur. Səmadan pak edən suyu yerə endirdik.» [4]

**Hədis:**

***1. Su:***

3829. İmam Əli(ə): «Allah-taala suyu pak və pakedici yaratdı. Heç bir şey onun rəngini, ya dadını, ya da iyini dəyişməyincə onu nəcis etməz.»[5]

**2.Günəş:**

3830. İmam Baqir (ə): «Üzərinə günəşin şüası düşən hər bir şey pakdır.»[6]

**3.Torpaq:**

3831. İmam Sadiq(ə): «Allah-taala torpağı da su kimi pakedici qərar vermişdir.»[7]

---

[1] Kənzul-Ummal, hədis 25998
[2] Kənzul-Ummal, hədis 26010
[3] Kənzul-Ummal, hədis 26006
[4] Furqan, ayə 48
[5] Vəsailuş-Şiə c.1, səh.101, hədis9.
[6] Vəsailuş-Şiə c.2, səh.1043, hədis 6.
[7] əl-Fəqih, c.1, səh.109, hədis 224

**4.Od:**

3832. İmam Kazim(ə) *(«əgər gəci (qurumuş və basdırılmış) nəcis və ölünün sümüyü ilə birgə bişirsələr, sonra onunla məscidə (döşəməsinə) mala çəksələr həmin döşəmədə səcdə etmək olarmı»? sualının cavabında):* «Bəli, su və od onu pak etmişdir.»[1]

***1177. Mənəvi paklıq.***

**Quran:**

«Allah siz əhli-beytdən(ə) çırkabı aparıb sizi pak-pakizə etmək istəyir.»[2]

«Onların mallarından sədəqə götür ki, bunun vasitəsilə onları pak edərsən. Onlar üçün dua et ki, sənin duan onların sakitliyinə səbəb olar. Allah eşidən və biləndir.»[3]

**Hədis:**

3833. İmam Əli(ə): «Allah-taala imanı, şirkdən təmizlənmək üçün vacib etdi.»[4]

3834. İmam Əli (ə): «Həqiqətən, ilahi təqva sizin qəlblərinizin xəstəliyinin dərmanı və canlarınızın çirkabını pak edəndir.»[5]

3835. İmam Əli(ə): «Bir halda pak olmayandan qaçmırsınız, onda özünüzü eyblər və günahların çirkabından pak edin.»[6]

---

[1] əl-Kafi, c.3, səh.330, hədis 3.
[2] Əhzab, ayə 33
[3] Tövbə, ayə 103
[4] Nəhcül-Bəlağə, hikmət 252
[5] Nəhcül-Bəlağə, xütbə 198
[6] Ğurərul-Hikəm, hədis 3743

**256**

# İtaət

***1178. Allaha itaət və onun nəticəsi.***

**Quran:**

«Ey iman gətirənlər! Allaha itaət edin, onun Rəsuluna və öz əmr sahiblərinizə itaət edin.»[1]

**Hədis:**

3836. Allahın Peyğəmbəri (s): «Allah yanında olan məqama itaətdən başqa heç bir şeylə çatmaq olmaz.»[2]

3837. İmam Əli(ə): «Allaha itaət hər düzgünlüyün açarı və hər fəsadın islah səbəbidir.»[3]

3838. İmam Əli(ə): «Allahın rəhmətinə hamıdan çox layiq olan insan, Ona hamıdan çox itaət edəndir.»[4]

3839. İmam Əli(ə): «Nadanlığına dair dəlil gətirə bilmədiyiniz bir kimsəyə itaət etməyinizi, sizə tövsiyə edirəm.»[5]

3840. İmam Hadi(ə): «Yaradanın əmrinə itaət edən insan yaradılmışların qəzəb və narazılığından qoxmaz.»[6]

***1189. İtaətə layiq olanlar.***

3841. İmam Əli(ə): «Ağıllı adama itaət et ki, xeyir görəsən. Nadanın sözünə qulaq asma ki, salamat qalasan.»[7]

3842. İmam Əli(ə): «Elmə itaət et və nadanlığa tabe olma ki, nicat tapasan.»[8]

---

[1] Nisa, ayə 59
[2] Vəsailuş-Şiə, c.11, səh.182, hədis2.
[3] Ğurərul-Hikəm, hədis 6012
[4] Ğurərul-Hikəm, hədis 3192
[5] Biharul-Ənvar, c.70, səh.95, hədis1
[6] Biharul-Ənvar, c.78, səh.366, hədis2
[7] Ğurərul-Hikəm, hədis (2263+2264)
[8] Ğurərul-Hikəm, hədis 2309

3843. İmam Əli(ə): «Məxluqa itaət edib Yaradana itaətsizlik göstərənin dini yoxdur.»[1]

3844. İmam Əli(ə): «Özündən yuxarıdakına itaət et ki, səndən aşağıda olan da sənə itaət etsin.»[2]

3845. İmam Əli(ə): «Qəlbi Allaha müti olan şəxsin cismi Allaha itaətdən yorulmaz.»[3]

3846. İmam Hadi(ə): «Kim öz məhəbbət və fikrini sənin ixtiyarına versə, sən də öz itaətini onun ixtiyarına ver.»[4]

***1180. itaətə layiq olmayanlar.***

**Quran:**

«Və deyərlər: «Ey Rəbbim! Biz öz ağalarımıza və böyüklərimizə itaət etdik, onlarsa bizi doğru yoldan sapdırdılar. Ey Rəbbimiz! Onlara ikiqat əzab ver və böyük bir lənət et.»[5]

3847. Allahın Peyğəmbəri (s): «Kim Allahı narazı edən bir işi görməklə hansısa rəhbəri razı salsa, Allahın dinindən çıxmışdır.»[6]

3848. İmam Əli(ə): «Bax! Öz əsil-nəcabəti ilə lovğalanan və bununla özünü başqalarından üstün bilən ağalarınıza və böyüklərinizə itaət etməkdən çəkinin, çəkinin!... Onların bulanıq sularını öz duru suyunuzla birgə içdiyiniz, xəstəliklərini öz sağlamlığınızla qarışdırdığınız, batillərinə öz haqqınıza yol verdiyiniz və günahların əsası olan bu böyüklük iddiası edən ağılsızlara itaət etməyin.»[7]

3849. İmam Əli(ə): «İradəsi olmayan bir zəifə itaət edən haqq-hüququ zay edər, sözgəzdirənə qulaq asan dostunu əldən verər.»[8]

---

[1] Uyunu- Əxbarir- Reza (ə), c.2, səh.43, hədis 149
[2] Ğurərul-Hikəm, hədis 2475
[3] Biharul-Ənvar, c.78, səh.90, hədis 95
[4] Biharul-Ənvar, c.78, səh.365, hədis 4
[5] Əhzab, ayə 67, 68
[6] Uyunu-Əxbarir- Reza(ə), c.2, səh.69, hədis 318.
[7] Nəhcül-Bəlağə, xütbə 192
[8] Nəhcül-Bəlağə, hikmət 239

257

# Ətir

***1181. Ətir.***

3850. Allahın Peyğəmbəri (s): «Xoş ətir qəlbi (ya ruhiyyəni) gücləndirər və cinsi qüvvəni artırar.»[1]

3851. Allahın Peyğəmbəri (s): «Allaha xatir özünə ətir vuran şəxs qiyamət günü tünd iyli müşkdən də ətirli olar. Allahdan qeyrisinə görə özünə ətir vuran şəxs qiyamət günü murdardan da üfunətli iy verər.»[2]

3852. Ənəs ibn Malik: «Allahın Peyğəmbəri (s) bir ətir veriləndə onu geri qaytarmazdı.»[3]

3853. İmam Əli(ə): «Xoş ətir müalicə edəndir.»[4]

3854.İmam Sadiq(ə):«Ətir vurmaq peyğəmbərlərin sünnələrindəndir.»[5]

3855. İmam Sadiq(ə): «Allahın Rəsulu (s) ətirə, yeməkdən daha çox xərc çəkərdi.»[6]

3856. İmam Sadiq(ə): «Günün əvvəlində özünə ətir vuran şəxsin ağlı gecəyədək özündə olar.»[7]

3857. İmam Kazim(ə): «Yaxşı olardı ki, kişi hər gün xoş ətirdən istifadə etsin. Əgər hər gün bacarmasa, günaşırı ətir vursun və buna da imkanı çatmasa, cümə günləri onu tərk etməsin.»[8]

3858. İmam Rza(ə): «Ətir vurmaq peyğəmbərlərin əxlaqındandır.»[9]

***1182. Qadınların ətri.***

---

[1] əl-Kafi, c.6, səh.510, hədis 3
[2] Muhəctul-Beyza, c.8, hədis 105
[3] Sunəni-Nəsai, c.8, hədis 189
[4] Nəhcül-Bəlağə, hikmət 400
[5] əl-Kafi, c.6, səh.510, hədis2
[6] əl-Kafi, c.6, səh.512, hədis18
[7] əl-Kafi, c.6, səh.510hədis7
[8] əl-Kafi, c.6, səh.510, hədis4
[9] əl-Kafi, c.6, səh.510, hədis1

3859. Allahın Peyğəmbəri (s): «Qadın ətrinin rəngi aşkar, iyi isə gizlidir. Kişi ətrinin iyi aşkar və rəngi gizlindir.»[1]

3860. Allahın Peyğəmbəri (s): «Özünə ətir vuran və bir neçə kişinin yanından onun ətrini duyduqları halda keçən qadın zinakardır.»[2]

---

[1] əl-Kafi, c.6, səh.512, hədis17
[2] Sunəni-Nəsai, c.8, səh.153

**258**

# Bəd fal açmaq

***1183. Bəd fal açmaq.***

3861. Allahın Peyğəmbəri (s): «Kim falın bəd gəlməsinə görə öz işindən çəkinmişdirsə, Allaha şərik qoşmuşdur.»[1]

3862. Allahın Peyğəmbəri (s): «Səfərə çıxmaq üçün evini tərk edən, sonra bəd fala görə geri qayıdan şəxs Məhəmmədə (s) nazil olana küfr etmişdir.»[2]

3863. Allahın Peyğəmbəri (s): «Ən doğru fal, yaxşı (gələn) faldır.»[3]

3864. Allahın Peyğəmbəri(s): «Bəd fal açan, ya onun üçün bəd fal açılan şəxs (başqalarının ona açdığı bəd fala inamı olan), gələcəkdən xəbər verən, ya başqası onun gələcəyini deyəndə ona inanan, cadu edən, ya başqasına cadu etmək üçün falçıya və cadugərə müraciət edən şəxs bizdən deyil.»[4]

3865. Allahın Peyğəmbəri (s): «Bəd falın kəffarəsi təvəkküldür.»[5]

3866. Allahın Peyğəmbəri (s): «Nə bəd fal doğrudur, nə də nəhslik.»[6]

3867. «Biharul-Ənvar»: «Allahın Peyğəmbəri (s) falın yaxşı gəlməsini sevərdi. Falın bəd gəlməsini xoşlamazdı və buyurardı:Hər kəs nəzərinə uğursuz görünən xoşagəlməz bir şeylə qarşılaşanda desin: İlahi! Yaxşılığı Səndən başqa heç kəs verməz. Pisliyin qarşısını da, Səndən başqa heç kəs almaz və sənin köməyinlə olmayan heç bir hərəkət və qüvvə yoxdur.»[7]

---

[1] Kənzul-Ummal, hədis 28566
[2] Kənzul-Ummal, hədis 28570
[3] Kənzul-Ummal, hədis 2858
[4] ət-Tərğib vət-Tərhib, c.4, səh. 33,hədis4
[5] əl-Kafi, c.8, səh.198, hədis236
[6] Nurus-Səqəleyn, c.4, səh.382, hədis35
[7] Biharul-Ənvar, c.95, səh.2, hədis2

3868. İmam Sadiq (ə): «Bəd falın təsiri özündən asılıdır. Əgər ona yüngül yanaşsan, yüngül olar, ağır yanaşsan, ağır. Heç bir əhəmiyyət verməsən, heç nə olmaz.»[1]

[1] əl-Kafi, c.8, səh.197, hədis235

# 259

# Dırnaq

***1154. Dırnaq tutmaq.***

3869. Allahın Peyğəmbəri (s): «Dırnaqları tutmaq böyük xəstəliyin qarşısını alar və ruzini artırar.»[1]

3870. İmam Baqir (ə): «Dırnaqları tutmağın səbəbi, onların şeytanların yuvası və unutqanlığın mənşəyi olmasıdır.»[2]

3871. İmam Sadiq (ə): «Şeytanın insana hakim olmasının ən gizli və gözəgörünməz yolu onun dırnaqlarının altında yuva qurmasıdır.»[3]

***1185. Qadınları dırnaqlarını uzatmağa həvəsləndirmək.***

3872. «Əl-Kafi»: «Allahın Peyğəmbəri (s) kişilərə xitab edərək buyurdu: «Dırnaqlarınızı tutun.» Qadınlara da buyurdu: «Dırnaqlarınızı uzun saxlayın. Çünki, bu sizin üçün daha gözəldir.»[4]

---

[1] əl-Kafi, c.6, səh.490, hədis1
[2] əl-Kafi, c.6, səh.490, hədis6
[3] əl-Kafi, c.6, səh.490, hədis7
[4] əl-Kafi, c.6, səh.491, hədis15

**260**

# Zülmkarlıq

***1186. Zülmkarlıqdan çəkinmək.***

**Quran:**

«Allah-taala zalım xalqı hidayət etməz»[1]

«Həqiqətən, zalımlar nicat tapmayacaqlar.»[2]

**Hədis:**

3873. Allahın Peyğəmbəri (s): «Zülm etməkdən çəkinin ki, qəlblərinizi viran edər.»[3]

3874. Allahın Peyğəmbəri (s): «Qiyamət günü bəndə öz yaxşı əməllərinə görə sad halda məhşər ayağına çəkilər. Bir kişi gələr və deyər: «Ey Rəbbim! Bu bəndə mənə zülm etmişdir.» Bu zaman həmin bəndənin savabından götürülər və ədalət tələb edən kişinin savablarına əlavə edilər. Bu minvalla, zülm etdiyi insanlar bir-bir gəlib öz haqlarını tələb edərlər. Axırda, bəndəyə bir savab və xeyir əməl də qalmaz. Bundan sonra kim gəlib öz haqqını tələb etsə, onun günahlarından götürülüb həmin bəndənin günahlarına artırılar. Beləliklə, bəndə cəhənnəm oduna daxil olanadək insanların haqqı ondan götürülər.»[4]

3875. Allahın Peyğəmbəri (s): «Zülm etməkdən çəkinin ki, zülm qiyamət gününün zülmətləridir.»[5]

3876. İmam Əli (ə): «Zülmkarlıq ən çirkin alçaqlıqdır.»[6]

3877. İmam Əli(ə): «Zülmkarlıq addımları büdrədər, nemətlərdən məhrum edər və ümmətləri məhvə sürükləyər.»[7]

---

[1] Bəqərə, ayə 258
[2] Ənam, ayə 21, Yusif, ayə 23
[3] Kənzul-Ummal, hədis 7639
[4] əl-Bidayətu-vən-Nəhəyətu, c.2, səh. 55
[5] əl-Kafi, c.2, səh.333, hədis11
[6] Ğurərul-Hikəm, hədis 804
[7] Ğurərul-Hikəm, hədis 1734

3878. İmam Əli (ə)*(zülmə nifrətini açıqladığı xütbədə):* «And olsun Allaha, gecədən sübhədək dəvətikanı kolunun üstündə qalmağım və əlim-ayağım qandallı, zəncirlı halda sürüklənməyim, qiyamət günü Allah bəndələrindən birinə zülm, ya dünyanın alçaq malından ən xırda bir şeyi qəsb etmək günahına bulaşmış halda Allahın və Onun Rəsulunun (s) qarşısına çıxmaqdan mənimçün daha xoşdur. Necə ola bilər ki, ipi-sapı sürətlə çürüməyə doğru gedən və uzun zamanlar torpaq altında qalan bir cismə xatir kimsəyə zülm edim?»[1]

3879. İmam Əli(ə) *(həmin xütbədə):* «Allaha and olsun, əgər yeddi iqlimi, onun planetlərinin altında olan hər şeylə birlikdə, qarışqanın ağzından arpa dənəsinin qabığını götürməklə Allaha itaətsizlik etməyim şərtilə mənə versələr, heç vaxt bunu etmərəm.»[2]

3880. İmam Əli (ə): «Zülmdən ehtiyatlı ol ki, zülm edən hər bir şəxsin taleyi xoşagəlməz oldu.»[3]

3881. İmam Əli(ə): «Allahın nemətinin məhv olması, onun qəzəbinin və intiqamının tez gəlməsi üçün zülmdən təsirli heç nə yoxdur. Çünki, Allah-taala məzlumun duasını eşidir və daim zalımın pusqusundadır.»[4]

3882. İmam Əli(ə): «Kim zülm etsə ömrü (beli) sınar.»[5]

3883. İmam Əli(ə): «Kim zülmün miniyinə qalxsa, miniyi onu başıüstə yerə çırpar.»[6]

3884. İmam Əli(ə): «Kim zülm etsə, zülmü onu məhvə sürükləyər.»[7]

3885. İmam Sadiq(ə): «Allahın Rəsulu (s) qarışqanın ağzı və ayağı ilə daşıdığı hər bir şeyi yeməyi qadağan etmişdir.»[8]

### *1187. Zülmün növləri.*

3886. İmam Əli (ə): «Bilin ki, zülm üç növdür: heç vaxt bağışlanmayan zülm, sorğu-suala çəkilən zülm, bağışlanan və sorğu-sualı olmayan zülm. Heç vaxt bağışlanmayan zülm, Allaha şərik qoşmaqdır... Bağışlanan zülm, bəndənin bəzi kiçik günahlar etməklə özünə rəva bildiyi zülmdür. Nəhayət, sorğu-suala çəkilən zülm, bəndələrin Bir-birinə etdikləri zülmdür.»[9]

---

[1] Nəhcül-Bəlağə, xütbə 224
[2] Nəhcül-Bəlağə, xütbə 224
[3] Ğurərul-Hikəm, hədis 2638
[4] Nəhcül-Bəlağə, məktub 53
[5] Ğurərul-Hikəm, hədis 7940
[6] Ğurərul-Hikəm, hədis 5391
[7] Ğurərul-Hikəm, hədis 7835
[8] əl-Kafi, c.5, səh.307, hədis11
[9] Nəhcül-Bəlağə, xütbə 176

***1188. Zülmün ən çirkin növü.***

3887. Allahın Peyğəmbəri (s): «Allahdan başqa köməyi olmayan insana zülm edən şəxsə Allahın qəzəbi çox ağır olar.»[1]

3888. İmam Əli(ə): «Zəifə zülm etmək, zülmün ən çirkin növüdür.»[2]

3889. İmam Əli (ə) *(«Hansı günahın cəzası günahkara daha tez çatar?» sualının cavabında):* «Allahdan başqa köməyi olmayan insana zülm edənə, nemətlərin haqqını yerinə yetirməkdə səhlənkar olana, yoxsula zülm və təcavüz əlini uzadana.»[3]

3890. İmam Əli (ə): «Ən çirkin zülmlərdən biri alicənab insanlara zülm etməkdir.»[4]

3891. İmam Baqir (ə): «Əli ibn Hüseynin (ə) ölüm anı çatanda məni sinəsinə sıxıb buyurdu: Oğlum! Atam dünyadan köçərkən mənə tövsiyyə etdiyini və onun atası da ölüm anında ona verdiyi tövsiyyəni indi mən sənə tövsiyyə edirəm: Oğlum! Allahdan başqa köməyi olmayan insana, məbada zülm edəsən!»[5]

***1189. Zalıma möhlət vermək.***

3892. Allahın Peyğəmbəri (s): «Allah-taala zalıma o, «Allah məni öz ixtiyarıma buraxmışdır.» deyənə qədər möhlət verər. Sonra, ona şiddətli cəza verər. Allah-taala zalımları məhv edəndən sonra Özünə həmd söyləyib buyurmuşdur: Zülm edən insanların kökü kəsildi. Həmd olsun aləmlərin Rəbbi olan Allaha.»[6]

3893. İmam Baqir (ə): «Allah-taala iki söz arasında Firona 40 il möhlət verdi. Sonra ona axirət və dünya əzabını dadızdırdı. Allah-taala Musa (ə) və Haruna (ə) «Siz iki nəfərin duası müstəcab oldu» kəlməsini buyurduğu andan onun qəbul olunmasını Musaya məlum etdiyi vaxtadək 40 il çəkdi.»[7]

***1190. Zalımın peşmançılığı.***

**Quran:**

---

[1] Kənzul-Ummal, hədis 7605
[2] Nəhcül-Bəlağə, məktub 31
[3] Biharul-Ənvar, c.75,səh.320, hədis 43
[4] Ğurərul-Hikəm, hədis 9272
[5] əl-Kafi, c.2, səh.331, hədis 5
[6] Biharul-Ənvar, c.75, səh.322, hədis51
[7] Nurus-Səqəleyn, c.5, səh.500, hədis21

«O gün ki, zalım öz əllərinin arxasını dişləyər və deyər: Ey kaş, mən də peyğəmbərlə yoldaşlıq edəydim.» [1]

**Hədis:**

3894. Allahın Peyğəmbəri (s): «Zülm etmək peşmançılığın mənşəyidir.»[2]

3895. İmam Əli(ə): «Zalım üçün ədalət günü, məzluma zülm olunan gündən daha ağırdır.»[3]

3896. İmam Baqir (ə): «Məzlumun zalımın dinindən götürdüyü, zalımın məzlumun dünyasından aldığından daha çoxdur.»[4]

***1190. Zalıma kömək etməkdən çəkinmək.***

**Quran:**

«Zülm edənlərə meyl salmayın ki, cəhənnəm odu sizə yetişər və Allah qarşısında sizə dostlar tapılmaz, nəticədə sizə kömək olunmaz.» [5]

**Hədis:**

3897. Allahın Peyğəmbəri (s): «Qiyamət günü carçı car çəkər: «Haradadır, zalımlar və onların köməkçiləri? Zalımların mürəkkəbinə liqə (sap) qoyanlar, ya onların kisələrinin ağzını bağlayanlar, ya da onlar üçün qələmi mürəkkəbə batıranlar. Onların hamısını zalımlarla birlikdə qəbirlərdən qaldırın.»[6]

3898. İmam Sadiq(ə) «Zalım, onun köməkçisi və onun zülmünə razı olan şəxslərin hər üçü zülmdə şərikdir.»[7]

3899. İmam Sadiq (ə): «Əgər bəni Üməyyə onlara yazı yazdırmağa, ordularında vuruşmağa və yığıncaqlarına qatılmağa adam tapmasaydılar, heç vaxt bizi haqqımızdan məhrum edə bilməzdilər.»[8]

3900. İmam Sadiq (ə)*(«Zülm edənlərə meyl salmayın» ayəsi barədə)*: «Kim padşahın yanına gedib onun əlini cibinə salaraq, ona bir şey verənə qədər sağ qalmasını arzulayarsa, zalıma meyl etmişdir.»[9]

***1192. Məzluma kömək etməyə həvəsləndirmək.***

---

[1] Furqan, ayə 27
[2] Biharul-Ənvar, c.75, səh.322, hədis52
[3] Nəhcül-Bəlağə, hikmət 341
[4] Biharul-Ənvar, c.75, səh.311, hədis15
[5] Hud, ayə 113
[6] Biharul-Ənvar, c.75, səh.372, hədis17
[7] əl-Kafi, c.2, səh.333, hədis16
[8] əl-Kafi, c.5, səh.106, hədis4
[9] əl-Kafi, c.5, səh.108, hədis12

**Quran:**

«Kim xeyir işdə vasitəçi olarsa, onun bu işdə bir payı var. Kim pis işdə vasitəçi olarsa, həmin işdən ona heç bir fayda yoxdur və Allah hər şeyə qadirdir.»[1]

**Hədis:**

3901. Allahın Peyğəmbəri (s): «Kim məzlumun haqqını zalımdan alarsa, cənnətdə mənə dost və yoldaş olar.»[2]

3902. İmam Əli (ə): *(Həsən (ə) və Hüseynə (ə) xitabən):* «Haqqı deyin və savab üçün iş görün, zalıma düşmən və məzluma dost olun.»[3]

3903. İmam Kazim (ə) *(Əli ibn Yəqtinə xitab edərək)*: «Allah-taalanın zalımların dostlarının yanında dostları var və onların vasitəsilə öz dostlarını qoruyur. Sən, ey Əli, onlardan birisən.»[4]

***1193. Məzlumun duasından çəkinmək.***

3904. Allahın Peyğəmbəri (s): «Məzlumun duasından qorxun. Çünki, Allah-taala onun haqqını alacaq və Allah-taala heç bir haqq sahibini öz haqqından məhrum etməz.»[5]

3905. Allahın Peyğəmbəri (s): «Hərçənd kafir olsa belə, məzlumun duasından qorxun. Çünki, məzlumun duasına heç bir şey mane olmaz.»[6]

3906. İmam Əli (ə): «Oxların ən təsirlisi, məzlumun duasıdır.»[7]

---

[1] Nisa, ayə 85
[2] Biharul-Ənvar, c.75, səh.359, hədis75
[3] Biharul-Ənvar, c.100, səh.90, hədis75
[4] Biharul-Ənvar, c.75, səh.349, hədis56
[5] Kənzul-Ummal, hədis 7597
[6] Kənzul-Ummal, hədis 7602
[7] Ğürərul-Hikəm, hədis 2979

**261**

# Güman

***1194. Güman və əql.***

3907. İmam Əli (ə): «İnsanın gümanı onun əqli qədərdir.»[1]

3908. İmam Əli (ə): «Ağıllı insanın gümanı nadanın əminliyindən daha doğrudur.»[2]

3909. İmam Əli (ə): «Möminlərin ehtimalından və gümanlarından qorxun. Çünki, Allah-taala həqiqəti onların dillərində qərar vermişdir.»[3]

***1195. Qardaşının rəftarını ən yaxşı tərzdə qəbul et.***

3910. Allahın Peyğəmbəri (s): «Qardaşının söz və əməllərində bir üzr axtar və əgər tapmasan özün bir üzr düzəlt.»[4]

3911. İmam Əli(ə): «Sənə aydın olmayan bir əməlini görməyincə, qardaşının rəftarını ən gözəl tərzdə qəbul et. Onun ağzından çıxan sözə yaxşı yozum tapıncaya qədər ona bədgüman olma.»[5]

***1196. Xoşgümanlığın dəyəri.***

3912. İmam Əli (ə): «Xoşgümanlıq qəlbin və dinin sağlamlıq mənşəyidir.»[6]

3913. İmam Əli (ə): «Xoşgüman qəm-qüssəni azaldar və günahın tələsinə düşməkdən xilas edər.»[7]

3914. İmam Əli (ə): «Kim xalqa qarşı xoşgüman olsa, onların məhəbbətini qazanar.»[8]

---

[1] Ğurərul-Hikəm, hədis 6038
[2] Ğurərul-Hikəm, hədis 6040
[3] Nəhcül-Bəlağə, hikmət 309
[4] Biharul-Ənvar, c.75, səh.197, hədis 15
[5] Əmali-Səduq, səh.250, hədis 8
[6] Ğurərul-Hikəm, hədis 4816
[7] Ğurərul-Hikəm, hədis 4823
[8] Ğurərul-Hikəm, hədis 8842

3915. İmam Əli (ə): «Ən üstün təqva xoşgümanlıqdır.»[1]

***1197. Bədgümanlıqdan çəkinmək.***

**Quran:**

«Ey iman gətirənlər, çox gümanlardan uzaqlaşın. Çünki gümanların bəziləri günahdır." [2]

**Hədis:**

3916. Allahın Peyğəmbəri (s): «(Bəd) Gümandan çəkinin. Çünki, (bəd) güman yalanların yalanıdır.»[3]

3917. Allahın Peyğəmbəri (s): «Gümana düşdükdə, onun ətrafında axtarış və təhqiqat aparmayın. Paxıllığınız tutduqda, paxıllığın ardınca getməyin və fal bəd gəldikdə (ona əhəmiyyət vermədən) öz işinizi görün.»[4]

3918. İmam Əli (ə) *(Malik Əştəri Misirə vali təyin etdiyi fərmanında):* «Həqiqətən, xəsislik, qorxaqlıq və hərislik kökündə Allaha bədgümanlıq dayanan ayrı-ayrı xasiyyətlərdir.»[5]

3919. İmam Əli (ə): «İman bədgümanlıqla uyğun gəlməz.»[6]

3920. İmam Əli (ə): «Bədgümanlıq işləri korlayar və cürbəcür pis işlərə üz tutmağa səbəb olar.»[7]

3921. İmam Əli (ə): «Bədgümanlıqdan çəkin. Çünki, bədgümanlıq ibadəti korlayar.»[8]

3922. İmam Əli (ə): «Şər-xəta adam, heç kəsin barəsində yaxşı gümanda olmaz. Çünki, hamını özü xasiyyətdə və xislətdə görər.»[9]

***1197. Başqalarına bədgüman olmağa sövq edənlərdən çəkinmək.***

3923. İmam Əli (ə): «Özünü töhmət və bədgümanlıq hədəfinə çevirən şəxs, ona bədgüman olanları məzəmmət etməməlidir.»[10]

3924. İmam Əli(ə) «Pis yerlərə gedib-gəldiyinə görə ittiham olunan və özünü töhmət hədəfinə çevirən şəxs onun barəsində bədgüman olanları məzəmmət etməməlidir.»[1]

---

[1] Ğurərul-Hikəm, hədis 3027
[2] Hücurat, ayə 12
[3] Biharul-Ənvar, c.75, səh.195, hədis 8
[4] Kənzul-Ummal, hədis 7585
[5] Nəhcül-Bəlağə, məktub 53
[6] Ğurərul-Hikəm, hədis 10534
[7] Ğurərul-Hikəm, hədis 5575
[8] Ğurərul-Hikəm, hədis 2709
[9] Ğurərul-Hikəm, hədis 1903
[10] Əmali-Səduq, səh.250, hədis 8

3925. İmam Əli(ə): «Pis adamlarla yoldaşlıq, yaxşı insanlara bədgünmanlıqla nəticələnər.»[2]

3926. İmam Əli (ə): «Vəziyyəti və günü hamıdan pis olan şəxs, qəlbi qaralığına görə heç kəsə etimad etməyən və pis rəftarına görə də heç kəsin etimad etmədiyidir.»[3]

3927. İmam Əli (ə): «Nikbin olmayan şəxs hamıdan qaçar və tənha qalar.»[4]

***1199. Bədgüman olmağa icazə verilən hallar.***

3928. Allahın Peyğəmbəri (s): «Bədgümanlıqla özünüzü xalqın zərərindən qoruyun.» [5]

3929. İmam Əli (ə): «Zəmanəyə və xalqa doğruluq, paklıq hakim olanda kimsə başqasından bir günah əməl görmədiyi surətdə onun barəsində bədgüman olarsa, ona zülm etmişdir. Ancaq, fəsad və ədalətsizlik zəmanəyə, xalqa hakim kəsiləndə bir şəxs digərini yaxşı qəbul edib nikbin olarsa, aldanmışdır.»[6]

3930. İmam Kazim (ə): «Zülm və ədalətsizliyin haqq və doğruluqdan çox olduğu zəmanədə yaxşılığını bildiyi haldan başqa heç kəsin digəri barədə xoşgüman olması rəva deyil.»[7]

---

[1] Kənzul-Fəvaid, c.2, hədis 182
[2] Biharul-Ənvar, c.74, səh.197, hədis 31
[3] Kənzul-Fəvaid, c.2, hədis 182
[4] Ğurərul-Hikəm, hədis 9084
[5] Biharul-Ənvar, c.77, səh.158, hədis 142
[6] Nəhcül-Bəlağə, hikmət 114
[7] əl-Kafi, c.5, səh.298, hədis 2

## 262

# İbadət

***1200. İbadət.***

**Quran:**

«Cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım.»[1]

**Hədis:**

3931. Allahın Peyğəmbəri (s): «Ən yaxşı insan ibadətə aşiq olandır. Əllərini onun (ibadətin) boynundan sallayar, səmimi qəlbdən onu sevər, öz bədəni ilə ibadətini yerinə yetirər və özünü ona həsr edər. Həmin şəxsin dünya həyatının çətinliyindən, ya asanlığından heç bir qorxusu olmaz.»[2]

3932. Allahın Peyğəmbəri (s): «İnsanın məşğuliyyəti üçün ibadət kifayət edər.»[3]

3933. Allahın Peyğəmbəri (s): «Rəbbiniz buyurur: Ey Adəm övladı! Özünü mənim ibadətimə həsr et ki, sənin qəlbini ehtiyacsızlıq, əllərini də ruzi ilə doldurum. Ey Adəm övladı! Məndən uzaqlaşma ki, qəlbini yoxsulluq və əllərini çətinliklə dolduraram.»[4]

3934. İmam Əli (ə): «Allah bəndəni sevəndə ibadətin gözəlliyini onun qəlbinə salar.»[5]

3935. İmam Əli (ə): «Bəndəlik beş şeydədir: qarnını yeməkdən boş saxlamaqda, Quran oxumaqda, gecəni ibadətlə keçirməkdə, səhər çağı Allahın dərgahına ahu-zar etməkdə və Allah qorxusundan ağlamaqda.»[6]

***1201. İbadətdə Allahı tanımağın və yəqinliyn rolu.***

3936. Allahın Peyğəmbəri (s): «Yəqinlə olmayan heç bir ibadətin dəyəri yoxdur.»[7]

---

[1] Zariyat, ayə 56
[2] əl-Kafi, c.2, səh.83, hədis 3
[3] Tuhəful-Uqul, səh.35
[4] Kənzul-Ummal, hədis 43614
[5] Ğurərul-Hikəm, hədis 4066
[6] Müstədrəkul-Vəsail, c.11, səh.244, hədis 12875
[7] Kənzul-Fəvaid, c.1, səh.55

3937. Allahın Peyğəmbəri (s): «Allaha sanki onu görürsənmiş kimi ibadət et. Çünki, sən Onu görməsən də, O səni görür.»[1]

3938. İmam Əli (ə): «İdrak və Allahı tanıma olmayan ibadətdə heç bir xeyir yoxdur.»[2]

3939. İmam Səccad (ə): «İdrak və Allahı tanımaqla olan ibadətdən başqa ibadət yoxdur.»[3]

***1202. İbadətin növləri.***

3940. «Tənbihul-Xəvatir»: Məsih (ə) bir kişiyə buyurdu: «Nə iş görürsən?» Ərz etdi: «İbadət edirəm.» Buyurdu: «Bəs sənin dolanışığını kim təmin edəcək?» Ərz etdi: «Qardaşım.» Buyurdu: «Qardaşın səndən daha abiddir.»[4]

3941. Allahın Peyğəmbəri (s): «İbadət on hissədir, onun doqquzu halal ruzi dalınca getməkdir.»[5]

3942. Allahın Peyğəmbəri (s): «Övladın ata və anaya mehriban baxışı ibadətdir.»[6]

3943. Allahın Peyğəmbəri (s): «Alimə baxmaq ibadətdir, ədalətli rəhbərə baxmaq ibadətdir, ata-anaya mehriban və qayğıkeş baxış ibadətdir. Allaha xatir sevdiyin qardaşa baxmaq ibadətdir.»[7]

3944. Allahın Peyğəmbəri (s): «Allah barədə xoşgüman olmaq Allaha ibadətdir.»[8]

3945. İmam Əli (ə): «Səmaların və yerin mələkkutu barədə düşünmək ixlaslı bəndələrin ibadətidir.»[9]

3946. İmam Əli (ə): «Mülayim tərzdə danışmaq və insanlara salam vermək ibadətdir.»[10]

3947. İmam Sadiq (ə): «Hər ibadətdən üstün ibadət var və biz Əhli-Beyti sevmək ən üstün ibadətdir.»[11]

---

[1] Kənzul-Ummal, hədis 5250
[2] Tuhəful-Uqul, səh.204
[3] Tuhəful-Uqul, səh.280
[4] Tənbihul-Xəvatir, c.1, səh.65
[5] Biharul-Ənvar, c.103, səh.18, hədis 81
[6] Tuhəful-Uqul, səh.46
[7] Əmaliyət-Tusi, səh.454, hədis 1015
[8] -d-Durətul Bahirə, səh.15
[9] Ğurərul-Hikəm, hədis 1792
[10] Ğurərul-Hikəm, hədis 3421
[11] ən-Məhasin, c.1, səh.247, hədis 462

***1203. Abidlərin növləri.***

3948. İmam Sadiq (ə): «İbadət edənlər üç dəstədir. Bir dəstə Allaha qorxudan ibadət edər, bu qulların ibadətidir. Bir dəstə Allah-taalaya savab üçün ibadət edər, bu muzd alanların ibadətidir. Bir dəstə də eşq və məhəbbətə görə Allaha ibadət edər ki, bu azad insanların ibadəti və ən üstün ibadətdir.»[1]

3949. İmam Sadiq (ə): «Kim Allaha qarşı günah işlətməklə bir şəxsə itaət edərsə, hər an ona bəndəlik etmişdir.»[2]

3950. İmam Cavad (ə): «Kim bir söz danışana qulaq asarsa, ona bəndəlik etmişdir. Əgər danışan Allah kəlamını söyləyərsə, eşidən də Allaha ibadət etmişdir. Əgər şeytanın tərəfindən danışsa, şeytana ibadət etmişdir.»[3]

***1204. Ən üstün ibadət.***

3951. Allahın Peyğəmbəri (s): «Ən üstün ibadət fiqhdir (dini dərk etməkdir).»[4]

3952. Allahın Peyğəmbəri (s): «Ən çox savabı olan ibadət gizli ibadətdir.»[5]

3953. Allahın Peyğəmbəri (s): «Haram yeməklə qarışıq olan ibadət qum üstündə (başqa sözlə desək, su üzərində) tikilən bina kimidir.»[6]

3954. İmam Əli (ə): «Ən üstün ibadət günahlardan çəkinməkdir.»[7]

3955. İmam Əli (ə): «Ən üstün ibadət adətə qalib gəlməkdir.»[8]

3956. İmam Əli(ə): «Ən üstün ibadət dünyaya meyl etməməkdir.»[9]

3957. İmam Sadiq (ə): «Ən üstün ibadət Allahı tanımaq və Ona müti olmaqdır.»[10]

3958. İmam Sadiq (ə): «Ən üstün ibadət daim Allah və Onun qüdrəti barədə düşünməkdir.»[11]

3959. İmam Sadiq (ə): «Allaha and olsun, möminin haqqını yerinə yetirməkdən üstün heç bir şeylə Allah-taalaya ibadət olunmayıb.»[12]

---

[1] əl-Kafi, c.2, səh.84, hədis 5
[2] əl-Kafi, c.2, səh.398, hədis 8
[3] əl-Kafi, c.6, səh.434, hədis 24
[4] əl-Xisal, səh.30, hədis 104
[5] Qurbul-Əsnad, səh.135, hədis 475
[6] İddətud-Dai, səh.141
[7] əl-Kafi, c.2, səh.468, hədis 8
[8] Ğurərul-Hikəm, hədis 2873
[9] Ğurərul-Hikəm, hədis 2872
[10] Tühəful-Uqul, səh.364
[11] əl-Kafi, c.2, səh.55, hədis 3
[12] əl-İxtisas, səh.28

3960. İmam Sadiq (ə): «Ən abid insan vacib əməlləri yerinə yetirəndir.»[1]

3961. İmam Rza (ə): «İbadət çoxlu namaz qılmaq və oruc tutmaq deyil. İbadət, əslində Allahın işi barədə çox düşünməkdir.»[2]

3962. İmam Cavad (ə): «Ən üstün ibadət ixlasdır.»[3]

### *1205. İbadətdə xoş əhval.*

3963. Məsih (ə): «Həqiqətən, sizə deyirəm: Xəstə şəxs yaxşı və ləziz xörəyə baxıb kəskin ağrıya görə ondan bir ləzzət almadığı kimi, dünyapərəst də dünya malına məhəbbətə görə ibadətdən ləzzət almır və onun şirinliyini dadmır.»[4]

3964. Allahın Peyğəmbəri (s): «İbadətin bəlası süstlükdür.»[5]

3965. İmam Sadiq (ə): «İbadəti öz canlarınıza yükləməyin.»[6]

---

[1] əl-Xisal, səh.16, hədis 56

[2] Tuhəful-Uqul, səh.442

[3] Tənbihul-Xəvatir, c.2, səh.109

[4] Tuhəful-Uqul, səh.507

[5] Tuhəful-Uqul, səh.6

[6] əl-Kafi, c.2, səh.86, hədis 2

**263**

# İbrət götürmə

***1206. İbrətlərdən öyüd almaq.***

**Quran:**

«Beləliklə, ey bəsirət əhli, ibrət götürün.» [1]

**Hədis:**

3966. Allahın Peyğəmbəri (s): «İbrət götürün ki, sizdən əvvəlkilərdə ibrət dərsləri var.»[2]

3967. İmam Əli (ə): «Mömin dünyaya ibrət gözü ilə baxar və çarəsizlikdən ondan yemək götürər.»[3]

3968. İmam Əli (ə): «Nadanlıq edən şəxsin nəsihət götürməyi az olar.»[4]

3969. İmam Əli (ə): «İbrət götürmək ən doğru ayıqlıq gətirəndir. Düşünən insan ibrət götürər. Kim ibrət götürsə, günahlardan və məhvedici amillərdən kənar durar və kənara çəkilən salamat qalar.»[5]

3970. İmam Əli (ə): «İbrət götürmək doğru yola aparar.»[6]

3971. İmam Əli (ə): «İbrət götürən şəxs gözüaçıq olar. Gözüaçıq olan dərrakəli olar və dərrakəli olansa hər şeyi bilər.»[7]

***1207. İbrət öyrədən amillər.***

**Quran:**

«Onların əhvalatlarında əql sahibləri üçün ibrət vardır.»[8]

«Allah gecə və gündüzü dolandırar. Həqiqətən, bu işdə bəsirət əhli üçün ibrət vardır.» [9]

---

[1] Həşr, ayə 2
[2] Kənzul-Fəvaid, c.2, səh.31
[3] Nəhcül-Bəlağə, hikmət 367
[4] Ğurərul-Hikəm, hədis 7837
[5] Biharul-Ənvar, c.78, səh.92, hədis 101
[6] Biharul-Ənvar, c.78, səh.92, hədis 101
[7] Nəhcül-Bəlağə, hikmət 208
[8] Yusif, ayə 111
[9] Nur, ayə 44

**Hədis:**

3972. İmam Əli (ə): «Dünyadakı hadisə və dəyişkənliklərdə ibrət dərsi var.»[1]

3973. İmam Əli (ə): «Əgər özünün tələf etdiyin keçmiş ömründən ibrət götürsən, şübhəsiz ki, qalan ömrünü qorumusan.»[2]

3974. İmam Əli (ə): «Allahın iblisə etdiyindən nəsihət götür. Belə ki, onun uzunmüddətli əməlini və böyük səylərini bərbad etdi.»[3]

3975. İmam Əli (ə): «Allahın əzabından və Onun sizdən əvvəlki asi xalqlara göndərdiyi bəla və cəzalardan ibrət götürün.»

3976. İmam Əli (ə): «Necə də çox ibrət, necə də az ibrət götürən var.»[4]

3977. İmam Səccad (ə): «Zavallı insan! Hər gün başına üç müsibət gələr, amma heç birindən də ibrət götürməz. Əgər ibrət götürsəydi dünyanın çətinlikləri və işləri ona asan gələrdi. Birinci müsibət, onun ömründən azalan bir gündür. Onun malından bir şey azalarsa qəmli olar. Halbuki, malın varisi var, ancaq ömürdən itirilənlərin yerini doldurmaq mümkün deyil.

İkinci müsibət budur ki, öz ruzisini tam şəkildə əldə edir. Əgər halal yolla olsa hesab-kitabını verəcək, haram yolla olsa cəzasını çəkəcək.

Üçüncü müsibət bunlardan böyükdür.» Ərz etdilər: «O nədir?» Buyurdu: «Keçirdiyi elə bir gecə-gündüz yoxdur ki, axirətə bir mənzil daha yaxınlaşmasın. Amma bilmir cənnətə tərəf, ya cəhənnəmə?»[5]

***1208. İbrət götürməyin səmərəsi.***

3978. İmam Əli (ə): «İbrət götürmək insanı (günahdan və xətadan) qoruyar.»[6]

3979. İmam Əli (ə): «Daim ibrət götürmək qəlbin bəsirətinə gətirib çıxarar və günahlardan, xətalardan çəkinməklə nəticələnər.»[7]

3980. İmam Əli (ə): «Kimin ibrət götürmək qabiliyyəti çox olsa, büdrəyişləri az olar.»[8]

---

[1] Ğurərul-Hikəm, hədis 6453
[2] Ğurərul-Hikəm, hədis 7589
[3] Nəhcül-Bəlağə, xütbə 192
[4] Nəhcül-Bəlağə, hikmət 297
[5] Biharul-Ənvar, c.78, səh.160, hədis 20
[6] Ğurərul-Hikəm, hədis 879
[7] Ğurərul-Hikəm, hədis 5150
[8] Ğurərul-Hikəm, hədis 8056

**264**

# Xudpəsəndlik

***1209. Xudpəsəndlik.***

3981. İmam Əli (ə): «Heç bir tənhalıq xudpəsəndlik qədər qorxu yaradan deyil.»[1]

3982. İmam Əli (ə): Xudpəsəndlik çatışmazlıqları üzə çıxarar.»[2]

3983. İmam Əli (ə): «Xudpəsəndlik axmaqlıqdır.»[3]

3984. İmam Əli (ə): «Ona görə Allahın yanında narahat olacağın günah, xudpəsəndliyə və qürura düçar edəcək yaxşı əməldən yaxşıdır.»[4]

3985. İmam Əli (ə): «Məbada özündən razı olasan. Belə olan halda səndən narazılar çox olar.»[5]

3986. İmam Əli (ə): «Xudpəsəndliyin meyvəsi düşmənçilik və kindir.»[6]

3987. İmam Əli (ə): «Xudpəsəndlik düzgün fikirləşməyin düşməni və ağılların bəlasıdır.»[7]

3988. İmam Əli (ə): «Xudpəsəndlik ağlı korlayar.»[8]

3989. İmam Əli (ə): «Xudpəsəndlik tərəqqi və kamala maneədir.»[9]

3990. İmam Baqir (ə) və ya İmam Sadiq (ə): «Allah-taala buyurur: Bəndələrdən bəziləri, onları sevməyim üçün Məndən ibadətin uğurunu nəsibləri etməyimi diləyir. Ancaq bunu onlara nəsib etmərəm ki, məbada öz əməllərindən qürur duyar və xudpəsəndliyə düçar olarlar.»[10]

3991. İmam Sadiq (ə): «Kimə xudpəsəndlik yol taparsa puç olar.»[11]

---

[1] Nəhcül-Bəlağə, hikmət 113
[2] Ğurərul-Hikəm, hədis954
[3] Ğurərul-Hikəm, hədis 62
[4] Nəhcül-Bəlağə, hikmət 46
[5]Ğurərul-Hikəm, hədis 2642
[6] Ğurərul-Hikəm, hədis 4606
[7] Tuhəful-Uqul, səh.74
[8] Ğurərul-Hikəm, hədis 726
[9] Nəhcül-Bəlağə, hədis 167
[10] əz-Zohdu lil-Hoseyn ibn Səid, səh.68, hədis 179
[11] əl-Kafi, c.2, səh.313, hədis 2

***1210. Özünün yaxşı əməllərini az bilməyə həvəsləndirmək.***

3992. Allahın Peyğəmbəri (s)*(Ağıllıları təsvir edərkən):* «Başqalarının azacıq yaxşılıqlarını çox sayar, özlərinin çox yaxşılıqlarını az bilərlər.»[1]

3993. İmam Baqir (ə): «Nəfsin Allaha çox ibadət etsə də, yenə onu az bil ki, bu yolla nəfsini rəzil edib özünü (Allahın) əfvinə çatdırasan.»[2]

3994. İmam Sadiq (ə): «İblis *(Allah ona lənət etsin)* öz qoşununa dedi: Üç işdə Adəm övladına üstün gəlsəm, onun nə edəcəyindən qorxum olmaz. Çünki, onun əməlləri artıq qəbul olunmayacaq: Əməlini çox hesab etsə, günahını unutsa və xudpəsənd olsa.»[3]

***1211. Xudpəsəndliyin dərmanı.***

3995. İmam Əli (ə): «Adəm övladının xudpəsəndliklə nə işi? Başlanğıcı iylənmiş bir su, sonu murdar bir leş, bunların arasında isə nəcasətlərin kisəsidir.»[4]

3996. İmam Baqir (ə): «Xudpəsəndlik yolunu özünü tanımaqla bağla.»[5]

3997. İmam Sadiq (ə): «Sirat körpüsündən keçmək həqiqətsə, bəs onda xudpəsəndlik nəyə lazım?!»[6]

---

[1] Mostədrəkul-Vəsail, c.1, səh.132, hədis 184
[2] Tuhəful-Uqul, səh.285
[3] əl-Xisal, səh.112, hədis 86
[4] Ğurərul-Hikəm, hədis 9666
[5] Tuhəful-Uqul, səh. 285
[6] Əmali-Səduq, səh.16, hədis 5

**265**

# Möcüzə

***1212.Möcüzə.***

3998. İmam Sadiq (ə): «Möcüzə Allahın bir nişanəsidir. Onu doğru danışanın düz sözünün yalançının yalanından ayrılması üçün yalnız peyğəmbərlərə, mələklərə və öz hüccətlərinə göstərər.»[1]

***1213. Peyğəmbərlərin möcüzələrindəki fərqlərin hikməti.***

3999. İmam Hadi (ə)*(Musanın əsa, nurani əl və caduya qarşı vasitələrlə, İsanın təbabət vasitələri və Məhəmmədin (Ona, əhli-beytinə və bütün peyğəmbərlərə Allahın salamı olsun) söz və kəlamla göndərilməsinin səbəbi haqda ibn Sikkitin sualına cavabından):* «Allah Musanı (ə) göndərəndə cadugərlər zəmanə əhlinə qalib gəlmişdi. O, Allah tərəfindən camaata elə bir şey gətirdi ki, onların qüdrətindən xaric idi. Onun vasitəsi ilə cadugərlərin cadusunu batil və hüccəti onlara sübut etdi. İsaya xroniki xəstəliklərin geniş yayıldığı, camaatın onların müalicəsinə ehtiyacı olduğu vaxt peyğəmbərlik verdi. İsa da Allahın tərəfindən, onlar üçün onlarda bənzəri olmayan bir şey gətirdi. O, Allahın izni ilə ölüləri diriltdi, anadangəlmə korlara və ala xəstəliyinə tutulmuşlara şəfa verdi və bu vasitə ilə hüccəti onlara sübuta yetirdi. Məhəmmədi (s) kəlam və xitabətin (gümanımca «şer»i də buyurdu) geniş yayıldığı bir vaxt göndərdi. O Həzrət Allah dərgahınndan hikmətlər, moizələr gətirdi və bu vasitəsə ilə onların sözlərini batil etdi və hüccəti onlara sübut etdi.»[2]

---

[1] İləluş-Şərayi, səh.122, hədis 1
[2] əl-Kafi, c.1, səh.24, hədis 20

**266**

# Tələskənlik

***1214.Tələskənlik.***

**Quran:**

«Adəm tələsməkdən yaradılmışdır. Tezliklə öz nişanələrimizi sizə göstərəcəyik. Onda (əzabı) məndən tələsik istəməyin.»[1]

«Adəm xeyri də çağırar (bunun kimi də), pisi (hadisələri) də. İnsan tələskəndir.»[2]

**Hədis:**

4000. Allahın Peyğəmbəri(s): «Əslində camaatı tələskənlik məhvə sürükləmişdir. Camaat sakit və tələskənlikdən uzaq olsaydı, heç kəs məhv olmazdı.»[3]

4001.Allahın Peyğəmbəri(s): «Sakitlik Allahdan (sifətlərindən), tələskənlik isə şeytandandır (sifətlərdəndir).»[4]

4002. İmam Əli (ə): «Tələskənlik büdrəməyə səbəb olar.»[5]

4003. İmam Əli (ə): «Tələskənlikdə büdrəyişlər çox olar.»[6]

4004. İmam Sadiq (ə): «Sakitlik və lənglikdə (xəta və büdrəməkdən) sağlamlıq, tələskənlikdə peşmançılıq var.»[7]

***1215. Yaxşı işlərə tələsmək.***

4005. Allahın Peyğəmbəri (s): «Allah tələsik görülən xeyir işi sevər.»[8]

---

[1] Ənbiya, ayə 37
[2] İsra, ayə11.
[3] əl-Məhasin, c.1, səh. 340, hədis 697
[4]əl-Məhasin, c.1, səh. 340, hədis 698
[5] Ğurərul-Hikəm, hədis 432
[6] Ğurərul-Hikəm, hədis 9470
[7] əl-Xesal, səh.100, hədis52.
[8] əl-Kafi, c.2, səh.142, hədis4

4006. Allahın Peyğəmbəri (s): «Lənglik hər işdə bəyənilib, ancaq yaxşı iş görməyə yaranan fürsətlərdən başqa.»[1]

4007. İmam Sadiq (ə): «Atam buyurardı: Yaxşı iş görmək niyyətində olanda tələs. Çünki, nə olacağını bilmirsən.»[2]

[1] Ğurərul-Hikəm, hədis1937
[2] əl-Kafi, c.2, səh.142, hədis3

**267**

# Ədalət

***1216.Ədalətin dəyər-qiyməti.***

4008. İmam Əli (ə): «Ədalət bütün varlığın onun üzərində qurulduğu bir bünövrədir.»[1]

4009. İmam Əli (ə): «Pak olan Allah, ədaləti camaatın (həyatına) güc-qüvvə verəninə, haqqı tapdalamaqdan və günahlardan uzaq durmaq, İslamda asanlıq və açılış üçün bir vasitəyə çevirmişdir.»[2]

4010. İmam Əli (ə): «Ədalət camaatı ayaq üstə saxlayan və hökmranların ziveridir.»[3]

4011. İmam Əli (ə): «Ədalət dövlətlərin sipəridir.»[4]

4012. İmam Əli (ə): «İnsanların işi ədalətlə islah olar.»[5]

4013. İmam Əli (ə): «Ədalətin səbəbinə bərəkət ikiqat artar».[6].

4014. İmam Əli (ə): «Ədalət idarəçiliyin nizam-intizamıdır.»[7]

4015. İmam Əli (ə): «Heç bir şey, şəhərləri ədalət qədər abad etməz.»[8]

4016. İmam Əli (ə) *(«Ədalət üstündür, yoxsa səxavət?» sualına cavabından):* «Ədalət hər şeyi öz yerinə qoyur, səxavət isə işləri məcrasından çıxarır. Ədalət əhatəli siyasətdir, ancaq səxavət xüsusi bir haldır (və məhdud sayda fərdlərə şamil olunur). Deməli, ədalət onların ən şərafətlisi və üstünüdür.»[9]

4017. Xanım Fatimeyi- Zəhra (ə): «Allah ədaləti qəlblərin rahatlığı üçün vacib buyurmuşdur.»[10]

---

[1] Mətalibul-Suul, səh.61
[2] Ğurərul-Hikəm, hədis 4789
[3] Ğurərul-Hikəm, hədis1954
[4] Ğurərul-Hikəm, hədis 1873
[5] Ğurərul-Hikəm, hədis 4215
[6] Ğurərul-Hikəm, hədis 4211
[7] Ğurərul-Hikəm, hədis 774
[8] Ğurərul-Hikəm, hədis 9543
[9] Nəhcül Bəlağə, hikmət437
[10] İləlül Şəraye, səh.248, hədis 2

4018. İmam Sadiq (ə): «Ədalət susuz insanın çatdığı sudan daha şirindir.»[1]

4019. İmam Sadiq (ə): «Ədalət baldan şirin, kərədən yumşaq və müşkdən ətirlidir.»[2]

***1217. Ədalətli insanın xüsusiyyətləri.***

4020. Allahın Peyğəmbəri (s): «Kim camaata qarşı rəftarında onlara zülm etməsə, onlarla söhbət edəndə yalan danışmasa, vəd verdikdə vədinə xilaf çıxmasa insanlığı kamil, ədaləti aşkar, dostluğu vacib və qeybəti haramdır.»[3]

4021. Allahın Peyğəmbəri (s): «Adil o şəxsdir ki, özü ilə necə rəftar edilməsini istəyirsə camaatla da o cür rəftar etsin.»[4]

***1218. Düşmənlə ədalətli rəftara tövsiyə olunması.***

**Quran:**

«Ey iman gətirənlər! Allaha görə qiyam edin və ədalətə şəhadət verin. Bir dəstə ilə düşmənçiliyiniz sizi ədalətsizliyə vadar etməsin. Ədalət təqvaya daha yaxındır və Allahdan qorxun. Həqiqətən, Allah işlərinizdən agahdır.»[5]

**Hədis:**

4022. İmam Əli (ə)*(əziz övladı Həsənə (ə)tövsiyyəsindən):* «Sənə varlı və ya yoxsul olanda Allahın qarşısında təqvalı olmağı və dosta-düşmənə qarşı ədaləti gözləməyi tövsiyyə edirəm.»[6]

***1219.İnsanların ən ədalətlisi.***

4023. İmam Əli (ə): «İnsanların ən ədalətlisi qüdrətli ola-ola insafı gözləyəndir.»[7]

4024. İmam Əli (ə): «Xalqın ən ədalətlisi hamıdan daha haqlı qərar verəndir.»[8]

4025. İmam Əli (ə): «Ədalətin son zirvəsi insanın özü ilə ədalətli rəftar etməsidir.»[1]

---

[1] əl-Kafi, c.2, səh.146, hədis11
[2] əl-Kafi, c.2, səh.147, hədis15
[3] əl-Xisal, səh.207, hədis 28
[4] Kənzul-Fəvaid, c.2, səh.162
[5]Maidə, ayə 8
[6]Tuhəful-Uqul, səh.88
[7] Ğurərul-Hikəm, hədis 3242
[8] Ğurərul-Hikəm, hədis 3014

[1] Ğurərul-Hikəm, hədis 6368

**268**

# Düşmənçilik

***1220. Bir-biri ilə düşmənçiliyin yasaq olunması.***

4026. Allahın Peyğəmbəri (s): «Cəbrayıl (ə) heç bir şey barədə camaatla düşmənçilikdən uzaq durmaq qədər mənə tövsiyyə vermədi.»[1]

4027. Allahın Peyğəmbəri (s): «Bütpərəstlik mənə yasaqlanandan sonra heç bir şey camaatla çəkişmək qədər qadağan olunmadı.»[2]

4028. Allahın Peyğəmbəri (s): «Kim camaatla dava-dalaş etsə, mürvəti itər və hörməti yox olar.»[3]

4029. İmam Əli (ə): «Nadanlığın zirvəsi camaatla düşmənçilikdir.»[4]

4030. İmam Baqir (ə): «Dava-dalaşdan çəkinin. Çünki, bu iş ürəyi puç edər və nifaq yaradar.»[5]

***1221. Düşmənçilik toxumu.***

4031. İmam Əli (ə): «Düşmənçiliyin səbəbi düşüncəsizlikdir.»[6]

4032. İmam Əli (ə): «Hər bir şeyin toxumu var. Düşmənçiliyin toxumu da zarafatdır.»[7]

***1222. Düşmənçiliyə layiq olanlar.***

**Quran:**

«Ey iman gətirənlər! Əslində arvad və uşaqlarınızın bəziləri sizin düşmənlərinizdir. Onlardan çəkinin. Güzəşt edib göz yumsanız və günahlarını bağışlasanız, Allah həqiqətən bağışlayan və mehribandır.»[8]

**Hədis:**

---

[1] əl-Kafi, c.2, səh.302, hədis 11
[2] Tuhəful-Uqul, səh. 42
[3] Əmali-Tusi, səh.512, hədis 1119
[4] Ğurərul-Hikəm, hədis 5247
[5] Hilyətul-Övliya, c.3, səh.184, hədis235
[6] Ğurərul-Hikəm, hədis 7316
[7] Ğurərul-Hikəm, hədis 6302
[8] Təğabun, ayə14.

4033. İmam Əli (ə): «İnsanın qarnı onun düşmənidir.»[1]

4034. İmam Cavad (ə): «Sənin ürəyinin istəklərinə tabe olduğuna görə doğru yolu səndən gizlədən, şübhəsiz ki, səninlə düşmənçilik etmişdir.»[2]

***1223. Düşmənlərin ən düşməni.***

4035. Allahın Peyğəmbəri (s): «Sənin ən yağı düşmənin, iki böyrünün arasında olan nəfsindir.»[3]

4036. İmam Əli (ə): «İnsanların ən yağı düşməni, onun qəzəb və şəhvətidir. Kim bu ikisinə üstün gəlsə, məqamı yüksələr və öz məqsədinə çatar.»[4]

***1224. Özünü düşməndən amanda saymaq olmaz.***

4037. İmam Əli (ə): «Kim öz düşmənindən qafil olsa, təxribatlar onu qabağına qatıb aparar.»[5]

4038. İmam Əli (ə): «Kim (öz düşmənindən) qafil olsa, (düşmənləri) ondan qafil olmazlar.»[6]

4039. İmam Əli (ə): «Heç bir düşməni aşağı tutma, aciz olsa belə.»[7]

***1225. Düşmənlərin barışığını qazanmaq.***

4040. İmam Əli (ə): «Kim öz düşmənini barışığa doğru çəksə, özününkülərin (dost və yavərlərinin) sayını artırar.»[8]

4041. İmam Əli (ə): «Kim öz düşmənini barışığa çəksə, muradına çatar.»[9]

***1226. Düşmənlərə qarşı münasib silah.***

4042. Loğman (ə) *(Övladına tövsiyəsindən):* «Övladım! Düşmənə qarşı silahlanmalı və nəticədə onu yerə sərməli olduğun şeylərdən biri də budur

---

[1] Ğurərul-Hikəm, hədis 4424
[2] Əlamuddin, səh. 309
[3] Tənbihul- Xəvatir, c.1, səh.259.
[4] Ğurərul-Hikəm, hədis 3269
[5] Ğurərul-Hikəm, hədis 8672
[6] Nəhcül Bəlağə, məktub 62.
[7] Ğurərul-Hikəm, hədis 10216
[8] Ğurərul-Hikəm, hədis 8203
[9] Ğurərul-Hikəm, hədis 8043

ki, onunla yağlı, yumşaq dillə danışasan ki, içindəkilər ona aşkar olmasın və özünü sənə qarşı hazırlamasın.»[1]

***1227. Camaatın bilmədiyi şeylə düşmənçiliyi.***

4043. İmam Əli (ə): «Camaat bilmədiyi şeyin düşmənidir.»[2]

---

[1] Əmali-Səduq, səh.532, hədis5

[2] Nəhcül Bəlağə, hikmət 172 və 438

# 269

# Üzr istəmək

***1228. Üzrxahlığa səbəb olan işlərdən çəkinmək.***

4044. «Misbahul Şəriyyə»: *(Allahın Peyğəmbəri)* Buyurmuşdur: «Onun səbəbinə üzr istəyəcəyin işdən çəkin. Çünki, onda bir şirk gizlənmişdir.»[1]

4045. İmam Hüseyn (ə): «Ona görə üzr istəyəcəyin işdən çəkin. Çünki, mömin nə pislik edər, nə də üzr istəyər. Münafiq isə hər gün pislik edər və üzr istəyər. »[2]

4046. İmam Sadiq (ə): «Mömininin özünü xar etməsi yaraşan iş deyil.» Ərz etdim: «Özünü necə xar edər?»Buyurdu: «Üzr istəməsinə səbəb olacaq iş görməklə.»[3]

***1229. Üzr diləyənin üzrünü qəbul etməyə həvəsləndirmək.***

4047.Allahın Peyğəmbəri (s): «Kimsə başqasının üzrxahlığını- istər əsaslı olsun, istərsə də, əsassız- qəbul etməsə Kövsər hovuzunun kənarında mənimlə görüşməz.»[4]

4048. İmam Əli (ə): «Qardaşının üzrxahlığını qəbul et. Onun üzrü olmasa da, özün bir üzr fikirləş.»[5]

4049. İmam Əli (ə): «İnsanların ən ağıllısı üzrləri ən çox qəbul edəndir»[6]

4050. İmam Səccad (ə): «Kimsə sənin sağ tərəfindən səni söyüb sonra da sol tərəfinə keçib üzr istəsə, üzrxahlığını qəbul et.»[7]

---

[1] Misbahul Şəriyyə, səh.403.
[2] Tuhəful-Uqul, səh.248.
[3] Mişkatul-Ənvar, səh.50.
[4] Kənzul-Ummal, hədis 7032.
[5] Biharul-Ənvar, c.74, səh.165, hədis 29.
[6] Ğurərul-Hikəm, hədis 2988.
[7] Biharul-Ənvar, c.78, səh.141, hədis 34.

**270**

# Abır-həya

***1230. Abır-həyalı olmağa həvəsləndirmək.***

4051. İmam Əli (ə): «Malına ən çox xəsis olan insanlar, öz abır-həyalarında daha əliaçıq olanlardır.»[1]

4052. İmam Əli (ə): «Ən yaxşı sərvət odur ki, abır-həyanın qorunmasına səbəb olsun.»[2]

4053. İmam Əli (ə): «Kim öz abrını sevirsə, dava-dalaşdan çəkinməlidir.»[3]

4054. İmam Sadiq (ə): «Abır tökülsə,onu yığıb yığışdırmaq (bərpa etmək) çətin olar.»[4]

***1231. Müsəlmanların heysiyyatına toxunmaqdan çəkinməyin savabı.***

4055. İmam Səccad (ə): «Kim müsəlmanların heysiyyatına toxunmaqdan çəkinsə, Allah qiyamət günündə onun büdrəyişlərini bağışlar.»[5]

***1232. Müsəlmanların heysiyyatını qorumağın savabı.***

4056. Allahın Peyğəmbəri (s): «Kim öz qardaşının abır-həyasını qoruyarsa, bu əməli onunla cəhənnəm odu arasında pərdə olar.»[6]

4057.Allahın Peyğəmbəri (s): «Kim öz qardaşının abır-həyasını qoruyarsa, şübhəsiz ki, cənnət ona vacib olar.»[7]

---

[1] Ğurərul-Hikəm, hədis 3190.
[2] Ğurərul-Hikəm, hədis 3038.
[3] Nəhcül-Bəlağə, hikmət 362.
[4] Əlam-d-Din, səh.303.
[5] Səhifətul İmam Reza(ə), səh.85, hədis 195.
[6] Əmali Mofid, səh.338, hədis 2.
[7] Vəsailuş-Şiə, c.8, səh.606, hədis3.

**271**

# Tanımaq

***1233.Tanımağın dəyəri.***

4058. Allahın Peyğəmbəri (s): «Sizlərin ən imanlısı, ən çox tanıyanlarınızdır.»[1]

4059. İmam Əli (ə): «Elm ilk yol göstərən, (Allah-taalanı) tanıma isə onun son nöqtəsidir.»[2]

4060. İmam Əli (ə): «Tanımaq qəlbin işığıdır.»[3]

4061. İmam Hüseyn (ə): «Bilik qazanmaq tanımağı daha da bərəkətli edər»[4]

4062. İmam Sadiq (ə): «Allah bilmədən, qavrayışsız heç bir əməli və heç bir əməllə müşaiyət olunmayan qavrayışı qəbul etməz. Kim qavrayışa nail olsa, bu tanıma onu əmələ doğru istiqamətləndirər. Əməli olmayanın qavrayışı da yoxdur.»[5]

***1234.Tanımanın yolundakı maneələr.***

**Quran:**

«Nəfsini özünə Tanrı edənlər və biliyinə baxmayaraq Allahın yoldan çıxardığı, qulağını və qəlbini möhürlədiyi, gözünə də pərdə çəkdiyi kimsəni gördünmü? Allah onu doğru yola yönəltməsə, Ondan başqa kim onu doğru yola yönəldə bilər? Məgər düşünüb öyüd almırsınız?»[6]

**Hədis:**

4063. Allahın Peyğəmbəri (s): «Aclıq hikmət nurudur, toxluq isə Allah-dan və imkansızları sevib onlara yaxınlaşmaqdan, Allaha yaxın olmaqdan

---

[1] Cameul Əxbar, səh.36, hədis 18.
[2] Ğurərul-Hikəm, hədis 2061.
[3] Ğurərul-Hikəm, hədis 538.
[4] Biharul-Ənvar, c.78, səh.128, hədis11.
[5] əl-Kafi, c.1, səh.44, hədis 2.
[6] Casiyə, ayə 23.

uzaq düşməyin səbəbidir. Qarınlarınızı doldurmayın ki, qəlbinizdə tanıma nuru sönməsin»

***1235. Özünüdərk.***

4064. İmam Əli(ə): Özünüdərk ən faydalı tanımadır.»[1]

4065. İmam Əli(ə): «Özünü dərk etməyə nail olmuş şəxs ən böyük qələbəni qazanmışdır.»[2]

4066. İmam Əli(ə): «Özünü tanımayan kimsə başqasını necə tanıyacaq?»[3]

4067. İmam Əli(ə): «Kim nəfsini tanıdısa, onunla cihada qalxdı, kim onu tanımadısa, özbaşına buraxdı.»[4]

4068. İmam Əli(ə): «Hər kim Allahı tanıdısa tənha qaldı. Hər kim ki, özünü tanıdı başqalarından ayrıldı. Kim dünyanı tanıdısa, ondan qəlbini üzdü. Hər kim camaatı tanıdısa, tənhalığı seçdi.»[5]

4069. İmam Əli(ə): «Özlərini ən yaxşı tanıyan insanlar Allahdan ən çox qorxanlardır.»[6]

4070. İmam Əli(ə): «Özünü tanıyan, Allahını da tanıdı.»[7]

4071. İmam Əli(ə): «Kimsə öz nəfsinin şərafətini başa düşsə, onu dünyanın çirkabından təmiz saxlamağa layiqdir.»[8]

4072. İmam Əli(ə): «Özünü tanıyan kimsə qənaəti və iffəti gözləməyə layiqdir.»[9]

4073. İmam Əli(ə): «Özünü tanıyan kimsə hüzn və kədərdən ayrılmamağa layiqdir.»[10]

4074. İmam Səccad (ə) *(duada):* «Bizi özünü tanıyanlardan, öz yerlərindən əmin olanlardan və buna görə də ömürlərini sənə ibadətdə keçirənlərdən et.»[11]

---

[1] Ğurərul-Hikəm, hədis 9865.
[2] Ğurərul-Hikəm, hədis 6965.
[3] Ğurərul-Hikəm, hədis 6998.
[4] Ğurərul-Hikəm, hədis (7855+7856).
[5] Ğurərul-Hikəm, hədis (7829+7832)
[6] Ğurərul-Hikəm, hədis 3126.
[7] Ğurərul-Hikəm, hədis 7946.
[8] Ğurərul-Hikəm, hədis 10930.
[9] Ğurərul-Hikəm, hədis 10927.
[10] Ğurərul-Hikəm, hədis 10937.
[11] Biharul-Ənvar, c.94, səh.128, hədis19.

4075. İmam Baqir (ə) *(Cabir Coəfiyə tövsiyyələrindən):* «Heç bir tanıma öz nəfsini bilib tanımağın qədər ola bilməz.»[1]

[1] Tuhəful-Uqul, səh.268.

# 272

# Tanıma (2)

**Allahı tanımaq.**

***1236. Allahı tanımağın dəyəri.***

4076. İmam Əli(ə):  «Kim Allahı tanıyarsa, mərifəti kamilləşər.»[1]

4077. İmam Əli(ə):»Pak olan Allahı tanımaq biliklərin ən üstünüdür.»[2]

4078. İmam Əli (ə): «İstəməzdim ki, uşaqkən ölüb cənnətə gedim və böyüməyərək Allahımı tanımayım.»[3]

4079. İmam Əli(ə): «Biliyin səmərəsi Allahı tanımaqdır.»[4]

4080. İmam Əli(ə): «Qəlbində Allahı tanımaq və mərifət yuvasını salanın Allahın yaratdıqlarına ehtiyacı olmaz.» [5]

4081. İmam Sadiq (ə): «Əgər insanlar Allahı tanımağın nə qədər dəyərli olduğunu bilsəydilər, dünya həyatının bəzək-düzəyinə və onun Allah taalanın düşmənlərinə verdiyi nemətlərinə göz dikməzdilər. Dünya, nəzərlərində ayaqlarının altındakı torpaqdan daha dəyərsiz olardı. Allahı tanımaqdan, həmişə cənnət bağlarında övliyalar və Allahın dostları ilə birgə olanlar kimi bəhrələnərdilər. Allahı tanımaq hər tənhaya munis, hər kimsəsizə dost, hər qaranlığa işıq, hər gücsüzə güc və hər xəstəyə şəfadır.»[6]

***1237.Tanımanın səmərələri.***

4082. Allahın Peyğəmbəri (s): «Hər kim Allahı tanıyıb Onun əzəmətini dərk etdisə, dilini söz danışmaqdan və qarnını xörək yeməkdən saxlayıb oruc tutmaq və gecələr oyaq qalmaqla özünə əziyyət verdi.»[7]

---

[1] Ğurərul-Hikəm, hədis 7999.
[2] Ğurərul-Hikəm, hədis 9864.
[3] Kənzul-Ummal, hədis 36472.
[4] Ğurərul-Hikəm, hədis 4586.
[5] Ğurərul-Hikəm, hədis 8896.
[6] əl-Kafi, c.8, səh.247, hədis 347.
[7] Əmali-Səduq, səh.444, hədis 6.

4083. Allahın Peyğəmbəri(s): «Allahı lazım olduğu kimi tanısaydınız, dənizlərin üstündə gəzər, dualarınızla dağları yerindən qopararardınız.»[1]

4084. Allahın Peyğəmbəri(s): « Allahı daha yaxşı tanıyan Allahdan daha çox qorxandır.»[2]

4085. İmam Əli (ə): «Allahı azacıq da olsa tanımaq, dünyaya rəğbətsizliyə səbəb olar.»[3]

4086. İmam Əli(ə): «Allahın əzəmətini dərk edənə özünü böyük sanmaq yaraşmaz. Çünki Allahın əzəmətini dərk edənlərin böyüklüyü, Onun qarşısında təvazökar olmalarına görədir.»[4]

4087: İmam Əli(ə): « Tanımanın son həddi qorxudur.»[5]

4088. İmam Əli(ə): «Allahı ən çox tanıyan insanlar Ondan ən çox dilək diləyənlərdir.»[6]

4089. İmam Baqir (ə): «Allahın yaratdıqlarından İlahi qəzavü-qədərə baş əyməyə ən layiqli olan, Allahı tanıyandır.»[7]

4090. İmam Sadiq (ə): «Hər kim Allahı tanıdısa, Ondan qorxdu, hər kim Allahdan qorxdusa, dünyanı qəlbindən sildi.»[8]

4091. İmam Sadiq (ə): « İnsanlar arasında Allahı ən çox tanıyan, Allahın qəzavü-qədərinə və hökmünə ən çox sevinəndir.»[9]

***1238. Arif insanın sifətləri.***

4092. İmam Əli (ə): «Arifin üzü gülər və şad, qəlbi isə kədərli və qorxan olar.»[10]

4093. İmam Əli (ə): «Şövq ariflərin ayrılmaz dostudur.»[11]

4094. İmam Əli(ə): « Xof ariflərin köynəyidir.»[12]

4095. İmam Əli (ə): «Allahdan uzaq düşməyin qorxusundan ağlamaq ariflərin ibadətidir.»[13]

4096. İmam Sadiq (ə): «Allaha etimad et ki, arif olasan.»[1]

---

[1] Kənzul-Ummal, hədis 5895.
[2] Biharul-Ənvar, c.70, səh.393, hədis 64.
[3] Ğurərul-Hikəm, hədis 10984.
[4] Nəhcül-Bəlağə, xütbə 147.
[5] Ğurərul-Hikəm, hədis 6359.
[6] Ğurərul-Hikəm, hədis 3260.
[7] əl-Kafi, c.2, səh.62, hədis 9.
[8] Tənbihul-Xəvatir, c.2, səh185.
[9] Tənbihul-Xəvatir, c.2, səh184.
[10] Ğurərul-Hikəm, hədis 1985.
[11] Ğurərul-Hikəm, hədis 855.
[12] Ğurərul-Hikəm, hədis 664.
[13] Ğurərul-Hikəm, hədis 1791.

***1239.(Allahı) Tanımanın ən aşağı səviyyəsi.***

4097. İmam Kazim (ə) *(tanımanın ən aşağı dərəcəsi haqda suala cavabından): «*Tanımanın ən aşağı dərəcəsi Allahdan başqa məbudun olmadığını,Onun tay və bənzərinin olmadığını, əzəliliyini və əbədiliyini, (vücudunun) sabitliyini, var olduğunu və yoxluğun Ona yolu olmadığını bəyan etməkdir.»[2]

***1240. Allahı Allahla tanımaq.***

4098. İmam Əli(ə): «Allahı Allahla, peyğəmbəri risaləti ilə, ulul-əmri(əmr sahiblərini) yaxşılıq, ədalət və xeyir əmələ əmr etmələri ilə tanıyın.»[3]

4099. İmam Hüseyn (ə) (duada): «İlahi! Başımın nişanə və əlamətlərə qarışması (Səninlə) görüşdən uzaq düşməyimə səbəb olur. Belə isə, bütün güc və qüdrətimi məni Sənə çatdıracaq bir xidmətə yönəlt. Özü öz varlığında Sənə möhtac olan necə Sənə doğru bələdçi və dəlil ola bilər? Səndən qeyrisi görünən və aşkar, Sən isə (zahirdə) yoxsan ki, onlar Səni aşkarlayıb üzə çıxarsınlar. Sən nə vaxt olmamısan ki, Sənə tərəf yolu göstərən bələdçiyə ehtiyacın olsun?…. Sənə doğru yol gəlməyim də Səndəndir. Nurunla məni Özünə tərəf yönəlt.»[4]

4100.» İmam Səccad (ə) *(duada):* «Səni Sənin özünlə tanıdım və Sən mənim yolumu Özünə tərəf saldın, Özünə doğru çağırdın. Sən olmasaydın, Sənin nə olduğunu bilməzdim.»[5]

***1241.Allahın zatı barədə düşünməyin pislənilməsi.***

4101. Allahın Peyğmbəri (s): «Allahın yaratdıqları barədə düşünün. Ancaq, məbada Onun Zatını fikirləşməyin ki, məhv olarsınız.»[6]

4102. İmam Sadiq (ə): «Allahın zatı barədə düşünməkdən çəkinin. Çünki Allahın zatı haqda düşünmək, yalnız azğınlıq və çaşqınlığı artırar. Həqiqətən də, Allahı nə gözlər dərk edər, nə də ölçü ilə, miqdarla vəsf edilər.»[7]

---

[1] Tuhəful-Uqul, səh.367.
[2] əl-Kafi, c.1, səh.86, hədis 1.
[3] əl-Kafi, c.1, səh.85, hədis 1.
[4] Biharul-Ənvar, c.98, səh.225.
[5] İqbalul Əmal, c.1, səh.157.
[6] Kənzul-Ummal, hədis 5705.
[7] Əmali-Səduq, səh.340, hədis3.

4103. İmam Sadiq (ə): «Hər kim Allahın necəliyi barədə düşünərsə, məhv olar.»[1]

***1242. Allahın zatını dərk etməkdə ağılın acizliyi.***

4104. İmam Əli (ə): «Biz Sənin zatının əzəmətindən heç nə bilmirik. Bidiyimiz yalnız budur ki, Sən dirisən və hər şey Sənə sadiqdir. Səni nə mürgü tutar, nə də yuxu. Heç bir düşüncənin əli Sənə yetməz və heç bir göz Səni tapmaz.»[2]

4105. İmam Əli (ə) *(Mələkləri vəsf edərkən):* «Onlar Sənin yanında malik olduqları bütün məqamlarına, bütün vücudları Sənin eşqinlə dolu olmasına, Sənə ibadətlərinin çoxluğuna və Səndən qafil olmamaqlarına baxmayaraq, Sənin barəndə onlara gizlin olanların həqiqətlərini görsələr heç şübhəsiz, öz əməllərini kiçik sayar, Sənə layiq olduğun kimi ibadət etmədiklərini, Sənə yaraşan itaəti göstərmədiklərini başa düşərlər.»[3]

4106. İmam Səccad *(duada):* «Ağıllar Sənin camalının zatına çatmaqda aciz qaldılar, gözlər Sənin sifətinin nur və əzəmətini görməyə tab gətirə bilmədilər. Yaradılmışlara tanımaqda aciz qalmaqdan başqa özünü tanımaq üçün bir yol qoymadın.»[4]

4107. İmam Rza (ə): «Onun zatı Özü ilə yaratdıqlarını ayırandır.»[5]

4108. İmam Rza (ə) *(Böyük Allahı vəsf edərkən): «*O, gözün onu tapmasından, düşüncəyə sığmaqdan və ya ağılla ələ gətirilməkdən çox yüksəkdədir.» [6]

***1243. Allahın icazə verilən vəsfləri.***

4109. İmam Əli (ə): «Hər kim Allahı vəsf edərsə, ona hədd və sərhəd qoymuş olar. Hər kim ona hədd və sərhəd qoyarsa, onu sayla saymışdır. (Onunçün hissələr təyin etmişdir.) Hər kim onu sayla sayarsa, Onun əzəliliyini batil etmişdir. «Necədir?» deyə soruşan, şübhəsiz ki, onu vəsf etmişdir. «Haradadır?» deyə soruşan onu bir məkanda qərar vermişdir.»[7]

4110. İmam Əli : «Ağıl sahiblərinin böyük səylər, zənn və gümanlarının ona çatmadığı Allah pak və ucadır.»[8]

---

[1] əl-Məhasin, c.1, səh.371, hədis 808.
[2] Nəhcül-Bəlağə, xütbə 160.
[3] Nəhcül-Bəlağə, xütbə 109.
[4] Biharul-Ənvar, c.94, səh.150,hədis 21.
[5] ət-Tovhid, səh.36, hədis 2.
[6] ət-Tovhid, səh.252, hədis 3.
[7] Nəhcül-Bəlağə, xütbə 152.
[8] Nəhcül-Bəlağə, xütbə 94.

4111. İmam Əli: «(Allah) Birdir, ancaq sayda deyil. Daimidir, ancaq onun (əvvəli və sonu olan) vaxt anlamı ilə deyil, dayanıqlıdır, ancaq sütun və söykənəcəklərlə deyil.»[1]

4112. «Əl-Kafi»: «İmam Sadiq (ə) «Allah daha böyükdür» deyən kişiyə buyurdu: «Allah nədən daha böyükdür?» Ərz etdi: «Hər şeydən.» İmam Sadiq (ə) buyurdu: «Onu məhdudlaşdırmısan.» Həmin kişi ərz etdi: «Elə isə necə deyim?» Buyurdu: «De ki, Allah vəsf olunmaqdan daha böyükdür.»[2]

4113. İmam Kazim(ə): «Allah, (başqalarının) Onun sifətinin həqiqətinə çatmasından daha yüksək, uca və böyükdür. Buna görə də Onu, özünün özünü vəsf etdiyi kimi vəsf edin və ondan qeyri vəsfdən çəkinin.»[3]

4114. İmam Hadi (ə): «Xaliq, Onun özünü etdiyi vəsfdən qeyri vəsf edilməz. Hisslər Onu dərk etməkdə gücsüz, xəyallar Ona çatmaqda çarəsiz və düşüncələr Onun izahında aciz qaldığı, gözlər isə Onu əhatə etməkdə gücsüz olduğu halda Tanrı necə vəsf olunar? Vəsf edənlərin vəsfindən daha yüksək və dua edənlərin duasından daha ucadır.»[4]

***1244. Tovhid.***

4115. Allahın Peyğəmbəri (s) : «Tovhid dinin yarısıdır.»[5]

4116.İmam Əli (ə): «Tovhid ruha həyat bəxş edəndir.»[6]

4117. İmam Əli (ə): «Tovhid elə bir şeydir ki, onu təsəvvürə (qavrayışa) gətirməyəsən»[7]

4118.İmam Sadiq(ə) *(Bir kişiyə xitabən): «*Tovhid odur ki, özünə rəva bildiyini Pərvərdigarına rəva bilməyəsən. Ədalət isə odur ki, Allahın səni danlama səbəblərini Ondan görməyəsən.»[8]

4119. İmam Rza (ə): «Allaha bəndəliyin başlanğıcı Onu tanımaq, Tanrını tanımağın bünövrəsi isə Onun tək olduğunu tanımaqdır. Tovhidin əsası isə hədd və sərhədlərin Ondan götürülməsidir. Çünki ağıllar hər bir məhdud mövcudun məxluq olduğunu təsdiq edir.»[9]

---

[1] Nəhcül-Bəlağə, xütbə 185.
[2] əl-Kafi, c.1, səh117, hədis8.
[3] əl-Kafi, c.1, səh102, hədis6.
[4] Kəşful Ğummə, c.3, səh.176.
[5] Uyunul Əxbarul Reza (ə), c.2, səh35, hədis75.
[6] Ğurərul-Hikəm, hədis 54.
[7] Nəhcül-Bəlağə, hikmət 470.
[8] Məaniəl Əxbar, səh.11, hədis2.
[9] Əmali-Tusi, səh22, hədis28.

***1245. Allahın vahidliyinin dəlili.***

**Quran:**

«Kim Allahla yanaşı başqa bir tanrıya ibadət edərsə, bununçün heç bir dəlili yoxdur və onun hesabını (cəzanı) Allah özü verəcəkdir. Həqiqətən, kafirlər nicat tapmazlar!»[1]

**Hədis:**

4120. İmam Əli (ə) *(əziz övladı Həsənə (ə) tövsiyyələrindən):* «Ey övladım! Bil ki, Allahın şəriki olsaydı, şübhəsiz ki, Onun elçi və rəsulları da sənin yanına gəlmiş olardılar. Onun hökmranlığının və gücünün nişanələrini görər, əməl və sifətlərini tanıyardın. Ancaq Allah öz vəsfində buyurduğu kimi vahid Allahdır, mülkündə rəqibi və Ona heç vaxt zaval yoxdur.»[2]

4121. İmam Sadiq (ə) (*Bir zındıqla (kafirlə) mübahisəsindən):* «Deyirsənsə Allah ikidir, onda bu iki haldan xaric ola bilməz ki, ya hər ikisi hər bir cəhətdən eynidir, ya da hər cəhətə görə fərqlənirlər. Biz yaradılışda bir nizam-intizamın olduğunu və göy qübbəsini, gecə və gündüzün, ay və günəşin hərəkətindəki nizamı gördüyümüzdən, işlərin düzlüyü, müdrikliyi və əlaqəliliyi yaradıcının vahidliyinə dəlalət edir. Özü də, Allahın iki olmasını iddia edirsənsə, bu iddia onların arasında məsafə olmasını tələb edir ki, iki olmaları düz olsun. Belə olan halda, o məsafənin özü, qədimlikdə onlar qədər qədim olan elə üçüncü Allahdır. Nəticədə, sənin üçüncü Allaha da inanmağın lazımdır. Əgər üçüncü Allahın olduğunu iddia edərsənsə, iki Allaha etiqadla əlaqədar dediklərin vacibdir. Yəni onların arasında iki məsafə olmalıdır. Belə olan halda, beş Allahın olması lazım gələcək və bununla da Allahların sayı sonsuza qədər artacaq.» [3]

4122. İmam Sadiq (ə) *(«Allahın tək olmasının dəlili nədir?» sualına verdiyi cavabdan):* «Varlığa hakim olan müdriklik, nizam-intizam və yaradılışın kamilliyinə görə. Allahın da buyurduğu kimi: «Əgər yerdə və göydə Allahdan başqa bir tanrı olsaydı, hər ikisi məhv olardı.»[4]

4123. İmam Rza (ə):-İkitanrılıq dininin (sənəviyyə) ardıcıllarından bir kişi İmam Rzaya (ə) ərz etdi: «Mən deyirəm ki, dünyanın yaradıcısı ikidir. Onun bir olmasının nə dəlili var?» Həzrət buyurdu- «Elə onun iki olmasına dair dediklərinin özü, onun tək olmasına dəlalət edir. Çünki sənin iddian bir Allahın olmasını sübut edilmiş saydığından sonra, ikinci Allahın olmasıdır.

---

[1] Muminun, ayə 117.
[2] Nəhcül-Bəlağə, məktub 31.
[3] ət-Tovhid, səh.243, hədis 1.
[4] ət-Tovhid, səh.250, hədis 2.

Deməli, bir Allahın olması barədə həmfikirik və birdən çox olmasında fikir ayrılığımız var.»[1]

4124. «Təfsire Qummi» kitabında deyilir: «Sonra Allah Taala iki Allaha inanan sənəviyyələrə cavab olaraq buyurdu: «Allah heç kimi övladlığa götürmədi və onunla heç bir başqa Allah yoxdur....» Buyurdu: «Sizin təsəvvür etdiyiniz kimi iki Allah olsaydı, onlardan hər biri digərindən üstün olmaq istərdi. Onlardan biri insan yaratmaq istəsə və digəri ondan fərqli olaraq heyvan yaratsa, hər birinin istək və iradəsinin fərqləndiyinə görə onda vahid insan və heyvan yaradılacaq. Bu isə ən böyük qeyri-mümkün işdir. Bu fərziyyə batil olduğuna və onların arasında fərq olmadığına görə iki Allah fərziyyəsi batildir və birdən artıq Allah yoxdur. Bu müdriklik, davamlılıq və yaradılmışların hər birinin başqası ilə əlaqəsi (varlığı) yaradanın bir olduğuna dəlalət edir. Allahın «Allah heç kimi övladlığa götürmədi» və «Əgər yerdə və göydə Allahdan başqa bir tanrı olsaydı, hər ikisi məhv olardı.» buyurmaqda da məqsədi budur.»[2]

### *1246. Gözlər Onu tapmaz və qəlblər Onu görməzlər.*

**Quran**

«Gözlər Onu tapmaz. O, gözləri dərk edər. O, lətif və hər şeydən xəbərdardır!»[3]

**Hədis:**

4125. Allahın Peyğəmbəri (s): «Məni səmaya qaldırdıqları gecə Cəbrayıl məni özünün heç ayaq qoymadığı bir yerə çatdırdı. Sonra pərdələr mənimçün kənara çəkildi və Allah-taala özünün əzəmət nurundan istədiyi qədər mənə göstərdi.»[4]

4126. İmam Əli (ə) *(«Allahını görmüsənmi?» deyə soruşan Zeləbə cavabından)*: «Vay sənin halına, ey Zeləb! Mən görmədiyim Allaha sitayiş etmərəm.» Ərz etdi: «Onu necə görmüsən? Bizə də vəsf et.» Həzrət buyurdu: «Vay olsun sənə! Gözlər baxmaqla Onu görməyiblər. Onu qəlblər həqiqətlərə (əqli təsdiq və inanclar, yaxud da imandan doğan əqli nurlara) iman gətirməklə görmüşlər.»[5]

---

[1] ət-Tovhid, səh.270, hədis 6.
[2] Nurus Səqəleyn, c.3, səh.550, hədis 107.
[3] Ənam, ayə 103.
[4] ət-Tovhid, səh.108, hədis 4.
[5] Əmali-Səduq, səh.281, hədis1.

4127. İmam Rza (ə) *(«Gözlər Onu tapmaz» ayəsi barədə buyurduqlarından)*: «Qəlblərin təsəvvürləri Onu tapmadılar, gözlərin baxışları Onu necə tapsın?»[1]

4128. İmam Əskəri (ə): «Allah-taala öz əzəmət nurundan istədiyi qədər elçisinin qəlbinə göstərmişdir.»[2]

***1247.Allahın başlanğıcı və sonu yoxdur.***

4129**.** İmam Əli (ə): «İlk olan, hər ilkdən daha əvvəl, hər axırdan son olan Allaha sitayiş və şükürlər olsun. Əvvəl olduğuna görə onun başlanğıcı olmamalıdır. Son olduğuna görə, onun son və axırının olmaması vacibdir.»[3]

4130. İmam Əli (ə): «Heç vaxt məhv olmaz və həmişə olmuşdur. Onun başlanğıcı olmadan hər bir şeydən əvvəl olmuşdur. Sonu və qurtaracağı olmadan da hər şeydən sonradır.»[4]

4131 İmam Əli (ə) *(«Bizim tanrımız nə vaxtdan olmuşdur?» deyə soruşan yəhudiyə cavabından):* «Ey yəhudi! Belə deyil ki, bizim tanrımız əvvəlcə olmasın və sonradan olmuş olsun. «Nə vaxtdan olmuşdur?» sualı yalnız olmayıb sonradan yaranan varlıqlar barədə işlədilir. Allah, yaradılmadan olmadan mövcud olan varlıqdır. Həmişə olmuşdur və əvvəli, başlanğıc nöqtəsi yoxdur. Əvvəldən daha ilkdir və son nöqtədən (əzəlilik baxımından) əvvəldir. Son nöqtə onunla yekunlaşır və hər bir sonun axırıdır.»[5]

4132 İmam Baqir (ə): «Allah-taala var idi və Ondan başqa heç nə yox idi. Qaranlıqdan azad bir nur idi, doğru danışan idi və yalanın ona yolu yox idi. Bilikli idi və nadan ona yoldaş deyildi. Sağ idi və ölüm onunla deyildi. O indi də belədir və həmişə belə olacaqdır.» [6]

***1248. Allah (daima ) diridır.***

**Quran:**

«Allahdan başqa hec bir tanrı yoxdur. Əbədi və əzəli varlıq Odur.»[7]

---

[1] Əmali-Səduq, səh.334, hədis2
[2] əl-Kafi, c.1, səh.95, hədis 1.
[3] Nəhcül-Bəlağə, xütbə 101.
[4] Nəhcül-Bəlağə, məktub 31.
[5] Biharul-Ənvar, c.77, səh.331, hədis 18.
[6] ət-Tovhid, səh.141, hədis5.
[7] Bəqərə, ayə 255.

Hədis:

4133. İmam Sadiq (ə): «Allah nadanlıqdan uzaq alimdir. Ölümün ona yaxınlaşmadığı bir həyatdır. Zülmət və qaranlığın olmadığı bir aydınlıq və işıqlıqdır.»[1]

4134. İmam Kazim (ə): «Allah, həyatı bəxş edilmiş olan bir canlı deyil....əksinə, O, öz-özlüyündə diridir.»[2]

***1249. Allah (hər şeyi) biləndir.***

**Quran:**

«Qeybin açarları Allahın yanındadır. Onları ancaq Allah bilir. Allah suda və quruda nə varsa bilir. Elə bir düşən yarpaq yoxdur ki, Allah bilmədən düşsün. Yerin zülmətləri içində elə bir toxum, elə bir quru və yaş yoxdur ki, məhz açıq-aydın kitabda olmasın.»[3]

**Hədis:**

4135. İmam Əli (ə): «Sulardakı damcıların, göylərdəki ulduzların, havaya dağılmış toz dənəciklərinin sayı, sərt daş üzərində qarışqanın hərəkəti, gecənin qaranlığında qarışqaların yatdıqları yerlər Ondan gizlin deyildir. Yarpaqların düşdüyü və kipriklərin qarışdığı yerləri bilir.»[4]

4136. İmam Əli (ə): «Çöllərdəki səsləri, bəndələrin gizlindəki günahlarını, balıqların böyük dənizlərdəki hərəkətlərini, şiddətli küləklərdən suların bir-birinə qarışmasını bilir.»[5]

4137. İmam Əli (ə): «Onun elmi pərdələrin gözəgörünməyən qatlarındın keçər, daxildəki mürəkkəb fikir və inancları əhatə edər.»[6]

4138. İmam Əli (ə): «Allah yaranan hər bir şeyi həmişə bilmişdir. Deməli, Onun əşyanı yaranmamışdan tanıması, onu yarandıqdan sonra bilməsi kimidir.»[7]

4139. İmam Sadiq(ə) *(«Allahın məkan barədə elmi, onun yaradılmasından əvvəl, yaranması ilə eyni vaxtda və ya sonra olmuşdur?» sualına cavabından):*–«Allah çox ucadır! O həmişə agah olmuşdur və Onun məkan

[1] ət-Tovhid, səh.137, hədis11.
[2] ət-Tovhid, səh.142, hədis 6.
[3] Ənam, ayə 59.
[4]Nəhcül-Bəlağə xütbə178.
[5] Nəhcül-Bəlağə xütbə198.
[6] Nəhcül-Bəlağə xütbə108.
[7] əl-Kafi c.1, səh107, hədis 2.

barədə onun yaradılmasından əvvəlki elmi yaradılmasından sonrakı elmi kimidir. Onun bütün əşyalar barədə elmi məkan haqda elmi kimidir.»[1]

4140. İmam Sadiq (ə): «Elm Allahın zatıdır. (Elmə məxsus olan) Məlumlar olmamışdan da alim idi. Əşyanı yaratdıqda Onun elmi məluma aid oldu.»[2]

4141. İmam Kazim (ə): «Allahın elmi «haradandır?» sifəti ilə vəsf olunmaz. Allahın elmi «necə?» sifəti ilə təsvir edilməz. Nə elm Allahdan ayrılar, nə də Allah elmdən. Allahla Onun elmi arasında sərhəd yoxdur.»[3]

***1250.Allah ədalətlidir.***

**Quran:**

«Həqiqətən, Allah zərrə qədər zülm etməz. Əgər yaxşı bir iş baş verərsə, onu ikiqat artırar və öz tərəfindən də böyük mükafat verər.[4]»[5]

**Hədis:**

4142.İmam Əli (ə): «Şəhadət verirəm ki, Allah ədalətlə rəftar edərək dada çatan və haqla batili bir-birindən ayıran hakimdir.»[6]

4143. İmam Əli (ə) *(«Ədalət nədir?» sualına cavabından)*:–«Ədalət Allahı ittiham etməməyindir.»[7]

4144. İmam Səccad (ə) *(Qurban bayramı və cümə gününün duasında):*– «Hər an bilirəm ki, nə hökmün və hakimliyində bir zülm rəva görülür, nə də qəzəb və cəzalandırmağında bir tələskənlik var. Çünki (fürsətin) əlindən çıxmasından qorxanlar tələsər və acizlərin zülm etməyə ehtiyacı var. Sən, ey mənim Allahım! Belə işlərdən nə qədər uca və yüksəkdəsən.»[8]

4145. İmam Sadiq (ə) *(Dinin təməlləri barədə suala cavabından):* «Dinin bünövrəsi tovhid və ədalətdir. Tovhidin mənası özünə rəva bilmədiyini Allahına rəva bilməməyindir. Ədalət isə Allahının onlara görə səni pislədiyi səbəbləri Ona aid etməməyindir.»[9]

***1251. Allah yaradıcıdır.***

**Quran:**

---

[1] ət-Tovhid, səh137, hədis 9.
[2] Nurus Səqələyn, c.5, səh.237, hədis41.
[3] ət-Tovhid, səh183, hədis 16.
[4] Nisa, ayə 40.
[5] Quranda zülm və sitəminin Allaha aid edilməsinin qeyri-mümkünlüyü barədə ayələrin sayı 40-dan çoxdur.
[6] Nəhcül Bəlağə, xütbə 214
[7] Nəhcül Bəlağə, hikmət 470
[8] əs-Səhifətus Səccadiyyə, səh.207, dua 48
[9] ət-Tovhid, səh.96, hədis 1

*«Allah hər şeyin yaradıcısıdır. O, hər şeyin qoruyucusudur.»*[1]

**Hədis:**

4146. Mərvan ibn Müslüm: «İbn Əbiləvcə İmam Sadiqin (ə) yanına gəlib dedi: «Məgər siz Allahın hər şeyi yaratdığını demirsinizmi?» İmam (ə) buyurdu: «Niyə də yox?» «İbn Əbiləvcə dedi: «Mən də yaradıram.» İmam buyurdu: «Necə yaradırsan?» Dedi: «Bir yerdə böyük bayıra çıxıram, bir qədər gözləyirəm və ondan canlılar əmələ gəlir.» İmam (ə) buyurdu: «Hər bir şeyi yaradan onun sayı və keyfiyyətindən xəbərdar olmalı deyilmi?» Dedi: «Nəyə görə də yox?» İmam (ə) buyurdu: «Sən həmin canlıların hansının erkək, hansının dişi olduğunu və nə qədər həyat sürəcəklərini bilirsənmi?» Burada Əbiləvcə dinmədi.»[2]

4147. İmam Rza (ə): «Öz qüdrət və hikməti ilə hər şeyi heçdən yaradan Allah sitayişə layiqdir. Mövcudatı başqa bir şeydən yaratmayıb ki, heçdən yaratma hesab olunmasın. Varlıqları başqa şeyin səbəbinə yaratmayıb ki, nəticədə yeni yaradılış hesab olunmasın. O, istədiyi hər şeyi istədiyi kimi yaratdı.»[3]

***1252. Allah qüdrətlidir.***

**Quran:**

«Məşriqlərin və məğriblərin Rəbbinə and olsun ki, Biz, qadirik.»[4]

**Hədis:**

**4148**. Həzrəti Məsih (ə) *(Ona «Sənin Allahın dünyanı yumurtanın içində yerləşdirməyə qadirdirmi?» dedikdə):* «Acizlik və imkansızlıq sifətləri Allaha aid deyil. Ancaq sizin Ondan istədiyiniz mümkünsüzdür.»[5]

4149. İmam Sadiq (ə): «İblis, İsa ibn Məryəmə (ə) dedi: Sənin Allahın yeri kiçiltmədən və yumurtanı böyütmədən yeri (Yer kürəsini) yumurtanın içində yerləşdirə bilərmi? İsa (ə) buyurdu: Vay olsun sənin halına! Allah gücsüzlük sifətləri ilə vəsf olunmaz. Yer kürəsinin kiçildib, yumurtanı isə (yerin onun içinə yerləşəcəyi qədər) böyütməyə qadir olandan qüdrətli daha kim ola bilər?»[6]

***1253. Allah danışandır.***

---

[1] Zumər,ayə62

[2] ət-Tovhid, səh.295, hədis 5

[3] ət-Tovhid, səh.98, hədis 5

[4] Məaric, ayə40.

[5] Məşkatul-Ənvar, səh.259

[6] ət-Tovhid, səh.127, hədis 5

**Quran:**

«Biz peyğəmbərləri göndərdik. Onların bəzisinin əhvalatını bundan əvvəl sənə danışdıq, bəzisinin əhvalatlarını isə söyləmədik. Və Allah Musa ilə sözlə (heç bir vasitəsiz) danışdı.»[1]

**Hədis:**

4150. İmam Əli (ə): «(Allah-taala) xəbər verər, ancaq dil və ya dilçəklərlə deyil. Eşidər, ancaq qulağın delikləri və eşitmə alətlərilə deyil. Söz danışar, ancaq tələffüz etməklə deyil. Əzbərləyər, ancaq hafizəsində saxlamaqla deyil...

Mövcudluq qazanmasını istədiyi hər şeyə «ol» deyər və o da yaranar. Ancaq Onun bu deməyi, qulaq pərdələrini döyəcləyən səslə, nə də eşidilən avazla deyil. Əksinə, pak Allahın sözü əvvəl mövcud olmamış, (əməli) yaradan və təcəssüm etdirən əməlidir. Çünki (onun əməli də) qədim və əzəli olsaydı, O, ikinci Allah olardı.»[2]

***1254. Allah istəyəndir.***

**Quran:**

«Bir şeyi istədiyi zaman Allahın buyruğu ona ancaq «Ol!» deməkdir. O da olar.»[3]

**Hədis:**

4151. İmam Kazim (ə): «Şeylər heç bir söz deyilmədən, heç bir fikir düşünülmədən və ya dil söz açmadan Onun iradə və istədiyi ilə yaranır.»[4]

***1255. Allah aşkar və gizlindir.***

**Quran:**

«Əvvəl də, axır da, zahir də, batin də Odur. O, hər şeyi həmişə biləndir.»[5]

**Hədis:**

4152. İmam Əli (ə): «(Allah) Yaratdıqlarındakı heyrətamiz şeylərə görə görənlər üçün aşkar, izzətinin əzəmətinə görə isə düşünənlərin təsəvvüründən gizlindir.»[6]

---

[1] Nisa, ayə 164
[2] Nəhcül-Bəlağə, xütbə 186
[3] Yasin, ayə 82.
[4] ət-Tovhid, səh.100, hədis 8
[5] Hədid, ayə3.
[6] Nəhcül Bəlağə, xütbə 213

4153. İmam Rza (ə): «Aşkardır, ancaq hisslər və duyğularla deyil. Görünəndir, ancaq gözlə görünən aşkarlıqdan deyil. Gizlindir, ancaq uzaq olmağa görə deyil.»[1]

***1256. Allah sahibdir.***

**Quran:**

«Göylərin və yerin ixtiyarı Allaha məxsusdur. Allah hər şeyə qadirdir.»[2]

**Hədis:**

4154. İmam Əli (ə): «Allahdan başqa hər bir sahib, quldur.»[3]

4155. İmam Əli (ə) *(«Allahdan başqa kimsədə güc yoxdur» ayəsinin təfsirində):* «Allah olan yerdə biz heç nəyin sahibi deyilik. Yalnız Onun Özünün mülkiyyətimizə verdiyi şeylərin sahibiyik. Bizdən daha layiq olan şeyi mülkiyyətimizə verdikdə bizim öhdəmizə vəzifə qoymuşdur. Onu bizdən geri aldıqda, vəzifəni boynumuzdan götürmüşdür.»[4]

***1257. Allah eşidən və biləndir.***

**Quran:**

«Allah ədalətlə hökm edər. Ancaq onların Allahdan başqa ibadət etdikləri isə heç bir şeyə hökm edə bilməzlər. Həqiqətən, Allah eşidən və görəndir.»[5]

**Hədis:**

4156. İmam Əli (ə): «Allah eşidəndir, ancaq eşitmə alətləri ilə deyil.»[6]

4157. İmam Baqir (ə): «Allah eşidən və biləndir. Elə gördüyü şeylə eşidər və eşitdiyi şeylə də görər.»[7]

4158. İmam Rza (ə): «Heç bir gizlin iş, hətta qara qarışqanın zülmət gecədə qara sərt daşlar üzərində, yerin altında və dənizlərdə ayaq izinin belə, Ondan gizlin olmadığına görə deyirik: O görəndir.»[8]

***1258. Allah lətif və agahdır.***

**Quran:**

---

[1] ət-Tovhid, səh.37, hədis 2
[2] Ali-İmran, ayə189
[3] Nəhcül-Bəlağə, xütbə 65
[4] Nəhcül-Bəlağə, hikmət 214
[5] Ğafir, ayə20.
[6] Nəhcül-Bəlağə, xütbə 152
[7] ət-Tovhid, səh.144, hədis 9
[8] ət-Tovhid, səh.65, hədis 18

«Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edir. O, lətifdir və hər şeydən xəbərdardır.»[1]

**Hədis:**

4159. İmam Rza (ə): «Allahın lətifliyi azlıq, darlıq və ya xırdalıq demək deyil, əksinə (elm və qüdrətinin) şeylərə nüfuzu və dərkedilməzliyidir. Agah odur ki, heç nə ondan gizlin və gözündən uzaq olmaz. Allahın (şeylərdən) agahlığı, sınağa və nəticə almağa görə deyil. Çünki, sınamaq və nəticə almaq (bir elmdən başqa bir elmə çatmaq) iki elmdir və bu ikisi olmasaydı, elm və bilik də olmazdı. Belə olan kimsə (elmi və biliyi təcrübə ilə qazanan) əvvəlcə alim olmamışdır. (Allahın biliyi bu yollarla qazanılmadığına görə, deməli, O, həmişə agah olmuşdur).»[2]

***1259. Allah qüdrətli və yenilməzdir.***

**Quran:**

«Əmrimiz gəldikdə Bizdən bir mərhəmət olaraq Salehi və onunla birlikdə iman gətirənləri xilas etdik və o günün rüsvayçılığından qurtardıq. Həqiqətən, sənin Allahın yenilməz qüdrət və qüvvət sahibidir.»[3]

«Hər kəs izzət, şərəf-şan istəsə (bilsin ki,) bütün izzət, qüdrət, şərəf-şan ancaq Allaha məxsusdur.»[4]

**Hədis:**

4160. İmam Əli (ə): «Ondan başqa hər bir güclü acizdir.»[5]

4161. İmam Əli (ə): «Hər bir şey Onun müqabilində mütidir və hər şey Onunla qalacaqdır. Hər möhtacı ehtiyacsız edən, hər zəlilə izzət bəxş edən və hər gücsüzə qüdrət verəndir.»[6]

4162. İmam Əli (ə): «Ondan başqa hər bir əziz zəlildir.»

4163. İmam Əli (ə): «İzzət və böyüklük libası geymiş və bu iki surəti məxluqu üçün deyil, özü üçün seçən Allah, sitayişə layiqdir.»[7]

***1260. Allah hikmət sahibidir.***

**Quran:**

---

[1] Ənam , ayə103
[2] əl-Kafi, c.1, səh.122, hədis2
[3] Hud, ayə 66.
[4] Fatir, ayə10.
[5] Nəhcül Bəlağə xütbə 65
[6] Nəhcül-Bəlağə, xütbə 109
[7] Nəhcül-Bəlağə, xütbə 65

«Əlbəttə, doğru olan xəbər budur. Allahdan başqa heç bir tanrı yoxdur. Şübhəsiz ki, Allah qüvvət və hikmət sahibidir.»[1]

**Hədis:**

4164. İmam Baqir (ə) *(«Allah gördüyü işlərə görə niyə sorğu-suala tutulmur?» sualına verdiyi cavabdan):* «Çünki gördüyü hər bir iş hikmətli və doğrudur.»[2]

***1261. Allah Saməddir (ehtiyacsızdır).***

**Quran:**

«Allah saməddir (dəyişilməz, ehtiyacsız, ucadır).»[3]

**Hədis:**

4165. İmam Hüseyn (ə): «Saməd odur ki, içiboş olmasın. Saməd odur ki, sərvərliyi və ağalığı zirvələrdə olsun. Saməd odur ki, nə yesin, nə də içsin. Saməd odur ki, yatmasın. Saməd elə varlıqdır ki, daima olmuşdur və olacaqdır.»[4]

***1262. Allah hər yerdədir.***

**Quran:**

«Siz harada olsanız, O sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir.»[5]

**Hədis:**

4166. İmam Əli (ə)–*(Pak Allahı vəsf edərkən):* «O hər bir məkanda, hər bir zamanda, hər bir insan və cinlə birlikdədir.»[6]

4167. İmam Sadiq (ə) *(Əbu Cəfərin[7] «Odur göylərin və yerin Rəbbi» ayəsi haqda sualına cavabından):*–«Elədir. O hər yerdədir.» Ərz etdim: «Onun zatı hər yerdədir?» Buyurdu: «Vay olsun sənin halına. Məkanın həddi-hüdudu var. Buna görə əgər «Allah öz zatı ilə hər yerdədir» desən «ölçü və bu kimi şeylərə sığışar» deməyin da lazımdır. Ancaq O, öz yaratdıqlarından ayrıdır və Onun elmi, qüdrəti, əhatəliliyi, iqtidarı və hakimiyyəti yaratdıqlarının hamısını bürümüşdür.»[8]

***1263. Zatın sifətləri və felin sifətləri.***

---

[1] Ali-İmran, ayə 62
[2] ət-Tovhid, səh.397, hədis13
[3] İxlas, ayə2
[4] ət-Tovhid, səh.90, hədis3
[5] Hədid, ayə 4
[6] Nəhcül-Bəlağə, xütbə 195
[7] Mərhum Şeyx Səduq deyir: «Onun Məhəmməd ibn Neman olduğunu güman edirəm.»
[8] ət-Tovhid, səh.133, hədis15

4168. İmam Sadiq (ə): «Bizim Allahımızın zatı nurdur. Zatı diridir, zatı bilən və zatı samərddir.»[1]

4169. İmam Rza (ə): «İstək və iradə felin sifətlərindəndir. Buna görə də Allah-taalanın həmişə istəyən olduğunu fikirləşənin Allaha inamı yoxdur.»[2]

***1264. Bütün sifətlər.***

4170. İmam Əli (ə): «Dinin başlanğıcı Allahı tanımaqdır. Allahı tanımağın zirvəsi isə Onun varlığına inanıb etiraf etmək və Onu təsdiqləməyin kamalı, tək olduğunu bilməkdir. Onu tək bilməyin zirvəsi (cism və məkandan və bu ikisinə aid olanlardan) xalis saymaqdır. Xalis saymağın zirvəsi, sifətləri Ondan uzaq bilməkdir. Çünki hər bir sifət vəsf edilənlə fərqli olduğunu təsdiqləyir. Hər bir təsvir olunansa, sifətdən fərqlənməsinin təsdiqidir. Belə isə kim Allahı vəsf edərsə, Ona oxşar və bənzər yaratmış, hər kim Ona oxşar və bənzər təsəvvür etsə Onu iki saymış olar. Hər kim Onu iki sayarsa, Onun hissədən ibarət olmasına inanmışdır. Onun hissələri olmasına inanan Onu tanımamışdır. Onu tanımayan Ona işarə edər və Ona işarə edənsə Onu (hədd-hüdud və istiqamətlə) məhdudlaşdırar. Onun üçün hədd müəyyənləşdirən Onu saya gətirmişdir. Hər kim «O nədədir?» deyə soruşsa, Allahı bir məkanda yerləşdirmişdir. Hər kim «O nəyin üstündədir?» demiş olsa, hansısa bir məkanın Onunsuz olduğunu sanmışdır. Varlığı var, ancaq varlığı yaradılmış deyil. Mövcuddur, ancaq yoxluqdan yaranmayıb. Hər bir şeylədir, ancaq belə deyil ki, ona bənzəmiş olsun. Hər şeydən ayrıdır, ancaq belə deyil ki, ondan kənarda və ayrı olmuş olsun. Faildir, ancaq belə deyil ki, fəaliyyətdə olsun və alətdən istifadə etsin. Görmək üçün bir varlıq olmayan zaman da görən idi. O tək və yeganə idi.(Hətta) o zaman ki,ülfət bağlamağa və ya yoxluğundan tənhalıq duymağa kimsə və yaxud nə isə yox idi.»[3]

---

[1] ət-Tovhid, səh.140, hədis4
[2] ət-Tovhid, səh.338, hədis5
[3] Nəhcül-Bəlağə, xütbə 1

# 273

# Yaxşılıq (1)

**Yaxşılıq etmək**

***1265. Yaxşılıq.***

4171. İmam Əli (ə): «Yaxşılıq etmək, məzluma kömək etmək və qonaqpərvərlik sərvərlik vasitələridir.»[1]

4172. İmam Əli (ə): «Yaxşılıq etmək əbədi ehtiyatdır. (Yəni həmişə qalandır və yaxud da həmişəlik əbədi olan qiyamət gününün ehtiyatıdır).»[2]

4173. İmam Hüseyn (ə): «Bilin ki, yaxşılıq etmək sitayiş, pərəstiş yaradar və mükafata səbəb olar. Əgər yaxşılığı insan surətində görsəniz, hər an onu yaxşı, gözəl, gözoxşayan və bütün dünya əhlindən gözəl görərsiniz. Əgər alçaqlığı görsəniz, onu nizamsız, çirkin, ürəklərdə ikrah doğuran və gözlər üzünə bağlanan bədsifət görəcəksiniz.»[3]

4174. İmam Sadiq (ə): «Cənnətə ilk daxil olanlar yaxşılıq edənlər olacaqlar.»[4]

4175. İmam Sadiq (ə): «Dünyada yaxşı əməl sahibləri axirətdə də yaxşı əməl əhli olarlar. Çünki axirətdə yaxşı işləri ağır gələr. Buna görə də onların bir hissəsini günah iş görənlərə bağışlayacaqlar.» [5]

4176. İmam Cavad (ə): «Yaxşılıq edənlər yaxşılıq etməyə, ona ehtiyacı olanlardan daha möhtacdırlar. Çünki onun mükafatı, fəxri və yaxşı adı onlara qalar. Kim yaxşılıq edirsə ilk növbədə özünə edir. Buna görə də özünə etdiyi yaxşılığa görə başqalarından təşəkkür istəməməlidir.»[6]

***1266. Yaxşılara və pislərə yaxşılıq etməyə həvəsləndirmə.***

---

[1] Ğurərul- Hikəm, hədis 6585
[2] Ğurərul- Hikəm, hədis 980
[3] Mustədrəkul Vəsait, c.12, səh.343, hədis14242
[4] -d-Dəvat, səh.108, hədis240
[5] Əmali-Tusi , səh.304 , hədis 610
[6] Kəşful-Ğummə, səh.3 , hədis137

4177. Allahın Peyğəmbəri (s): «Ağılın zirvəsi dindarlıqdan sonra insanlarla dostluq və hər bir yaxşı və pis insana yaxşılıq etməkdir.» [1]

4178. Allahın Peyğəmbəri (s): «Yaxşılıq və ehsan et, istər ona layiq olana, istərsə də ona ləyaqəti çatmayana. Çünki yaxşılığa layiq olmayana belə yaxşılıq etmiş olsan, sən yaxşılığın fəzilətini qazanmış olursan.»[2]

***1267. Yaxşılıq və köməyin əllərdə dolanması.***

4179. Allahın Peyğəmbəri (s): «Hər kim möhtac insana sədəqə versə, onun mükafatını Allahdan alar. Əgər bir sədəqə qırx insanın əlindən keçib möhtacın əlinə çatsa, onların hamısına tam əcr düşər.»[3]

4180. İmam Sadiq (ə): «Əgər ehsan və yardım səksən əldən keçsə belə, sahibinin əcrindən heç nə azalmadan onların hamısının mükafat qazanmalarına səbəb olar.»[4]

***1268. Minnət qoymaqdan çəkindirmək.***

4181. İmam Əli (ə): «Öz yaxşılığını öldürməklə (və unutmaqla) onu dirilt.»[5]

4182. İmam Əli (ə): «Sənə yaxşılıq olunduqda onu yada sal, sən kiməsə yaxşılıq etdikdə isə yaddan çıxart!»[6]

4183. İmam Əli (ə): «Yaxşılıq etməyin meyarı ona görə minnət qoymamaqdır.»[7]

***1269. Yaxşılığı axıra qədər etmək.***

4184. Allahın Peyğəmbəri (s): «Yaxşılığı axıra qədər etmək onu başlamaqdan daha yaxşıdır.»[8]

4185. İmam Əli (ə): «Hər kim öz yaxşılığını tamamlayıb inkişaf etdirməsə, onu məhv etmişdir.»[9]

4186. İmam Kazim (ə): «Kimsə möminə yaxşılıq edərsə, onu bu üç yoldan savayı başqa cür kamilləşdirə bilməz: etdiyini kiçik saymaq, onu gizlətmək və onu yerinə yetirməyə tələsmək. Çünki möminə etdiyi yaxşılığı

---

[1] Biharul-Ənvar c.74, səh.401, hədis 44
[2] Uyunu- Əxbari Rza (ə), c.2, səh.35, hədis 76
[3] Səvabul-Əmal, səh.342, hədis 1
[4] əl-Kafi, c.4, səh.18, hədis 2
[5] Ğurərul-Hikəm, hədis 2282
[6] Ğurərul-Hikəm, hədis (4000+4001)
[7] Ğurərul-Hikəm, hədis 9724
[8] Əmali-Tusi , səh.596 , hədis 1235
[9] Ğurərul-Hikəm, hədis 9115

kiçik hesab edən öz qardaşını böyük saymışdır. Möminə yaxşılığını böyük sayan, öz qardaşını alçaltmışdır. Möminə etdiyi yaxşılığını gizlədən böyüklük etmişdir.Mömінə verdiyi vədi yerinə yetirməyə tələsən, öz bəxşişini ürəyəyatan etmişdir.»[1]

***1270. Yaxşılığı aşağı tutmaqdan çəkindirmək.***

4187. Allahın Peyğəmbəri (s): «Heç bir yaxşı əməli aşağı tutma. Hətta qardaşınla gülərüzlə təmasda olmaq (kimi əməl) olsa belə.»[2]

4188. İmam Əli (ə): «Görə biləcəyin heç bir yaxşı işi aşağı tutma və daha böyük yaxşılığa görə ondan uzaqlaşma. Çünki ehtiyac olan təqdirdə edilən azacıq yaxşılıq və kömək, ehtiyac olmadıqda olunan böyük yaxşılıq və köməkdən daha faydalıdır. Hər gün elə iş gör ki, onun səbəbinə doğru yola yönələsən.»[3]

***1281. Yaxşılıq və ehsanın qəbul olmasının nişanələri.***

4189. İmam Əli (ə): «Ən yaxşı ehsan odur ki, yaxşılara edilsin.»[4]

4190. İmam Sadiq (ə) *(«Bəndənin Allah dərgahına qəbul olunmasının nişanəsi nədir?» sualına cavabından):* «Bəndənin Allah dərgahında qəbul olmasının nişanəsi budur ki, ehsanı və köməyi yerinədüşən olsun. Belə olmasa, elə də olmayacaqdır.»[5]

***1272. Ehsan və yaxşılığın savabı.***

4191. Allahın Peyğəmbəri (s): «Hər kim insanı çöldə əlindən tutub qırx addım yol aparsa, bütün yer üzü qızılla dolsa belə, (və ona verilsə) onun bu işinin mükafatının bir iynə ucu qədərini də verməz. Onu yolda gözləyən təhlükədən uzaqlaşdırsa, qiyamət günündə bu iş yaxşılıqlar tərəzisində dünyadan yüz min qat ağır gələcəkdir.»[6]

4192 Allahın Peyğəmbəri (s): «Bir bəndə, müsəlmanların yolundan bir tikan budağını götürdüyünə görə cənnətə getdi.»[7]

4193. Allahın Peyğəmbəri (s): «Kimsə yol kənarında yoldan keçənlər üçün daldanacaq düzəltsə, Allah qiyamət günündə onu üzü cənnət əhlinə

---

[1] Tuhəful-Uqul, səh.403
[2] Kənzul-Fəvaid, c.1, səh.212
[3] əl-Cəfəriyyət, səh. 233
[4] Ğurərul-Hikəm, hədis 4983
[5] Biharul-Ənvar, c. 47, səh.419, hədis 47
[6] Biharul-Ənvar, c.75, səh.15, hədis 8
[7] əl-Xisal, səh.32, hədis 111

nur saça-saça, mirvaridən olan əsil dəvəyə minmiş halda məhşər ayağına gətirər.»[1]

4194. Allahın Peyğəmbəri (s): «Hər kimsə selin və yanğının müsəlmanlara zərərinin qarşısını alarsa, cənnət ona vacib olar.»[2]

4195. İmam Sadiq (ə): «Yaxşılığı, öz adı kimi (yaxşı) gördüm. Onun (Allah verən) mükafatından başqa heç bir şey yaxşılıq etməkdən daha üstün deyil.»[3]

---

[1] Səvabul-Əmal, səh.343, hədis 1
[2] əl-Kafi, c.5, səh.55, hədis3
[3] Məkarimul-Əxlaq, c.1, səh.294, hədis 915

274

# Yaxşılıq (2)

**Yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmək**

***1273. Yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmək.***

**Quran:**

«İçərinizdə yaxşılığa dəvətə çağıran, xeyirli işləri görməyi əmr və pis əməlləri qadağan edən bir camaat olsun. Bunlar, həqiqətən nicat tapmış şəxslərdir.»[1]

«Siz, insanlar üçün yaradılmış ən yaxşı ümmətsiniz. Yaxşı işlər görməyi əmr edir, pis işlərdən çəkindirir və Allaha iman gətirirsiniz. Əgər kitab əhli də iman gətirsəydi, əlbəttə, onlar üçün daha yaxşı olardı. Onların da onlardan iman gətirənlər də vardır, lakin çoxları haqq yoldan çıxanlardır.»[2]

«Mömin kişilərlə mömin qadınlar bir-birinə dost, hayandır. Onlar yaxşı işlər görməyi əmr edər, pis işlərdən çəkindirirlər.»[3]

**Hədis:**

4196. Allahın Peyğəmbəri (s): «Hər kim yaxşı işlərə çağırıb pis işlərdən çəkindirərsə, Allahın və Onun Peyğəmbərinin yer üzündə canişinidir.»[4]

4197. Allahın Peyğəmbəri (s): «Allah dini olmayan zəif möminə nifrət edər.» Ərz edildi: «Dini olmayan mömin kimdir?» Buyurdu: «Pis işlərdən çəkindirməyən.»[5]

4198. İmam Əli (ə): «Şəriətin davamlılığı yaxşı işlərə dəvət, pis işlərdən çəkindirmək və (ilahi) hüdudları gözləməklədir.»[6]

---

[1] Ali-İmran, ayə104
[2] Ali-İmran, ayə110
[3] Tövbə, ayə71
[4] Mustədəkul-Vəsail, c.12, səh.179, hədis13817
[5] əl-Kafi, c.5, səh.59, hədis15
[6] Ğurərul-Hikəm, hədis 6817

4199. İmam Əli (ə): «Bütün yaxşı işlər və Allah yolunda cihad yaxşı işlərə dəvət və pis işlərdən çəkindirməklə müqayisədə dərin dənizə tökülən ağız suyu qədər heç nədir.»[1]

4200. İmam Əli (ə): «Yaxşı işlərə dəvət insanların gördüyü ən üstün işdir.»[2]

4201. İmam Əli (ə): «Bilin ki, yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmək nə kimsənin əcəlini yaxınlaşdırıb, nə də kimsənin ruzisini kəsib.»[3]

4202. İmam Hüseyn (ə): *-deyilir-* «Allaha görə mömin olan heç bir gözə rəva deyil ki, Allaha itaətsizlik edildiyini görsün və göz yumsun, həmin vəziyyəti dəyişməsin.»[4]

4203. İmam Baqir (ə): «Yaxşı işlərə dəvət və pis əməllərdən çəkindirmək peyğəmbərlərin yolu və yaxşı iş görənlərin üslubudur. Böyük vacib əməldir ki, digər vacib əməllər onun vasitəsilə əmələ gəlir. Yollar əmin-aman, gəlirlər halal olur. Zorla alınmış haqq və mallar sahiblərinə qaytarılır və yer üzü abadlaşır. Düşmənlərdən intiqam alınır və işlər sahmana düşür.»[5]

***1274. Yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmək.***

4204. Allahın Peyğəmbəri (s): «Ya yaxşı işlərə dəvət edib, pis işlərdən çəkindirəcəksiniz, ya da hamınızı Allahın əzabı bürüyəcək.»[6]

4205. İmam Əli (ə) *(İbn Mülcəm tərəfindən qılınc zərbəsi ilə yaralandıq-dan sonra Həsən və Hüseynə (ə) tövsiyəsindən):* «Yaxşı işlərə dəvət və pisliklərdən çəkindirməkdən əl çəkməyin. Belə olmayan halda, şər insanlar sizə idarəçiliyi ələ alar. O vaxtsa, nə dua etsəniz müstəcab olmaz.»[7]

***1275. Bir dəstənin rəftarı ilə razı olanlar.***

4206. İmam Əli (ə): «Bir dəstənin rəftarı ilə razı olan, onlarla birgə həmin işi görən kimidir. Kim batil rəftara əl atarsa iki günah törətmiş olar: onu yerinə yetirməyin günahı və ona razı olmağın günahı.»[8]

---

[1] Nəhcül-Bəlağə, hikmət 374
[2] Ğurərul-Hikəm, hədis1977
[3] əl-Kafi, c.5, səh.57, hədis 6
[4] Tənbihul– Xəvatir, c.2, səh.179
[5] əl-Kafi, c.5, səh.56, hədis 1
[6] Vəsailuş– Şiə, c.11, səh.407, hədis 12
[7] Nəhcül-Bəlağə, məktub 47.
[8] Nəhcül-Bəlağə, hikmət 154

4207. İmam Cavad (ə): «Nalayiq işi yaxşı əməl sayan kimsə həmin işdə şərik olar.»[1]

4208. İmam Cavad (ə): «Kimsə bir işin şahidi olarsa və ondan xoşlanmasa, onun şahidi olmamış kimidir. Ancaq kimsə bir işin şahidi olmasa və onunla razı olarsa, həmin işin şahidi kimidir.»[2]

***1276. Yaxşı əməllərə çağıranın şərtləri.***

4209. Allahın Peyğəmbəri (s): «Yaxşı əməllərə dəvət edən kimsə bunu gözəl tərzdə etməlidir.»[3]

4210. Allahın Peyğəmbəri (s)–*(Deyilmiş olan «biz yalnız özümüz tam riayət etdiyimiz yaxşı əməllərə dəvət edirik» sözünə cavabından):* «Özünüz onların hamısına tam riayət etməsəniz də, yaxşı əməllərə dəvət edin. Özünüz onların hamısından çəkinməsəniz də, pis əməllərdən çəkindirin.»[4]

4211. İmam Əli (ə): «Mən öz şənimi, camaatı özümün tərk etmədiyim şeydən çəkindirməkdən və ya özüm əməl etmədiyim işə əmr etməkdən daha yüksək sanıram.»[5]

4212. İmam Əli (ə): «Yaxşı əməlləri əmr edib özləri ona ərinənlərə, çirkin əməllərdən çəkindirib özləri onu törədənlərə Allahın lənəti olsun!.»[6]

4213. İmam Əli (ə): «Pis əməllərdən çəkindirin və özünüz də ondan çəkinin. Çünki sizə əvvəlcə özünüzün çirkin əməllərdən çəkinib sonra başqalarını çəkindirməniz əmr olunmuşdur.»[7]

4214. İmam Sadiq (ə): «Elə adam yaxşı əməllərə əmr edib pis əməllərdən çəkindirməlidir ki, bu üç xüsusiyyətə sahib olsun: (Birincisi) Əmr etdiyinə özü əməl etsin və qadağan etdiyindən özü də uzaq olsun. (İkincisi) Əmr və qadağalarında ədalətə riayət etsin. (Üçüncüsü) Əmr və qadağalarında mülayimlik yolunu seçsin.»[8]

***1277. Pisliklərdən çəkindirməyin ən aşağı mərtəbəsi.***

4215. Allahın Peyğəmbəri (s): «Sizlərdən hər biriniz pis əməlin şahidi olarsa, onu öz əlləri ilə dəyişdirməlidir. Bunu bacarmazsa, dili ilə

---

[1] Kəşful-Ğummə, c.3, səh.139
[2] Tuhəful-Uqul, səh.456
[3] Kənzul-Ummal, səh.5523
[4] Tənbihul-Xəvatir, c.2, səh.213
[5] Ğurərul- Hikəm, hədis 3780
[6] Nəhcül-Bəlağə, xütbə 129
[7] Nəhcül-Bəlağə, xütbə 105
[8] əl-Xisal, səh. 109, hədis19

dəyişdirməlidir (və etiraz etməlidir). Yenə də bacarmasa, qəlbində onu inkar etməlidir. Bu imanın ən zəif mərhələsidir.»[1]

4216. Allahın Peyğəmbəri (s): «Ehey! Məbada, camaatdan qorxu sizlərdən birinə haqqı görüb onu deməsinə mane ola. (haqqı demək) Nə əcəli yaxınlaşdırar və nə də ruzini uzaqlaşdırar.»[2]

4217. İmam Əli (ə): «Pis əməllər törədənə ürəyi, əli və dili ilə etiraz etməyən, dirilər arasında bir ölüdür.»[3]

4218. İmam Əli (ə): «Allahın Peyğəmbəri (s) bizə əmr etdi ki, günah iş görənlərlə qaşqabaqlı və sərt üzlə görüşək.»[4]

4219. İmam Sadiq (ə): «Mömininin başucalığı üçün, hər vaxt pis əməl sahibini gördükdə onu ürəyində inkar etməsini Allahın bilməsi kifayətdir.»[5]

---

[1] ət-Tərğib-vət-Tərhib, c.3, səh.223, hədis1
[2] Kənzul-Ummal, səh.5570
[3] Təhzibul-əhkam, c.6, səh.181, hədis 374
[4] əl-Kafi, c.5, səh.59, hədis 10
[5] əl-Kafi, c.5, səh.60, hədis 1

**275**

# Baş ucalığı

***1276. Baş ucalığının mənası.***

**Quran:**

«Möminləri qoyub kafirləri dost tutanlar izzət və qüdrəti onlardamı axtarırlar? Şübhəsiz ki, izzət və qüdrət tamamilə Allaha məxsusdur!»[1]

Hədis:

4220. İmam Əli (ə): «Allahdan qeyrisinin vasitəsilə əziz olan zəlildir.»[2]

4221. İmam Əli (ə): «Bil ki, Allahın müqabilində zəlil olmayan kimsə izzət sahibi deyil. Allah qarşısında əyilməyən heç vaxt ucalmaz.»[3]

4222. İmam Əli (ə): «Səbr kimi başucalığı yoxdur.»[4]

4223. İmam Səccad (ə): «Hökm sahiblərinə (Allaha) tabe olmaq başdanbaşa izzətdir.»[5]

4224. İmam Sadiq (ə): «İzzət ondadır ki, boynuna haqq gələndə onun müqabilində zəlil və müti olasan.»[6]

***1279. Baş ucalığına səbəb olanlar.***

4225. «Biharul Ənvar»: Allah-taala Həzrəti Davuda (ə) vəhy etdi: «Ey Davud! Mən ... izzəti özümə itaətdə qərar verdim. Ancaq camaat onu sultana itaətdə axtarır və buna görə də tapa bilmir.»[7]

4226. Loğman (ə) *(öz övladına öyüdlərindən):–*«Dünyada başıuca olmaq istəyirsənsə, camaatda olanlardan tamahını üz. Çünki peyğəmbərlər və siddiqlər öz tamahlarını sildiklərinə görə həmin məqamlara çatmışlar.»[8]

---

[1] Nisa, ayə139
[2] Biharul-Ənvar, c.78, səh.10, hədis 67
[3] Tuhəful-Uqul, səh.366.
[4] Nəhcul Bəlağə, hikmət 113
[5] Tuhəful-Uqul, səh.283
[6] Biharul-Ənvar, c.78, səh.228, hədis 105
[7] Biharul-Ənvar, c.78, səh.453, hədis 21
[8] Qəsəsul  Ənbiya, səh.195, hədis244

4227. İmam Əli (ə): «Təğvadan yüksək heç bir başucalığı yoxdur.»[1]

4228. İmam Əli (ə) *(Münacatında):*–«İlahi! Sənə bəndə olmağımın izzəti mənə yetər. Sənin mənim Allahım olmağının fəxri mənə bəs edər.»[2]

4229. İmam Əli (ə): «Bilin ki, kim camaatla insafla rəftar etsə, Allah-taala onun yalnız izzətini artırar.»[3]

4230. İmam Əli (ə): «Qane olun ki, əziz olasınız.»[4]

4231. İmam Baqir (ə): «Gözü camaatın əlində olmamaq möminin dini izzətinə səbəb olar.»[5]

4232. İmam Baqir (ə): «Allah-taala yalnız üç yoldan qeyri vasitə ilə müsəlmanın izzətini artırmaz: ona zülm etmiş şəxsi əfv etmək, ona (nəyisə verməyi) əsirgəyənə bağışlamaq və ondan qırılan kimsəyə birləşmək.»[6]

4234. İmam Sadiq (ə): «Hər kim eli-obası olmadan izzət sahibi, malı-sərvəti olmadan ehtiyacsız olmaq və qüdrəti olmadan heyrətli, əzəmətli olmaq istəyirsə, Allaha qarşı günah işlətməyin rüsvayçılığından itaətin izzətinə keçməlidir.»[7]

4235. İmam Sadiq (ə): «Öz qəzəbini söndürən (udan) elə bəndə olmadı ki, Allah onun dünya və axirətdə izzətini artırmamış olsun.»[8]

4236. İmam Əskəri (ə): «Elə bir izzət sahibi olmaz ki, haqdan əl çəkdikdən sonra zəlil olmasın. Elə bir zəlil və aciz olmaz ki, haqqı tapdıqdan sonra əziz və qüdrətli olmasın.»[9]

***1280. İzzətin davamlılığının səbəbləri.***

4237. İmam Baqir (ə): «İzzətin davamlılığını tamahını öldürməkdə axtar.»[10]

4238. İmam Sadiq (ə): «Tənhalıq və camaatdan uzaq gəzmək, izzət və ehtiramı, onlara yaxın olmaqdan daha çox qoruyub saxlayar.»[11]

---

[1] Nəhcul Bəlağə, hikmət 371
[2] əl-Xisal, səh.420, hədis14
[3] əl-Kafi, c.2, səh.144, hədis4.
[4] Biharul-Ənvar, c.78, səh.53, hədis 90
[5] əl-Kafi, c.2, səh.149, hədis 6
[6] əl-Kafi, c.2, səh.109, hədis10
[7] əl-Xisal, səh.169, hədis 222
[8] əl-Kafi, c.2, səh.110, hədis5
[9] Biharul-Ənvar, c.78, səh.374, hədis 24
[10] Tuhəful- Uqul, səh.286
[11] Biharul-Ənvar, c.74, səh.180, hədis 28

**276**

# Küncə çəkilmək

***1281. Küncə çəkilməyin qiyməti.***

4238. «əl-Kafi»: Allah-taalanın Musaya pıçıltı ilə buyurduqlarından biri bu idi: «Paltarın köhnə, qəlbin yeni olsun ki, yer üzünün əhalisi arasında az tanınmış, səma əhli arasında məşhur olasan.»[1]

4239. Allahın Peyğəmbəri (s): «Küncə çəkilmək ibadətdir.»[2]

4240. İmam Əli (ə): «Tənhalıq ibadət əhlinin asayişdir.» [3]

4241. İmam Əli (ə): «Camaatdan ayrılan, pak Allahın həmdəmi olar.»[4]

4242. İmam Əli (ə): «Hər kim camaatdan kənara durdusa, zərərlərindən amanda qalar.»[5]

***1282 Guşənişinliyə səbəb olanlar.***

4243. «Biharul Ənvar»: İmam Sadiqdən (ə) guşənişinliyin səbəbləri barədə soruşdular. O Həzrət buyurdu: «Zəmanə korlanmış və qardaşlar dəyişmişlər. Buna görə də qəlb rahatlığını tənhalıqda tapdım.» [6]

4244. İmam Əskəri (ə): «Camaatdan kənara çəkilmək, onları tanımağın həddi ilə əlaqəlidir.»[7]

**1283. Küncə çəkilməməli olan kimsələr.**

4245. Allahın Peyğəmbəri (s): «Camaatla ünsiyyətdə olub onların əziyyətlərinə səbr edən mömin, camaatla ünsiyyətdə olmayıb, onların əziyyətlərinə dözməyən mömindən daha üstündür.»[8]

---

[1] əl-Kafi, c.8, səh.42, hədis 8.
[2] Əlamuddin, səh.341
[3] Ğurərul-Hikəm, hədis 661
[4] Ğurərul-Hikəm, hədis 8644
[5] Ğurərul-Hikəm, hədis 8151
[6] Biharul-Ənvar, c.47, səh.60, hədis 116
[7] Biharul-Ənvar, c.70, səh.111, hədis 14
[8] Kənzul-Ummal, səh.686

4246. Allahın Peyğəmbəri (s) *(İbadət üçün dağa getmək istəyən kişiyə xitabən):* «Sizlərdən biri, İslam dünyasının hansı bir nöqtəsindəsə, onun üçün çətin olana dözsə, bu onun qırx il təklikdə və xəlvətdə ibadətlə məşğul olmasından daha yaxşıdır.»[1]

[1] -d-Durrul-Mənsur, c.1, səh.161

# 277

# Başsağlığı

***1284. Yaslı insana təsəlli vermək.***

4247. Allahın Peyğəmbəri (s): «Hər kim yaslı insana təsəlli versə, onun qədər əcri var.»[1]

4248. İmam Əli (ə): «Hər kim övladı ölmüş anaya təsəlli verərsə, Allah Onun ərşindən başqa heç bir kölgənin olmayacağı gün ona Öz ərsinin kölgəsində yer verəcək.»[2]

4249. İmam Sadiq (ə): «Təsəlli vermək üçün müsibətə düşənin səni görməsi kifayət edər.»[3]

***1285. Yaslı insana təsəlli üçün deyilənlər.***

4250. İmam Əli (ə): «Allahın Peyğəmbəri (s) nə vaxt təsəlli verərdisə, buyurardı: Allah əcrinizi versin və sizləri öz rəhmətinə şamil etsin. Təbrik edəndə isə buyurardı: Allah sizə bərəkət versin və mübarək etsin.»[4]

***1286. Yas əhlini təbrik etmək, başsağlığı verməkdən daha yaxşıdır.***

4251. İmam Rza (ə)–*(Həsən ibn Səhlə verdiyi başsağlığından):*– «Axirət savabı münasibətilə təbrik etmək, dünyanın yasına görə başsağlığı verməkdən daha layiqlidir.»[5]

---

[1] Biharul-Ənvar, c.82 səh.94, hədis 46
[2] əl-Kafi, c.3, səh.227, hədis3.
[3] Mən la Yəhzuruhul Fəqih, c.1, səh.174, hədis 505
[4] Musəkkinul- Fuəəd, səh.108
[5] Biharul-Ənvar, c.78, səh.353, hədis 9

## 278

# Ünsiyyət

***1287. Camaatla ünsiyyət qaydaları.***

4252. İmam Əli (ə): «Camaatla elə rəftar edin ki, ölsəniz sizin üçün ağlasınlar. Sağ qalsanız isə (və ya olmasanız) sizinlə görüşməyə müştaq olsunlar.»[1]

4253. İmam Əli (ə) *(Buyurardı)*:«Camaata olan ehtiyacın və ehtiyacsızlığın hər ikisi, qəlbində cəm olmalıdır. Mülayim danışığında və xoş münasibətində onlara ehtiyacın olsun, amma abrını, izzət və baş ucalığını qorumağında onlara ehtiyacın olmasın.[2]

4254. İmam Baqir (ə): «Camaatın işi o vaxt sahmana düşər ki, onlarla üçdə ikisi ayıq-sayıqlıq və üçdə biri görməməzliyə vurmaq və göz yummaq olan bir tərəzi gözü kimi ünsiyyət qurulsun.»[3]

***1288. Ailə ilə ünsiyyət qaydaları.***

**Quran:**

«Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir. Açıq-aşkar pis iş görməyincə, özlərinə verdiyiniz şeyin bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl rəftar edin. Əgər onlardan xoşunuz gəlməsə, ola bilsin ki, sizə xoş gəlməyən hər hansı bir şeydə Allah (sizdən ötrü) çoxlu xeyir nəzərdə tutmuş olsun.»[4]

**Hədis:**

4255. İmam Əli (ə) *(əziz oğlu Həsənə tövsiyyəsindən):* «Məbada sənin ailən sənə (bəd rəftarına) görə insanların ən bədbəxti olsun.»[5]

---

[1] Nəhcül-Bəlağə, hikmət 10
[2] Məaniul-Əxbar, səh 267, hədis 1
[3] Biharul-Ənvar, c.74, səh.167, hədis 34
[4] Nisa, ayə19
[5] Nəhcül-Bəlağə, məktub 31

4256.İmam Əli (ə): «Kişi evini və ailəsini idarə etmək üçün təbiətinə zidd olsa belə üç işi görməlidir: xoş rəftar, qaydasında əliaçıqlıq və qeyrət, namus.»[1]

***1289. Camaatla ünsiyyətdə layiqli olanlar.***

4257. Allahın Peyğəmbəri (s): «Oturub durduğun adamla yaxşı rəftar et ki, müsəlman olasan.»[2]

4258. İmam Əli (ə): «Camaatla öz diliniz və bədəninizlə qaynayıb-qarışın, qəlb və əməllərinizlə onlardan uzaq durun.»[3]

4259. İmam Əli (ə): «Canını və malını qardaşına fəda et. Ədalət və insafını isə düşməninə hədiyyə et. Xoş sifətini və yaxşılığını ümumi camaata bağışla.»[4]

4260. İmam Əli (ə): «Özünü dostluqda sadiq et. Özünü camaatın zəhmətlərinə (və ya xərclərinə) dözməyə vadar et.»[5]

4261. İmam Əli (ə): «Hər kim camaatla xoşlamadığı tərzdə rəftar etsə, camaat onun barəsində bilmədikləri şeyləri danışacaq.»[6]

4262. İmam Həsən (ə): «Camaatla, özünə qarşı edilməsini istədiyin cür rəftar edin.»[7]

4263. İmam Sadiq (ə): «Camatla xoş rəftar ağıllı olmağın üçdə biridir.»[8]

4264. İmam Kazim (ə): «Camaatla dostluq etmək ağılın yarısıdır.»[9]

---

[1]Biharul-Ənvar, c.78, səh.236, hədis 63
[2]Əmali-Səduq, səh.168, hədis13

[3] Ğurərul-Hikəm, hədis 507
[4] Biharul-Ənvar, c.78, səh.50, hədis 76
[5] Biharul-Ənvar, c.74, səh.175, hədis 6
[6] Biharul-Ənvar, c.75, səh.151, hədis 17
[7] Əlamuddin, səh.297
[8] Tuhəful-Uqul, səh.366
[9] Tuhəful-Uqul, səh.403

**279**

# Aşura

***1290. Aşura.***

4265. İmam Səccad (ə): «Gözləri Hüseynin (ə) öldürülməsindən ötrü ağlayan, ağlamaqdan göz yaşları yanaqlarından axan möminə Allah bunun səbəbinə cənnət köşklərində yer verər və uzun müddət orada yaşayar.»[1]

4266. İmam Baqir (ə) (*Aşura günündə yaxın və ya uzaq məsafədən Hüseynin (ə) ziyarəti barədə hədisdə):*«…Sonra Hüseynə (ə) ağlayıb inləsinlər, evində olanlara və onlardan təqiyyə saxlamayanlara da ağlamağı tapşırsın... Hüseynin (ə) müsibətinə görə bir-birinə başsağlığı versinlər.Dedim:Bir-birimizə necə başsağlığı verək. Deyin ki, Allah Hüseynin müsibətinə görə bizə çatan əcri böyütsün, bizi və sizləri onun «Vəliye dəm»i (qan sahibi) Məhəmməd ailəsindən olan İmam Mehdi ilə birgə onun qanını almağa qalxanlardan etsin.»[2]

4267. İmam Sadiq (ə): «Kim Hüseynin barəsində bir beyt şer yazıb özü ağlasa və on nəfəri da ağlatsa, özünün və həmin on nəfərin nəsibi cənnət olar (cənnətlik olar).»[3]

4268. İmam Rza (ə): «Aşura günü kimin yas, ağlama və kədər günü olarsa, Allah qiyaməti onun şadlıq və sevinc gününə çevirər.»[4]

4269. İmam Rza (ə): «Hüseyn kimi insana gərək ağlayanlar ağlasın. Çünki onunçün ağlamaq böyük günahları silər.» Həzrət sonra buyurdu: «Məhərrəm ayı girəndən kimsə atamı gülərüz görməzdi. On gün keçincəyə qədər yas və kədər ona hakim olardı. Onuncu gün də onun ağlamaq, yas və qəm günü idi və buyurardı: Bu Hüseynin öldüyü gündür.»[5]

---

[1] Səvabul-Əmal, səh.108, hədis1
[2] Misbahul-Motəhəccid, səh.772
[3] Səvabul- Əmal, səh.110, hədis3
[4] İləluş-Şərayyə, səh.227, hədis 2
[5] Vəsauluş-Şiə, c.10, səh.394, hədis 8

## 280

# Eşq

***1291.Eşqin pislənilməsi.***

4270. İmam Əli (ə): «Hicran eşqin cəfasıdır»[1].

4271. İmam Əli (ə): «Hər kim nəyə aşiq olarsa, həmin şey onun gözünü kor, qəlbini xəstə edər. Belə insan sağlam olmayan gözlə baxar, eşitməyən qulaqla eşidər. Şəhvətlər onun ağlını pərən-pərən salmış və dünya qəlbini öldürmüşdür.»[2]

4272. İmam Sadiq (ə)*(Eşq barədə suala cavabından):*«Qəlblər Allahı yad etməkdən boşalar və Allah özündən qeyrisinin məhəbbətini onlara dadızdırar.»[3]

***1292. Pak eşqin mükafatı.***

4273. Allahın Peyğəmbəri (s): «Hər kim aşiq olsa, öz eşqini gizlətsə, iffətli olsa və bu halda ölərsə, o, şəhiddir.»[4]

4274. İmam Əli (ə): «Allah yolunda cihad edib şəhid olanın əcri, günah etməyə imkanı olduğu halda, iffətli olanın əcrindən çox deyil.»[5]

***1293. Allah eşqi.***

4275. Allahın Peyğəmbəri (s): «Allah buyurur: «Mənimlə olan məşğuliyyət bəndənin canına qalib gəlsə, onun istək və ləzzətlərini məni xatırlamaqda qərar verərəm. İstək və ləzzətini Məni xatırlamaqda qərar verdikdə, Mənə aşiq olar, Mən də onun aşiqi olaram. Bir-birimizə aşiq olduqda, Özümlə onun arasındakı pərdəni götürər, bunu (Öz camal və

---

[1] Biharul-Ənvar, c.78 səh.11, hədis 70
[2] Nəhcül-Bəlağə, xütbə109
[3] Əmali-Səduq, səh.531, hədis3
[4] Kənzul-Ummal, hədis 7000.
[5] Nəhcül-Bəlağə, xütbə109

cəlalımı görməyi) canına hakim edərəm. Belə ki, camaat səhv edəndə, o, səhvə yol verməz.»[1]

[1] Kənzul-Ummal, hədis 1872

## 281

# Təəssüb

***1294. Təəssüb.***

**Quran:**

«Kafirlər öz ürəklərində cahiliyyət təkəbbürünə və təəssübünə qapıldıqları zaman Allah Peyğəmbərinə və möminlərə Öz dərgahından xatircəmlik, qəlb rahatlığı göndərmiş və onlara təqva kəlməsini xoş etmişdi. Onların bu sözə daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi biləndir!»[1]

**Hədis:**

4276. Allahın Peyğəmbəri (s): «Təəssübkeşlik edən və yaxud təəssübü çəkilən, iman halqasını öz boynundan açmışdır.»[2]

4277. Allahın Peyğəmbəri (s): «Hər kimin qəlbində xardal dənəsi boyda olsa belə təəssüb olarsa, Allah qiyamət günündə onu cahiyyət dövrünün ərəbləri ilə birgə diriltdər.»[3]

4278. Allahın Peyğəmbəri (s): «Təəssübkeşliyə çağıran kimsə bizdən deyil. Təəssüb yolunda döyüşən də bizdən deyil. Təəssüblə ölən kimsə bizdən deyil.»[4]

4279. İmam Əli (ə) *(İblisi pisləyərkən):*–«Öz yaradılma səbəbinə (oddan olduğuna) görə Adəmə öyündü və əslinə, gövhərinə xatir, ona qarşı təəssübə qapandı. Bu, Allahın düşməni, təəssübkeşlərin rəhbəri, təkəbbürlülərin və özünü böyük görənlərin başçısıdır. O, həm təəssübün bünövrəsini qoydu və həm də qüdrət, böyüklük üstündə Allahla çəkişməyə qalxdı, əyninə izzət paltarı geyinib təvazökarlıq nigabını uzağa atdı.»[5]

4280. İmam Səccad (ə) *(Təəssübkeşliyə aid suala cavabından):* «Sahibi ona görə günaha batan təəssübkeşlik budur ki, insan öz qövmünün

---

[1] Fəth, ayə26
[2] əl-Kafi, c.2, səh.308, hədis 2
[3] əl-Kafi, c.2, səh.308, hədis 3
[4] Sunəni əbi Davud, hədis5121
[5] Nəhcül-Bəlağə, xütbə192

pisliklərini başqa qövmün yaxşılıqlarından üstün saysın. Kimsənin öz qövmünü və camaatını sevməsi, təəssübdən deyil. Təəssüb odur ki, zülmdə öz qövmünə kömək edəsən.»[1]

***1225. Bəyənilmiş təəssüb.***

4281. İmam Əli (ə) *(Qasiə xütbəsindən):* «Əgər təəssübkeşliyin çarəsi yoxdursa, onda təəssübkeşliyiniz şərafətli, böyük, igid ərəb ailələri və onların qəbilə böyüklərinin, sərvərlərinin bəyənilmiş əxlaqları, dərin ağılları, yüksək məqamları və gözəl rəftarları ilə bir-birindən üstün olmağa çalışdığları yüksək insani xüsusiyyətlərə, bəyənilmiş əxlaqlara və yaxşı işlərə görə olmalıdır.Buna görə də qonşunun haqq hörmətini saxlamaq, əhd-peymanlara vəfalı olmaq, yaxşılara tabe olmaq, təkəbbürün əleyhinə çıxmaq, yaxşılıq etmək, zorakılıq və təcavüzdən çəkinmək, adam öldürməyi böyük (günah) saymaq, camaatla insaflı olmaq, qəzəbini udmaq və cəmiyyətdə pozğunluq yaratmaqdan uzaq durmaq kimi bəyənilmiş xislətlər üçün təəssübkeşlik göstərin.» [2]

4282. İmam Əli (ə): «Əgər təəssübkeşliyə məcbursunuzsa, onda haqqa kömək və məzluma yardımda öz təəssübünüzü göstərin.»[3]

---

[1] əl-Kafi, c.2, səh.308, hədis 7
[2] Nəhcül-Bəlağə, xütbə192
[3] Ğurərul-Hikəm, hədis 3738

**282**

# İsmət

***1296.İsmət.***

4283. İmam Əli (ə): «Hər kimə isməti ilham olunarsa, büdrəyişlərdən amanda qalacaqdır.»[1]

4284. İmam Səccad (ə) : «Bizim ailənin imamı məsumdan qeyrisi olmaz. İsmət elə bir şey deyil ki, insanın zahirində olsun və onun vasitəsilə tanınsın. Buna görə də məsum təyin olunmalıdır.» Ərz etdilər: «Ey Rəsulullahın övladı! Məsumun mənası nədir?» Həzrət buyurdu: «Məsum o şəxsdir ki, Allahın kəndirindən yapışsın. Allahın kəndiri, elə həmin Qurandır. Bu ikisi (məsum və Quran) qiyamət gününə qədər bir-birindən ayrılmaz. İmam Qurana tərəf üz tutar, Quran da İmama doğru. Bu Allahın buyruğudur. Allah buyurur: Bu Quran, doğru olana yol açır.»[2]

4285. İmam Sadiq (ə) *(Məsumun mənası barədə Hişamın sualına cavabından):* «Məsum o kəsdir ki, Allahın köməyi ilə özünü ilahi qadağalardan qorusun. Allah-taala buyurmuşdur: Hər kim Allaha görə ismətli olub Ona sığınsa,doğru yola yönəldilmişdir.»[3]

***1297. İsmət yaradanlar.***

4286. Allahın Peyğəmbəri (s): «Allah-taala ona itaət edən kimsəni (hər bir şərr və məkruhdan) qoruyar və Ona itaətsizlik edən isə Allah tərəfindən qorunmaz.»[4]

4287. İmam Əli (ə): «İbrət öyrənmək ismətə (və büdrəməməyə) gətirib çıxarar.»[5]

---

[1]Ğurərul-Hikəm, hədis 8469
[2]Məani-Əxbar, səh.132, hədis 1
[3]Məaniul-Əxbar, səh.132, hədis 2
[4] əl-Kafi, c.8, səh.82, hədis 39
[5] Ğurərul-Hikəm, hədis 879

4288. İmam Əli (ə): «Günahlardan çəkinmək sağ ikən sənin ismət qaynağın və (günahdan) qoruyucun, ölümdən sonra isə məqamının Allaha yaxınlaşmasına səbəb olar.»[1]

4289. İmam Əli (ə): «İsmət təqva ilə bənzər olmuşdur.»[2]

4290. İmam Əli (ə): «Hikmətin özü bir ismətdir. İsmət isə bir nemətdir.»[3]

4291. İmam Əli (ə) *(Münacatında):–*«Xudaya! Günahdan çəkinmək üçün Sənin qorumağından başqa bir yol yoxdur. Yaxşı işlər bizlərə Sənin istəyindən qeyri yolla müyəssər olmur. Belə isə Sənin istəməyindən necə fayda götürüm? Sənin qorumağın dadıma çatmasa, özümü günahdan necə saxlayım?»[4]

4292. İmam Baqir (ə): «Allah-taala kimsənin xoş məramı olduğunu bildikdə, onu öz pənahında qoruyar.»[5]

4293. İmam Sadiq (ə) *(İmamları vəsf edərkən):–*«Büdrəyişdən qorunmuşlar, hər bir çirkinlik və alçaqlıqdan amandadırlar.»[6]

4294. İmam Sadiq (ə): «Biz Allahın fərmanının tərcumanlarıyıq. Biz məsum camaatıq.»[7]

4295. İmam Rza (ə): «İmam günahlardan pak və eyblərdən kənardır.»[8]

4296. İmam Rza (ə): «İmam məsumdur, (Allah tərəfindən) təsdiqlənib, uğurlanıb və möhkəmləndirilib.Hər bir xəta, büdrəyiş və səhvdən amandadır. Allah bu xüsusiyyətləri ona bəxş edib ki, bəndələrinə Allahın hüccəti, yaratdıqlarına isə sübutu olsun.»[9]

---

[1] Ğurərul-Hikəm, hədis 3466
[2] Ğurərul-Hikəm, hədis 4316
[3]Ğurərul-Hikəm, hədis 12
[4]əl-Bələdul-Əmin, səh.315
[5] Biharul-Ənvar, c.78, səh.188, hədis 41
[6]əl-Kafi, c.1, səh.204, hədis2
[7]əl-Kafi, c.1, səh.269, hədis6
[8] əl-Kafi, c.1, səh.200, hədis1
[9] əl-Kafi, c.1, səh.203 hədis1

**283**

# Böyük saymaq

***1299. İbadətkarların böyük sayılması.***

4297. Allahın Peyğəmbəri (s): «Əcəmlər kimi bir-birinizin ayağına qalx-mayın.»[1]

4298. Allahın Peyğəmbəri (s): «Özü oturmuş halda olduqda, camaatın onunçun ayağa qalxmasını istəyənin yeri oddur.»[2]

4299. Əbuzər (r.ə): «Gördüm ki, Salmanla Bilal Peyğəmbərə tərəf gəlirlər. Birdən, Salman Allahın Peyğəmbərinin (s) ayağına düşüb onu öpməyə başladı. Peyğəmbər onu bu işdən çəkindirib sonra buyurdu: Ey Salman! Əcəmlərin öz padşahları ilə gördüyü işi mənə qarşı etmə! Mən Allahın bəndələrindən biriyəm. Bəndə kimi xörək yeyir və bəndə kimi oturub dururam.»[3]

4300. İmam Əli (ə) *(«O Həzrətin (ə) Şam şəhərinə yolunun üstündə atlarından düşüb onun qarşısında qaçan Ənbarın torpaq sahiblərinə):* «Bu nə işdir görürsünüz?» Dedilər: «Bu bir adətdir və bununla öz hökmdarlarımıza hörmətimizi bildiririk.» Həzrət buyurdu: «Allaha and olsun! Sizin hökmdarlarınız bu işdən fayda götürməzlər. Siz də dünyada özünüzə əziyyət verirsiniz və axirətdə isə bu əməlinizə görə bədbəxt olacaqsınız. Arxasında cəza olan əzab və məşəqqət necə də ziyanlıdır. Necə də faydalıdır oddan asüdəlik yaradan rahatlıq.»[4]

***1300. Layiqli insana hörmət qoyulması.***

**Quran:**

«Hər kəs Allahın mərasiminə hörmət etsə, bu şübhəsiz ki, qəlblərin paklığındandır.»[5]

---

[1] Biharul-Ənvar, c.16, səh.240
[2] Biharul-Ənvar, c.16, səh.240
[3] Biharul-Ənvar, c.76, səh.63, hədis 3
[4] Nəhcül-Bəlağə, hikmət 37
[5] Həcc, ayə 32

«Hər kəs Allahın haram buyurduqlarını böyük sayarsa, Rəbbinin yanında onun üçün xeyirli olar. Sizə deyilənlərdən başqa, qalan heyvanlar sizə halal edilmişdir. Belə olan halda, murdar bütlərdən və yalan sözlərdən çəkinin.»[1]

**Hədis:**

4301. Allahın Peyğəmbəri (s): «Ağsaqqala, Quran bilənə və ədalətli rəhbərə ehtiram qoymaq Allahın cəlal və əzəmətinə hörmət etmək deməkdir.»[2]

4302. İmam Sadiq (ə) *(Kiməsə hörmət üçün ayağa qalxmaq barədə verilən suala cavabından):*–«Bu, təkcə dini şəxsiyyət üçün edilməsi istisna olmaqla bəyənilməyən işdir.»[3]

4303. İmam Kazim (ə): «Alimə elminə görə hörmət et və onunla çarpışma. Nadanı nadanlığına görə kiçik say, ancaq onu özündən qovma. Əksinə, özünə yaxınlaşdır və ona elm öyrət.»[4]

«Şəhidi əvvəl» özünün «Qaydalar» kitabına yazır: «Bu rəftar barədə əvvəlkilərdən bir şey nəql olunmasa da, mömінin gündəlik adət-ənənələrə uyğun olaraq hörmət qoymasının eybi yoxdur. Bunun səbəbi ayə və rəvayətlərin ümumiliyidir. Allah-taala buyurur: «Hər kəs Allahın nişanələrinə hörmət etsə, bu şübhəsiz ki, qəlblərin paklığındandır.» Yenə də buyurur: «Hər kəs Allahın haram buyruqlarını böyük saysa, bu Rəbbi yanında onun üçün xeyirli olar.» Allahın Peyğəmbəri (s) də buyurmuşdur: «Bir-birinizə qarşı düşmənçilik və paxıllıq etməyin, bir-birinizə arxa çevirməyin və bir-birinizlə əlaqəni kəsməyin, ey Allahın bəndələri! Bir-birinizə qardaş olun.» Buna görə də hörmət üçün ayağa qalxmaq, əyilmək və bu qəbildən olan işlər caizdir. Bu işlərin görülməməsi düşmənçilik, əlaqənin kəsilməsi və möminə hörmətsizliklərlə nəticələnəcəyi halda yerinə yetrilməsi vacib olar. Əldə olan səhih rəvayətə görə Peyğəmbər (s) Fatimə (ə) üçün və Həbəşədən qayıdarkən Cəfər (ə) üçün ayağa qalxıb və Ənsarlara da buyurardı: «Sərvəriniz və öz böyüyünüz üçün ayağa qalxın!» Eyni zamanda nəql olunur ki, İkrəmə ibn Əbicəhl Yəməndən gələndə

---

[1] Həcc, ayə30

[2] Kənzul-Ummal, hədis 25507

[3]əl-Məhasin, c.1, səh.364, hədis186

[4] Tuhəful-Uqul, səh.394

Allahın Peyğəmbəri (s) onun gəlməyinə şad oldu və onunçün ayağa qalxdı.»[1]

[1] Biharul-Ənvar, c.76, səh.38, hədis 35

**284**

# İffət

***1301. İffətli olmağa həvəsləndirmək.***

**Quran:**

«Evlənməyə qüvvəsi olmayanlar, Allah öz lütfü ilə onlara dövlət verənə qədər iffətli olsunlar.»[1]

«O qədər iffətlidirlər ki, kimsə hallarından xəbərdar olmasa onların qüdrətli olduğunu sanar.»[2]

**Hədis:**

4304. Allahın Peyğəmbəri (s): «Allah həyalı və mətanətli insanı sevər və həyasız, inadkar dilənçiyə nifrət edər.»[3]

4305. İmam Əli (ə): «Allah yolunda cihad edib şəhid olan kimsənin əcri, günah etməyə qadir olsa da, iffətli olanın əcrindən çox deyil. Pak, iffətli insan Allahın mələklərindən olmağa yaxındır.»[4]

4306. İmam Əli (ə): «İffət hər yaxşılığın başıdır.»[5]

4307. İmam Əli (ə): «İffət ən yüksək alicənablıqdır.»[6]

4308. İmam Əli (ə): «İffət nəfsi qoruyur və onu alçaqlıqdan uzaq saxlayır.»[7]

4309. İmam Əli (ə): «Gözəlliyin zəkatı iffətli olmaqdır.»[8]

4310. İmam Sadiq (ə): «Camaatın arvadlarına qarşı iffətli olun ki, sizin arvadlarınıza qarşı da iffətli olsunlar.»[9]

***1302. Qarınquluğluq və şəhvətdən iffətə həvəsləndirmək.***

---

[1] Nur, ayə33

[2] Bəqərə, ayə237

[3] Əmalı-ət-Tusi, səh.39, hədis 43

[4] Nəhcül-Bəlağə, hikmət 474

[5] Ğurərul-Hikəm, hədis1168

[6] Ğurərul-Hikəm, hədis529

[7] Ğurərul-Hikəm, hədis1989

[8] Ğurərul-Hikəm, hədis

[9] əl-Xisal, səh.55, hədis 75

4311. Allahın Peyğəmbəri (s): «Mənim ümmətimin çoxu iki səbəbdən oda atılar: qarın və ayıb yeri.»[1]

4312. Allahın Peyğəmbəri (s): «Musa (ə) ayıb yerini və qarnının yeməyini pak saxlamağın müqabilində, özünü səkkiz və ya on il müddətinə muzdura çevirdi.»[2]

4313. İmam Baqir (ə): «Allaha, qarnını və ayıb yerini pak saxlamaqdan üstün bir ibadət edilməmişdir.»[3]

***1303. İffətin kökü.***

4314. İmam Əli (ə): «İffrətin kökü qənaətdir[4], meyvəsi isə qəm-qüssənin azalması.»[5]

4315. İmam Əli (ə): «Maaşa şad olmaq sonda iffətə (və haram maldan iffət gözləməyə) səbəb olar.»[6]

4316. İmam Əli (ə): «Kişinin dəyəri və əndazəsi onun zəhmətinin əndazəsiylədir....Onun paklığı isə qeyrəti qədərdir.»[7]

4317. İmam Əli (ə): «Hər kim ağıllı olsa, iffətli olar.»[8]

***1304. İffətin meyvəsi.***

4318. Allahın Peyğəmbəri (s): «İffətdən şaxələnən təvazökarlıq, faydalanma, asayiş, itaətkarlıq, təfəkkür, bağışlama və səxavət olar. Bunlar Allahdan və Onun qismətindən razı olan ağıllı insana dindarlığı səbəbindən hasil olan xislətlərdir.»[9]

4319. İmam Əli (ə): «İffət şəhvəti aciz qoyar.»[10]

4320. İmam Əli (ə): «İffətin meyvəsi qənaətdir.»[11]

4321. İmam Əli (ə): «İffətin meyvəsi özünü saxlamaqdır.»[12]

4322. İmam Əli (ə): «Hər kim iffətli olsa, günah yükü yüngülləşər və Allahın yanında məqamı yüksələr.»[13]

---

[1] əl-Kafi, c.2, səh.79, hədis 5
[2] Sunəne ibn Mace, hədis2444
[3] əl-Kafi, c.2, səh.79, hədis1
[4] hədis 4232 müraciət edin və diqqət yetirin.
[5] Mətalib əs-Suul, hədis50
[6] Ğurərul-Hikəm, hədis1512
[7] Nəhcül-Bəlağə, hikmət 47
[8] Ğurərul-Hikəm, hədis 7646
[9] Tuhəful-Uqul, səh.17
[10] Ğurərul-Hikəm, hədis2148
[11] Ğurərul-Hikəm, hədis4637
[12] Ğurərul-Hikəm, hədis4593
[13] Ğurərul-Hikəm, hədis8597

4323. İmam Əli (ə): «Əməllər iffətlə paklaşar (və ya çoxalar və onların mükafatı artar).»[1]

[1] Ğurərul-Hikəm, hədis4238

## 285

# Bağışlamaq

***1305. Bağışlamağın dəyər-qiyməti.***

**Quran:**

«Hər hansı bir pisliyin cəzası onun özü kimi bir pislikdir. Bununla belə, hər kəs bağışlasa və barışsa onun mükafatı Allaha aiddir. Həqiqətən, Allah zalımları sevməz.»[1]

«Onlar bolluqda da, qıtlıqda da mallarını yoxsullara xərcləyər, qəzəblərini udar və insanların xətalarından keçərlər. Allah yaxşılıq edənləri sevər.»[2]

**Hədis:**

4324. Allahın Peyğəmbəri (s): «Nə vaxt qəzəbiniz tutsa, onu əfv və güzəştlə özünüzdən uzaqlaşdırın. Çünki qiyamət günündə carçı car çəkəcək ki, hər kimin Allahda muzdu varsa qalxsın. Bu zaman bağışlayanlardan başqa heç kim qalxmayacaq. Allah-taalanın «Kim bağışlasa və barışsa onun mükafatı Allahın yanındadır» buyurduğunu eşitmisinizmi?»[3]

4325. Allahın Peyğəmbəri (s): «Allah çox güzəşt edəndir və güzəşti sevər.»[4]

4326. Allahın Peyğəmbəri (s): «Güzəşt sizinlə olsun. Çünki güzəşt yalnız bəndənin izzətini artırar. Belə isə bir-birinizə güzəşt edin ki, Allah sizə izzət bəxş etsin.»[5]

4327. Allahın Peyğəmbəri (s): «Kim çox güzəştcil olsa, ömrü uzun olar.»[6]

4328. Allahın Peyğəmbəri (s): «Xətakarların büdrəmələrindən keçin ki, bu səbəbə Allah sizi təyin etdiyi çətin hallardan qorusun.»[1]

---

[1] Şura, ayə40

[2] Ali-İmran, ayə134

[3] Əlamuddin, səh337

[4] Kənzul-Ummal, hədis 7005

[5] əl-Kafi, c. 2, səh. 108, hədis5

[6] Əlamuddin, səh.315.

4329. İmam Baqir (ə): «Güzəştə görə peşmançılıq, cəza verməyə görə peşmançılıqdan daha üstün və daha asandır.»[2]

4330. İmam Sadiq (ə): «Üç şey dünya və axirətin dəyərli xislətlərindəndir: sənə zülm etmiş kimsəni bağışlamaq, səndən qopmuş şəxsə birləşmək və sənə qarşı cahilyana hərəkət edildikdə səbrli olmaq.»[3]

***1306. Yaxşı şəkildə güzəştə həvəsləndirmək.***

**Quran:**

«Biz göyləri, yeri və onların arasında olan hər şeyi yalnız haqq-ədalətlə yaratdıq. Qiyamət vaxtımütləq gələcəkdir. Sən onları böyüklüklə bağışla.»[4]

**Hədis:**

4331. İmam Əli (ə): «Kimsə günaha görə kimsəni danlayıb əziyyət verərsə, o, güzəşt etməmişdir.»[5]

4332. İmam Rza (ə) *(«Onları böyüklüklə bağışla.» ayəsi barədə):* «Burada məqsəd cəfa vermədən, pisləmədən və danlamadan bağışlamaqdır.»[6]

***1307. Qüdrət sahibi olarkən güzəşt etməyə həvəsləndirmək.***

4333. Allahın Peyğəmbəri (s): «Kimsə (intiqam almaq üçün) qüdrətli olarkən güzəşt etsə, Allah çətin günündə ona güzəşt edər.»[7]

4334. İmam Əli (ə): «Hər gah düşmənindən qüdrətli olsan, ona güzəştini ondan qüdrətli olmağının şükrünə çevir.»[8]

4335. İmam Əli (ə): «Güzəşt qələbənin zəkatıdır.»[9]

4336. İmam Hüseyn (ə): «İnsanın ən güzəştcili, qüdrətli olduğu vaxt güzəşt edəndir.»[10]

***1308. Güzəşt və ürəkləri cəlb etmək.***

4337. Allahın Peyğəmbəri (s) *(öz xidmətçilərindən ona şikayət edən kişiyə buyurduqlarından):*–«Onları bağışla ki, qəlblərini özünlə

---

[1] Tənbihul-Xəvatir, c.2, səh.120

[2] əl-Kafi, c.2, səh. 108, hədis6

[3] əl-Kafi, c.2, səh. 107,hədis3

[4] Hicr,ayə85

[5] Ğurərul-Hikəm, hədis 9567

[6] Əlamuddin, səh.307

[7] Kənzul -Ummal, hədis 7007

[8] Nəhcül-Bəlağə, hikmət 11

[9] Nəhcül-Bəlağə, hikmət 211

[10] əd-Durrətul Bahirə, səh.29

barışdırasan.» Ərz etdi: «Ey Allahın Peyğəmbəri! Onlar ədəbsizlikdə bir-birindən fərqlənirlər.» Həzrət buyurdu: «Onlara qarşı güzəştcil ol.» Həmin kişi buyurulanlara itaət etdi.»[1]

4338. İmam Əli (ə) *(əziz övladı Həsənə (ə) tövsiyyələrindən):*–«Hərgah onlardan (nökər və qulluçqulardan) kimsə günahlarına görə cəzalanmaya layiq olsa, onu yaxşı şəkildə danla. Çünki güzəştlə birgə danlamaq, ağlı və dərrakəsi olan üçün döyməkdən daha ağırdır.»[2]

***1309. Yersiz güzəştlər.***

4339. İmam Əli (ə): «Güzəşt alicənab insanı islah etdiyi kimi, alçaq insanı da bir o qədər korlayar.»[3]

4340. İmam Əli (ə): «Yaxşıya mükafat ver və pisdən keç. Bu şərtlə ki, dinə ziyan vurmasın və ya İslamın qüdrətinə zəiflik gətirməsin.»[4]

***1310. Allahın bağışlamağı.***

**Quran:**

«Şübhəsiz ki, Allah əfv edən və bağışlayandır.»[5]

**Hədis:**

4341. Allahın Peyğəmbəri (s) ***(****Qədr gecəsinin duası haqda Aişənin sualına cavabından)*:–«Deyirsən: Ey Allah! Sən bağışlayansan və güzəşti, bağışlamağı sevirsən. Belə isə məni bağışla.»[6]

4342. «Tənbihul-Xəvatir»: Bədəvi bir ərəb dedi: «Ey Allahın Peyğəmbəri! Qiyamət günü məxluqlarla kim haqq-hesab çəkəcək?» Buyurdu: «Böyük Allah.» Bədəvi soruşdu: «Kəbənin Allahına and olsun ki, xilas olmuşuq.» Həzrət buyurdu: «Necə, ey səhra sakini?» Ərz etdi: «Çünki kəramət sahibi qüdrətli olarsa, bağışlayar.»[7]

4343. İmam Əli (ə): «Ey Allah bəndələrinin camaatı! Həqiqətən, Allah sizi irili-xırdalı, gizlin və aşkar işlərinizə görə sorğu-sual edəcək. O zaman sizə cəza versə bilin ki, verilən cəzadan çox zülmkar olmusunuz. Əgər bağışlasa, Allah ondan daha çox bağışlayandır.»[8]

---

[1] Mustədrəkul Vəsail, c.9, səh.7, hədis10041

[2] Tuhəful- Uqul, səh.87

[3] Kənzul- Fəvaid, c.2, səh.182.

[4] Ğurərul-Hikəm, hədis4788

[5] Nisa, ayə 43

[6] Sunəni ibn Mace, hədis 3850

[7] Tənbihul-Xəvatir, c.1, səh. 9

[8] Nəhcül-Bəlağə, məktub27.

4344. İmam Əli (ə) *(Münacatında)*:–«İlahi! Sənin bağışlamağını fikirləşirəm, xəta və günahlarım mənə asan gəlir. Sonra Sənin cəzalarının ağırlığı yadıma düşür, bəla və narahatlığım mənə böyük görünür.»[6]

4345. İmam Əli (ə): «İlahi! Mənimlə öz haqqı gözləməyinlə deyil, güzəştinlə rəftar et.»[1]

4346. İmam Əli (ə): «Hər kim özünü Allahın haramlarından saxlasa, Allahın bəxşişi ona tərəf tələsər.[2]

4347. İmam Əli (ə): «Ancaq Allah öz bəndələrini cürbəcür çətinliklərlə sınayır və müxtəlif səylərlə bəndəliyinə doğru çəkir. Bir çox çətinlik və narahatlıqlara mübtəla edir ki, bu yolla təkəbbürü qəlbindən çıxarıb təvazökarlığı ruhlarında qərar versin və onu öz fəzlinə doğru açılan qapıya və öz bağışlamağı üçün asan bir vasitəyə çevirsin.»[3]

4348. İmam Sadiq (ə) *(Həmişə deyərdi)*:–«İlahi! Sən güzəşt etməyə mənim cəza çəkməyimdən daha layiqsən.»[4]

---

[6] Əmali-Səduq, səh.73, hədis9

[1] Əmali-Səduq, səh.73, hədis9

[2] Biharul-Ənvar, c.78, səh. 90, hədis 95

[3] Nəhcül-Bəlağə, xütbə192.

[4] Kəşful-Ğummə, c.2, səh.418

**286**

# Sağlamlıq

***1311. Sağlamlıq.***

4349. İmam Əli (ə): «Sağlamlıq nemətlərin ən yaxşısıdır. »[1]

4350. İmam Əli (ə): «Sağlamlıqdan gözəl heç bir paltar yoxdur.»[2]

4351. İmam Əli (ə): «Həyatın ləzzəti sağlamlıqla dadılır.»[3]

4352. İmam Sadiq (ə): «Sağlamlıq gizlin (və tanınmayan) bir nemətdir. Olanda unudulur (və heç kim qədrini bilmir) və olmayanda yada düşür.»[4]

***4312. Sağlamlığa səbəb olanlar.***

4353. Allahın Peyğəmbəri (s): «Hər kim mənə bir dəfə salavat göndərərsə, Allah sağlamlıqdan onun üzünə bir qapı açar.»[5]

4354. İmam Əli (ə): «Sağlamlıq on hissədir. Onun doqquz hissəsi Allahı xatırlamadan nəfəs almamaq, bir hissəsi isə ağılsızla yoldaşlığı tərk etməkdir.»[6]

4355. İmam Sadiq (ə): «Hər kim uzun müddət sağlam olmaq istəyirsə, ilahi təqva yolunu tutsun.»[7]

***1313. Allahdan sağlamlıq diləməyə həvəsləndirmək.***

4356. Allahın Peyğəmbəri (s) *(Bir kişinin Allahdan səbr dilədiyini eşitdikdə):* «Allahdan bəla istədin, sağlamlıq da istə.»

4357. Allahın Peyğəmbəri (s): «Allahdan elə bir şey istənilməmişdir ki, Onun dərgahında sağlamlıq istəmək qədər sevimli olsun.»[8]

---

[1] Ğurərul-Hikəm, hədis 4207

[2] ət-Tovhid, c.74, səh.27

[3] Ğurərul-Hikəm, hədis 4207

[4] Mən la yəhzuruhul Fəgih, c.4, səh.406, hədis5878

[5] Cameul-Əxbar, səh.150, hədis 344

[6] Tuhəful-Uqul, səh.89

[7] Biharul-Ənvar, c.72, səh.232 , hədis 2

[8] Kənzul-Ummal, hədis 3130, 3153

4358. Allahın Peyğəmbəri (s): «Allahdan sağlamlıq diləyin. Çünki yəqinlikdən (nemətindən) sonra heç kimə sağlamlıqdan gözəl nemət verilməmişdir.»[1]

4359. Allahın Peyğəmbəri (s) *(Allahın Peyğəmbərinin (s) şam namazında «Qariə» surəsini oxuduğunu eşitdikdə, Allahın ona öz günahlarına görə bu dünyada əzab verməsini dua edən, sonra isə xəstələnən kişiyə xitabən):* «Pis danışmısan. Niyə deməmisən ki, ey bizim pərvərdigaramız. Bizə dünya və axirətdə yaxşılıq əta et və od əzabından qoru?.»Allahın Peyğəmbəri (s) həmin kişinin sağlamlığı üçün dua etdi və o sağaldı.»[2]

4360. «əd-Dəvat»: İmam Səccad (ə) gördü ki, bir kişi Kəbəni təvaf edə-edə deyir: «İlahi! Mənə səbr ver.» Əlini onun çiyninə vurub buyurdu: «Bəla istəyirsən? De ki, İlahi! Mənə sağlamlıq və sağlamlığın şükrünü əta et.»[3]

***1314. (Allahdan) Sağlamlıq diləmək üçün dualar.***

4361. İmam Kazim (ə): «İlahi! Səndən sağlamlıq diləyirəm! Mənə möhkəm sağlamlıq ver və sağlamlığın şükrünü və sağlamlığın şükrünə görə şükrü əta et.»[4]

***1315. Xüsusi bəndələr.***

4362. İmam Baqir (ə): «Allahın xüsusi bəndələri var ki, onları bəladan qoruyar, sağlam həyat verər, ruzilərini sağlıqla qazanarlar və onları dünyadan sağlam köçürər. Onları sağlam halda yenidən diriləər və sağlıqla cənnətdə yer verər.»[5]

[1] Sunəni ibn Mace, hədis 3849
[2] əd-Dəvat, səh.114, hədis261
[3] əd-Dəvat, səh.114, hədis262
[4] əd-Dəvat, səh.84, hədis211
[5] əl-Kafi, c.2, səh. 462, hədis 1

## 287

# Ağıl

***1316. Ağıl.***

**Quran:**

«Allah istədiyi şəxsə hikmət bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir verilmişdir. Bunu ancaq ağıllı adamlar dərk edərlər.»[1]

«Onlar «əgər biz qulaq asıb ağlımızı başımıza yığsaydıq, cəhənnəm əhli içində olmazdıq» deyəcəklər.»[2]

**Hədis:**

4363. Allahın Peyğəmbəri (s): «İnsanın mayası ağıldır və ağlı olmayanın dini də yoxdur.»[3]

4364. İmam Əli (ə): «Allah-taala bir gün onun vasitəsilə xilas etdiklərindən qeyri heç kimə ağıl vermədi.»[4]

4365. İmam Əli (ə): «Ağıl ən möhkəm dayaqdır.»[5]

4366. İmam Əli (ə): «Ağıl çirkin işlərdən uzaqlaşdırar və yaxşı işlərə əmr edər.»[6]

4367. İmam Əli (ə): «Ağıl hər işi sahmana salandır.»[7]

4368. İmam Əli (ə): «Ağıl insanı «İlliyun»[8]a doğru yüksəldər.»[9]

4369. İmam Əli (ə): «Ağıl haqqın carçısıdır.»[10]

4370. İmam Əli (ə): «Ən yaxşı qüdrət ağıllı olmaqdır.»[11]

---

[1] Bəqərə, ayə269
[2] Mülk, ayə10
[3] Rovzətul-Vaizin, səh. 9
[4] Nəhcül-Bəlağə, hikmət 407.
[5] Ğurərul-Hikəm, hədis 475
[6] Ğurərul-Hikəm, hədis1250
[7] Ğurərul-Hikəm, hədis404
[8] Yeddinci göyün adı, bəndələrin saleh əməllərinin toplandığı yer.
[9] Ğurərul-Hikəm, hədis1325
[10] Ğurərul-Hikəm, hədis272
[11] Nəhcül-Bəlağə, hikmət38

4371. İmam Əli (ə): «Ağıl möminin səmimi dostudur.»[1]

4372. İmam Baqir (ə): «Ağılsızlıq kimi müsibət yoxdur.»[2]

4373. İmam Sadiq (ə): «Böyük Allah ağılı yaratdı. Ağıl, Allahın ərşinin sağ tərəfindən öz nurundan yaratdığı ilk mənəvi varlıqdır.»[3]

4374. İmam Sadiq (ə): «Allah-taala ağlı dörd şeydən: bilik, bacarıq, nur və işə istək və iradədən yaratmışdır. Sonra onu biliklə möhkəmləndirib göylərdə əbədi etmişdir.»[4]

4375. İmam Sadiq (ə): «Heç bir sərvət ağıllı olmaq qədər bərəkətli deyil və heç bir yoxsulluq ağılsızlıq qədər alçaq deyil.»[5]

4376. İmam Sadiq (ə): «Heç bir mal ağıldan daha faydalı deyil.»[6]

4377.İmam Sadiq (ə): «Ağıl möminin yol göstərənidir.»[7]

4378.İmam Kazim (ə) *(Heşam ibn Həkəmə tövsiyəsindən):* «Ey Heşam! Bəndələr arasında ağıldan üstün heç nə bölünməmişdir. Ağıl sahibinin yuxusu nadanın gecə sübhədək ibadətindən yaxşıdır. Allah yalnız ağıl sahiblərini peyğəmbər seçmişdir ki, ağılı bütün səy göstərənlərin səyindən daha yüksək olsun. Bəndə də Allahdan öyrəndiyi (onu başa düşdüyü və itaətinin zəruriliyini anladığı) Allahın vacibatlarından heç birini kənara qoymaz.»[8]

4379. İmam Rza (ə): «Hər insanın dostu onun ağlı, düşməni isə nadanlığıdır.»[9]

### *1317. Cəza və mükafat verilməsində ağılın rolu.*

4380. Allahın Peyğəmbəri (s) *(Bir kişidən danışan dəstəyə xitabən):–* «Həmin kişinin ağlı nə yerdədir?» Ərz etdilər: «Ey Allahın Peyğəmbəri. Biz onun ibadətdə və yaxşı işlərdə çalışqanlığı barədə danışırıq, sənsə bizdən onun ağlı barədə soruşursan?» Həzrət buyurdu: «Doğrudan da ağılsız insan öz ağılsızlığı ilə pis adamın çirkin əməllərindən də pis iş görər.

---

[1] Tuhəful-Uqul , səh.203

[2] Tuhəful-Uqul , səh.286

[3] əl-Xisal, səh.579, hədis13

[4] əl-İxtisas , səh.244

[5] əl-Kafi, c.1, səh.29,hədis34

[6] əl-İxtisas , səh.246

[7] əl-Kafi, c.1, səh.25,hədis24

[8] Tuhəful-Uqul, səh.397

[9] əl-Kafi, c.1, səh.11,hədis4

Sabah, qiyamət günündə bəndələr öz ağıllarının səviyyəsinə görə dərəcələrə nail olub Allahlarına yaxın məqama çatarlar.»[1]

4381. Allahın Peyğəmbəri (s): «Xeyir və yaxşılıq tamamilə ağılla qazanılır və ağlı olmayanın dini də olmaz.»[2]

4382. İmam Həsən (ə): «Hər iki sarayı qazandıran ağıldır. Hər kim ağıldan məhrum olsa, hər iki saraydan məhrum qalar.»[3]

4383. İmam Baqir (ə): «Allah-taala ağlı yaratdıqda ona buyurdu: «Üzünü tut» və o üzünü tutdu. Sonra buyurdu: «Geri dön» və o da geri döndü. Onda buyurdu: «İzzət və cəlalıma and olsun ki, mən səndən yaxşı məxluq yaratmamışam»[4]. Sənə əmr edirəm və sənə qadağan edirəm. (əmr və qadağa subyektim məhz sənsən). Səni mükafatlandırıram və sənə cəza verirəm.»[5]

4384. İmam Baqir (ə): «Musaya (ə) vəhy edilənlərdən biri də bu idi: Mən bəndələrimi, onlara verdiyim ağlın dərəcəsinə uyğun olaraq sorğu-sual edəcəyəm.»[6]

4385. İmam Baqir (ə): «Kitabda *(İmam Əlinin (ə) kitabı nəzərdə tutulur)* oxudum ki, hər kimsənin dəyəri onun biliyi qədərdir. Həqiqətən, Allah-taala camaatı, dünyada onlara verdiyi ağıl və dərrakəyə uyğun olaraq sorğu-sual edəcəkdir.»[7]

4386. İmam Kazim (ə): «Hər kim malı sərvəti olmadan qüdrət sahibi olmaq, ürəyinin paxıllıqdan rahatlığını və sağlam dinə sahib olmaq istəyirsə, yalvararaq Allahdan ağlının kamilləşdirməsini diləməlidir.»[8]

### *1318. Ağlın hüccəti.*

---

[1] Məcməul-Bəyan, c.1, səh.478

[2] Tuhəful-Uqul, səh.54

[3] Kəşful-Ğummə, c.2, səh.197

[4] Bunun nəqlində deyilir: «Səndən daha əziz» Başqa bir nəqldə deyilir: «Mənim üçün səndən daha istəkli.» Nəqldə deyilir: «Mənimçin sənin qədər əziz olan heç bir məxluq yaratmamışam.» Başqa bir nəqldə göstərilir: «Elə bir varlıq yaratmamışam ki, səndən daha yaxşı, mənə daha itaətcil, səndən uca, səndən şərafətli və səndən daha əziz olsun.» Nəqldə deyilir: «Sonra, Allah-taala buyurdu: «Səni əzəmətli bir məxluq yaratdım və bütün yaratdıqlarımdan üstün etdim. Digər nəqldə deyilir: «Səndən daha əzəmətli və daha ibadətcil varlıq yaratmadım.»

[5] əl-Kafi, c.1, səh.26, hədis26

[6] əl-Məhasin,c.1, səh.308, hədis608

[7] Məani-Əxbar,c.1, səh.2

[8] əl-Kafi, c.1, səh.18, hədis12

4387. İmam Kazim (ə): «Allahın insanlar üçün iki hüccəti var: xarici və daxili hüccət. Xarici hüccət elçilər, peyğəmbərlər və imamlar (ə), daxili hüccət isə ağıldır.»[1]

4388. İmam Kazim (ə) *(Heşam ibn Həkəmə tövsiyyəsindən):–*«Allah-taala öz peyğəmbərləri və rəsullarını yalnız ona görə bəndələrinə doğru göndərdi ki, onlar Allahdan öyrənsinlər. Deməli, onlardan biliyi daha yaxşı olan dəvəti daha tez qəbul edər. Allahın işlərində ən bilikliləri ağlı daha yaxşı olanlardır. Ağlı daha kamil olan, dünya və axirətdə daha yüksək məqamda olar.»[2]

***1319. Ağlın təfsiri.***

4389. Allahın Peyğəmbəri (s): «Həqiqətən də, ağıl nadanlığın dizlərinin buxovudur. Nəfs isə ən şər-xəta heyvandır ki, ayağı bağlanmasa azğınlaşar.»[3]

4390. Allahın Peyğəmbəri (s): «Ağıl, Allahın insan üçün yaratdığı bir nurdur. Onu qəlbin işıqlandırıcısı etdi ki, insan onun vasitəsilə görünənlərlə görünməyənlərin fərqini ayırd etsin.»[4]

4391. İmam Əli (ə): «Ağıl odur ki, sözünü bilib danışasan və dediyinə

əməl edəsən.»[5]

4392. İmam Əli (ə): «Ağıl təcrübələri qoruyub saxlamaqdır. Sənin ən yaxşı təcrübən isə ondan öyüd götürdüyündür.»[6]

4393. İmam Əli (ə): «Ağıl iki növdür: təbii (və zati) ağıl və təcrübi ağıl. Onların hər ikisi xeyirlidir.»[7]

4394. İmam Həsən (ə) *(«Ağıl nədir?» sualına verdiyi cavabdan):–* «Fürsət qazanana qədər qəm-qüssə camını qurtum-qurtum içmək.»[8]

4395. İmam Həsən (ə)*–(əziz atasının «Ağıl nədir?» sualına cavabından):–* «Ürəyinin ona tapşırdığını saxlamasıdır.»[9]

---

[1] əl-Kafi, c.1, səh.16, hədis12
[2] əl-Kafi, c.1, səh.16, hədis12
[3] Tuhəful-Uqul, səh.15
[4] Əvali Lali, c.1, səh. 248, hədis 4
[5] Ğurərul-Hikəm, hədis 2141
[6] Nəhcül-Bəlağə, məktub31
[7] Mətalibus- Suul , səh. 49
[8] Məanil- Əxbar, , səh. 240 , hədis 1
[9] Məanil- Əxbar, , səh. 401, hədis 62

***1320. Ağıllı insanın xüsusiyyətləri.***

4396. Allahın Peyğəmbəri (s): «Ağıllı insanın xüsusiyyəti budur ki, nadanın ona qarşı cahilyana rəftarına səbr etsin, ona zülm edəni bağışlasın, kasıbların müqabilində təvazökar olsun, özündən yuxarı olanı yaxşılıqda ötüb keçsin, söz demək istədikdə düşünsün, demək istədiyi yaxşı olarsa desin və faydalansın. Əgər pis olsa, sussun və salamat qalsın. Fitnə ilə qarşılaşdıqda Allaha sığınsın və əlini, dilini saxlasın. Fəzilət gördükdə onu qənimət sansın, abır-həya ondan ayrılmasın, tamahkarlıq ona yaxın düşməsin. Bunlar ağıllı insanları tanıtdıran on xüsusiyyətdir.»[1]

4397. Allahın Peyğəmbəri (s): «İnsanların ən ağıllısı, onların camaatla ən mülayim olanıdır.»[2]

4398. İmam Əli (ə): «Ağıllı insanın sinəsi, sirr xəzinəsidir.»[3]

4399. İmam Əli (ə) *(«Ağıllı insan kimdir?» sualına cavabından):–* «Ağıllı odur ki, hər şeyi öz yerində işlətsin.» Ərz olundu: «Nadanı bizə təsvir et» Buyurdu: «Təsvir etdim.»[4]

4400. İmam Sadiq (ə): «Ağıllı bir deşikdən iki dəfə sancılmaz.»[5]

4401. İmam Sadiq (ə) *(«Ağıl nədir?» sualına cavabından):–*«Ağıl odur ki, onun vasitəsilə rəhimli Allaha ibadət olunsun və cənnət qazanılsın.» Rəvayətçi deyir: «Soruşdum ki, bəs Müaviyədə olan nə idi?»

Həzrət buyurdu: «O hiylə idi, şeytanlıq idi. O ağla oxşayır, ancaq ağıl deyil.»[6]

4402. İmam Sadiq (ə): «Zəmanəsini tanımaq, öz işi ilə məşğul olmaq və dilini saxlamaq ağıllı insanın işidir.»[7]

4403. İmam Kazim (ə): «Ağıllı insan yalanını çıxarmağa qorxduğu insanla kəlmə kəsməz, əsirgəməyə qorxduğu kimsədən heç nə istəməz və öhdəsindən gələ bilməyəcəyi vədi verməz. Ümid etdiyinə görə danlanacağına ümid bağlamaz və onda aciz qalacağı işə girişməz.»[8]

---

[1] Tuhəful-Uqul, səh.28
[2] Əmali-Səduq , səh.28 , hədis 4
[3] Nəhcül-Bəlağə, hikmət 6
[4] Nəhcül-Bəlağə, hikmət 235
[5] əl-İxtisas, səh.245.
[6] əl-Kafi, c.1, səh.11, hədis3
[7] əl-Kafi, c.1, səh.116, hədis20
[8] Tuhəful-Uqul, səh.390

4404. İmam Kazim (ə): «Ağıllı insan dünyanın əyər-əksiyinə, hikmət ilə qarışmış olsa,–şad olar. Ancaq dünyanı qazanmış olsa da hikmətdən az faydalanarsa sevinməz. Buna görə də ticarətlərində qazanarlar.»[1]

***1321. Ağlı artıran şeylər.***

4405. İmam Əli (ə): «Ağıl elə bir hissdir ki, bilik və təcrübə ilə çoxalar.»[2]

4406. İmam Əli (ə): «Boş işlərdən əl çəkməklə ağlın artar.»[3]

4407. İmam Hüseyn (ə) *(Müaviyənin yanında söz ağıldan düşdükdə):–* «Ağıl haqqa tabe olmasa, kamala yetişməz.» Müaviyə dedi: «Sizin sinələrinizdə yalnız bir şey vardır.»[4]

4408. İmam Sadiq (ə): «Biliklərə çox nəzər salmaq (və düşünmək) ağlı açar və çiçəkləndirər.»[5]

4409. İmam Sadiq (ə): «Hikmət barədə çox düşünmək ağlı bərəkətləndirər.»[6]

4410. İmam Sadiq (ə): «Ağlın kamilləşməsi üç şeydədir: Allah müqabilində əyilib yerlə yeksan olmaq, gözəl şəkildə yəqinliyə malik olmaq və yaxşı sözlər deməkdən qeyri hallarda susmaq.»[7]

***1322. İnsan ağlının ölçü meyarları.***

4411. Allahın Peyğəmbəri (s): «Bunlar ağlın nişanələrindəndir: yalan saraydan uzaqlaşıb həqiqi saraya üz tutmaq, gor evi üçün azuqə toplamaq və qiyamət gününə hazırlaşmaq.»[8]

4412. İmam Əli (ə): «Hər insanın sözlərindən onun ağlının səviyyəsini bilmək olar.»[9]

4413. İmam Əli (ə): «Sənin elçin sənin ağlının göstəricisi və məktubun ən aydın danışan carçındır.»[10]

---

[1] əl-Kafi, c.1, səh.17, hədis12
[2] Ğurərul-Hikəm, hədis1717
[3] Ğurərul-Hikəm, hədis3291
[4] Əlamuddin, səh.298
[5] əd-Dəvat, səh.221, hədis403
[6] Tuhəful-Uqul, səh.364
[7] əl-İxtisas,səh.244
[8] Əlamuddin, səh.333
[9] Ğurərul-Hikəm, hədis10957
[10] Nəhcül-Bəlağə, hikmət 301

4414. İmam Əli (ə): «İnsanların ağılları altı şeylə ölçülür: qəzəbli olan vaxt səbr, qorxan zaman dözümlü olmaq, istək və meyl olduqda mötədil hərəkət etmək, bütün hallarda Allahdan qorxmaq, xoş davranmaq və söz-söhbətin azlığı.»[1]

4415. İmam Əli (ə): «İnsanların ağılları altı şeylə ölçülər: yoldaşlıq, alış-veriş, hökmranlıq etmək, kənara çəkilmək (hakimiyyətdən), imkanlı və yoxsul olmaq.»[2]

4416. İmam Əli (ə): «İnsanların ağlı bədahətən danışıqda sınanar.»[3]

4417. İmam Əli (ə): «İnsanın fikri onun ağlının ölçüsüdür.»[4]

4418. İmam Əli (ə): «Düzgün işlərin çoxluğu ağlın çoxluğundan xəbər verir.»[5]

4419. İmam Əli (ə): «Ağıl kamilləşdikdə, danışıq azalar.»[6]

4420. İmam Əli (ə): «Kimin ağlı kamilləşərsə, şəhvətə dəyər verməz.»[7]

**1323. Ağlı gücdən salan amillər.**

4421. İmam Əli (ə): «Şəhvət və istəklərin təsirindən ağıl aradan gedər.»[8]

4422. İmam Əli (ə): «Ağılların puç olmasının səbəbi üstünlük axtarmaq-dadır.»[9]

4423. İmam Əli (ə): «İnsanın xüdpəsəndliyi, onun ağlının süstlüyünü göstərir.»[10]

4424. İmam Əli (ə): «Kimnadanlarla oturub dursa ağlı azalar.»[11]

4425. İmam Əli (ə): «Yalnız ağlı azca azalanlardan başqa, kimsə zarafat etmədi.»[12]

4426. İmam Əli (ə): «Ağıl sahiblərinə qulaq asmayanın ağlı ölər.»[13]

---

[1] Ğurərul-Hikəm, hədis5608
[2] Ğurərul-Hikəm, hədis5600
[3] Ğurərul-Hikəm, hədis6221
[4] Ğurərul-Hikəm, hədis5422
[5] Ğurərul-Hikəm, hədis7091
[6] Nəhcül Bəlağə, hikmət71
[7] Ğurərul-Hikəm, hədis8226
[8] Ğurərul-Hikəm, hədis5180
[9] Ğurərul-Hikəm, hədis5901
[10] Kənzul-Fəvaid, c.1, səh.200
[11] Kənzul-Fəvaid, c.1, səh.199
[12] Nəhcül Bəlağə, hikmət450.
[13] Kənzul-Fəvaid, c.1, səh.199

4427. İmam Baqir (ə): «Yalnız ağlı azalanların qəlbinə təkəbbür yol tapar.»[1]

***1324. Ağlın süstlüyünün nişanələri.***

4428. İmam Əli (ə): «Ağıllar azalanda, (özünü) üstün bilməklər artar.»[2]

4429. İmam Əli (ə): «Kim ağlı azalarsa, pis söz danışar.»[3]

4430. İmam Əli (ə): «Nadanlarla oturub durmaq ağılsızlıqdandır.»[4]

4431. İmam Əli (ə): «Arzuların çoxluğu, ağlın puçluğundandır.»[5]

***1325. Ağlın meyvəsi.***

4432. İmam Əli (ə): «Ağlın meyvəsi dözümlülükdür. (Allah yolunda mətanətli olmaqdır).»[6]

4433. İmam Əli (ə): «Ağlın meyvəsi haqqa sadiq qalmaqdır.»[7]

4434. İmam Əli (ə): «Ağlın meyvəsi dünyanı düşmən bilmək və həvəsləri öldürməkdir.»[8]

4435. İmam Əli (ə): «Ağıl, meyvəsi bağışlamaq və həya olan bir ağacdır.»[9]

***1326. Ağlın düşməni.***

4436. İmam Əli (ə): «Ağlın düşməni nəfsani istəklərdir.»[10]

4437. İmam Əli (ə): «Qalib həvəslərə əsir olan nə qədər ağıl var.»[11]

4438. İmam Əli (ə): «Allah ağlı qorumaq üçün... şərabdan uzaqlaşmağı vacib buyurmuşdur.»[12]

4439. İmam Əli (ə): «Bilin ki, arzu ağlı qəflətə salır və Allahı xatırlamağı ona unutdurur.»[13]

---

[1] Biharul-Ənvar, c.78, səh.186, hədis 16
[2] Ğurərul-Hikəm, hədis4043
[3] Ğurərul-Hikəm, hədis7985
[4] Ğurərul-Hikəm, hədis9299
[5] Ğurərul-Hikəm, hədis7093
[6] Ğurərul-Hikəm, hədis4589
[7] Ğurərul-Hikəm, hədis4602
[8] Ğurərul-Hikəm, hədis4654
[9] Ğurərul-Hikəm, hədis1254
[10] Mətalibus-Suul, səh.56
[11] Nəhcül-Bəlağə, hikmət 211
[12] Nəhcül-Bəlağə, hikmət 252
[13] Nəhcül-Bəlağə, xütbə 86

4440. İmam Əli (ə): «Nəfsani istəklər ayıq, ağıl isə yatmışdır.»[1]

[1] əd-Durrətul Bahirə, səh.31

## 288

# Etikaf (Məsciddə qalıb ibadət etmək)

***1327. Etikaf.***

**Quran:**

«Kəbəni insanlar üçün toplaşmaq və əmin-amanlıq yeri etdik. İbrahimin durduğu yeri özünüzə namazgah edin. İbrahimə də, İsmailə də «Evimi təvaf edənlər, orada qalıb həmişə ibadətdə olanlar, ruku və səcdə ilə namaz qılanlar üçün təmizləyin!» deyə əmr etdik.»[1]

**Hədis:**

4441. Ənəs: «Peyğəmbər (s) bir yerdə daimi yaşayanda Ramazan ayının son on gününü etikafda keçirər, səfərə çıxsaydı növbəti il iyirmi gün etikaf edərdi.»[2]

4442. Məymun bin Mehran: Həsən ibn Əlinin (ə) yanında oturmuşdum. Bir kişi gəlib dedi: «Ey Rəsulullahın övladı! Filankəsin məndən filan qədər alacağı var və məni həbs etmək istəyir.» İmam buyurdu: «Allaha and olsun, mənim pulum yoxdur ki, sənin borclarını ödəyim.» Sonra həmin kişi ilə söhbət etdi. Məymun deyir ki, İmam (ə) ayaqqablarını geydi. Ərz etdim ki, yabnə Rəsulallah! Etikafda olduğunuzu unutmusunuzmu? Həzrət buyurdu: «Unutmamışam, ancaq atamın babam Rəsuləllahdan (s) belə nəql etdiyini eşitmişəm ki, kim müsəlman qardaşının ehtiyacını ödəmək üçün çalışarsa, doqquz min il oruc tutub, gecələri oyaq qalaraq Allaha ibadət etmiş kimidir.»[3]

4443. İmam Sadiq (ə): «Allahın Peyğəmbəri (s) Ramazan ayının son on gününü məsciddə etikafda keçirərdi. Bu müddət ərzində Həzrət üçün tükdən çadır düzəldilərdi və O, ətəyini belinə bağlayıb, yatağını yığışdırardı...»[4]

---

[1] Bəqərə, ayə125

[2] Kənzul-Ummal, hədis18091

[3] Mən la Yəhzuruhul Fəgih, c.2, səh.189, hədis 2108

[4] Təhzibul-Əhkam, c.2, səh.287, hədis 869

4444. İmam Sadiq (ə): «Etikaf yalnız ədalətli pişnamazın camaat namazı qıldığı cümə məscidində olmalıdır.»[1]

[1] əl-Kafi, c.4, səh.176, hədis1

**289**

# Bilik və nadanlıq

***1328. Biliyin və bilikli olmağın dəyəri.***

**Quran:**

«De ki, bilənlərlə bilməyənlər eyni ola bilərmi?! Yalnız ağıl sahibləri ibrət alarlar.»[1]

«Allah iman gətirənlərin və elm bəxş edilmişlərin dərəcələrini yüksəldər. Allah əməllərinizdən agahdır.»[2]

**Hədis:**

4445. Allahın Peyğəmbəri (s): «Alimin günahı birdir, nadanın günahı iki.»[3]

4446. Allahın Peyğəmbəri (s): «Bilikli olmaq bütün yaxşılıqların, nadanlıq isə bütün pisliklərin başıdır.»[4]

4447. Allahın Peyğəmbəri (s): «Bilik qazanmaq hər bir müsəlmana vacibdir... Allaha sitayiş və itaət biliklə edilər. Qohumluq tellərinin qırılmaması, halalın haramdan ayırd edilməsi də biliklə mümkündür. Bilik əməlin rəhbəridir və əməl ona tabe olar. Xoşbəxtlərə elm ilham olunar, bədbəxtlərsə ondan məhrum qalarlar.»[5]

4448. Allahın Peyğəmbəri (s): «İnsanların ən dəyərlisi daha çox bilik sahibləri, insanların ən dəyərsizi isə daha az biliyi olanlardır.»[6]

4449. Allahın Peyğəmbəri (s): «İnsanların peyğəmbərlik dərəcəsinə ən yaxın olanları alimlər və döyüşçülərdir.»[7]

---

[1] Zümər, ayə9

[2] Mücadilə, ayə11

[3] Kənzul-Ummal, hədis28784

[4] Biharul-Ənvar, c.77, səh.175, hədis 9

[5] Əmali-Tusi, səh.488, hədis 1069

[6] Əmali-Səduq, səh.27, hədis 4

[7] əl-Muhəccətul- Beyza, c.1, səh.14

4450. Allahın Peyğəmbəri (s): «Qiyamət günündə alimlərin qələminin mürəkkəbi ilə şəhidlərin qanı ilə ölçüləcək və qələmin mürəkkəbi şəhidlərin qanından daha ağır gələcək.»[1]

4451. İmam Əli (ə): «Fəzilətlərin başı bilikdir. Fəzilətlərin son nöqtəsi də bilikdir.»[2]

4452. İmam Əli (ə): «Bilik öndə gedən, əməl çapar və nəfs isə palçıqlı minikdir.» [3]

4453. İmam Əli (ə): «Bilik ağlın çırağıdır.»[4]

4454. İmam Əli (ə): «Bilik necə də gözəl yolgöstərəndir.»[5]

4455. İmam Əli (ə): «Bilik ailə şərafətinin ən yüksək şərəfidir.»[6]

4456. İmam Əli (ə): «Bilik möminin itmiş malıdır.»[7]

4457. İmam Əli (ə): «Biliyin hörmətinə yalnız bu bəs edər ki, hətta onu yaxşı bilməyən də onu bilməsindən dəm vurar və onu elmli, bilikli kimi göstərəndə buna şad olar. Nadanlığın pis olmasına təkcə bu bəsdir ki, hətta nadan və elmdən bəhrəsi olmayan da ondan bezər.»[8]

4458. İmam Əli (ə): «Heç bir xəzinə elmdən daha xeyirli deyil.»[9]

4459. İmam Əli (ə): «Heç bir şərafət bilik kimi deyil.»[10]

4460. İmam Əli (ə): «Hər bir qaba nəsə qoyduqda, onun tutumu azalar. Yalnız biliyin qabına qoyulanlar artdıqca, onun tutumu da çoxalar.»[11]

4461. İmam Əli (ə): «Allah bəndəsini alçaltmaq istədikdə onu elmdən bəhrəsiz qoyar.»[12]

4462. İmam Əli (ə): «Bilik həyatdır.»[13]

4463. İmam Əli (ə): «Həqiqətən, bilik qəlblərin həyatı (mayası), kor gözlərin işığı və gücsüz bəndələrin gücüdür.»[1]

---

[1] əd-Durrul-Mənsur, c.3, səh.423
[2] Ğurərul-Hikəm, hədis (536+6379)
[3] Tuhəful-Uqul, səh.208
[4] Ğurərul-Hikəm, hədis536
[5] Ğurərul-Hikəm, hədis837
[6] Kənzul-Fəvaid, c.1, səh.319
[7] Uyunu Əxbari Riza (ə), c.2, səh.66, hədis 295
[8] Munyətul-Murid, səh.110
[9] əl-Kafi, c.8, səh.19, hədis4
[10] Nəhcül-Bəlağə, hikmət113
[11] Nəhcül-Bəlağə, hikmət205
[12] Nəhcül-Bəlağə, hikmət288
[13] Ğurərul-Hikəm, hədis185

4464. İmam Əli (ə) Kumeyl ibn Ziyadın əlindən tutaraq onu qəbristanlığa apardı. Çölə çatdıqda, dərindən bir ah çəkib ona buyurdu: «Ey Kumeyl! Bilik mal-dövlətdən yaxşıdır. Çünki bilik səni qoruyur, ancaq var-dövləti sən qorumalısan. Var-dövlət xərcləndikcə azalar, ancaq bilik verilməklə çoxalar. Var-dövlətin verdiyi, onun aradan getməsi ilə yox olar (ictimai mövqe və hörmətini itirər).»[2]

4465. İmam Əli (ə): «Mal toplayanlar diri olsalar da ölüdürlər, elm əhli isə dünya durduqca yaşayacaqlar. Bədənləri aradan gedər, ancaq xatirələri qəlblərdə qalar.»[3]

4466. İmam Əli (ə): «Alim ölmüş olsa belə, sağdır. Nadan isə diri olsa da ölmüşdür.»[4]

4467. İmam Baqir (ə): «Elmdən heç nəyi olmayan ürək, abadlaşdıranı olmayan xaraba ev kimidir.»[5]

4468. İmam Sadiq (ə): «Alimlər peyğəmbərlərin varisləridir.»[6]

***1329. Elmin ibadətdən üstünlüyü.***

4469. Allahın Peyğəmbəri (s): «Az elm çox ibadətdən yaxşıdır.»[7]

4470. Allahın Peyğəmbəri (s): «Elm və bilik qarışmış yuxu, nadanlıqla qılınan namazdan yaxşıdır.»[8]

4471. Allahın Peyğəmbəri (s): «Alimin abiddən üstünlüyü, günəşin ulduzlardan üstünlüyü kimidir. Abidin qeyri-abiddən üstünlüyü isə ayın ulduzlardan üstünlüyünə bənzər.»[9]

4472. Allahın Peyğəmbəri (s): «Alimin bir saat yatağına dirsəklənib öz elmini və işlərini nəzərdən keçirməsi, abidin yetmiş il ibadətindən yaxşıdır.»[10]

4473. Allahın Peyğəmbəri (s): «Alim abiddən 70 mərtəbə üstündür. Hər mərtəbə ilə digər mərtəbələr arasında at yetmiş il qaçar. Bu üstünlüyün səbəbi odur ki, şeytan insanların arasında bidət yaradar və alim bunu başa

---

[1] Əmali-Səduq, səh.493, hədis1

[2] Nəhcül-Bəlağə, hikmət147

[3] Nəhcül-Bəlağə, hikmət147

[4] Ğurərul-Hikəm, hədis1124(=1125)

[5] Əmali-Tusi, səh.543, hədis1165

[6] əl-Kafi, c.1, səh.32, hədis2

[7] əl-Muhcətul-Beyza, c.1, səh.22

[8] Munyətul-Murid, səh.104

[9] Biharul-Ənvar, c.2, səh.19, hədis 49

[10] Rovzətul-Vaizin, səh.16

düşərək insanları ondan çəkindirər. Ancaq abidin başı öz ibadətinə qarışar və bidəti nə başa düşər, nə də ona diqqət yetirər.»[1]

4474. Allahın Peyğəmbəri (s): «Məhəmmədin canı əlində olana and olsun ki, bir alimin olmasının hər bir anı şeytan üçün min abiddən daha ağırdır. Çünki abid öz fikrində, alim isə başqalarının fikrindədir.»[2]

4475. İmam Baqir (ə): «Bir saatlıq elmi müzakirə, bir gecə ibadətdən daha yaxşıdır.»[3]

4476. İmam Baqir (ə): «Öz elmindən bəhrələnən alim, yetmiş min abiddən daha yaxşıdır.»[4]

***1330. Alimin ölümü.***

4477. Allahın Peyğəmbəri: «Alimin ölümü əvəzsiz müsibət və yeri doldurulmayacaq bir çatdır. O, qürub edən bir ulduzdur. Bir qəbilənin ölümü (ölümünə dözmək) bir alimin ölümündən daha asandır.»[5]

***1331. Alimin üzünə baxmaq ibadətdir.***

4478. Allahın Peyğəmbəri (s): «Alimin üzünə məhəbbətli nəzərlərlə baxmaq ibadətdir.»[6]

4479. İmam Sadiq (ə) *(Peyğəmbərin (s) «Alimlərin üzünə baxmaq ibadətdir» sözü barədə suala cavabından):* «Məqsəd o alimdir ki, üzünə baxdıqda, axirət yadına düşsün. Bunun əksi olanın üzünə baxmaq fitnə (azğınlıq) yaradar.»[7]

***1332. Elm öyrənməyə təşviq etmək.***

4480. Allahın Peyğəmbəri (s): «Elm öyrənin, hətta Çində olsa belə. Çünki elm öyrənmək hər bir müsəlmana vacibdir.»[8]

4481. Allahın Peyğəmbəri (s): «Elm öyrənmək hər bir müsəlmana vacibdir. Bilin ki, Allah elmin ardınca düşənləri sevər.»[1]

---

[1] Rovzətul-Vaizin, səh.17
[2] Kənzul-Ummal, hədis 28908
[3] əl-İxtisas, səh.245
[4] əd-Dəvat, səh. 62, hədis153
[5] Kənzul-Ummal, hədis 28858
[6] Nəvadirur-Ravəndi, səh.11
[7] Tənbihul-Xəvatir, c.1, səh.84
[8]Kənzul-Ummal, hədis28697(=28698)

4482. Allahın Peyğəmbəri (s): «Hər kim bir saat elm öyrənməyin çətinliyinə səbr etməsə, həmişəlik nadanlığın çətinliyində qalacaq.»[2]

4483. Allahın Peyğəmbəri (s): «İki qarınqulu heç vaxt doymaz: elm axtaran və dünya axtaran.»[3]

4484. İmam Sadiq (ə): «Əgər camaat elmin nə qədər xeyirli olduğunu bilsəydi, mütləq hər an onu axtarmaqla məşğul olardı. Hətta onun yolunda qan tökməli və dənizin dərinliklərinə baş vurmalı olsalar belə.»[4]

***1333. Elm axtaran.***

4485. Allahın Peyğəmbəri (s): «Nadanlar arasında elm axtaran şəxs, ölülər arasında diri insan kimidir.»[5]

4486. Allahın Peyğəmbəri (s): «Elm axtaran elm öyrənən vaxt ölüm haqlayarsa, o, şəhid olmuşdur.» [6]

4487. Allahın Peyğəmbəri (s)**:** «Kim elm öyrənmək üçün bayıra çıxarsa, qayıdana qədər Allah yolunda addımlamış olar.»[7]

4488. Allahın Peyğəmbəri (s): «Elm dalınca düşən, gündüzlər oruc tutub gecəsini ibadətlə keçirən kimidir. Kimsə bir fəsil elm öyrənsə, onunçun Əbuqeys dağının qızıl olması və onu Allah yolunda verməsindən daha yaxşıdır.»[8]

4489. Allahın Peyğəmbəri (s): «Kim elm dalınca düşərsə, Allah onun ruzisini öhdəsinə götürər.»[9]

4490. Allahın Peyğəmbəri (s): «Elm axtaran, rəhmət axtarar. Elm arxasınca düşmək, İslamın dirəyidir və mükafatını peyğəmbərlər verərlər.»[10]

4491. Allahın Peyğəmbəri (s): «Mələklər öz qanadlarını elm axtaran üçün açar və onun bağışlanmasını diləırlər.»[11]

---

[1] əl-Kafi, c.1, səh.30, hədis1
[2] Əvali Lali, c.1, səh. 285, hədis 1354
[3] Kənzul-Ummal, hədis28932(=28933)
[4] Əvali Lali, c.4, səh. 61, hədis 9
[5] Kənzul-Ummal, hədis28726
[6] ət-Tərğib vət-Tərhib, c.1, səh.97, hədis16
[7] Kənzul-Ummal, hədis28702
[8] Munyətul-Murid, səh.100
[9] Kənzul-Ummal, hədis28701
[10] Kənzul-Ummal, hədis28729
[11] Kənzul-Ummal, hədis28745

4492. Allahın Peyğəmbəri (s): «Kim elm axtarmaq üçün yol qət edərsə, Allah onu cənnətə açılan yola hərəkətləndirər.»[1]

4493. Allahın Peyğəmbəri (s): «Kim elm axtararsa, cənnət onun arxasınca qaçar.»[2]

4494. Allahın Peyğəmbəri (s): «Bütün əşyalar, hətta dənizdəki balıqlar, yer üzündəki həşaratlar və sürünənlər, çölün yırtıcıları və gəmiricilərinin hamısı, elm axtaranın bağışlanmağını diləərlər.»[3]

4495. İmam Əli (ə): «Kim elm öyrənərkən ölümü çatarsa, onunla peyğəmbərlər arasında təkcə bir dərəcə fərq olar.»[4]

### *1334. Öyrətmək.*

4496. Məsih (ə): «Hər kim bilsə, əməl etsə və öyrətsə böyük qeyb aləmində əzəmətilə tanınacaq.»[5]

4497. Allahın Peyğəmbəri (s): «Ən yaxşı sədəqə, insanın elm öyrənməsi və sonra onu qardaşına öyrətməsidir.»[6]

4498.Allahın Peyğəmbəri (s): «Allah kimsəyə elm bəxş edərsə və o, bildiyi halda elmini gizlədərsə, qiyamət günündə ağzına oddan cilov vurulmuş halda Allahın yanına gətiriləcək.»[7]

4499. İmam Əli (ə): «Allah alimləri öyrətməyə təhkim etməmiş cahillərdən öyrənmək haqda öhdəlik almadı.»[8]

4500. İmam Əli (ə): «Elmdən başqa hər bir şey xərcləndikcə azalar.»[9]

4501. İmam Baqir (ə): «Hər kim doğru yolun bir fəslini öyrədərsə, bu onunçun doğru yola əməl edənin mükafatı qədərdir. Əməl edənlərin də mükafatından heç nə azalmaz.»[10]

4502. İmam Sadiq (ə): «Hər şeyin zəkatı var. Elmin zəkatı da onu əhlinə öyrətməkdir.»[11]

---

[1] Əmali-Səduq, səh.58, hədis9
[2] Kənzul-Ummal, hədis28842
[3] Əmali-Mufid, səh.29, hədis1
[4] Məcməul-Bəyan, c.9, səh.380
[5] Tənbihul-Xəvatir, c.1, səh.82
[6] Munyətul-Murid, səh.105
[7] Əmali-Tusi, səh.377, hədis808
[8] Nəhcül-Bəlağə, hikmət 487
[9] Ğurərul-Hikəm, hədis 6888
[10] Tuhəful-Uqul, səh.297
[11] Tuhəful-Uqul, səh.364

***1335. Müəllimin dəyər-qiyməti.***

4503. «Tənbihul Xəvatir»: Allah-taala Musaya vəhy edərək buyurdu: «Ya Musa! Yaxşı şeyləri öyrən və onları camaata da öyrət. Çünki mən müəllimlərin və öyrənənlərin qəbirlərini işıqlandıracağam ki, öz yerlərində vəhşət və tənhalıq hiss etməsinlər.»[1]

4504. Allahın Peyğəmbəri (s): «Sizə bağışlayanların ən mərhəmətlisindən xəbər verimmi? Allah bağışlayanların ən mərhəmətlisidir. Mən Adəm övladlarının bağışlayanlarının ən mərhəmətlisiyəm. Məndən sonra sizlərin ən mərhəmətlisi, elm öyrədən və bu yolla elmi yayılan kimsədir. O, qiyamət günündə təkbaşına, sanki bir ümmət və eləcə də Allah yolunda öldürülmək üçün canbazlıq edən kimsə kimi dirildiləcək.»[2]

4505. İmam Baqir (ə): «Yerdəki heyvanlar, dənizdəki balıqlar, Allahın göyləri və yerində olan irili-xırdalı hər bir varlıq yaxşı işləri öyrədənin bağışlanmasını diləyir.»[3]

***1336. Allah və Allahdan qeyrisi üçün öyrənmək.***

4506. Allahın Peyğəmbəri (s): «Kim elmi Allaha görə öyrənərsə, elmin hər hansı dərəcəsinə çatdıqda özünü daha həqir görər, camaatla daha təvazökar olar, Allah qorxusu çoxalar və dini işlərdə çalışqan olar. Allahdan savayı hər nəyə çatmaz. Belə şəxs elmdən bəhrələnər. Deməli, onu öyrənmək lazımdır. Ancaq kimsə elmi dünyaya, camaat arasında və hakimin, sultanın yanında mövqe qazanmaqdan ötrü öyrənərsə, özünü böyük sanmaq, camaata qarşı daha təkəbbürlü və Allahdan daha xəbərsiz olmaq və dindən daha çox uzaqlaşmaqdan qeyri elmin hər hansı bir dərəcəsinə çatmaz. Buna görə də insan (elmi bu məqsədlə öyrənməkdən) çəkinməli və qiyamətdə öz əleyhinə sübut, peşmançılıq və rüsvayçılıq qazanmamalıdır.»[4]

4507. Allahın Peyğəmbəri (s): «Kim elmi camaatı aldatmaq üçün öyrənərsə, cənnət qoxusunu tapmaz.»[5]

4508. Allahın Peyğəmbəri (s): «Allahdan qeyrisi üçün elm öyrənənin yeri cəhənnəm olar.»[6]

---

[1] Tənbihul-Xəvatir, c. 2, səh 212.
[2] ət-Tərğib və ət-Tərhib, c. 1, səh 119, hədis 5
[3] Səvabul-Əmal, səh. 159, hədis 1
[4] Rovzətul Vaizin, səh. 16.
[5] Məkarimul-Əxlaq, c. 2, səh. 364, hədis 2661
[6] Kənzul-Ummal, hədis 29035

4509. İmam Əli (ə): «Nə imkanınız olsa, elm öyrənin. Məbada dörd işdən ötrü elm öyrənəsiniz: alimlər arasında özünü öymək, cahillərlə mübarizə aparmaq, məclislərdə özünü göstərmək və ya camaatın diqqətini özünə cəlb edib onlara başçılıq etmək üçün.»[1]

4510. İmam Sadiq (ə): «Kim Allah üçün elm öyrənib Allah üçün (ona) əməl etsə və Allah xatirinə başqalarına öyrətsə, mələklərin səmasında onun böyüklüyü anılaraq deyiləcək: Allahdan ötrü öyrəndi, Allah üçün əməl etdi və Allah xatirinə öyrətdi.»[2]

***1387. Müəllim seçmək.***

4511. Məsih (ə): «Haqqı batil əhlindən öyrənin və haqq əhlindən öyrənməyin. Sözü ölçüb-biçib danışın.»[3]

4512. Allahın Peyğəmbəri (s): «Elm dindir. Namaz dindir. Ona görə də baxın ki, elmi kimdən öyrənirsiniz.»[4]

4513. İmam Əli (ə): «Hikməti hər kim sizin üçün gətirsə, ondan öyrənin. Nə dediyinə fikir ver, kimin dediyinə baxma.»[5]

4514. İmam Baqir (ə): «Elmi rəbbanı alimdən qeyrisindən əldə etmək (və ya rəbbanı alimdən başqasından öyrənmək) olmaz. Belə alimi ağılla tanımaq olar.»[6]

***1338.Şagirdin müəllim üzərində haqqı.***

4515. Allahın Peyğəmbəri (s): «Elm öyrətdiyiniz və elm öyrəndiyiniz insanlarla yumşaq və mülayim olun.»[7]

4516. İmam Səccad (ə): «Sənin şagirdlərinin haqqı budur ki, Allah sənə verdiyi elm, bilik və səninçün açdığı (bilik) xəzinələrinə görə səni şagirdinə başçı etdiyini biləsən. Buna görə də camaata yaxşı dərs keçsən, onlarla kobudluqla və pis rəftar etməsən, dərs verməkdən bezməsən Allah öz fəzl və lütfündən sənin elminə artırar. Ancaq öz biliyini camaatdan əsirgəsən və ya elm öyrənmək üçün yanına gəldikdə onlarla kobud və pis rəftar olsan, onda Allahın haqqı var, elmi və onun əzəmətini səndən alıb sənin yerini camaatın qəlbindən silsin.»[8]

---

[1] əl-İrşad, c. 1, səh.230
[2] Əmali-Tusi, səh. 167, hədis 280
[3] əl-Məhasin, c. 1. səh. 359, hədis 769
[4] Kənzul-Ummal, hədis 28666
[5] Ğurərul-Hikəm, hədis 5048
[6] Mustədrəkul-Vəsail, c. 11, səh. 258, hədis 12926
[7] Munyətul-Murid, səh. 193
[8] Əvali-Lali, c. 4, səh 74, hədis 54

4517. İmam Sadiq (ə) *(«Təkəbbürlə camaatdan üz döndərmə» ayəsi haqda):* «Elm öyrənmək üçün yanına gələn insanlara eyni gözlə baxmalısan.»[1]

***1339. Müəllimin şagird üzərində olan haqqı.***

4518. Allahın Peyğəmbəri (s): «Üç nəfər var ki, nifaqı açıq-aşkar olan münafiqdən başqa, kimsə onlara hörmətsizlik etməz: İslam dininin ağsaqqalları, ədalətli rəhbər və yaxşılıqları öyrədən.»[2]

4519. İmam Əli (ə): «Alim insanın sənin üzərində olan haqlarından biri budur ki, (camaatın arasında olduqda) hamını salamlayıb ona xüsusi salam verəsən, qarşısında oturasan, onun yanında qaş, göz və əllə işarə etməyəsən. Onun fikrinin əleyhinə çıxıb deməyəsən ki, «filankəs deyib.» Onun yanında qeybət etməyəsən, məclisində burnunda danışmayasan, paltarından tutmayasan, yorğun olsa israrla sual soruşmayasan. Məclislərinin uzun-uzadılığından bezməyəsən. Çünki onunla yoldaşlıq xurma ağacının əhvalatına bənzəyir ki, nə vaxt ondan səninçün nəsə düşəcəyini gözləyirsən.»[3]

4520. İmam Əli (ə): «Yaltaqlıq və paxıllıq mömininin sifəti deyil, yalnız elm öyrətməkdə istisnadır.»[4]

4521. İmam Səccad (ə): «Sənin ustadının haqqı budur ki, hörmət edəsən, onun vüqarını qoruyasan, sözlərinə diqqətlə qulaq asasan, üzünü ona tutasan və ona diqqət yetirəsən, üstünə səsini qaldırmayasan, kimsə ondan sual soruşsa sən cavab verməyəsən və onun cavab verməsinə imkan yaradasan. Onun yanında heç kimlə danışmayasan, heç kimin qeybətini etməyəsən, sənin yanında onu pisləsələr müdafiə edəsən. Eyblərini örtəsən, yaxşılıqlarını və gözəl sifətlərini aşkara çıxarasan, düşmənləri ilə oturub durmayasan, dostu ilə düşmənçilik etməyəsən. Bu işləri görsən Allahın mələkləri şəhadət verərlər ki, sən camaat üçün deyil, böyük Allahın razılığından ötrü həmin ustadın yanına gedib ondan elm öyrənmisən.»[5]

***1340. Alimi əziz tutmaq.***

4522. Allahın Peyğəmbəri (s): «Kim alimin pişvazına çıxarsa, mənim pişvazıma çıxmışdır. Kim alimlə görüşə getsə, mənimlə görüşər. Kim

---

[1] Munyətul-Murid, səh 185
[2] Kənzul-Ummal, hədis 43811
[3] Kənzul-Ummal, hədis 29363
[4] Kənzul-Ummal, hədis 29364
[5] əl-Xisal, səh. 567, hədis 1

alimlə oturub-durarsa, mənimlə əyləşmişdir. Hər kim mənimlə əyləşsə, mənim Allahımla əyləşmiş kimidir.»[1]

4523. İmam Əli (ə): «Nə vaxt alim gördün, ona qulluq et.»[2]

4524. İmam Əli (ə): «Alimə hörmət edən, Allaha hörmət etmişdir.»[3]

### *1341. Alimin riayət etməli olduğu məqamlar.*

4525. Xızır (ə) *(Musaya xitabən):* «Ya Musa! Əgər elm istəyirsənsə, özünü onu öyrənməyə həsr et. Çünki elm bütün vaxtını onu öyrənməyə sərf edənindir.»[4]

4526. Allahın Peyğəmbəri (s): «Onda on sifət yaranmamış insanın ağlı kamilləşməz: .... Yaşadıqca elm öyrənməkdən yorulmasın.»[5]

4527. İmam Əli (ə): «Elm öyrənməkdə özünü çalışqan etmək, onu öyrənməkdən yorulmamaq və biliklərini çox sanmamaq elm öyrənənin boynunadır.»[6]

4528. İmam Əli (ə): «Uzun müddət öyrənəndən qeyrisi, elm qazanmaz.»[7]

4529. İmam Əli (ə): «Öyrəndikləri barədə çox düşünən, öz biliyini möhkəmləndirər və başa düşmədiklərini dərk edər.»[8]

### *1342. Alimlərin dəyər-qiyməti.*

4530. Allahın Peyğəmbəri (s): «Alimlər Allahın xalq arasında əmanətləridir.»[9]

4531. Allahın Peyğəmbəri (s): «Alimlərin başqalarından üstünlüyü, peyğəmbərin öz ümməti üzərində olan üstünlüyü qədərdir.»[10]

4532. Allahın Peyğəmbəri (s): «Kim «mən aliməm» desə, nadandır.»[11]

4533. İmam Əli (ə): «Alimlər camaatın hakimləridir.»[12]

---

[1] Kənzul-Ummal, hədis 28883
[2] Ğurərul-Hikəm, hədis 4044
[3] Ğurərul-Hikəm, hədis 8704
[4] Kənzul-Ummal, hədis 44176
[5] Tənbihul-Xəvatir, c. 2. səh 112
[6] Ğurərul-Hikəm, hədis 6198
[7] Ğurərul-Hikəm, hədis 10758
[8] Ğurərul-Hikəm, hədis 8917
[9] Kənzul-Ummal, hədis 28685
[10] Kənzul-Ummal, hədis 28798
[11] Munyətul-Murid, səh 137
[12] Ğurərul-Hikəm, hədis 507

4534. İmam Əli (ə): «Alim odur ki, elmdən doymasın və özünü doymuş kimi də göstərməsin.»[1]

4535. İmam Əli (ə): «Alim odur ki, elm öyrənməkdən yorulmasın.»[2]

4536. İmam Sadiq (ə): «Bizim şiə alimlərimiz, qarşı tərəfində iblis və divlərin olduğu sərhəddin keşikçiləridir və onların gücsüz şiələrimizə hücumunun, iblisin və ardıcıllarının onlara hakim kəsilməsinin qarşısını alırlar.»[3]

***1343.Elmin meyvəsi.***

**Quran:**

«İnsanların, heyvanların və davarların da müxtəlif rəhbəri vardır. Allahdan öz bəndələri içərisində ancaq alimlər qorxarlar. Həqiqətən, Allah hər şeyə qalib olan və bağışlayandır.»[4]

**Hədis:**

4537. İmam Əli (ə): «Elmin meyvəsi, ondan istifadə etməkdir.»[5]

4538. İmam Əli (ə): «Elmin meyvəsi itaətdir.»[6]

4539. İmam Əli (ə): «Elmin meyvəsi, əməli (Allah üçün) saflaşdırmaqdır.»[7]

4540. İmam Sadiq (ə) *(«Misbahuş- Şəriyyə» kitabında qeyd edildiyinə görə):* «(Allahdan) Qorxu elmin mirası, bilik tanımağın işığı və imanın qəlbidir. İradəli olmayan alim deyil, elmin dolaşıq və mürəkkəb məsələlərində incəlikləri bilsə belə. Allah-taala buyurmuşdur: Allahın bəndələri arasında yalnız alimlər ondan qorxarlar.»[8]

***1344. Alimə yaraşan sifətlər.***

4541. Allahın Peyğəmbəri (s): «Kimsə başa düşməyib əməl etsə, onun dağıtmağı düzəltməyindən çox olar.»[9]

4542. Allahın Peyğəmbəri: «Bilməyib anlamadan ibadət edən dəyirman uzunqulağına bənzər.»[10]

---

[1] Ğurərul-Hikəm, hədis 1740
[2] Ğurərul-Hikəm, hədis 1303
[3] əl-İhticac, c. 1 səh 13, hədis 7
[4] Fatir surəsi, ayə 28
[5] Ğurərul-Hikəm, hədis 4624
[6] Ğurərul-Hikəm, hədis 4600
[7] Ğurərul-Hikəm, hədis 1303
[8] Misbahuş-Şəriyyə, səh 365.
[9] əl-Məhasin, c. 1, səh 314, hədis 621.
[10] Kənzul-Ummal, hədis 28709

4543. İmam Əli (ə): «Kim özünü xalqın rəhbəri edərsə, başqalarını öyrətməzdən əvvəl özü öyrənməlidir. (Camaatı) Dili ilə tərbiyələndirməmiş, əməli və rəftarı ilə tərbiyə verməlidir. Özünə müəllim və tərbiyəçilik edən, camaata müəllim və tərbiyəçilik edəndən daha artıq hörmətə, ehtirama layiqdir.»[1]

4544. İmam Əli (ə): «Bildiklərini tətbiq etmək, sonra isə bilmədiklərini öyrənməyə getmək alimin üzərinə düşən işdir.»[2]

4545. İmam Əli (ə): «Elm və əməl bir-biri ilə bağlıdır. Buna görə də bilən əməl etməli və əməl edən də bilməlidir. Elm əməli səslər, əgər cavab versə qalar, yoxsa gedər.»[3]

4546. İmam Sadiq (ə): «Elm öyrətdikdə kobudluq və zorakılığa yol verməməli və kimsə ona elm öyrətmək istədikdə (bunu özünə) ayıb saymamalıdır.»[4]

4547. İmam Sadiq (ə): «Kim bəsirətsiz iş görərsə, çöldə ilğımın ardınca hərəkət edən kimidir. O nə qədər tez gedərsə, bir o qədər uzaq düşər.»[5]

### *1345. Elmə əməl etməyə həvəsləndirmək.*

4548. Allahın Peyğəmbəri (s): «Elmdə bir-birinizlə həmrəng olun. Çünki sizlərdən hər birinizin elmində xəyanəti, mala xəyanət etməkdən daha pisdir və qiyamət günündə Allah-taala sizdən bunun hesabını soracaqdır.»[6]

4549. Allahın Peyğəmbəri (s): «Alimlərin səyi başa düşməyə, nadanların səyi isə rəvayət etməyə yönəlib.»[7]

4550. Allahın Peğəmbəri (s): «Cənnətdəkilərin bir dəstəsi, bir qrup cəhənnəm əhlinə baxarıq deyər: Biz sizlərin tərbiyə və təlimlərinizin bərəkətindən cənnətə gəldik. Necə oldu ki, sizin özünüz cəhənnəmə düşdünüz? Deyərlər: Biz yaxşı işlər görməyi əmr etsək də, özümüz ona əməl etmədik.»[8]

4551. İmam Əli (ə): «İnsanları elm öyrənməyə həvəsdən salan budur ki, çox az alimin bildiklərinə əməl etdiyini görürlər.»[9]

---

[1] Biharul-Ənvar, c. 2 səh 56, hədis 33
[2] Ğurərul-Hikəm, hədis 6196
[3] Nəhcul-Bəlağə, hikmət 366
[4] Tənbihul-Xəvatir, c. 1, səh 85
[5] Əmali-Səduq, səh 343. hədis 18
[6] Əmali-Tusi, səh 126, hədis 198
[7] Kənzul-Ummal, hədis 29337
[8] Məkarimul-Əxlaq, c. 2, səh 364, hədis 2661
[9] Ğurərul-Hikəm, hədis 3895

4552. İmam Əli (ə): «Dünya, yalnız elm olduğu yerlərdən başqa, başdan-başa nadanlıqdır. Elmin də yalnız əməl olunan hissəsini çıxmaqla, qalan hamısı hüccətdir.»[1]

4553.İmam Əli(ə):«Elmsiz əməl ağır yük, əməlsiz elm isə azğınlıqdır.»[2]

4554. Allahın Peyğəmbəri (s): «Abır-həya etməyən alim və nadan abid mənim belimi qırdı. Çünki nadan öz ibadəti ilə camaatı aldadar, alim isə öz günah əməli ilə onları perik salar.»[3]

4555. Allahın Peyğəmbəri (s): «Bir xəbər eşitdikdə onu həyata keçirmək barədə fikirləşin, onu nəql etməyi düşünməyin. Çünki elmi nəql edənlər çox, onu tətbiq edənlər azdır.»[4]

### *1346. Alimin cəzalandırılmasında tələbkarlıq.*

4556. Allahın Peyğəmbəri (s): «Cəhənnəmdəkilər əməlsiz alimin ilənmiş qoxusundan əziyyət çəkərlər.»[5]

4557. İmam Əli (ə): «Allah yanında bilənlərlə bilməyənlərin cəzası eyni deyil. Allah bizi və sizləri malik olduğumuz elmdən faydalandırar və onu özü üçün saflaşdırar. Həqiqətən, O, eşidən və (duanı) qəbul edəndir.»[6]

4558. İmam Əli (ə): «Alimin büdrəməsi, sərnişinlərini batıran və özü də qərq olan gəminin sınması kimidir.»[7]

4559. İmam Sadiq (ə): «Alimin bir günahı bağışlanana kimi nadanın yetmiş günahı bağışlanar.»[8]

4560. İmam Sadiq (ə): «İnsanlar arasında (günahkarlar) öz elmindən azacıq da olsa faydalanmayan alimin əzabı ən ağır olacaqdır.»[9]

4561. İmam Sadiq (ə) (*«Məsbah ol Şəriyyə» kitabında qeyd olunduğu kimi*): «Allah-taala Davuda (ə) vəhy buyurdu: «Əməlsiz alimə qarşı görüləcək ən yüngül iş, yetmiş daxili əzabdan şiddətli olacaqdır. Həmin əzab budur ki, məni anmağın şirinliyini onun qəlbindən çıxaracağam.»[10]

### *1347. Pis alimlər.*

---

[1] Biharul-Ənvar, c. 2, səh 29, hədis 9
[2] Ğurərul-Hikəm, hədis 1587 və 1588
[3] Munyətul-Murid, səh 181.
[4] Nəhcul-Bəlağə, hikmət 98
[5] Biharul-ənvar, c. 2, səh 34, hədis 30
[6] əl-İrşad, c. 1, səh 230.
[7] Biharul-ənvar, c. 2, səh 58, hədis 39
[8] Qummi təfsiri, c. 2, səh 146
[9] Biharul-ənvar, c. 2, səh 37, hədis 53
[10] Misbahuş-Şəriyət, səh. 345.

4562. Məsih (ə): «Dünyasını axirətindən üstün tutan və dünyaya üz çevirəni, ona ziyan vuranı xeyir gətirəndən çox sevəni necə elm əhlinin sırasında sayasan?»[1]

4563. Allahın Peyğəmbəri (s): «Dinar dinin dərdi, alim isə dinin həkimidir. Görsəniz ki, həkim bu dərdə mübtəla olub, ondan ümüdünüzü üzün və bilin ki, o, başqasının xeyirxahı deyil.»[2]

4564. Allahın Peyğəmbəri (s): «Bilin ki, pislərin ən pisi pis alimlərdir. Yaxşıların ən yaxşısı isə yaxşı alimlərdir.»[3]

4565. Allahın Peyğəmbəri (s): «Kimin elmi çoxalarsa və doğru yola meyli artmazsa, Allahdan uzaq düşməyindən qeyri artımı olmaz.»[4]

4566. İmam Sadiq (ə): «Məlundur, məlundur o alim ki, zalım hökmdarın ardınca gedərək, zülmkarlıqda ona kömək etmiş olsun.»[5]

4567. İmam Əskəri (ə) *(Pis əməl sahibi olan alimləri təsvir edərkən):* «Onların gücsüz (zərərə davamsız) şiələrə vurduğu ziyan, Yezidin qoşununun Hüseyn ibn Əli (ə) və onun dostlarına vurduğu ziyandan çoxdur. Çünki qoşundakılar onların canını və malını aldı, ancaq bu pisəməl alimlər ... bizim aciz şiələrimizin qəlblərinə şəkk-şübhə salarıq azdırdılar.»[6]

### *1348. Elmin mənası.*

4568. Allahın Peyğəmbəri (s): «Elm üç növdür: aydın və pozulmamış ayə, ya orta fərizə və yaxud möhkəm adət. Bunların fövqündə isə qeyri-zəruri fəzilət durur.»[7]

4569. İmam Sadiq (ə): «Elm öyrənməklə deyil, əksinə, Allah-taalanın doğru yola yönəltmək istədiyi hər kəsin ürəyində işıqlandırdığı nurdur. Buna görə də elm istəyirsənsə, öncə bəndəlik həqiqətini öz canında axtar. Elmi də ondan istifadə etməklə axtar və Allahdan dərrakə, bilik istə ki, səni dərrakəli və alim etsin»[8]

4570. Allahın Peyğəmbəri (s): Bir kişi Allahın Peyğəmbərinin (s) yanına gəlib ərz etdi: «Ya Rəsulallah! Elm nədir?» Buyurdu: «Dinməzlik.» Ərz etdi: «Daha nə?» Buyurdu: «Qulaq asmaq.»Ərz etdi: «Daha sonra?» Buyurdu: «Qorumaq və muğayat olmaq.» Ərz etdi: «Bunlar olduqda nə?»

---

[1] Munyətul-Murid, səh. 141.
[2] əl-Xisal, səh 113, hədis 91
[3] Munyətul-Murid, səh. 137.
[4] Tənbihul-Xəvatir, c. 2, səh. 21.
[5] Biharul-ənvar, c. 75, səh 381, hədis 45
[6] əl-İhticac, c. 2, səh 512, hədis 337
[7] əl-Kafi, c.1, səh 32, hədis 1.
[8] Biharul-Ənvar, c. 1, səh 225, hədis 17

Buyurdu: «Ondan istifadə etmək.» Ərz etdi: «Daha sonra nə, ey Allahın Peyğəmbəri?» Buyurdu: «Onu yaymaq.»[1]

***1349. Xeyirsiz biliklərin pislənməsi.***

4571. Allahın Peyğəmbəri (s) *(Ərz edərdi):* «İlahi! Xeyir gətirməyən bilikdən, təvazökarlığı olmayan qəlbdən, eşidilməyən duadan və doymayan nəfsdən Sənə pənah aparıram»[2]

4572. İmam Əli (ə): «Bil ki, boş bilikdə xeyir yoxdur. Öyrənməyə layiq olmayan biliyi öyrənmək fayda verməz.»[3]

4573. İmam Kazim (ə): «Allahın Peyğəmbəri (s) məscidə daxil oldu və bir dəstənin bir kişinin ətrafında yığıldığını gördü. Buyurdu ki, nə olub? Ərz olundu: Əllamədir. Buyurdu: Əllamə nə deməkdir? Ərz etdilər: O, insanların ən biliklisidir. Ərəblərin əsl-nəsəbləri, onların müharibələri, cahiliyyət dövrü və ərəb dilindəki şerləri bilir. Peyğəmbər (s) buyurdu: Bunlar elə biliklərdir ki, kimsə onu bilməsə ona ziyan yetirməz və kimsə də bilsə, ona xeyir verməz.»[4]

***1350. Biliyin növləri.***

4574. Allahın Peyğəmbəri (s): «Bilik iki qismdir: dinləri öyrənmək və bədənləri öyrənmək.»[5]

4575. Allahın Peyğəmbəri (s): «Bilik, say halına salınmaqdan daha çoxdur. Buna görə də hər bir şeydən ən yaxşısını öyrənin.»[6]

4576. Allahın Peyğəmbəri (s): «Ən yaxşı bilik odur ki, faydalı olsun.»[7]

4577**.** İmam Əli (ə): **«**Biliklər dörd növdür: dinləri öyrənmək üçün fiqh elmi, bədənlərin sağlamlığı üçün tibb elmi, nitqin islah olunması üçün nəhv (qrammatika) elmi və vaxtı öyrənmək üçün nücum elmi.»[8]

4578. İmam Əli (ə): «Biliklərin ən yaxşısı, səni islah edən bilikdir.»[9]

4579. İmam Baqir (ə): «Bil ki, heç bir elm sağlamlıq qazanmaq qədər, heç bir sağlamlıq da qəlbin sağlamlığı kimi deyil.»[10]

---

[1] əl-Kafi, c.1, səh 48, hədis 4
[2] Kənzul-Ummal, hədis 3609
[3] Nəhcul-Bəlağə, məktub 31
[4] Əmali-Səduq, səh 220, hədis 13
[5] Biharul-Ənvar, c. 1, səh 220, hədis 52
[6] Kənzul-Fəvaid, c. 2, səh 31
[7] Əmlis-Səduq, səh. 394, hədis 1
[8] Biharul-Ənvar, c. 1, səh 218, hədis 42
[9] Ğurərul-Hikəm, hədis 4962
[10] Tuhəful-Uqul, səh. 286

4580. İmam Sadiq (ə): «Gərək səhabələrin başlarının üstündə qamçı olaydı ki, halalın və haramın hökmlərində fəqih olaydılar.»[1]

***1351. Lədonni elm.***

4581. Allahın Peyğəmbəri (s): «Batini elm Allahın sirrlərindən və Tanrının hikmətlərindəndir. Onu istədiyi hər bir vaxt bəndənin qəlbinə salar.»[2]

4582. Allahın Peyğəmbəri (s): «Allahdan lazım olduğu kimi qorxsaydınız, cəhalət və nadanlığın ona yoldaş olmadığı bir elm sizə öyrədilərdi.»[3]

4583. İmam Baqir (ə): «Kim bildiyinə əməl etsə, Allah ona bilmədiyini öyrədər.»[4]

***1352. İnsanların ən biliklisi.***

4584. Allahın Peyğəmbəri (s): «İnsanların ən biliklisi, camaatın biliyini öz biliyi ilə birləşdirəndir.»[5]

4585. Allahın Peyğəmbəri (s) *(Ona «insanların ən biliklisi olmaq istəyirəm» deyə müraciət olunduqda):* «Allahdan çəkin ki, insanların ən biliklisi olasan.»[6]

4566. İmam Əli (ə): «İnsanların ən biliklisi, elmə həvəsi olandır.»[7]

***1353. Həqiqi elmin Əhli-Beytin (ə) inhisarında olması.***

4587. İmam Əli (ə): «Əgər elmi onun mədənindən öyrənsəydiniz, suyu çeşmənin gözündən içsəydiniz, yaxçılıqları yatağından yığsaydınız, işıqlı yola qədəm qoysaydınız və «haqq yolu» ilə getsəydiniz, heç şübhəsiz, yollar sizə aşkar olar, (yolun) nişanələri sizə görünərdi»[8]

4588. İmam Baqir (ə) *(Sələmə ibn Kuheyl və Həkəm ibn Ətibbəyə xitabən)*: «Şərqə də, Qərbə də getsəniz, heç vaxt bizim ailənin verdiyindən başqa, doğru elm tapa bilməyəcəksiniz.»[9]

---

[1] əl-Məhasin, c. 1, səh. 358, hədis 765
[2] Kənzul-Ummal, hədis 28820
[3] Kənzul-Ummal, hədis 5881
[4] Əlamuddin, səh. 301.
[5] Əmali-Səduq, səh. 27, hədis 4
[6] Kənzul-Ummal, hədis 44154
[7] Ğurərul-Hikəm, hədis 3079
[8] əl-Kafi, c. 8, səh 32, hədis 5
[9] Biharul-Ənvar, c. 2, səh 92, hədis 20

# 290

# Ömür

***1354.Ömür.***

**Quran:**

«Allah sizi torpaqdan sonra nütfədən xəlq etmiş, sonra da sizi cüt-cüt yaratmışdır. O bilmədən heç bir qadın hamilə olmaz və doğmaz. Ahılın ömrünün uzadılması da, kimsənin ömrünün qısaldılması da, ancaq kitabda yazılmışdır. Həqiqətən, bu Allah üçün çox asandır.»[1]

Hədis:

4589. İmam Əli (ə): «Sənin ömrün çəkdiyin nəfəslərin sayıdır və bu nəfəsləri bir gözətçi sayır.»[2]

4590. Allahın Peyğəmbəri (s): «Sizlərdən heç biri ömrünüzün bir gününü arxada qoymadan, ömrünüzün növbəti gününün pişvazına çıxmır.»[3]

***1355.Ömrü qənimət saymaq.***

4591. Allahın Peyğəmbəri (s): «Öz ömrünə qarşı dinar-dirhəmindən daha xəsis ol.»[4]

4592. Allahın Peyğəmbəri (s): «Həyatın müddəti məhduddur və heç kəs, onun üçün müəyyən edilmiş ömürdən çoxuna çata bilməz. Buna görə də ömür başa çatmamış tələsin.»[5]

4593. İmam Əli (ə): «Günün keçəni səndən gedəndir, gələcəyi şübhəlidir və indiki zaman isə fürsətdir.»[6]

4594. İmam Əli (ə): «Nə tez ötür günün saatları, nə tez keçir ayın günləri, nə qədər tez sovuşur ilin ayları və nə qədər tez ötür ömrün illəri!.»[7]

---

[1] Fatir surəsi, ayə 11
[2] Ğurərul-Hikəm, hədis3434
[3] Tənbihul-Xəvatir, c. 2, səh. 218
[4] Məkarimul-Əxlaq, c. 2, səh. 346, hədis 2661
[5] Əlamud-Din, səh. 336, hədis 12
[6] Ğurərul-Hikəm, hədis 9840
[7] Nəhcül-Bəlağə, xütbə 188.

4595. İmam Əli (ə): «Ey camaat! Elə indi, indicə vaxtı qənimət bilin, peşman olmamış və hər bir kəs «əfsus ki, Allahın işində səhlənkarldıq etdim» deməmiş vaxtı qənimət bilin»[1]

4596. İmam Əli (ə): «Allahın rəhməti olsun nəfəslərinin ölümə doğru atdığı addımlar olduğunu bilən və sonra əmələ tələsərək arzularını qısaldana.»[2]

4597. İmam Əli (ə): «Məbada, öz ömrünüzü sizə qalmayacaq bir şey üçün hədərə verəsiniz. Çünki keçən ömür geri dönməz.»[3]

4598. İmam Əli (ə): «Ömrün sənin xoşbəxtliyinin mehriyyəsidir. Bu şərtlə ki, onu Allaha ibadət yolunda keçirəsən.»[4]

***1356. Ömrü onlara hüccət olanlar.***

**Quran:**

«Onlar alovların içində fəryad çəkərlər: «Ey Allahımız! Bizi buradan çıxart ki, gördüyümüz işləri deyil saleh əməllər edək.» Məgər sizi ibrət almaq istəyən kimsənin ibrət ala biləcəyi qədər yaşatmadımmı?! Hələ sizə qorxudan peyğəmbər də gəlmişdir. Dadın! Zalımların imdadına çatan olmaz.»[5]

**Hədis:**

4599. Allahın Peyğəmbəri (s): «Qiyamət günü olanda nida gələr: «Altmış yaşında olanlar hardadır?!» Bu Allah-taalanın buyurduğu həmin ömürdür: Məgər sizi ibrət almaq istəyən kimsənin ibrət ala biləcəyi qədər yaşatmadıqmı?!»[6]

4600. İmam Əli (ə): «Allahın insanın üzrlərini qəbul etdiyi ömür müddəti altmış ildir.» [7]

4601. İmam Əli (ə): «Əfsuslar olsun, ömrü onünçun hüccət olan və həyatı onu bədbəxtliyə sövq edən qafilə!.»[8]

4602. İmam Baqir (ə): «Qırx yaşı keçdikdə, bəndəyə deyirlər: «Ayıq ol, çünki bundan belə sənin heç bir üzrün qəbul edilməz. Artıq altmış yaşlı insana iyirmi yaşındakı insan kimi üzr gətirmək yaraşmaz.»[9]

---

[1] Tənbihul-Xəvatir, c. 2, səh. 89
[2] Ğurərul-Hikəm, hədis 5214
[3] Ğurərul-Hikəm, hədis 2618
[4] Ğurərul-Hikəm, hədis 3429
[5] Fatir, ayə 37.
[6] Kənzul-Ummal . 2924
[7] Nəhcül-Bəlağə, hikmət 326.
[8] Nəhcül-Bəlağə, xütbə 64
[9] əl-Xisal, səh 545, hədis 24

***1357. Ömrü uzadan amillər.***

4603. Allahın Peyğəmbəri (s): «Həmişə dəstəmazlı ol ki, Allah ömrünü uzatsın.»[1]

4604. Allahın Peyğəmbəri (s): «Kim ruzisinin çox və ömrünün uzun olmasını istəyirsə sileyi-rəhm etsin (qohumları ilə mehriban olsun).» [2]

4605. İmam Əli (ə): «Kim qalmaq (əlbəttə, həmişəlik qalmaqdan söz belə gedə bilməz) istəyirsə, səhər yeməyini erkən yesin, yaxşı ayaqqabı

geysin, öz borcunu azaltsın və qadınlarla az yaxınlıq etsin.» [3]

4606. İmam Baqir (ə): «Bizim şiələrimizə Hüseyn ibn Əlinin (ə) qəbrini ziyarət etməyi əmr edin. Çünki onun ziyarəti ruzini artırar, ömrü uzadar və pislikləri uzaqlaşdırar.» [4]

4607. İmam Sadiq (ə): «Hər kim xoşniyyət olsa, ömrü uzun olar.»[5]

4608. İmam Sadiq (ə): «Kim ailəsi ilə yaxşı olsa, ömrü uzun olar.»[6]

4609. İmam Sadiq (ə): «Əgər Allahın sənin ömrünü uzatmasını istəyirsənsə, ata-ananı sevindir.»[7]

***1358. Mömin və uzun ömür istəmək.***

4610. Xanım Fatimeyi Zəhra (s) *(Münacatda):–*«İlahi! Səni and verirəm qeybdən olan elminə və məxluqlar üzərində qüdrətinə, məni sağ qalmağın mənim üçün yaxşı olduğunu bildiyin müddətə qədər sağ saxla və nə vaxt ölüm mənim üçün yaxşı olsa, onda öldür.»[8]

4611. İmam Səccad (ə) *(Məkarimul əxlaq duasında):–*«Ömrümü, sənin itaətinə sərf olununcaya qədər uzat və nə vaxt ömrüm şeytanın otlağına dönsə, canımı al və öz yanına apar.»[9]

***1359. İnsanın öz ömründən xəbərsizliyindəki hikmət.***

---

[1] Əmali-Mufid, səh. 60, hədis 5
[2] əl-Xisal, səh. 32, hədis 112
[3] Əyunu Əxbari-Reza(ə), c. 2, səh. 38, hədis 112
[4] Biharul-Ənvar, c. 101, səh. 4, hədis 12
[5] Biharul-Ənvar, c. 69, səh. 408, hədis 117
[6] Əmali-Tusi, səh. 245, hədis 425
[7] əl-Zohd Lil Hüseyn ibn Səid, səh. 33, hədis 87
[8] Biharul-Ənvar, c. 94, səh. 225, hədis 1
[9] əs-Səhifətus-Səccadiyyə, səh. 82, dua 20.

4612. İmam  Sadiq (ə): «İndi, ey Məfəzzəl! İnsanın ömür müddətinin ondan gizlin olması üzərində düşün. Çünki ömrünün nə qədər olduğunu bilsə və ömrü qısa olsa, həyat ona dözülməz olar. Belə ki, ölümü bildiyi vaxtda gəlməsini gözləyəcək. Sanki malı aradan getmiş və ya məhv olmaq ərəfəsində olan insan tək olacaq. Belə insan malının məhv olmasının və yoxsul olmasının qorxusundan əməli surətdə yoxsulluğu hiss edəcək. O ki qalsın, malın yox olması qorxusundan dəfələrlə çox olan ömrün sona yetmək qorxusu ola! Çünki kiminsə sərvəti azalarsa onun əvəzini qazanmaq ümüdi ilə təskinlik tapır. Ancaq ömrünün tamam olmasına (konkret və məlum vaxta) yəqinliyi olan kimsənin vücudunu yas bürüyər. Ancaq ömrü uzun olsa və bundan xəbərdar olsa, hələ diri olacağına yəqinlik tapacaq. Buna görə də, ləzzət və günahlara qərq olub, kamına çatmağa və sonra həyatının sonlarında tövbə etməyə çalışacaq. Deyə bilərsən ki, elə indinin özündə də ömür müddətinin məlum olmadığı və hər an ölümün gəlişini gözlədiyi halda belə insan murdar işlər görüb itaətsizlik edir. Cavabında deyirəm: Ömür müddətinin məlum olmamasının hikməti barədə dediyimiz öz qüvvəsində qalır. Ancaq bununla belə, insan yenə də çirkin əməllərdən qalmırsa bu artıq onun başının məstliyindən və ürəyinin daşlığındandır və işin fəlsəfəsinə, uzaqgörənliyin səhv olmasına dəlalət etmir.»[1]

[1] Biharul-Ənvar, c. 3, səh. 83.

291

# Əmək

***1360. Əməyə həvəsləndirmək.***

**Quran:**

«Mömin olub yaxşı işlər görən kişi və qadına xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərindən daha yaxşı olan mükafat verəcəyik.»[1]

**Hədis:**

4613. Allahın Peyğəmbəri (s): «Vəfat etmiş insana üç şey yoldaşlıq edər: ailəsi, var-dövləti və əməli. Bunlardan ikisi qayıdıb geri dönər, biri isə qalar. Ailəsi və var-dövləti qayıdar, əməli isə onunla qalar.»[2]

4614. İmam Əli (ə): «İş görün, onu başa çatdırın və gördüyünüz işdə möhkəm olun. Bu zaman dözümlü və təqvalı olun. Elə sizin axırınız da budur. Elə isə özünüzü axır aqibətinizə (cənnətə) çatdırın.»[3]

4615. İmam Əli (ə): «Hər kimsə işini asta aparsa, əsil-nəsibi onu tələsik götürər.»[4]

4616. İmam Əli (ə): «İş görmədən axirətə ümid bəsləyənlərdən olma… Belələri yaxşı əməl sahiblərini sevər, ancaq elədiklərini etməzlər. Günah edənləri düşmən bilsələr də özləri də onların cərgəsindədir. …Başqalarının öz günahlarından az olan günahlarına görə qorxu hissi keçirər, özləri üçünsə gördükləri işdən artıq mükafata ümid bəsləyirlər… İş (yaxşı əməl) görməkdə əksiklik, mükafat diləməkdə israr edərlər…Çox söz danışar, az iş görərlər.»[5]

4617. İmam Sadiq (ə): «Allah-taala hər kimsənin bir namazını qəbul edərsə, ona əzab verməz. Hər kimsənin bir yaxşı əməlini qəbul edərsə, …ona əzab verməz.»[6]

---

[1] Nəhl, ayə 97
[2] Kənzul-Ummal, hədis 42761
[3] Nəhcul-Bəlağə, xütbə 176
[4] Nəhcul-Bəlağə, hikmət 23
[5] Nəhcul-Bəlağə, hikmət 150
[6] əl-Kafi, c. 3, səh 266, hədis 11

4618. İmam Sadiq (ə): «Az çalışın ki, daha çox nemət sahibi olasınız.»[1]

4619. İmam Hadi (ə): «İnsanların bu dünyada işi mal-dövlətlə, axirətdə isə əməlləri ilə olar.»[2]

### *1361. İş və mükafat.*

**Quran:**

«Nə sizin, nə də kitab əhlinin arzusu ilə deyildir. Pislik edən şəxs onun cəzasını çəkəcək və o, Allahdan başqa nə dost, nə də bir imdada yetən tapacaqdır. Hər mömin kişi və ya qadın yaxşı iş görərsə, cənnətə daxil olar. Onlara xurma çərdəyinin arxası qədər də haqsızlıq edilməz.»[3]

**Hədis:**

4620. Allahın Peyğəmbəri (s): «Tikan kolundan üzüm dərilmədiyi kimi, pis iş görənlər də yaxşı əməl sahiblərinin yerini tutmazlar. Belə isə hansı yolla istəyirsinizsə gedin. Çünki hansı yolla getsəniz, onun əhli ilə üzləşərsiniz.»[4]

### *1362. İşin icrasına nəzarət.*

4621. İmam Əli (ə): «İşlərin gedişatını izləyin. Çünki Allah-taala möminlərin işi üçün ölümündən qeyri bir sonluq qoymamışdır.»[5]

4622. İmam Əli (ə): «Davamlı olaraq gördüyün (yaxşı) iş, səni yoran çox işdən daha ümidvericidir.»[6]

4623. İmam Baqir (ə): «Davamlı olaraq görülən iş azacıq olsa belə, onun qədər heç nə Allah yanında daha əziz deyildir.»[7]

4624. İmam Sadiq (ə): «Hər kimsə bir iş görməyə başlayarsa, onu bir ilə qədər davam etdirməlidir. Sonra əgər istəyərsə, başqa işlə məşğul olmalıdır. Çünki Allah-taalanın istədiyini təyin etdiyi Qədr gecəsi həmin bir ildədir.»[8]

### *1363. İşlərin ən üstünü.*

4625. Allahın Peyğəmbəri (s): «İşlərin ən üstünü, onların ən çətinidir.»[9]

---

[1] Tənbihul-Xəvatir, c. 2, səh. 183.
[2] əd-Durrətul-Bahirə, səh.41.
[3] Nisa, ayə 123 və 124.
[4] Kənzul-Ummal, hədis 43676
[5] Müstədrəkul-vəsail, c.1, səh. 130, hədis 177
[6] Nəhcul-Bəlağə, hikmət 278
[7] əl-Kafi, c. 2, səh. 82, hədis 3
[8] əl-Kafi, c. 2, səh. 82, hədis 1
[9] Biharul-Ənvar, c. 70, səh. 191.

4626. Allahın Peyğəmbəri (s): «İşlərin ən üstünü, az olmuş olsa belə ən davamlı olanıdır.»[1]

4627. Allahın Peyğəmbəri (s): «Allah dərgahında işlərin ən sevimlisi, möminə bəxş etdiyin sevinc, aclığını aradan götürməyin və qəm-qüssəsini dağıtmağındır.»[2]

4628. İmam Əli (ə): «İşlərin ən üstünü, nəfsini onu görməyə məcbur etdiyin işdir.»[3]

4629. İmam Əli (ə): «Ən üstün iş, Allah naminə görülən işdir.»[4]

4630. İmam Əli (ə): «Ən üstün iş, haqqa sadiq qalmaqdır.»[5]

4631. İmam Sadiq (ə) *(İşlərin ən üstünü barədə suala cavabından):* «Vaxtında qılınan namaz, ata-anaya edilən yaxşılıq və Allah yolunda edilən cihad.»[6]

***1364. Əməlləri özlərinə xeyri olmayanlar.***

4632. Allahın Peyğəmbəri (s): «Hər kimdə bu üç şey olmasa, heç bir əməli kamilləşməz: Onu Allaha itaətsizlikdən saxlayan pəhrizkarlıq, insanlarla yola getməsinə səbəb olan xasiyyət və nadanın cahilyana rəftarını dəf etdiyi səbrlilik.»[7]

4633. Allahın Peyğəmbəri (s): «Üç şey var ki, onlar olarsa heç bir əməl fayda verməz: Allaha şərik qoşmaq, ata-anaya itaətsizlik edib onları incitmək və cihaddan qaçmaq.»[8]

4634. Allahın Peyğəmbəri (s): «Hər kim dilini saxlamasa, heç bir iş görməmişdir.»[9]

4635. İmam Baqir (ə): «Şəkk və inkar olan yerdə heç bir əməlin faydası olmaz.»[10]

4636. İmam Sadiq (ə): «Allah-taala, öz mömin qardaşına qarşı bəd niyyətdə olan möminin heç bir əməlini qəbul etməz.»[11]

---

[1] Tənbihul-Xəvatir, c.1, səh.63
[2] əl-Kafi, c.2, səh.191, hədis 11
[3] Biharul-Ənvar, c.78, səh.69, hədis 20.
[4] Ğurərul-Hikəm, hədis 2958.
[5] Ğurərul-Hikəm, hədis 2958.
[6] Ğurərul-Hikəm, hədis 3322
[7] əl-Kafi, c.2, səh.116, hədis 1
[8] Kənzul-Ummal, hədis 4324 (=43937)
[9] Biharul-Ənvar, c.77, səh.85
[10] əl-Kafi, c. 2, səh. 400, hədis 7.
[11] əl-Kafi, c. 2, səh. 361, hədis 8

**1356. Uzaq durulmalı olan işlər.**

4637. İmam Əli (ə): «İş görənin özünə rəva bildiyi, lakin müsəlman camaata rəva bilmədiyi hər bir işdən uzaq dur.»[1]

4638. İmam Əli (ə): «Gizlində görülən və aşkarda görülməkdən utanılan hər bir işdən uzaq ol.»[2]

4639. İmam Əli (ə): «Gördüyü işi kimsənin yadına saldıqda, onu çirkin əməl saydığı hər bir işdən çəkinin.»[3]

***1366. İşin möhkəm tutulması.***

4640. Allahın Peyğəmbəri (s): «Allah-taala hər birinizin iş görərkən işini möhkəm (və eybsiz) tutmasını istəyir.»[4]

4641. İmam Sadiq (ə): «Allahın Peyğəmbəri (s) övladı İbrahim vəfat etdikdə onun qəbrində bir dəlik görür və onu əli ilə doldurub hamarlayır. Sonra buyurur: Sizlərdən kimsə iş gördükdə, işini möhkəm tutsun.»[5]

***1367. Əməllərin təqdim olunması.***

**Quran:**

«De ki: istədiyinizi edin. Allah, Onun Peyğəmbəri və möminlər əməllərinizi görəcəklər. Siz qeybi və aşkari bilən Allahın hüzuruna qaytarılacaqsınız. O da sizi nə etdiklərinizdən xəbərdar edəcəkdir!.»[6]

**Hədis:**

4642. Allahın Peyğəmbəri (s): «Bazar ertəsi və cümə axşamı günlərində əməllər göstərilir. Günahlarının bağışlanmasını diləyənlərin günahları bağışlanır, tövbə edənin tövbəsi qəbul olunur və kin saxlayanların kinləri qaytarılır ki, tövbə etsinlər.»[7]

4643. Allahın Peyğəmbəri (s): «Sizin işləriniz hər gün mənə göstərilir. İşləriniz yaxşı olduqda, Allahdan işlərinizin artmasını diləyirəm, pis olduqda isə, Allahdan sizin bağışlanmanızı diləyirəm.»[8]

4644. İmam Hüseyn (ə): «Hər səhər erkən ümmətin əməlləri Allah-taalaya təqdim olunur.»[9]

---

[1] Nəhcul-Bəlağənin şərhi, c.18, səh. 41
[2] Nəhcul-Bəlağə, məktub 69
[3] Biharul-Ənvar, c.71, səh. 369, hədis 19.
[4] Kənzul-Ummal 9128
[5] Vəsailuş-Şiə, c.2, səh. 883, hədis 1.
[6] Tövbə, ayə 105
[7] əl-Tərğib və əl-Tərhib, c.3, səh.458, hədis 17.
[8] Mən la yəhzurəl-Fəqih, c.1, səh.191, hədis 582
[9] Uyun əxbarir-Rza (ə), c.2, səh.44, hədis 156.

4645. İmam Sadiq (ə) *(De ki, «istədiyinizi edin. Allah, Onun Peyğəmbəri və möminlər əməllərinizi görəcəklər» ayəsi haqda sualın cavabında):* «Burada (möminlər dedikdə) biz nəzərdə tutuluruq.»[1]

4646. «Vəsail əs-Şiə»: Abdulla ibn Əban İmam Rzaya (ə) ərz etdi: «Bir çox dostlarınız məndən xahiş edirlər ki, onlar haqda dua etməyinizi sizdən rica edim.» Həzrət buyurdu: «Allaha and olsun, mənim özüm hər gün onların əməllərini Allaha təqdim edirəm.»[2]

***1368. Əməl dəftəri.***

**Quran:**

«Bu bizim kitabımızdır və sizin əleyhinizə haqqı deyər. Biz sizin etdiyiniz əməlləri yazdırmışıq.»[3]

**Hədis:**

4647. İmam Əli (ə): «Sağ tərəfdəki mələk yaxşı əməlləri, sol tərəfdəki mələk isə pis əməlləri yazar. İki gündüz mələyi insanın gündüz gördüyü işləri, iki axşam mələyi onun gecədəki əməllərini qeyd edər.»[4]

***1369. Əməllərin təcəssümü.***

**Quran:**

«Kim zərrə qədər yaxşı iş görərsə, onun xeyrini görəcəkdir. Kim zərrə qədər pis iş görmüşdürsə, onun zərərini çəkəcəkdir.» «Bir gün hamı özünü etdiyi yaxşı və pis əməlləri qarşısında hazır görəcək və günahları ilə özü arasında çox uzaq məsafə olmasını arzulayacaq. Allah sizi öz əzabından çəkindirir. Çünki O, öz bəndələrinə mərhəmətlidir.»[5]

**Hədis:**

4648. Allahın Peyğəmbəri (s): «Mömin öz qəbrindən çıxanda əməli gözəl bir surətdə qarşısında canlanacaqdır. Mömin ona deyəcək: «Sən kimsən? Allaha and olsun, səni yaxşı və düzgün insan kimi görürəm.» O deyə-cək: «Mən sənin əməllərindənəm.» Sonra onunçün cənnətə bələdçi və nur olacaqdır. Kafir qəbrdən çıxdıqda isə əməli bəd xəbər və çirkin bir şəkildə qarşısında canlanacaqdır. O deyəcək: «Sən kimsən?. Allaha and

[1] Biharul-Ənvar, c. 23, səh.337, hədis 6.
[2] Vəsailuş-Şiə, c.11, səh.392, hədis 25
[3] Casiyə, ayə 29
[4] Biharul-Ənvar, c. 5, səh. 327, hədis 22.
[5] Ali-İmran, ayə 30

olsun ki, səni pis insan kimi görürəm.» O isə deyəcək: «Mən sənin əməllərinəm.» Sonra isə onu aparıb oda atacaq.»[1]

[1] Kənzul-Ummal, hədis 38963

**292**

# Əhd

***1370. Əhdinə vəfalı olmağa həvəsləndirmək.***

**Quran:**

« …əhd edəndə ona sadiq olanlardır.»[1]

**Hədis:**

4649. Allahın Peyğəmbəri (s): «Müsəlmanlar halalın şərtlərinə və öz əhdlərinə sadiqlərdir.»[2]

4650. Allahın Peyğəmbəri (s): «Bilin ki, kimsə öz əhdlisinə (əhli zimmədən olan) zülm etsə, ya haqqını az versə və ya gücündən çox boynuna vəzifə qoysa, yaxud da razılığı olmadan ondan nəsə alsa, qiyamət günü mən onunla düşmən və iddiaçı tərəf olaram.»[3]

4651. Allahın Peyğəmbəri (s): «Nə vaxt (ümmət) əhdinə xilaf çıxarlarsa, Allah-taala düşmənlərini onlar üzərində hakim edər.»[4]

4652. Allahın Peyğəmbəri (s): «Əhdinə xilaf çıxanın dini yoxdur.»[5]

4653. İmam Əli (ə): «Əhdlər qiyamət gününə qədər boyunlardan asılacaq xaltadır. Onlara riayət edənə Allah-taala yaxşılıq edər. Kim onlara xilaf çıxarsa, Allah ona yardımlarını əsirgəyər. Hər kim əhdini yüngül sansa, əhdi ondan əhdə sadiqliyə təkid edən və öz yaratdıqlarından, onları qorumağı istəyən kəsə şikayət edəcək.»[6]

4654. İmam Əli (ə) *(Malik Əştəri hakim təyin etdiyi fərmanından):* «Allahın vacib işlərindən heç biri əhdə vəfa etmək kimi deyildir. İnsanların istəkləri rəngarəng, fikirləri müxtəlif olsa da ona hörmət məsələsində həmrəydirlər.»[7]

---

[1] Bəqərə, ayə 177
[2] Kənzul-Ummal, hədis 10919
[3] Kənzul-Ummal, hədis 10924
[4] Biharul-Ənvar, c. 100, səh. 46, hədis 3.
[5] Nəvadir əl-Ravəndi, səh. 5.
[6] Ğurərul-hikəm, hədis 3650
[7] Nəhcül-Bəlağə, məktub 53.

4655. İmam Əli (ə): «Sözündə düz olmaq (verdiyi əhdə sadiq qalmaq) imandandır.»[1]

4656. İmam Əli (ə): «Öz əhd-peymanına sadiq olmayanın Allaha inamı yoxdur.»[2]

4657. İmam Baqir (ə): «Allah-taala heç kimə üç şeyin əleyhinə getməyə icazə verməmişdir: …, yaxşı və pis əməl sahibinə verilən əhdə riayət etmək.»[3]

4658. İmam Baqir (ə) *(«Öz ipliyini pambıq edən qadın kimi olmayın…» ayəsi ilə əlaqədar buyurduqlarından):* «Öz ipliyini əyirən qadın bəni Təmimdən olan ibn Mərrənin arvadı, Kəb bin Sədin Rabtə (Reyrə) adlı qızı idi. O, axmaq bir qadın idi və yun əyirər, əyirdiklərindən pambıq hazırlayar və onu yenidən əyirərdi. Buna görə də Allah-taala buyurmuşdur: «Öz ipliyini pambıq edən qadın kimi…» Allah-taala vəfalı olmağı əmr etmiş və əhdə vəfasızlıqdan çəkindirmişdir. Bu misalı da ona görə çəkmişdir.»[4]

4659. İmam Sadiq (ə) *(«Ey iman gətirənlər! Verdiyiniz qərarlarda vəfalı olun.» ayəsinə aid suala cavabından):* «Burada, verilən əhdlər nəzərdə tutulur.»[5]

---

[1] Ğurərul-hikəm, hədis 3379
[2] Ğurərul-hikəm, hədis 9577
[3] əl-Kafi, c. 2, səh. 162, hədis 15
[4] Qummi təfsiri, c.1, səh. 189.
[5] Əyyaşi təfsiri, c.1, səh. 289.

**293**

# Məad

***1371. Məad.***

4660. Loğman (ə) *(Öz oğluna verdiyi öyüddən):* «Övladım! Əgər ölümə şəkkin varsa, yuxunu özündən uzaqlaşdır. Ancaq bil ki, bunu heç vaxt bacarmayacaqsan. Əgər yenidən dirilməyə şübhən varsa, onda yuxudan oyanmağı özündən uzaqlaşdır. Ancaq bil ki, heç vaxt bunu da bacarmayacaqsan.»[1]

4661. Allahın Peyğəmbəri (s): «Məad əməl meydanıdır. (Dünyada) İş görən (məadda) xoşhal və fayda götürənlərdən olar. (İş üçün fürsəti) Əldən verən isə qəmli və peşman olar.»[2]

4662. İmam Səccad (ə): «Ey Adəm övladı! Bil ki, bu günün arxasınca daha böyük, daha qorxulu və qəlblər üçün daha ağrılı gün gələcək. Həmin gün qiyamət günüdür. Həmin gün insanlar bir yerə toplanacaq və həmin gün hamı olacaq. Belə bir gündə Allah-taala yaratdığı ilk və son məxluqu bir yerə yığacaq.»[3]

***1372. Məadı sübuta yetirən dəlillər.***

**Quran:**

«Yoxsa sizi əbəs yerə yaratdığımızı və hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?.»[4]

«Yoxsa, Biz iman gətirib yaxşı işlər görənləri yer üzündə fitnə-fəsad törədənlərlə eyni tutacağıq? Yaxud Allahdan qorxub pis əməllərdən çəkinənləri günahkarlara tay edəcəyik?»[5]

---

[1] Biharul-Ənvar, c. 7, səh. 42, hədis 13.
[2] Əlamuddin, səh. 341.
[3] əl-Kafi, c.8, səh.73, hədis 29.
[4] Muminun, ayə 115.
[5] Sad, ayə 27 və 28

«Öz yaradılışını unudub bizimçün bir misal çəkdi: «Bu çürümüş sümükləri kim dirildəcək?» De ki: «Onları ilk dəfə yaradan dirildəcəkdir. O, hər məxluqu biləndir.»[1]

«İnsan deyir: «Mən öldükdən sonra tezliklə qəbirdən dirildilib çıxardılacağam?» İnsan onu ilk öncə heç nəyin olmadığı vaxt yaratdığımızı xatırlamırmı?»[2]

«Odur məxluqları xəlq edən, sonra onları (öldükdən sonra) yenidən yaradır. Bu (yenidən diriltmək) Onunçün çox asandır. Göylərdə və yerdə olan ən üstün sifətlər Ona məxsusdur. Odur hikmətli və əziz.»[3]

«Allahın rəhmətinin nişanələrinə bax ki, torpağı solduqdan sonra necə dirildir. Bu elə ölüləri dirildən Allahdır. O, hər şeyə qadirdir.»[4]

«Buludları hərəkətə gətirmək üçün küləkləri göndərən Allahdır. Biz o buludu ölü torpaqlara tərəf qovur və onunla cansız torpaqları dirildirik. İnsanların dirildilməsi də belədir.»[5]

***1373. Qiyamət gününün yaxında olması.***

**Quran:**

«İnsanların haqq-hesab günü yaxınlaşdı, onlar isə hələ də qəflət içindədirlər.»[6]

**Hədis:**

4663. Allahın Peyğəmbəri (s) *(Şəhadət barmağı ilə orta barmağını yanaşı göstərərək):* «Mənim dirildilməyimlə qiyamət (arasındakı zaman fasiləsi) iki barmaq qədərdir.» Sonra buyurdu: «And olsun canım Onun əlində olana ki, mən qiyamət gününü öz çiynimdə hiss edirəm.»[7]

4664. İmam Əli (ə): «Siz və qiyamət bir kəndirə bağlanmısınız.»[8]

***1374. Yalnız Allah qiyamət gününün nə vaxt çatacağından xəbərdardır.***

**Quran:**

«Camaat səndən qiyamət gününün nə vaxt olacağını soruşar. De ki, «onu ancaq Allah bilər.» Nə bilirsən, bəlkə də tezliklə olacaq.»[9]

---

[1] Yasin, ayə 78 və 79
[2] Məryəm, ayə 66 və 67
[3] Rum, ayə 27
[4] Rum, ayə 50
[5] Fatir, ayə 9
[6] Ənbiya, ayə 1.
[7] əl-Cəfəriyat, səh. 212
[8] Nəhcul-Bəlağə, xütbə 190.
[9] Əhzab, ayə 63.

**Hədis:**

4665. İmam Sadiq (ə): «İsa ibn Məryəm (ə) Cəbrayıldan (ə) soruşur: «Qiyamət nə vaxt olacaq?» Cəbrayıl elə halsız və narahat olur ki, huşunu itirir. Özünə gəldikdə deyir: «Ey Allahın ruhu! Mən bu barədə sənin bildiyindən çox bilmirəm. Göylərdə və yerlərdə olan Allaha məxsusdur. Qiyamət gözlənilmədən və xəbərsiz sizi yaxalayar.»[1]

***1375. Qiyamətin yaxınlaşmağının nişanələri.***

**Quran:**

«Qiyamətin qəfil başlarının üstünü almasınımı gözləyirlər? Hər an qiyamətin gəlməyinin nişanələri aşkar görünür. Qiyamət qopduqda nəsihət götürməyin nə faydası?»[2]

«Sur çalınacaq. Sonra yalnız Allahın istədiklərindən savayı göylərdə və yerlərdə olanlar hamısı bihuş olacaqlar (öləcəklər). Sonra bir daha Sur çalınacaq və yerlərindən dərhal qalxıb baxacaqlar.»[3]

«Yer üzü ən ağır titrəyişlərlə titrədildiyi vaxt… »[4]

«Elə deyil, yer dağılıb parça-parça olanda….»[5]

«Dağlar sürətlə yerindən qopar.»[6]

«Dağlar didilmiş yun kimi olacaq.»[7]

«Dənizlərin yarıldığı an…»[8]

«Günəş sönük olanda, ulduzların işığı yox olanda… »[9]

«Ulduzlar dağılıb səpələnəndə…»[10]

«Göy həmin gün süstləşib parçalanar.»[11]

***1376.Qəbrlərdən çölə çıxılan gün.***

**Quran:**

«Dəhşətli tükürpədici səsi doğrudan-doğruya eşidəcəkləri gün qəbrlərdən çıxma günüdür.»[1]

---

[1] Qisasul-Ənbiya, səh. 271, hədis 346.
[2] Muhəmməd, ayə 18
[3] Zümər, ayə 68
[4] Zəlzələ , ayə 1
[5] Fəcr, ayə 21
[6] Tur, ayə 10
[7] Qariə, ayə 5
[8] İnfitar, ayə 2
[9] Təkvir, ayə 1 və 2
[10] İnfitar, ayə 2.
[11] Haqqə, ayə 16

**Hədis:**

4666. İmam Səccad (ə): «Adəm övladının ən ağır anları üç andır: ölüm mələyini gördüyü an, öz gorundan çıxdığı və böyük Allahın dərgahında dayandığı an.»[2]

***1377.Məhşərin xüsusiyyətləri.***

4667. Allahın Peyğəmbəri (s): «İnsan yaşamış olduğu kimi ölər, öldüyü şəkildə də dirildilər.»[3]

4668. Allahın Peyğəmbəri (s): «Həqiqətən də, sizlər ayağıyalın, çılpaq və sünnətsiz halda Allahın görüşünə gətiriləcəksiniz.»[4]

4669. Allahın Peyğəmbəri (s): «Qiyamət günündə hamı susuz olacaq.»[5]

4670. İmam Əli (ə): «Ey yolunu azmış bixəbər! Yol göstərən nəsihətçini dinlə! Qiyamət günü əməllərin göstərildiyi, sorğu-sual, cəza və mükafatın verildiyi gündür. Elə bir gündür ki, insanların əməlləri ora qaytarılar və bütün günahlar hesablanar. Belə bir gündə, gözlərin halqası közərər, hamilələr qarınlarında olanı salarlar.»[6]

4671. İmam Əli (ə): «Qiyamət günü elə bir gündür ki, Allah-taala haqq-hesab və əməllərin cəzasını vermək üçün bütün insanları- ilk insandan tutmuş, sonuncu nəfərə qədər– başlarını aşağı dikib boyunları bükük, başlarından və üz-gözlərindən tər axan, torpağın onları silkələdiyi bir halətdə bir yerə yığdığı gündür. (Həmin gün) İnsanların ən xoşhalı, ayağını qoymağa və özünə yer tapa bilәndir.»[7]

***1378. Təqvalılar qiyamət günündə.***

4672. Allahın Peyğəmbəri (s) *(«Təqvalıları mərhəmətli Allahın dərgahına elçilər qismində toplayırıq» ayəsi barədə buyurduğundan):*«Onlar Allahın təqva yolunu tutan insanlardır. Allah onları sevmiş, seçmiş və əməllərindən razı olmuşdur. Buna görə də onları təqvalılar adlandırmışdır.»[8]

***1379. Günah edənlər qiyamət günündə.***

---

[1] Qaf, ayə 42, bax: Yasin, 51-53-cu ayələr
[2] əl-Xisal, səh. 119, hədis 108
[3] Tənbihul-Xəvatir, c.2, səh. 133.
[4] əl-Tərğib və əl-Təhrib, c. 4, səh. 384, hədis 11.
[5] Kənzul-Ummal, hədis 38938
[6] Əmali-Tusi, səh. 653, hədis 1353
[7] Nəhcül-Bəlağə, xütbə 102.
[8] əl-Kafi, c. 8, səh. 95, hədis 69

4673. İmam Sadiq (ə): «Hər kim müsəlmanlarla ikiüzlü və ikidilli rəftar edərsə, qiyamət gününə oddan iki dili olan insan kimi gətiriləcəkdir.»[1]

4674. İmam Sadiq (ə): «Hər kim zülm və haqsızlıqla öz qardaşının malını yesə və ona qaytarmasa, qiyamət günündə oddan qığılcım udar.»[2]

4675. İmam Sadiq (ə): «Camaatı aldatmaq üçün Quran oxuyan, qiyamət gününə üzü sür-sümüklü və ətsiz halda gətirilər.»[3]

4676. İmam Sadiq (ə): «(Qiyamət günündə) Təkəbbürlü insanlar qarışqa halına salınacaq və Allah-taala öz bəndələri ilə haqq-hesab çəkənə qədər insanlar onları daima ayaqları altında əzəcəklər.»[4]

4677. İmam Sadiq (ə): «Qiyamət günü gələndə carçı car çəkəcək ki, hardadır mənim dostlarımdan üz döndərənlər? (və ya onları hüquqlarından məhrum edənlər və yaxud onlara rişxənd edənlər).» Sonra üzlərində ət olmayan bir dəstə yerindən qalxacaq və onlara deyiləcək: «Bunlardır, möminləri incidən, onlarla düşmənçilik və onlara qarşı inadkarlıq edənlər. Dinlərinə görə onları bərk məzəmmət edən kimsələrdir.» Bu zaman onları cəhənnəmə aparılmaları əmr olunacaq.»[5]

***1380. Əməl dəftəri.***

**Quran:**

«Biz hər bir insanın yaxşı və pis əməlini öz boynundan asar və qiyamət günü açıq kitab kimi qarşısına qoyarıq. (və ona belə deyərik) Oxu kitabını.

Bu gün özün-özünlə haqq-hesab çəkməyə bəs edərsən.»[6]

**Hədis:**

4678. İmam Bağır (ə) *(«Biz hər bir insanın yaxşı və pis əməlini öz boynundan asar...» ayəsi barədə):* «Harada olur-olsun, onun yaxşı və pisi də onunladır və qiyamət günündə əməl dəftəri özünə verilənə qədər onlardan ayrıla bilməz.»[7]

4679. İmam Sadiq (ə) *(«Oxu kitabını. Bu gün özün-özünə haqq-hesab çəkməyə bəs edərsən.» ayəsi barədə):* «Bəndənin bütün əməlləri və onunçün yazılanların hamısı onun yadına salınacaq. Sanki həmin andaca

---

[1] Səvabul-Əmal, səh. 319, hədis 1.
[2] Səvabul-Əmal, səh. 322, hədis 8.
[3] Səvabul-Əmal, səh. 329, hədis 1.
[4] əl-Kafi, c. 2, səh. 311, hədis 11.
[5] əl-Kafi, c. 2, səh. 351, hədis 2.
[6] İsra, ayə 13 və 14
[7] Qummi təfsiri, c. 1, səh. 17.

törətmişdir. Buna görə də deyərlər: «Vay bizim halımıza! Bu necə yazıdır ki, kiçicik və böyük şeylərdən heç biri də buraxılmamışdır.”[1]

4680. İmam Sadiq (ə): «Qiyamət günündə insanın əməl dəftəri ona verilər və deyilər: ”Onu oxu.» (Rəvayətçi deyir) Ərz etdim: Həmin məktubda olanları bilirsinizmi? Həzrət buyurdu: «Heç bir baxışı, heç bir deyilməmiş sözü, atdığı heç bir addımı və gördüyü heç bir iş olmaz ki, həmin məktubda yazılmamış olsun. O, həmin əməllərini elə yada salar ki, elə bil indicə görmüşdür. Buna görə də, deyərlər: «Vay bizim halımıza! Bu necə yazıdır ki,...»[2]

***1381. Sağ və sol tərəfin səhabələri.***

4681. İmam Sadiq (ə): «Allah-taala möminlə haqq-hesab çəkmək istədikdə, əməl dəftərini onun sağ əlinə verər və Özü ilə onun arasında haqq-hesab çəkər. Sonra buyurar: Mənim bəndəm. Filan işi, behman əməli görmüsən. Ərz edər: Bəli, ey pərvərdigar! Mən bu işləri görmüşəm. Allah-taala buyurar: Mən onları sənə bağışlayıb xeyir əməllərə çevirdim. Sonra camaat deyər: Sübhanallah. Bu bəndənin heç bircə günahı da olmayıb? Allahın “Əməl dəftəri sağ əlinə verilənlə asan haqq-hesab çəkilər və özününkülərin yanına şad qayıdar” sözünün mənası budur.»[3],[4]

4682. İmam Sadiq (ə): «Allah taala ...... hərgah bəndənin pisliyini istəsə, camaatın yanında onunla haqq-hesab çəkib məhkum edər və əməl dəftərini sol əlinə verər. Allahın “Əməl dəftəri boynunun arxasından onlara verilənlər dərhal deyər ki, vay olsun halıma, mən məhv oldum. Dünyada özününkülərlə şad-xürrəm yaşayan beləsi, şölənələn alova daxil olar.” sözünün mənası da budur.»[5],[6]

---

[1] Əyyaşi təfsiri, c.2, səh.328, hədis 35
[2] Əyyaşi təfsiri, c.2,səh.328, hədis 34
[3] İnşiqaq, ayə 7-9
[4] əl-Zöhd lil Hüseyn ibn Səid, səh. 92, hədis 246
[5] İnşiqaq, ayə 10-13.
[6] əl-Zöhd lil Hüseyn ibn Səid, səh. 92, hədis 246

**294**

# Adət

***1382.Adət***

4683. İmam Əli(ə): «Adət ikinci (insan) təbiətdir.»[1]

4684. İmam Əli(ə): «Adət hər bir insanın hakimidir.»[2]

4685. İmam Əli(ə): «Hər kim adətlərinə tabe olsa, (yüksək) məqamlara nail olmaz.»[3]

4686. İmam Əli(ə): «Sənin dilin, səndən elə adət etdiyini istər, nəfsin isə ona öyrəşdiyi şeyi dilər.»[4]

4687. İmam Əli(ə): «Qəzəbə tələsmə. Bu adət halını almaqla sənə hakim olar.»[5]

4688. İmam Əli(ə) *(əziz övladı İmam Həsənə (ə) tövsiyyələrindən):* «Yeniyetmə qəlbi xam torpaqtək boşdur. Ona atılan hər bir şeyi qəbul edər. Buna görə də qəlbin bərkiməmiş və ağlın məşğul olmamış sənə tərbiyə və ədəb verməyə tələsdim.”[6]

4689. İmam Əli(ə) *(Ona faludə (un, su və baldan hazırlanmış halva) gətirib qarşısına qoyduqda buyurmuşdur):* «Sənin xoş ətrin, xoşagələn rəngin və ləziz tamın var. Ancaq mən nəfsimi ona adət etmədiyi bir şeyə öyrəşdirmək istəmirəm.»[7]

4690. İmam Əli(ə): «Özünü yaxşı işlər görməyə öyrəşdir və tavan yüklərini, cərimələri çiyninə çək ki, nəfsin şərafətinə çatasan, axirətin abad olsun və alqış edənlərin çox olsun.»[8]

---

[1] Ğurərul-Hikəm, hədis 402
[2] Ğurərul-Hikəm, hədis 7327
[3] Ğurərul-Hikəm, hədis 6409
[4] Ğurərul-Hikəm, hədis 7634
[5] Ğurərul-Hikəm, hədis 10288
[6] Nəhcül-Bəlağə, məktub 31
[7] Kənzul-Ummal, hədis 36549
[8] Ğurərul-Hikəm, hədis 6232

4691. İmam Həsən (ə): «Adətlər qəhr edəndirlər. Kimsə gizlində və aşkarda özünü nəyəsə adət etdirsə, həmin şey onu aşkarda və camaatın içində rüsvay edər.»[1]

***1383. Adətlərə üstün gəlmək.***

4692. İmam Əli (ə): «Fəzilət adətlərə üstün gəlməkdir.»[2]

4693. İmam Əli(ə): «Ən üstün ibadət, adətə qalib gəlməkdir.»[3]

4694. İmam Əli(ə): «Adətlərə üstün gəlməklə ən yüksək məqamlara çatmaq olar.»[4]

4695. İmam Əli(ə): «İbadətləriniz asanlaşsın deyə, adətlərinizi dəyişdirin.»[5]

4696. İmam Əli(ə): «Adətlərdən əl çəkməklə nəfslərinizi ram edin və onları itaətə doğru yönəldin.Tavan və cərimələrinizin yüklərini onların çiyinlərinə yükləyin. Yaxşı əməllərdən istifadə etməklə onları bəzəyin və günahların çirkabından uzaqda saxlayın.»[6]

**1384. Adətləri dəyişməyin çətinliyi.**

4697. İmam Əli(ə): «Siyasətlərin ən mətini adətləri dəyişməkdir.»[7]

4698. İmam Əli(ə): «Hər işi görmək mümkündür, yalnız adətləri dəyişməkdən başqa.»[8]

4699. İmam Əli(ə): «Ey camaat! Nəfslərinizi tərbiyə etməyi öz öhdənizə götürün, onları tamah və adətlərindən çəkindirin.»[9]

---

[1] Tənbihul-Xəvatir, c. 2, səh. 113.
[2] Ğurərul-Hikəm, hədis 357
[3] Ğurərul-Hikəm, hədis 2873
[4] Ğurərul-Hikəm, hədis 4300
[5] Ğurərul-Hikəm, hədis 6405
[6] Ğurərul-Hikəm, hədis 5199
[7] Ğurərul-Hikəm, hədis 2969
[8] Ğurərul-Hikəm, hədis 6906
[9] Nəhcül-Bəlağə, hikmət 359

**295**

# Bayram

***1385.Bayram***

**Quran:**

«Məryəm oğlu İsa dedi: Pərvərdigara, ey bizim Rəbbimiz! Bizə göydən bir süfrə nazil et ki, o, bizlər və bizdən sonra gələnlər üçün bir bayram və Səndən bir nişanə olsun. Bizə ruzi ver ki, Sən ruzi verənlərin ən yaxşısısan.»[1]

**Hədis:**

4700. İmam Əli(ə) *(Bayramların birində):* «Həqiqətən də, bu bayram Allah oruc-namazını qəbul edən üçün bayramdır. Allaha itaətsizlik etmədiyimiz hər bir gün bayramdır.»[2]

4701. İmam Əli(ə): «Bir bayram günündə Əmir-əl-mömininin (ə) yanına getdim. Gördüm ki, Həzrətin qarşısında açılmış süfrəyə bir az buğda çörəyi, bir qab firni və bir qaşıq var. Ərz etdim: «Ey Əmir-əl-möminin! Bayram günündə firni?» Həzrət buyurdu: «Bu, bağışlanan kimsənin bayramıdır.»[3]

***1386. Novruz***

4702. «Mən lə yəhzəruhul fəqih»: «Novruzda Əmir-əl-mömininə bir hədiyyə gətirdilər. Həzrət soruşdu: Bu nədir? Ərz etdilər: «Ey Əmir-əl-möminin! Bu gün Novruzdur.» İmam buyurdu: «Hər günümüzü Novruza çevirin.»[4]

4703. İmam Əli (ə): «Bizim Novruzumuz hər gündür.»[5]

4704. İmam Sadiq (ə) *(Novruz günündə onun qulluğuna gələn Müəlla ibn Xənisə xitabən):* «Bilirsənmi bu gün nə gündür?» (Müəlla deyir) Ərz

---

[1] Maidə, ayə 114
[2] Nəhcül-Bəlağənin şərhi, c. 20, səh. 73
[3] Biharul-Ənvar, c. 40, səh. 326, hədis 7
[4] Mən la yəhzuruhul-Fəqih, c. 3, səh. 300, hədis 4073
[5] Mən la yəhzuruhul-Fəqih, c. 3, səh. 300, hədis 4074

etdim: Sənə fəda olum, bu iranlıların əziz tutduğu və bir-birinə hədiyyə, bayramlıq verdikləri bir gündür. İmam Sadiq (ə) buyurdu: «And olsun Məkkədəki o qədim evə, bu günün qədim kökü var və mən onu sənə izah edirəm ki, biləsən....

Ey Müəlla! Novruz Allah-taalanın bəndələrdən Ona ibadət etmələrinə və heç nəyi Ona şərik qoşmayacaqlarına, elçilərinə, hüccətlərinə və imamlara (ə) iman gətirəcəklərinə vədə aldığı bir gündür. Novruz günəşin doğduğu ilk gündür...

Elə bir Novruz yoxdur ki, biz onda fərəcin olacağını gözləməyək. Çünki Novruz bizim və şiələrimizin günlərindəndir. İranlılar onu qoruyub saxladı, sizlər isə əldən buraxdınız...

Novruz iranlıların ilinin ilk günüdür. Onlar sayları otuz min nəfər olsa da, sağ qaldılar, yaşadılar və Novruz günündə su səpmək adətə çevrildi...»[1]

4705. İmam Sadiq (ə): «Novruz bayramı yaxınlaşanda bədənini yu, ən təmiz paltarını gey, ən xoş qoxulu ətirlərlə özünü ətirləndir və həmin gün oruc tut.»[2]

4706. «Biharul Ənvar»: «Nəql olunanlara görə, Mənsur Dəvaniqi İmam Kazimdən (ə) camaatın onu təbrik etməsi üçün Novruzda evdə oturmasını və onunçün gətirdikləri hədiyyələri qəbul etməsini xahiş edir. İmam (ə) buyurur: «Mən babam peyğəmbərin (s) hədis və rəvayətlərində axtarsam da, bu gün haqda nəsə tapmadım. Novruz iranlıların adətidir və İslam onu mənsux (ləğv) etmişdir. İslamın aradan götürdüyünü həyata qaytarmağımızdan Allaha pənah!» Mənsur dedi: «Biz bu işi yalnız döyüşçülərə görə edirik (və bir hərbi siyasətdir). Səni and verirəm o böyük Allaha, evdə əyləş.” Həzrət qəbul edir və evdə əyləşir....»[3]

***1378.Bayramların zivəri.***

4707. Allahın Peyğəmbəri (s): «Öz bayramlarınızı «Allahu əkbər»lə (deməklə) zinətləndirin.»[4]

4708. Allahın Peyğəmbəri (s): «Fitr və Qurban bayramlarını “La ilahə illəllah”, “Allahu əkbər”, “Əlhəmdulillah” və “Sübhənallah” cümləri ilə bəzəyin.»[5]

---

[1] Biharul-Ənvar, c. 59, səh. 92, hədis 1
[2] Vəsailuş-Şiə, c. 7, səh. 346, hədis 1
[3] Biharul-Ənvar, c. 59, səh. 100, hədis 2 və c 48, səh. 108, hədis 9.
[4] Kənzul-Ummal, hədis 24094
[5] Kənzul-Ummal, hədis 24095

4709. «Kənzul Ümmal»: «Allahın peyğəmbəri (s) Fitr və Qurban bayramında evdən bayıra çıxar və uca səslə ”La ilahə illəllah ” və ”Allahu əkbər” deyərdi.»[1]

[1] Kənzul-Ummal, hədis 18101

**296**

# Eyb

***1388. Başqalarının eybindənsə, öz qüsurları ilə məşğul olanların təqdir olunması.***

4710. İmam Əli (ə): «Xoşa o kimsənin halına ki, özünün eybi, onu camaatın eybləri ilə əlləşməkdən saxlasın.» [1]

4711. Allahın Peyğəmbəri (s): «İnsanların ən ağıllısı odur ki, öz eyblərini görsün və başqalarının eybinə kor olsun.»[2]

4712. Allahın Peyğəmbəri (s): «Kim öz eybini görərsə, başqalarının eybləri ilə məşğul olmaqdan çəkinər.»[3]

4713. İmam Sadiq (ə): «İnsan üçün ən xeyirli iş odur ki, öz eyblərini aradan götürməkdə camaatdan öndə olsun və ya camaatın eybləri ilə məşğul olmamış öz eyblərinə baxsın.»[4]

4714. İmam Sadiq (ə): «Görsəniz ki, kimsə camaatın günahlarını axtarır və öz günahlarını unudub, bilin ki, Allahın fəndinə düçar olub.»[5]

***1389. Camaatın eybləri ilə məşğul olmaq və öz nəfsi ilə barışmağın pislənməsi.***

4715. Məsih (ə): «Ey pis bəndələr! Günaha görə camaatı danlayırsınız, ancaq öz eyb və pisliklərinizə əmin olduğunuz halda özünüzü danlamaqdan çəkinirsiniz.»[6]

4716. Allahın Peyğəmbəri (s): «Sizlərdən hər biri qardaşının gözündə çör-çöpü görər, öz gözündə isə ağacın gövdəsini görməz.»[7]

[1] Nəhcül-Bəlağə, xütbə 176.
[2] Ğurərul-Hikəm, hədis 3233
[3] Tuhəful-Uqul, səh. 88.
[4] əl-Kafi, c.2, səh.243, hədis 337
[5] Mostətrəfatus-Səraer, səh. 48, hədis 7
[6] Tuhəful-Uqul, səh.501
[7] Kənzul-Ummal, hədis 44141

4717. Allahın Peyğəmbəri (s): «İnsan üçün elə bu eyb bəs edər ki, camaatda eyb görsün, özündə isə görməsin, camaatı özünün tərk edə bilmədiyi işə görə danlasın, oturub durduğu yoldaşını boş və aidiyyətsiz şeylərə görə incitsin.»[1]

4718. İmam Əli (ə): «Kim camaatın eyblərini görsə, onları çirkin saysa və özündəki həmin eybləri bəyənərsə, əsl axmaqdır.»[2]

4719. İmam Əli (ə): «Ən böyük eyb budur ki, elə şeyin xırdaçılığını edəsən ki, sanki özündə yoxdur.»[3]

***1390. Eybləri örtmək.***

4720. Allahın Peyğəmbəri (s): «Kimsə mömininin rüsvayçılığının üstünü örtərsə, diri-diri basdırılan qız uşağını qəbrdən xilas etmiş kimidir.»[4]

4721. Allahın Peyğəmbəri (s): «Kim qardaşının bir günahını bilib onu gizlətsə, Allah qiyamət günü onun günahlarını gizlədər.»[5]

4722**.** İmam Baqir (ə): «Mömininin mömin qarşısında vəzifəsi budur ki, onun yetmiş böyük günahını gizlətsin.»[6]

***1391.Eybləri hədiyyə etmək.***

4723. İmam Əli (ə): «Kim sənin eybini üzünə desə, dalınca sənin abrını qoruyar. Kim eyblərini sənə deməkdə ehtiyat edib çəkinsə, arxanca sənin eybini deyər.»[7]

4724. İmam Əli (ə): «Qardaşının eybini üzünə deməkdə sizin üçün heç bir maneə yoxdur, yalnız onun da, eybinizi üzünüzə deməsindən qorxmaqdan savayı. Siz axirəti uzağa atmaq və dünyayla dostluqda bir-birinizlə dostlaşmısınız.»[8]

4725. İmam Sadiq (ə): «Mənim üçün ən əziz qardaş odur ki, eyblərimi mənə hədiyyə etsin.»[9]

***1392.Eyib axtarmaq.***

**Quran:**

«Eyib axtarıb[1] tənə vuran[2] hər kəsin vay halına.»

---

[1] əl-Xisal, səh. 110, hədis 81
[2] Nəhcül-Bəlağə, hikmət 349.
[3] Nəhcül-Bəlağə, hikmət 353.
[4] Kənzul-Ummal, hədis 6387
[5] ət-Tərğib vət-Tərhib, c.3, səh.239, hədis 7
[6] əl-Kafi, c. 2, səh. 207, hədis 8.
[7] Ğurərul-Hikəm, hədis8260+826.
[8] Nəhcül-Bəlağə, xütbə 113.
[9] Tuhəful-Uqul, səh. 366.

**Hədis:**

4726. Allahın Peyğəmbəri (s): «Möminlərin eyblərini axtarmayın. Çünki kim möminlərin eyblərini axtararsa, Allah da onun eyblərini axtarar. Allah-taala kimin eyblərini axtararsa, evinin içində olsa belə onu rüsvay edər.»[3]

4727. İmam Əli (ə): «(Başqalarının) Eybləri eşələməyin özü bir eybdir.»[4]

4728. İmam Əli (ə) *(Malik Əştəri Misirə vali təyin etdiyi fərmandan)*:– «Camaatın arasında səndən ən uzaq olan və ən çox acığın gəldiyi insanlar, camaatda ən çox eyb axtaranlar olmalıdır. Çünki camaatın (istər-istəməz) eybləri var və hökmdar onları örtmək üçün ən layiqli şəxsdir. Buna görə də camaatın səndən gizlin eyblərini axtarıb çox dərinə getmə.»[5]

4729. İmam Əli (ə): «Başqalarının səhvinə heç vaxt şad olma. Çünki sən də həmişəlik xətadan qorunmamısan.»[6]

4730. İmam Əli (ə): «Kim eyb axtararsa, eybləri axtarılar və söyüş söyər-sə cavabını eşidər.»[7]

4731. İmam Sadiq (ə): «Allahdan ən uzaq düşmüş bəndə, kimsəylə dostluq məsələsini ortaya atan və onun büdrəyişlərini bir gün başına qaxmaq üçün saxlayandır.»[8]

***1393.Eybləri örtmək.***

4732. «Tənbihul Xəvater»: «Rəvayətə görə bir gün İsa (ə) həvarilərlə birgə, it leşinin yanından keçirmiş. Bu vaxt həvarilər deyirlər: «Bu it necə də ilənir!» İsa buyurur: «Əcəb ağ dişləri var.»[9]

---

[1] «Huməzə» surəsinin 1-ci ayəsindədir. Leksik mənası haqsız yerə başqalarından çox xırdaçılıq edən, eyib olmayanı eyib tutan deməkdir. «Həməzə»nın əsil mənası sındırmaqdır. Bunra görə də, kimsə başqalarına eyib tutub xırdaçılıq edənsə bir növ onu (şəxsiyyətin) sındırmış kimidir. «Ləmz» sözünün mənası da eyib deməkdir. «Huməzə» və «Luməzə» sinonimdirlər. Bəziləri bu iki sözün fərqini, «huməzə»nin kiminsə arxasınca eyiblərini deyənlər, «Luməzə»nin isə eybi üzə deyənlər barədə işlədildiyini qeyd edirlər. (Məcməul Bəyan 817\10).

[2] Huməzə, ayə1

[3] Səvabul-Əmal, c.2, səh.288, hədis 1

[4] Ğurərul-Hikəm, hədis 4489

[5] Nəhcül-Bəlağə, məktub 53.

[6] Ğurərul-Hikəm, hədis 10294

[7] Kənzul-Fəvayid, c.1, səh. 279.

[8] əl-Kafi, c. 2, səh.355, hədis 7

[9] Tənbihul-Xəvatir, c.1, səh.117

4733. Allahın Peyğəmbəri (s): «Elm və sərvət hər eybin üstünü örtər, nadanlıq və imkansızlıq hər eybin üstünü açar.»[1]

4734. İmam Əli (ə): «Dözüm eyblərin gorudur.»[2]

4735. İmam Əli (ə): «Eyblərin pərdəsi ağıldır.»[3]

4736. İmam Əli (ə): «Kim abır-həya paltarını kimsənin əyninə geydirərsə, camaat onun eybini görməz.»[4]

4737. İmam Əli (ə): «Bilik öz paltarını kimin əyninə geydirərsə, eybi camaatdan gizli qalar.»[5]

4738. İmam Əli (ə): «Bəxtin sənə yar olunca sənin eybin gizlin qalar.»[6]

***1394. Kim nəyi bilməsə ondan irad tutar.***

4739. İmam Əli (ə): «Kimsə nəyisə dərk etməkdə aciz qalarsa, ondan irad tutar.»[7]

4740. İmam Əli (ə): «Kim nəyi bilməzsə, ondan eyb tutar.»[8]

---

[1] Kənzul-Ummal, hədis28669
[2] Nəhcül-Bəlağə, hikmət6
[3] Ğurərul-hikəm, hədis 6434
[4] Nəhcül-Bəlağə, hikmət 223
[5] Tuhəful-Uqul, səh.215
[6] Nəhcül-Bəlağə, hikmət51
[7] əl-İrşad, c.1, səh. 301
[8] Kəşful-Ğummə, c.3, səh.137

# 297

# Başa qaxmaq

***1395. Başa qaxmağın pislənilməsi.***

4741. Xızır (ə) *(Musaya (ə) tövsiyyə edərkən):* «Ey İmranın oğlu! Heç kəsin günahını başına qaxma və öz günahın üçün ağla.»[1]

4742. Allahın Peyğəmbəri (s): «Kim öz qardaşını tövbə etdiyi günaha görə danlasa, özü həmin günahı etməyincə ölməz.»[2]

4743. Allahın Peyğəmbəri (s): «Günahlı və çirkin işin üstünü açanın özü, həmin işi görmüş kimidir. Nəyisə möminin başına qaxanın özü, həmin işi görməyənə qədər ölməyəcəkdir.»[3]

4744. Allahın Peyğəmbəri (s): «Qulluqçularınızdan kimsə zina etsə, ona hədd cəzasını tətbiq edin, ancaq başına qaxmayın.»[4]

4745. Allahın Peyğəmbəri (s): «Əgər müsəlman qardaşın sənin bir eybini bilərsə və onu sənin başına qaxarsa, sənin ondan bildiyin eyb və günahı onun başına qaxma ki, sənin üçün mükafat, onun üçün isə günah olsun.»[5]

4746. İmam Baqir (ə): «Ən pis şəkildə ölənlərdən qeyri, elə insan yoxdur ki, möminin üzünə onun pisinə danışsın. Beləl
ri xeyir və səadətin üzünü görməməyə layiqdirlər.»[6]

4747. İmam  Sadiq (ə): «Kim mömini danlayarsa, Allah onu dünya və axirətdə danlar.»[7]

4748. İmam Sadiq: «Öz qardaşının çətiniliyinə görə sevinmə ki, Allah ona rəhm edər və səni həmin çətinliyə düçar edər.» Eləcə də buyurmuşdur:

---

[1] Qəsəsul-Ənbiya, səh.157, hədis171
[2] Tənbihul-Xəvatir,c.1, səh. 113
[3] əl-Kafi, c.2, səh. 356, hədis 2
[4] Tənbihul-Xəvatir,c.1, səh. 57
[5] Tənbihul-Xəvatir,c. 2, səh. 155
[6] əl-Kafi, c.2, səh.361 , hədis9
[7] əl-Kafi, c.2 , səh.356 , hədis1

«Qardaşının başına gələn müsibət və çətinliyə sevinənin özü, ona düçar olmayana qədər dünyadan getməz.»[1]

[1] əl-Kafi, c.2 , səh.359 , hədis1

# 298

# Xoşluq

***1396. Ən rahat həyat.***

4749. İmam Əli (ə): «Ən rahat həyat məşəqqət və çətinliklə görülən işləri kənara atmaqdır.»[1]

4750. İmam Əli (ə): «Ən xoş həyat qənaət etməkdir.»[2]

4751. İmam Əli (ə): «Ən xoş və asudə həyatı o şəxs yaşayır ki, Allah-taala ona qənaətcillik və pak, ləyaqətli həyat yoldaşı əta etmiş olsun.»[3]

4752. İmam Sadiq (ə): «Xoş xasiyyətdən rahat həyat yoxdur.»[4]

***1397. Həyatı korlayan amillər.***

4753. İmam Sadiq (ə): «Üç şey həyatı korlayır: zalım hökmdar, pis qonşu və acıdil həyasız arvad.»[5]

4754. İmam Sadiq: «Hər kimdə bu beş şeydən biri olmasa həmişə həyatı ləng, ağlı məyus, fikri məşğul olar: birincisi sağlamlıq, ikincisi təhlükəsizlik, üçüncüsü ruzinin böyüklüyü, dördüncüsü həmdəm.» Rəvayətçi deyir ki, uyğun həmdəmin nə olduğunu soruşdum. Buyurdu: «Yaxşı arvad, yaxşı övlad və yaxşı yoldaş. Beşincisi, bunların cəmi olan asayiş.»[6]

---

[1] Ğurərul-Hikəm, hədis 2964
[2] Ğurərul-Hikəm, hədis2918
[3] Ğurərul-Hikəm, hədis3295
[4] İləluş-Şəraye, səh.560 , hədis1
[5] Tuhəful-Uqul , səh.320
[6] əl-Xisal, səh.284 , hədis34

**299**

# Aldanmaq və qəflət

***1399. Aldanmaq və xəbərsizliyin pislənilməsi.***

4755. İmam Əli (ə): «Xoşa o kimsənin halına ki, öldürücü yalanlar onu öldürməmişdir.»[1]

4756. İmam Əli (ə): «Xəbərsizlik və yalanın məstliyi içkinin məstliyindən daha gec gedər.»[2]

4757. İmam Əli (ə): «Kim (dünyanın) ilğıma aldanarsa, onun (səadət) kəndirləri bir-birindən qopar.»[3]

4758. İmam Əli (ə): «Sizinlə mömininin arasında qəflətdən pərdə var.»[4]

4759. İmam Səccad (ə): «Nə çoxdur gününü eyş-işrətdə, yeyib içməkdə, gülməkdə keçirən və Allahın qəzəbinin bəlkə də onu bürüdüyünü və bu qəzəbə görə də, cəhənnəm oduna atılacağından xəbərsiz, aldanmış şəxs.»[5]

4760. İmam Sadiq (ə): «Kim bu üç şeyə etimad edərsə, aldanar: olmayana və qeyri-mümkün şeyə inanan, etimad etmədiyi şeyə arxalanan və əldə edə bilməyəcəyinə tamah gözünü tikən.»[6]

***1399. Allaha qarşı məğrurluq və Ona əbəs tamah salmaq.***

**Quran:**

«Ey insan! Səni kərim olan Rəbbinə qarşı məğrur edən nədir? O Rəbbin ki, səni yoxdan yaratdı, düzəldib qaydaya saldı. Sənə istədiyi surəti verdi.»[7]

**Hədis:**

---

[1] Ğurərul-Hikəm, hədis 5973
[2] Ğurərul-Hikəm, hədis 5651
[3] Ğurərul-Hikəm, hədis 9224
[4] Nəhcül-Bəlağə, hikmət 282
[5] Tuhəful-Uqul, səh.282
[6] Tuhəful-Uqul , səh.319
[7] İnfitar, ayə 6-8

4761. İmam Əli (ə): «Ey Məsudun oğlu! Allaha qarşı məğrur olma və öz qorxmazlığına, elminə, əməlinə, yaxşılığına və ibadətinə aldanma.»[1]

4762. İmam Əli (ə): «Günahlardan amanda qalmağın amillərindən biri də budur ki, Allaha qarşı məğrur olmayın (və ona boş yerə tamah salmayın və özünüzü Onun əzabından amanda sanmayın).»[2]

4763. İmam Əli (ə): «Bəndənin günah işlərdə israr edə-edə Allahdan bağışlanmasını arzulaması, Allaha qarşı məğrur olmaqdır.»[3]

4764. İmam Əli (ə): «Allahın yaxşılığı ilə az-az haqqın əzabına yaxınlaşan, günahlarının üstü örtüldüyünə görə məğrurlaşan və aldanan, (camaat tərəfindən) təriflənib təqdir olunduqlarına görə fitnə-fəsada düşənlər nə qədər də çoxdur!.»[4]

### *1400. Dünyaya aldanmaq.*

4765. İmam Əli (ə): «Dünyaya aldanmaqdan çəkinin. Çünki dünya yalandan insana verdiyi hər neməti və yaxşılığı həmişə geri alar və kim dünyaya ürək bağlayıb xoş olarsa, onu köçürər.»[5]

4766. İmam Əli (ə): «Nəfsin dünyaya ürək bağlaması ən böyük aldanışdır.»[6]

### *1401. Nəfsinə aldanmaq.*

4767. İmam Əli (ə): «İzzətin səni aldatdı və bunun sonu sənin zəlilliyin olacaqdır. Belə isə öz çirkin əxlaqından qorx ki, bəlkə bu yolla hidayət olasan.»[7]

4768. İmam Əli (ə) «Hər kim nadan olsa, öz nəfsinə aldanar və bu günü dünənindən daha pis olar.»[8]

---

[1] Məkarimul-Əxlaq, c.2 , səh.350, hədis2660
[2] Tuhəful-Uqul , səh.150
[3] Tənbihul-Xəvatir, c.2, səh.72
[4] Nəhcül-Bəlağə, hikmət116.
[5] Ğurərul-Hikəm, hədis 2562
[6] Ğurərul-Hikəm, hədis 5650
[7] Biharul-Ənvar, c.78, səh.83, hədis 86
[8] Ğurərul-Hikəm, hədis 8744

**300**

# Peyğəmbərin döyüşləri

***1402. Böyük Bədr döyüşü.***

**Quran:**

«Həqiqətən, siz Bədrdə az və zəif olduğunuz halda Allah hər an sizə yardım etdi. Allaha şükr edən olmaq üçün Ondan qorxun! O zaman sən möminlərə deyərdin: Rəbbinizin üç min mələk endirərək imdadınıza yetişməsi sizə kifayət etməzmi?»[1]

**Hədis:**

4769. İmam Əli (ə): «Bədr döyüşündə Allahın Peyğəmbərinin (s) səhabələrinin üzü pambıq kimi ağappaq idi.»[2]

4770. İmam Əli (ə): «Bədr döyüşündə biz özümüz Allahın Peyğəmbərinə (s) sığındıq. Həzrət hamımızdan düşmənə daha yaxın idi və həmin gün hamıdan çox şücaət göstərdi.»[3]

4771.İmam Əli (ə): «Bədr döyüşündə aramızda Hiqdad ibn Əsvəddən başqa süvari yox idi. Doyüş axşamı ağacın altında dayanıb səhərə qədər namaz qılıb dua oxuyan Allahın Peyğəmbərindən (s) başqa, bizimlə olanların hamısı yatdı.»[4]

***1403. Uhud döyüşü və Həmraul Əsəd.***

**Quran:**

«Sən möminləri döyüşməli olduqları yerlərə yerləşdirmək üçün sübh tezdən öz ailəndən ayrılıb getdiyin vaxtı yadına sal! Şübhəsiz, Allah eşidən və biləndir.»[5]

4772. İbn Məsud: «Uhud döyüşündə qadınlar müsəlmanların arxa cəbhəsində igilər və müşriklərin yaraladıqları insanlara kömək edirdilər.

---

[1] Ali-İmran, ayə 123 və 124.
[2] Kənzul-Ummal, hədis 29942
[3] Kənzul-Ummal, hədis 29943
[4] əl-İrşad, c.1 , səh.3
[5] Ali-İmran, ayə 121

Əbu Süfyan gəlib «hübəl (büt) zəfər çalsın» şüarını qışqırdı. Allahın Peyğəmbəri (s) müsəlmanlara buyurdu: «Siz də «Allahu əla və əcəllu» (Bir olan Allah uca və cəlallıdır) deyə qışqırın.» Müsəlmanlar da «Allahu əla və əcəllu» şüarını qışqırdılar. Əbn Süfyan qışqırdı: «Ləna əl-Uzza və la Uzza ləkum.» (Bizim Uzza adlı bütümüz var, sizinsə Uzzanız yoxdur) Allahın Peyğəmbəri (s) müsəlmanlara buyurdu: «Siz də deyin ki, «Allahu movlana və la movla ləkum» (Allah bizim rəhbərimizdir, sizinsə rəhbəriniz yoxdur).» [1]

4773. Ənəs: «Uhud döyüşündə Peyğəmbərin qabaq dişləri sındı, o Həzrətin başı yarıldı və başının ortasından qan axa-axa buyurdu: «Onları Allah yoluna dəvət edən peyğəmbərinin başını yaran, qabaq dişlərini sındıran camaat nicat, qurtuluş tapsın?[2] Sonra Allah-taala bu ayəni göndərdi: «Sənin bu işlərdə əlin yoxdur.» [3]

4774. İmam Əli (ə): «Uhud döyüşündə camaat Allahın Peyğəmbərinin (s) ətrafından dağıldığı vaxt mən ölənlərin arasında Onu axtarsam da, Allahın Peyğəmbərini (s) görmədim. Öz-özümə dedim: «Allaha and olsun, O qaçanlardan deyildi. Ancaq ölülərin də arasında görmürəm. Zənnimcə, Allah bizim bu rəftarımıza qəzəblənib və peyğəmbərlərini səmaya çəkib. Deməli, mənim varlığımın bir faydası yoxdur və ölüncəyə qədər döyüşməliyəm. Buna görə də qılıncımın qınını sındırıb düşmənə həmlə etdim və onlar mənim qarşımdan uzaqlaşdılar. Birdən gördüm ki, Allahın Peyğəmbəri (s) də onların əhatəsindədir.»[4]

***1404. Zatur-Riqa döyüşü.***

4775. İmam Sadiq (ə): «Zatur-Riqa döyüşündə Allahın Peyğəmbəri (s) bir dərənin kənarında ağacın altında atdan düşdü. Bu zaman sel gəldi və Həzrətlə dostlarını bir-birindən ayırdı. Bir müşrik kişi peyğəmbəri (s) bu halda gördü. Müsəlmanlar da dərənin qarşı tərəfində dayanıb selin dayanmağını gözləyirdilər. Həmin müşrik kişi yoldaşlarına dedi: «Mən Məhəmmədi öldürəcəyəm.» Sonra peyğəmbərin yanına gəlib, Allahın Peyğəmbərinin (s) üstünə qılınc çəkdi və dedi: «Ey Məhəmməd! İndi kim Səni mənim çəngimdən qurtaracaq?» Həzrət buyurdu: «Mənim və sənin Allahın.» Bu zaman Cəbrayıl həmin kişini atdan yıxdı və o, arxasıüstə yerə düşdü. Allahın Peyğəmbəri (s) qalxıb qılınc çəkdi və onun sinəsinə çöküb

---

[1] əl-Bidayə vəl-Nəhayə, c.4 , səh. 40
[2] Ali-İmran, ayə128
[3] Səhihe müslim, hədis 1791
[4] Kənzul-Ummal, hədis 30027

soruşdu: «Kim səni mənim çəngimdən qurtaracaq ey Ğəvrəs?» Ərz etdi: «Sənin mərhəmət və kərəmin, ya Məhəmməd!» Həzrət həmin kişidən əl çəkdi və o, qalxıb dedi: «Allaha and olsun, sən məndən yaxşısan və kərəm sahibisən.»[1]

***1405. Əhzab və Bəni Qureyzə döyüşü.***

4776. Yəzid ibn Əssəm: «Allah əhzabı darma-dağın etdikdə, Peyğəmbər (s) evinə qayıtdı və üstünü, başını yumağa başladı. Bu vaxt Cəbrayıl o Həzrətin yanına gəlib dedi: «Allah səni bağışlasın. Göylərin mələkləri silahlarını yerə qoymamış, sən silahını yerə qoymusan? Bəri Qureyzə qalasına bizim yanımıza gəl.» Sonra Allahın Peyğəmbəri (s) car çəkib qalanın yanında onlara qoşuldu.»[2]

4777. İmam Baqir (ə) (*«Çox mal-dövlət zay etmişəm»*[3] *ayəsi barədə)*– «Məqsəd Xəndək döyüşündə Əli ibn Əbutalibin ona İslamı qəbul etməyi təklif etdiyi Əmru ibn Əbduddur. Əbdud demişdir: «Sizinlə mübarizəyə xərclədiyim bu qədər var-dövlət nə olsun?» O, Allahın yoluna qarşı mübarizədə malını xərcləmişdi. Əli (ə) onu öldürdü.»[4]

4778. İmam Sadiq (ə): «Allahın Peyğəmbəri (s) xəndək qazanda müsəlmanlar maneəyə rast gəldilər. Allahın Peyğəmbəri (s) külüngü Əmirəlmöminin və ya Salmanın əlindən alıb ona elə zərbə vurdu ki, 3 tikə oldu. Bu vaxt Allahın Peyğəmbəri (s) buyurdu: «Allah bu zərbəmlə Kəsra və Qeysərin xəzinələrini mənimçün açdı.» Oradakılardan biri dostuna dedi: «Bizim heç birimizin zəruri ehtiyac (subaşı) üçün (düşmənin qorxusundan) çölə çıxmağa qadir olmadığımız halda, bizə Kəsra və Qeysərin xəzinələrini vəd edir.»[5]

***1406. Xeybər döyüşü.***

4779**.** Burəydə: «Xeybər döyüşü günündə Əbubəkr bayrağı aldı. Ancaq fəth edə bilməyib qayıtdı. Sonrakı gün Ömər bayrağı götürdü və o da uğursuz geri döndü. İbn Muslimə öldürüldü və camaat (müsəlmanlar) qayıtdılar. Allahın Peyğəmbəri (s) buyurdu: «Bu bayrağı eləsinə verəcəm ki, Allahı və peyğəmbərini sevir, Allah və peyğəmbəri də onu sevir və fəth, qələbə qazanmayana qədər geri dönməz.» Biz həmin gecəni, sabahın qələbə

---

[1] Biharul-Ənvar, c.20, səh.179, hədis 6
[2] Kənzul-Ummal, hədis 301115
[3] Bələd, ayə 6
[4] Qomi təfsiri, c.2, səh.422
[5] əl-Kafi, c.8, səh.216, hədis 264

günü olacağı üçün sevinc içində keçirdik. Allahın Peyğəmbəri (s) səhər namazını qıldı, bayrağı istədi və yerindən qalxdı. Peyğəmbərə yaxınlığı və Onun yanında mövqeyi olan bizlərdən hər birimiz bayraqdarın özü olacağına ümid edirdik. Hətta, Peyğəmbərə yaxın olduğuma və onun yanındakı mövqeyimə görə boynumu dartıb başımı dik tutmuşdum. Ancaq Həzrət, Əli ibn Əbutalıbi çağırdı. Əlinin (ə) gözü ağrıyırdı. Allahın Peyğəmbəri (s) onun gözünə əl çəkdi və bayrağı ona tapşırdı. Fəth və qələbə də onun nəsibi oldu.»[1]

***1407. Məkkənin fəthi uğrundakı döyüş.***

4780. Ömər ibn Xəttab: «Məkkənin fəth olunduğu gün Allahın Peyğəmbəri Məkkəyə daxil oldu. Səfvan ibn Ümməyə, Əbu Süfyan ibn Hərb və Haris ibn Hişamın ardınca adam göndərdi. Ömər deyir: «Öz-özümə dedim ki, Allah onları bizim çəngimizə salıb və əməllərinin cəzalarını onlara dadızdıracağıq. Ancaq Allahın Peyğəmbəri (s) onlara buyurdu: «Mən bu gün sizlərə, Yusifin qardaşlarına dediklərini deyirəm: «Bu gün sizə ağrı-acı yoxdur. Mehribanların ən mehribanı olan Allah sizi bağışlayır.» Ömər deyir: «Ağlımdan belə bir fikir keçdiyinə və Allahın Peyğəmbərinin (s) isə onlara belə cavab verdiyinə görə Peyğəmbərdən (s) utandım.»[2]

4781. İmam Əli (ə): «Allahın Peyğəmbəri (s) Ramazan ayında Bədr döyüşünə getdi və Ramazan ayında da Məkkəni fəth etdi.»[3]

4782. İmam Rza (ə): «Məkkənin fəth olunduğu gün, sayı üç yüz altmış olan büt Kəbənin ətrafında düzülmüşdü. Həzrət əlindəki çubuqla onları vura-vura buyururdu: «Haqq gəldi və batil məhv oldu. Həqiqətən də, batil məhv olasıdır. Haqq gəldi və batil bir daha geri dönüb başlamayacaq.» Bu zaman bütlər bir-bir üzü üstə yerə düşdülər.»[4]

***1408. Huneyn döyüşü.***

4783. İmam Sadiq (ə): «Peyğəmbərin (s) Huneyn döyüşündəki qədər ağır günü olmayıb. Çünki ərəblər Həzrətə düşmən kəsilmişdilər.»[5]

---

[1] Kənzul-Ummal,hədis, 3120
[2] Kənzul-Ummal,hədis 30158
[3] Əmali-Tusi , səh.342 , hədis 701
[4] Biharul-Ənvar, c.21, səh.116, hədis 11
[5] Biharul-Ənvar, c. 21 , səh.190 , hədis 16

**301**

# Fırıldaq və əliəyrilik

***1409. Fırıldaqçılığın pislənməsi.***

4784. Allahın Peyğəmbəri (s): «Kim öz müsəlman qardaşına fırıldaq gəlsə, Allah bərəkəti onun ruzisindən götürər, həyatını xarab edər və onu öz halına buraxar.»[1]

4785. Allahın Peyğəmbəri (s): «Kim eybini alıcıya demədən qüsurlu mal satarsa, həmişə Allahın qəzəbinə tuş gələr və mələklər həmişə ona qarğış edərlər.»[2]

4786. «Kənzul-Ummal»: «Allahın Peyğəmbəri buğda kisəsinin yanından keçirdi. Əlini onun içinə saldı və barmaqlarına nəmişlik gəldi. Buyurdu: «Bu nədir, ey satıcı?» Ərz etdi: «Ey Allahın Peyğəmbəri. Ona yağış dəyib.» Həzrət buyurdu: «Niyə o hissəni üstə qoymamısan ki, camaat görsün? Bizə qarşı fırıldaq işlədən bizdən deyil.»[3]

4787. İmam Əli (ə) *(Ona iş görənlərdən birinə tövsiyyəsindən)*: «Həqiqətən də, ən böyük ümmətin xəyanətidir (yaxud ümmətə edilən xəyanətdir). Ən çirkin fırıldaq isə rəhbərlərin (və ya rəhbərlərə qarşı edilən) fırıldağıdır.»[4]

4788. İmam Əli (ə): «Xalqın dini işlərində onlara fırıldaq gələn Allahın və Onun peyğəmbərinin düşmənidir.»[5]

4789. İmam Sadiq (ə): «Bizə qarşı fırıldaq işlədən bizdən deyil.»[6]

4790. «əl-Kafi»: İmam Kazim (ə) kölgədə (qaranlıqda) Şapur parçası satan Heşam ibn Həkəmin yanından keçdikdə buyurdu: «Ey Heşam! Kölgədə mal satmaq fırıldaqçılıqdır və (alqı-satqıda) fırıldaq rəva deyil.»[7]

---

[1] Biharul-Ənvar, c.76 , səh.356, hədis 30
[2] Kənzul-Ummal, hədis9501
[3] ət-Tərğib vət-Tərhib, c.2, səh.571, hədis 2
[4] Nəhcül-Bəlağə, hikmət 26.
[5] Ğurərul-Hikəm, hədis 8891
[6] əl-Kafi, c.5 , səh.160, hədis 1
[7] əl-Kafi, c.5 , səh.160, hədis 6

**302**

# Qəsb etmək

***1410. Qəsb etmək.***

4791. Allahın Peyğəmbəri (s): «Kimsə müsəlmanın malını haqsız yerə qəsb edərsə, Allah həmişəlik ondan üz döndərər, gördüyü hər yaxşı işə qəzəblənər və tövbə edib götürdüyü malı sahibinə qaytarmayana qədər onları yaxşı işlər siyahısına salmaz.»[1]

4792. Allahın Peyğəmbəri (s): «Kimsə kimsənin torpağını nahaqdan qəsb edərsə, Allah-taalanı onunla qəzəblənmiş halda görüşər.»[2]

4793. Allahın Peyğəmbəri (s): «Qardaşının malını nahaq yerə almaq heç bir müsəlmana rəva deyil. Çünki Allah müsəlmanın malını müsəlmana haram etmişdir.»[3]

4794. İmam Əli (ə): «Evdə qəsb edilmiş daşın olması, həmin evin dağılmasının zaminidir.»[4],[5]

4795. İmam Sadiq (ə): *(Haqsız yerə torpaq alıb orada ev tikənin hökmü haqda suala cavabından):* «Evi viran olar və torpaq sahibinə qaytararlar. Zülmkarın alın tərinə və haqqı tapdalayana haqq yoxdur.»[6]

4796. İmam Əli (ə): «Başqasının icazəsi olmadan onun malını ələ keçirmək heç kəsə rəva deyildir.»[7]

---

[1] Mustədrəkul-Vəsail, c.17, səh.89, hədis20823

[2] Kənzul-Ummal,hədis 30366

[3] Kənzul-Ummal,hədis 30343

[4] Seyid Rəzi deyir: "Bu kəlam Peyğəmbərdən (s) də rəvayət olunmuşdur. Sözlərin bir-birinə oxşaması təəccüblü deyil. Çünki, hər ikisi eynri çeşmədən qaynaqlanır və bir mənbədən çıxır.»,

[5] Nəhcül-Bəlağə, hikmət 240.

[6] Vəsailuş-Şiə, c.17, səh.311, hədis 1

[7] Vəsailuş-Şiə, c.17, səh.309, hədis 4

**303**

# Qəzəb

***1411. Qəzəb bütün pisliklərin açarıdır.***

4797. Allahın Peyğəmbəri (s): «Qəzəb şeytan alovunun bir hissəsidir.»[1]

4798. İmam Əli (ə): «Qəzəb və sərtlik dəliliyin bir növüdür. Çünki bunlara sahib olan peşmançılıq çəkər. Əgər peşman olmasa, dəliliyi qətidir.»[2]

4799. İmam Sadiq (ə): «Qəzəb hər bir pisliyin açarıdır.»[3]

4800. İmam Sadiq (ə): «Qəzəb müdrik şəxsin qəlbini məhv edəndir.»[4]

***1412. Qəzəbə hakim olmağa həvəsləndirmək.***

4801. Allahın Peyğəmbəri (s): «Sizə ən güclünüzdən xəbər verimmi? Bu, qəzəbli olanda özünü saxlayanınızdır.»[5]

4802. İmam Baqir (ə): «Heç bir güc, qəzəbin qarşısını almaq qədər deyil.»[6]

4803. İmam Sadiq (ə): «Kim öz qəzəbinə sahib deyilsə, ağlına da sahib deyil.»[7]

***1413. Qəzəbi söndürməyə həvəslənmək.***

**Quran:**

«Onlar qəzəblərini udar, insanların günahlarından keçərlər.»[8]

«O kəslər ki, qəzəbləndikləri zaman bağışlayırlar.»[9]

**Hədis:**

---

[1] Biharul-Ənvar, c.73, səh.265 , hədis15
[2] Nəhcül-Bəlağə, hikmət255.
[3] əl-Kafi, c. 2, səh. 303, hədis 3.
[4] əl-Kafi, c. 2, səh. 305, hədis 13
[5] Nəsrud-Durər, c.1 , səh.183
[6] Tuhəful-Uqul, səh.286
[7] əl-Kafi, c.2, səh. 305, hədis 13
[8] Ali-İmran, ayə 134
[9] Şura, ayə 37

4804. Allahın Peyğəmbəri (s): «Həqiqətən, cəhənnəmin qapısı var ki, oradan yalnız Allaha qarşı günahlarla öz qəzəbini sakitləşdirən girər.»[1]

4805. Allahın Peyğəmbəri (s): «Kim qəzəbinin qarşısını almasa, Allah da ona qarşı əzabının qarşısını almaz.»[2]

4806. İmam Baqir (ə): «Kim qəzəbini soyuda bilsə və onu udsa, Allah qiyamət günündə onun qəlbini iman və rahatlıqla aşırıb daşırar.»[3]

4807. İmam Sadiq (ə): «Qəzəb, ona qarşı dözümü olan üçün nə qədər gözəl qurtumdur.»[4]

***1413. Qəzəbin dərmanı.***

4808. Allahın Peyğəmbəri (s): «Ey Əli! Qəzəblənmə və qəzəblənsən də otur və Allahın bəndələr üzərində qüdrəti və onlara etdiyi güzəşt barədə düşün. Sənə «Allahdan qorx» deyilsə, qəzəbini kənara qoy, öz güzəşt və səbrinə müraciət et.»[5]

4809. İmam Əli (ə): «Qəzəbinizə susmaqla, nəfsin istəklərinə ağılla dərman edin.»[6]

***1415. Qəzəb, Allaha sitayişin yolunda.***

4810. Musa (ə): «Pərvərdigara! Kimlərdir, Sənin sayəndən qeyri bir kölgənin olmadığı bir vaxtda ərşində olan o bəndələrin?» Allah ona vəhy buyurdu: «Mənim haramlarım halal sayılanda yaralı pələng kimi qəzəblənən kimsələr.»[7]

4811. İmam Əli (ə): «Allahın Peyğəmbəri (s) dünyaya görə qəzəblənmirdi. Ancaq haqqa görə qəzəblənsəydi, heç kəs onu tanımazdı və haqqın intiqamını alana qədər heç nə Onun qəzəbinin qarşısını ala bilməzdi.»[8]

4812. İmam Əli (ə): «Kim yaramaz adamlarla düşmən olub Allaha xatir qəzəblənsə, Allah ondan ötrü qəzəblənər və qiyaəmət günündə onu şad edər.»[9]

---

[1] Tənbihul-Xəvatir, c.1, səh. 121
[2] Biharul-Ənvar, c. 73, səh. 263, hədis 7
[3] əl-Kafi, c.2, səh.110, hədis 7
[4] əl-Kafi, c.2, səh.109, hədis 2
[5] Tuhəful-Uqul , səh.14
[6] Ğurərul-Hikəm, hədis 5155
[7] Vəsailuş-Şiə, c.11, səh.416, hədis 3
[8] əl-Muhəccətul-Beyza, c.5, səh.303.
[9] Nəhcül-Bəlağə, hikmət 31.

**304**

# Allahdan günahlarının bağışlanmasını diləmək

***1416. Cünahların bağışlanmasını diləmək.***

**Quran:**

«Bir günah iş gördükləri, yaxud zülm etdikləri zaman Allahı yada salıb günahlarının bağışlanmasını diləyənlər....»[1]

«Hər kəs pis iş gördükdən və ya özünə zülm etdikdən sonra Allahdan bağışlanmağını dilərsə, Allahın bağışlayan və mərhəmətli olduğunu görər»[2].

**Hədis:**

4813. Loğman (ə) ***(****Öz övladına tövsiyyəsi):*–«Övladım! Məbada, xoruz səndən zirək olsun və sən yuxuda olarkən səhər erkən oyansın və bağışlanmasını diləsin!»[3]

4814. Allahın Peyğəmbəri (s): «Ən yaxşı dua günahlarının bağışlanmasını diləməkdir.»[4]

4815. Allahın Peyğəmbəri (s): «Ən yaxşı ibadət istiğfar (günahlarının bağışlanmasını istəmək) etməkdir.»[5]

4816. Allahın Peyğəmbəri (s): «Çox istiğfar edin. Çünki Allah istiğfarı sizə yalnız ona görə öyrətmişdir ki, günahlarınızı bağışlasın.»[6]

4817. İmam Əli (ə): «Günahlarının bağışlanmasını istəyən və bununla belə naümid olana heyrət edirəm.»[7]

4818. İmam Əli (ə): «Günahlarının bağışlanmasını diləməklə özünüzü ətirləndirin ki, günahlarınızın iyi sizi rüsvay etməsin.»[1]

---

[1] Ali-İmran, ayə 135
[2] Nisa, ayə 110
[3] Mustədrəkul-Vəsail, c. 12, səh.146, hədis 13744.
[4] əl-Kafi, c. 2, səh.504, hədis 1
[5] Nurus-Səqələyn, c. 5, səh. 38, hədis 44.
[6] Tənbihul-Xəvatir, c.1, səh.5
[7] Nəhcül-Bəlağə, hikmət 87

4819. İmam Əli (ə): «Hər kəsə günahlarının bağışlanmasını diləmək (neməti) verilibsə, əfvdən məhrum qalmaz.»[2]

4820. İmam Sadiq (ə): «Bəndə günah iş görəndə, səhər tezdən gecəyə qədər ona möhlət veririk. Əgər günahlarının bağışlanmasını diləsə, o günah yazılmır.»[3]

***1417. Əfv diləmək və ruzinin artması.***

**Quran:**

«Və Rəbbinizdən bağışlanmağınızı diləyəsiniz. Sonra Ona tövbə edin ki, müəyyən edilmiş müddətdə sizə yaxşı ruzi versin və öz fəzlindən hər bir əməl sahibinə mükafatını ehsan buyursun.»[4]

«Ey camaatım! Rəbbinizdən bağışlanmanızı diləyin. Sonra Ona tövbə edin ki, göydən sizə bol yağış göndərsin, qüvvətinizin üstünə bir qüvvə də artırsın. Günahkarlar kimi üz döndərməyin.»[5]

**Hədis:**

4821. Allahın Peyğəmbəri (s): «Hər kim çox bağışlamaq dilərsə, Allah onun hər qəmi üçün bir fərəc, çətinliyi üçün bir çıxış yolu qoyar.»[6]

4822. İmam Əli (ə): «Tövbə etmək ruzini artırar.»[7]

4823. İmam Əli (ə): «Tövbə edin ki, ruzi verilsin.»[8]

***1418. Allaha yaxın insanların bağışlanmaq diləmələri.***

4824. Allahın Peyğəmbəri (s): «Bəzən qəlbimi qubar bürüyür və mən bir gündə yetmiş dəfə Allah dərgahından bağışlanmağımı diləyirəm.»[9]

***1419. Günah işləri davam etdirməklə əfv diləməkdən çəkinmək.***

4825. İmam Əli (ə): «Günah işləri davam etdirə-etdirə əfv diləməyin özü, yeni günahdır.»[10]

---

[1] Biharul-Ənvar, c. 93, səh.278, hədis 7
[2] Nəhcül-Bəlağə, hikmət 135
[3] əl-Kafi, c.2, səh.437, hədis 1
[4] «Hud» surəsi, ayə 3.
[5] «Hud» surəsi, ayə 52.
[6] Nurus-Səqəleyn, c.5, səh.357, hədis 45
[7] Biharul-Ənvar, c.93, səh.277, , hədis 4
[8] Mostədəkul-Vəsael, c.12, səh.122, hədis1386
[9] Mostədəkul-Vəsael, c.12, səh.122, hədis5987
[10] Tuhəful-Uqul, səh.223

4826. İmam Rza (ə): «Kim Allahdan bağışlamaq dilərsə və yenə də günah iş görərsə, Allahına rişxənd edən kimidir.»[1]

4827. İmam Rza (ə): «Kim dili ilə bağışlanmaq diləyib ürəyində (öz günahından) peşman olmasa, özünə rişxənd etmişdir.»[2]

---

[1] əl-Kafi, c.2, səh.504, , hədis 3

[2] Biharul-Ənvar, c.78, səh.356, hədis 11

305

# Qəflət (xəbərsizlik)

***1420.Qəflətdən çəkinmək.***

4828. İmam Əli(ə): «Qəflət azğınlıqdır.»[1]

4829. İmam Əli (ə): «Əfsuslar olsun hər bir qafilə ki, ömrü əleyhinə hüccət olar və günləri onu bədbəxtliyə sürükləyər.»[2]

4830. İmam Əli (ə): «Ey eşidən! Öz məstliyindən ayıl, qəflət yuxusundan oyan və tələskənliyini azalt.»[3]

4831. İmam Əli (ə): «Digərlərinin sizin işlərinizdən qafil olmadığı insanlar! Ey (Allahdan və onun əmrlərindən) üz döndərmiş və nəyi (canı, malı və övladı) varsa əlindən alınacaq adamlar! Nə olub ki, Allaha arxa çevirdiyinizi və ondan geyrisinə üz tutduğunuzu görürəm.»[4]

4832.İmam Əli (ə): «Parçanı geymək üçün toxuyan, ancaq ona kəfəni olan, yaşamaq üçün ev tikən, ancaq qəbri olan qafil nə qədər də çoxdur?»[5]

4833. İmam Sadiq (ə): «Əgər şeytan düşməndirsə, qəflət nəyə görə düşmən olmasın?»[6]

4834. Allahın Peğəmbəri (s): «Ey Əbuzər! Yaxşı iş görə bilməsən də yaxşı iş görə bilməyi niyyət et ki, qafillər zümrəsində yazılmayasan.»[7]

4835. İmam Əli (ə): «Daima Allahı xatırlamaqla qəflət pərdəsi kənara çəkilər.»[8]

4836. İmam Əli (ə): «Kim vaxtı tanıdısa, (axirətə) tədarük görməkdən qafil olmaz.»[9]

---

[1] Ğurərul-Hikəm, hədis 196
[2] Nəhcul Bəlağə, xütbə 64
[3] Nəhcul Bəlağə, xütbə 153
[4] Nəhcul Bəlağə, xütbə 175
[5] Biharul-Ənvar, c.77, səh. 401, hədis 26
[6] Biharul-Ənvar, c.78, səh.190, hədis 1
[7] Məkarimul-Əxlaq, c.2, səh.378, hədis 2661
[8] Ğurərul-Hikəm, hədis 4269
[9] əl-Tovhid, səh. 74, hədis 27

4837. İmam Baqir (ə): «Vacib namazlara əhəmiyyət verən və onu vaxtında qılan hər bir mömin qafillərdən deyil.»[1]

***1422.Qafil şəxsin nişanələri.***

4838. Loğman (ə) (*Övladına nəsihətindən):*–«Oğlum! Hər şeyin onu tanıtdıran, mövcudluğunu təsdiqləyən bir nişanəsi var. Qafilin üç nişanəsi var: səhvi, başının qarışıq olması və unutqanlığı.»[2]

4839. İmam Həsən (ə): «Qəflət odur ki, (namaz qılmaq üçün) məscidi tərk edəsən və pozğun adama tabe olasan.»[3]

***1423.Qəflətin nəticələri.***

4840. İmam Əli (ə): «Qafilliyi uzun çəkənin ölümü sürətlənər.»[4]

4841. İmam Əli(ə): «Qəflət kimə üstün gələrsə, onun qəlbi ölər.»[5]

4842. İmam Əli(ə): «Qəflətin davam etməsi bəsirət gözünü kor qoyar.»[6]

4843. İmam Əli(ə): «Qəflətdən və möhlətə (ömürə) aldanmaqdan çəkin. Çünki qəflət işləri korlayır.»[7]

***1424 . Özünü qafilliyə və görməzliyə vurmağın təqdiri.***

4844. İmam Əli(ə): «Ağıllı insanın yarısını dözüm və səbr, digər yarısını isə göz yummaq təşkil edir.»[8]

4845. İmam Əli(ə): «Comərd insanın şəxsi rəftarlarının ən yaxşısı bildiklərindən (camaatın səhvləri və pislikləri) bəzilərini görməməzliyə vurmasıdır.»[9]

4846. İmam Sadiq (ə): «Həqiqiətən, ictimai həyat və ünsiyyətin vəziyyəti ağzına qədər dolu bir qaba bənzər ki, onun üçdə ikisi diqqət və ayıqlıq, üçdə biri isə göz yummaqdır.»[10]

---

[1] əl-Kafi, c. 3, səh. 270, hədis 14
[2] əl-Xisal, səh. 121, hədis 113
[3] Biharul-Ənvar, c. 78, səh. 115, hədis 10
[4] Ğurərul-Hikəm, hədis 8318.
[5] Ğurərul-Hikəm, hədis 8430.
[6] Ğurərul-Hikəm, hədis 5146.
[7] Ğurərul-Hikəm, hədis 2717.
[8] Ğurərul-Hikəm, hədis 2378.
[9] Nəhcül Bəlağə, hikmət 222
[10] Tuhəful-Uqul, səh.359

**306**

# Kin və xəyanət

**Quran:**

«Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə, paxıllığa yer verme.»[1]

«Biz onların ürəklərindən kin-küdurəti çıxarıb atdıq.»[2]

**Hədis:**

4847. İsa (ə): «Ey dünyanın bəndələri! (Dərvişlər kimi) Başlarınızı qırxır, köynəklərinizi qısaldır, başlarınızı aşağı dikir, kini qəlblərinizdən qoparıb atmırsınız.»[3]

4848. Allahın Peyğəmbəri (s): «Mənim ümmətim bir-birinə kin bəsləməsə, heç vaxt onların arasında düşmənçilik baş qaldıra bilməz.»[4]

4849. İmam Əli(ə): «Kin pis bir toxumdur.»[5]

4850. İmam Əli (ə): «Kin yaxşı işləri aradan götürər.»[6]

4851. İmam Əli(ə): «Kinli qəlblərin ən pisi paxıl və kinli insanın ürəyidir.»[7]

***1426.Ürəyin barələrində xəyanət və nadürüstlük etməli olmadığı şeylər.***

4852. Allahın Peyğəmbəri (s): «Üç şey var ki, müsəlman insanın ürəyi onlara qarşı xəyanət və nadürüstlüyü rəva görməz: əməlini Allah üçün saflaşdırmaq (ixlaslı etmək), xeyirxahlıq, hakimlərə nəsihət vermək və

---

[1] Həşr, ayə 10
[2] Hicr, ayə 47
[3] Biharul-Ənvar, c. 14, səh. 305, hədis 17
[4] Kənzul-Ummal, hədis 11044.
[5] Ğurərul-Hikəm, hədis 574.
[6] Ğurərul-Hikəm, hədis 642
[7] Ğurərul-Hikəm, hədis 2932

müsəlman cəmiyyəti ilə birlik. Çünki dəvət və risaləti onları hər tərəfdən əhatə etmişdir.»[1]

***1427.Qənimətə xəyanət.***

**Quran:**

«Heç bir peyğəmbərə (qənimətlərə) xəyanət etmək yaraşmaz. Kim nəyə xəyanət edibsə, qiyamət günündə onu özü ilə gətirər.»[2]

**Hədis:**

4853. İbn Abbas: «Heç bir peyğəmbərə yaraşmaz ki...» ayəsi Bədr döyüşü günündə itmiş qırmızı rəngli örtük barədədir. Bu zaman bəziləri demişdilər: «Bəlkə peyğəmbər (s) onu götürmüş olar.» Sonra Allah-taala bu ayəni nazil etdi: «Heç bir peyğəmbərə…»[3]

4854. Ömər: «Xeybər döyüşü günündə Peyğəmbərin (s) səhabələrindən bir dəstə gəlib dedi: «Filankəs şəhid oldu, behmankəs şəhid oldu, filan şəxs şəhid oldu və s.» Nəhayət bir nəfərin adına çatanda dedilər ki, o da şəhid olmuşdur. Bu zaman peyğəmbər (s) buyurdu: «Yox, mən onu qənimətlərdən bir əbaya görə odda yanan gördüm.»[4]

4855. İmam Sadiq (ə): «Ğulul[5] imamdan oğurlanan hər bir şey və (eləcə də) şübhəli olduğu halda yetimin malını və bir də şübhəli olduğu halda haramı yeməkdir.»[6]

---

[1] Kənzul-Ummal, hədis 44272

[2] Ali-İmran, ayə 161.

[3] əd-Durrul Mənsur, c 2, səh. 361.

[4] ət-Tərğib vət-Tərhib, c. 2, səh. 307, hədis 4.

[5] «Ğulul» ərəb sözüdür və mənası qənimətlər bölünməmiş ondan oğurlamaq deməkdir.

[6] Təfsirul Əyyaşi , c.1, səh. 205, hədis 148

**307**

# Ğuluv

***1428. Dində ifrata varmaqdan çəkinmək.***

**Quran:**

«Ey Kitab əhli! Öz dininizdə həddi aşmayın! Allah barəsində yalnız haqqı deyin. Həqiqətən, Məryəm oğlu İsa, ancaq Allahın Peyğəmbəri, Onun tərəfindən bir söz idi...» [1]

**Hədis:**

4856. Allahın Peyğəmbəri (s): «Məni öz haqqımdan (və həddimdən) yuxarı qaldırmayın. Allah-taala məni peyğəmbər etməzdən əvvəl (özünə) bəndə yaratmışdır.» [2]

4857. Allahın Peyğəmbəri (s): «Mənim şəfaətimin onlara çatmayacağı iki dəstə var: dikbaş, zülmkar padşah və dində həddini aşaraq dindən çıxan və bu əməlinə görə tövbə etməyib ondan əl çəkməyən.»[3]

4858. Allahın Peyğəmbəri (s): «Ey Əli! Sənin bu ümmət arasında əhvalatın bir dəstənin onu sevməkdə həddini aşdıqları, digər dəstənin isə ona düşmən kəsilərkən düşmənçilikdə ifrata vardıqları Məryəm oğlu İsanın əhvalatına bənzəyir.» Sonra bu vəhy nazil oldu: «Məryəm oğlu İsanın məsəli çəkilincə, sənin qövmün sevincdən qəhqəhə çəkib güldü.»[4],[5]

4859. İmam Əli (ə): «Mənimlə əlaqədar iki nəfər məhvə uğradı: ifrata varan dost və kinli düşmən.»[6]

4860. İmam Əli (ə): «İlahi! Məryəm oğlu İsa xaçpərəstlərdən bezdiyi kimi mən də öz haqqımda ifrata varanlardan bezmişəm. İlahi! Onları həmişəlik tənha və köməksiz qoy və onların heç birinə kömək yetirmə.»[7]

---

[1] Nisa, ayə 171
[2] Nəvadirul-Rəvəndi, səh.16.cı səhifə
[3] Qurbul-İsnad, səh.64, hədis204
[4] Zuxruf, ayə 57.
[5] Biharul-Ənvar, c.25, səh. 284, hədis 34.
[6] Nəhcül-Bəlağə, hikmət469.
[7] Biharül Ənvar, c.25, səh. 284, hədis 32

4861. İmam Əli (ə): «Bizim haqqımızda həddinizi aşmaqdan çəkinin və bizləri (Allah tərəfindən) böyüdülmüş bəndələrdən sayın. Belə olduqda, bizim fəzilətimiz barədə nə istəsəniz deyin.»[1]

4862. İmam Sadiq (ə): «Ayıq olun ki, həddini aşanlar gənclərinizi korlamasın. Çünki həddini aşanlar Allahın yaratdıqlarının ən pisidirlər. Allahın əzəmətini azaldır və Onun bəndələri üçün tanrılıq iddiası edirlər. Allaha and olsun ki, həddini aşanlar xaçpərəst, yəhudi, məcuslardan və müşriklərdən pisdirlər.» Həzrət sonra buyurdu: «Həddini aşan və ifrata varan bizim yanımıza qayıdacaq, ancaq biz onları qəbul etməyəcəyik. Öz hədlərindən aşağı olanlar bizə qoşulacaq və biz onları qəbul edəcəyik.» Ərz olundu: «Səbəbi nədir, yabnə Rəsulullah?» Buyurdu: «Çünki həddini aşan kimsə namazı, zəkatı, orucu və həcci tərk etməyə öyrəşib və heç vaxt öz adətlərindən əl çəkməyə, Allahın itaətinə üz tutmağa qadir olmayacaqdır. Ancaq həddindən az olanlar həqiqəti dərk etdikdə ibadət edəcək və Allaha tabe olacaq.»[2]

4863. İmam Sadiq (ə): «Bir dəstə Əmirəl-möminin (ə) yanına gəlib ərz etdi: «Salam olsun sənə, ey bizim tanrımız.» Həzrət onlardan tövbə etmələrini (bu əqidələrindən əl çəkmələrini) istədi, ancaq onlar tövbə etmədilər. Sonra İmam çala qazıb orada tonqal qaladı və onun yanında başqa bir dərin çala qazıb onların arasını birləşdirdi. Həmin dəstə tövbə etmədikdə, Həzrət onları həmin dərin çalaya salıb, onlar ölənə qədər o biri çalaya od vurdu (ki, odun tüstüsü boğulsunlar.)»[3]

4864. Əbubəkr: «İmam Sadiqə (ə) ərz etdim: «Onlar (Əhli-Beytin əleyhdarları) bəzi sözlər danışırlar.» Buyurdu: «Nə deyirlər?» Ərz etdim: «Deyirlər ki, İmam yağışın damcılarının, ulduzların, ağaclardakı yarpaqların sayını, dənizdəkilərin çəkisini və yer üzündəki torpaqların sahəsini bilir.» Həzrət əlini göyə qaldırıb buyurdu: «Sübhanallah! Allaha and olsun ki, bunları Allahdan başqa heç kəs bilmir.»[4]

4865. İmam Rza (ə): «Ğuluv edənlər kafirdirlər. Təfvizə etiqadı olanlar isə müşrikdirlər.»[5]

4866. İmam Rza (ə): «Kim Əmirəl-möminini Allaha bəndəlik sərhədlərindən yüksəklərə qaldırsa, Allahın qəzəbinə tuş gələnlərdən və azğınlardan olar.»[1]

---

[1] əl-Xisal, səh. 614, hikmət 10
[2] Əmali-Tusi, səh. 650, hədis 1349
[3] əl-Kafi, c.7, səh. 259, hədis 18
[4] Biharul-Ənvar, c.25, səh. 294, hədis 52
[5] Biharul-Ənvar, c.25, səh. 273, hədis 19

[1] Biharul-Ənvar, c.25, səh. 274, hədis 20

**308**

# Qüdrətli olmaq

***1429. Qüdrətli olmaq və itaətsizlik.***

**Quran:**

«Xeyr, insan azğınlıq edər. Özünün dövlətli olduğunu gördüyü üçün.»[1]

4867. Allahın Peyğəmbəri (s): «Şeytan dedi: «Qüdrətli insanın mənimlə döyüşdə nicatı yoxdur və onu bu üç şeydən birinə giriftar edərəm: ya malı, sərvəti onun nəzərində böyüdərəm ki, nəticədə özünün vergi öhdəliklərini ödəməkdən imtina edər, ya onun istifadə yollarını onunçun asanlaşdıraram ki, nəticədə onları nahaq yerə xərcləyər, ya da malı, sərvəti ona sevdirərəm ki, nəticədə onu rəva görülməyən vasitələrlə əldə edər.»[2]

4868. İmam Əli (ə): «İki sifət insan vücüdunun ən əsrarəngiz hallarındandır. Var-dövlətə çatsa, qüdrəti onu düşmənə çevirər və əgər ona müsibət üz versə, gücsüzlüyü onu rüsvay edər.»[3]

4869. İmam Sadiq (ə): «Bir varlı kişi təzə və təmiz paltarlarından geyinib Allahın Peyğəmbərinin (s) yanına gəldi və Həzrətin yanında oturdu. Ondan sonra çirkli və nimdaş paltar geymiş bir dərviş gəlib həmin kişinin yanında əyləşdi. İmkanlı kişi öz paltarını onun dizinin altından çəkərək yığışdırdı. Allahın Peyğəmbəri (s) ona buyurdu: «Qorxdun ki, onun kasıblığından nəsə sənə çatar?» Ərz etdi: «Yox.» Buyurdu: «Qorxdun ki, var-dövlətindən nəsə ona çatar?» Ərz etdi: «Yox.» Buyurdu: «Qorxdun ki, paltarlarından nəsə ona çatar?» Ərz etdi: «Yox.» Buyurdu: «Bəs niyə belə etdin?» Ərz etdi: «Ey Allahın Peyğəmbəri! Mənim bir həmdəmim (şeytan) var və hər yaramaz əməli mənə gözəl, hər gözəl əməli nəzərimdə çirkin iş kimi göstərir. İndi malımın yarısını bu kişiyə bağışladım.» Allahın Peyğəmbəri (s) həmin kasıb kişiyə buyurdu: «Sən qəbul edirsən?» Ərz etdi:

---

[1] Ələq, ayə 6 və7

[2] Kənzul-Ummal, hədis16677

[3] Nəhcül Bəlağə, hikmət108.

«Yox» Varlı ona dedi:  «Nəyə görə?» Dedi: «Qorxuram sənin üzləşdiyin hallar mənə də yol tapsın.»[1]

***1430.İmkanlılıq və günahlardan çəkinmək.***

**Quran:**

«Məgər səni yoxsul gördükdə dövlətli etmədimi?!»[2]

**Hədis:**

4870. Allahın Peyğəmbəri (s): «İmkanlı olmaq Allahdan çəkinmək üçün necə də gözəl dostdur.»[3]

4871. İmam Sadiq (ə): «Allahdan dünyanız üçün imkanlılıq və sağlamlıq, axirətiniz üçünsə bağışlanmaq və cənnəti diləyin.» [4]

***1431. Qüdrətli olmağın mənası.***

4872. İmam Əli (ə): «Heç bir xəzinə qənaət qədər zəngin deyil.»[5]

4873. İmam Əli (ə): «Heç bir xəzinə ağıl qədər deyil.»[6]

4874. İmam Sadiq (ə): «Camaatdan ümidini üz. Çünki bunun özü elə qüdrətli olmaqdır.»[7]

4875. İmam Hadi (ə): «Qüdrətli olmaq odur ki, arzun az olsun və sənə kifayət edənə şad olasan. Yoxsulluq isə nəfsin doymaması və böyük ümidsizlikdir.»[8]

***1432. Ən böyük qüdrət.***

4876. Allahın Peyğəmbəri (s): «Camaatın ən qüdrətlisi olmaq istəyən, öz əlində olandan Allahın əlində olana daha əmin olmalıdır.»[9]

4877. Allahın Peyğəmbəri (s): «Ehtiyac əlinizi camaata tərəf uzatmayın, hətta misvak suyu üçün olmuş olsa belə.»[10]

4878. Allahın Peyğəmbəri (s): «Ən yaxşı imkan nəfsin ehtiyacsız olmasıdır.»[1]

---

[1] əl-Kafi, c.2, səh. 261, hədis 11.
[2] Zuha, ayə8
[3] Mustədrəkul-Vəsael, c. 13, səh. 15, hədis 14598
[4] əl-Kafi, c.5 , səh.71, hədis 4
[5] Nəhcül-Bəlağə, hikmət371.
[6] Nəhcül-Bəlağə, hikmət54
[7] Əmali-Mufid, səh.183 hədis 6
[8] əd-Durrətul-Bahirə, səh.41
[9] əl-Kafi, c.2, səh.139, hədis 8
[10] Kənzul-Ummal, hədis7156

4879. İmam Əli (ə): «Kim Allah tərəfindən qüdrətli olarsa, camaat ona möhtac olar.»[2]

4880. İmam Əli (ə): «Ən böyük imkanlılıq camaatın əlində olanlara göz dikməməkdir.»[3]

4881. İmam Əli (ə): «Ən böyük imkanlılıq ağıldır, ən böyük kasıblıq isə ağılsızlıq.»[4]

4882. İmam Baqir və ya İmam Sadiq (ə): «Kim Allahın verdiyi ruziyə qane olarsa, insanların ən imkanlısı olar.»[5]

4883. İmam Sadiq (ə): «Bu üç şey kimin ruzisi olarsa onu üç şeyə çatdırar və bu ən böyük imkandır: Ona əta edilənə qane olmaq, camaatda olanlardan ümidini üzmək və çox istəkləri (artıq istəməyi) tərk etmək.»[6]

4884. İmam Əli (ə): «İmkanlılığın açarı, yəqinlik hasil etməkdir.»[7]

4885. İmam Əli (ə): «Kim özünü çəkindirməzsə, imkanlı (adam) olmaz.»[8]

4886. İmam Əli (ə): «Hər kim öz gününü axirətin qəm-qüssəsi ilə başlayarsa, imkansız olsa da imkanlılaşar, kimsəsiz olsa da tənha qalmaz, eli-obası olmasa da qüdrətli olar.»[9]

4887. İmam Baqir (ə): «Doğrudan da günahlardan çəkinənlər, elə qüdrətli olanlardır. Dünyanın azı onları ehtiyacsız etmişdir və buna görə də xərcləri yüngül və azdır.»[10]

### *1434. İkiqat muzdu olan imkanlı şəxslər.*

**Quran:**

«Sizi Bizə yaxınlaşdıran nə var-dövlətiniz, nə də oğul-uşaqlarınızdır. Yalnız iman gətirib yaxşı işlər görənlərin, əməllərinə görə mükafatları ikiqat artıq olacaq və onlar otaqlarında əmin-amanlıq içində yaşayacaqlar.»[11]

**Hədis:**

---

[1] Əmali-Səduq, səh.394, hədis 1
[2] Kəşful-Ğummə, c.3, səh.137
[3] Nəhcül-Bəlağə, hikmət 342.
[4] Nəhcül-Bəlağə, hikmət38.
[5] əl-Kafi, c.2, səh.139, hədis 9
[6] Tuhəful-Uqul, səh.318
[7] Biharul-Ənvar, c.78, səh.9, hədis 65
[8] Biharul-Ənvar, c.78, səh. 8, hədis 64
[9] Əmali-Tusi, səh.580, hədis 1198
[10] Tuhəful-Uqul, səh. 287
[11] Səba, ayə37

4888. İmam Sadiq (ə) *(Bir kişi, onun yanında imkanlı şəxslərdən söz açıb onların əleyhinə danışırdı):*–«Sus! İmkanlı şəxs öz qohumlarının qeydinə qalsa və qardaşlarına yaxşılıq etsə, Allah-taala onun muzdunu ikiqat verər. Çünki Allah-taala buyurur: «Sizi Bizə yaxınlaşdıran nə var-dövlətiniz, nə də oğul-uşaqlarınızdır. Yalnız iman gətirib yaxşı işlər görənlərin, əməllərinə görə mükafatları ikiqat artıq olacaq və onlar otaqlarında əmin-amanlıq içində yaşayacaqlar.»[1]

### *1435. Kasıbların aclığına görə varlıların məsuliyyəti.*

4889. İmam Əli (ə): «Allah-taala kasıbların yeməyini varlıların mallarında qərar vermişdir. Deməli, varlı adam onun haqqından bəhrələnməsə heç bir kasıb ac qalmaz. Allah bunun hesabını soracaqdır.»[2]

4890. Allahın Peyğəmbəri: «Həqiqətən, Allah varlıların var-dövlətində kasıblara (ehtiyaclılarına) kifayət edən əndazədə haqqı vacib buyurmuşdur. Əgər kasıblar ac, çılpaq və incidilmiş olsalar, bunun səbəbi imkanlıların onların haqqını verməməsidir. Allah-taalanın qiyamət günündə varlılardan hesab-kitab sormağa və bu işə görə onlara əzab verməyə haqqı vardır.»[3]

4891. Allahın Peyğəmbəri: «Möhtac insanı öz haqqından məhrum edən varlının törətdiyi günahdan böyük günah yoxdur.»[4]

---

[1] Təvsiri Əli ibn İbrahim, c.2, səh.203
[2] Nəhcül-Bəlağə, hikmət328.
[3] Kənzul-Ummal, hədis16840
[4] Ğurərul-Hikəm, hədis 10738

309

# Ğina (eyş-işrət məclislərinə xas tərzdə oxumaq)

***1436. Ğina.***

**Quran:**

«Bütlərin murdarlığından uzaq durun və batil sözlərdən çəkinin.»[1]

**Hədis:**

4892. Allahın Peyğəmbəri (s): «Allah məni dünya əhlinə rəhmət olaraq göndərdi və mən simli alətləri, neyləri və cahiliyyət işlərini məhv (qadağan) edəcəyəm.»[2]

4893. Allahın Peyğəmbəri: «İki səs var ki, bunlar dünya və axirətdə lənətlənmişlər: xoşhal olduqda çalınan neyin və müsibət vaxtı vay-şivənin səsi.»[3]

4894. İmam Sadiq (ə): «Ğina elə günahlardandır ki, Allah onunçün alovu vəd etmişdir. Allah-taala bu barədə buyurub: «Camaatın elələri var ki, boş sözləri (heç bir) elmsizi (camaatı) Allahın yolundan azdırmaq və Allah yolunu rişxənd etmək üçün satın alarlar. Onlara xaredici əzab veriləcəkdir.»[4]

***1437. Ğinanın mirası.***

4895. Allahın Peyğəmbəri (s): «Ğina ziyanın tilsimidir.»[5]

4896. Allahın Peyğəmbəri (s): «Üç şey qəlbi sərtləşdirər: eyş-işrət məclislərinə xas musiqini eşitmək, ov və sultan sarayına gedib-gəlmək.»[6]

4897. İmam Sadiq (ə): «Ğina özündən nifaq qoyub gedər.»[7]

---

[1] Həcc, ayə 30
[2] Biharul-Ənvar, c.79, səh.250, hədis 2
[3] Kənzul-Ummal, hədis40661
[4] Mən la Yəhzuruhul Fəqih, c.4, səh.58, hədis 5092
[5] Biharul-Ənvar, c.79, səh.247, hədis26
[6] Biharul Ənvar, c.79, səh.252, hədis 6
[7] Biharul Ənvar, c.79, səh.241, hədis 7

# 310

# Qeyb

***1438. Peyğəmbər, Allahın təlimi ilə qeybdən xəbər verdi.***

4898. İmam Sadiq (ə): «Təbuk döyüşündə Allahın Peyğəmbərinin (s) dəvəsi itir. Münafiqlər deyirlər: «Bizə qeybdən danışır, ancaq dəvəsinin yerini bilmir.» Cəbrayıl Peyğəmbərə (ə) nazil olub münafiqlərin dediklərini Həzrətə çatdırdı və dedi: «Dəvən filan dərədədir və cilovu iri bir ağaca ilişib.» Sonra Allahın Peyğəmbəri (s) camaatı namaza çağırdı. Camaat yığışdı. Həzrət buyurdu: «Ey camaat! Mənim dəvəm filan dərədədir.» Camaat həmin dərəyə doğru tələsdi və dəvəni tapdılar.»[1]

**1439. İmam və qeyb elmi.**

4899. «Nəhcül-Bəlağə»: «Əmirəl-mömininin (ə) (Kəlb qəbiləsindən olan) səhabələrindən biri Həzrətə ərz etdi: «Ya Əmirəl-möminin! Qeyb elmi sənə verilmişdir.» Həzrət güldü və buyurdu: «Ey Kəlb qəbiləsindən olan kişi! Bu qeyb elmi deyil, sahibindən elmi öyrənməyin təsiridir. Qeyb elmi qiyamət gününü bilmək elmidir. Allah-taala onları sayaraq buyurmuşdur: «Həqiqətən, qeyb elmi Allahın yanındadır. Yerə yağış göndərər və qadınların uşaqlıqlarında olanı bilər.» [2]

4900. İmam Sadiq (ə) *(«İmam qeybi bilirmi?» sualına cavabından):–* «Yox. Ancaq, nəyisə bilmək istəyəndə, Allah həmin şeyi ona öyrədir.»[3]

4901. İmam Kazim (ə) *(«Siz qeybi bilirsinizmi?» deyə soruşan bir iranlı kişiyə verdiyi cavabdan):–*«(İlahi) Elm bizim üçün açıq olduqda bilirik, üzümüzə bağlandıqda isə bilmirik.» Sonra buyurdu: «Elm, izzət və cəlallı Allahın sirridir və onu Cəbrayılla bölüşmüşdür. Cəbrayıl onu Məhəmmədlə (s), Məhəmməd isə istədiyi kimsə ilə bölüşdü.»[4]

---

[1] Qəsəsul-Ənbiya, səh.308, hədis 408
[2] Nəhcül-Bəlağə, hikmət128.
[3] əl-Kafi, c.1, səh.257, hədis4
[4] əl-Kafi, c.1, səh.256, hədis 1

## 311

# Qeybət

***1440. Qeybətdən çəkindirmək.***

**Quran:**

«Bir-birinizin qeybətini qırmayın! Sizdən kimsə ölmüş qardaşının ətini yeməyə razı olarmı? Bu onda ikrah oyadar. Allahdan qorxun. Allah tövbələri qəbul edən və mehribandır.»[1]

**Hədis:**

4902. Allahın Peyğəmbəri (s): «Merac gecəsi öz üzlərini dırnaqları ilə cıran bir dəstə camaat gördüm. Soruşdum: «Ey Cəbrayıl! Bunlar kimlərdir?» Dedi: «Bunlar camaatın qeybətini edən və abırlarını tökənlərdir.»[2]

4903. Allahın Peyğəmbəri (s): «Qeybət etmək zinadan daha pisdir.» Ərz etdilər: «Necə?» Buyurdu: «Kişi zina edir, sonra tövbə edir və Allah onun tövbəsini qəbul edir. Ancaq qeybət edən, qeybətini etdiyi şəxs tərəfindən bağışlanmayana qədər bağışlanmaz.»[3]

4904. İmam Əli (ə): «Qeybət etmək aciz insanın işidir.»[4]

4905. İmam Hüseyn (ə) *(Onun yanında bir kişinin qeybətini edən kimsəyə):* «Ey kişi! Qeybətdən əl çək. Çünki qeybət cəhənnəm itlərinin yalıdır.»[5]

4906. İmam Sadiq (ə): «Qeybət etmə ki, səndən qeybət olunar. Qardaşın üçün quyu qazma ki, özün ona düşərsən. Çünki hansı əllə versən, həmin əllə də geri alarsan.»[6]

4907. İmam Sadiq (ə): «Bir kişi Əli ibn Hüseynə (ə) ərz etdi: «Filankəs sizin haqda deyir ki, yolunu azmış və bidətçi birisiniz.» Əli ibn Hüseyn ona

---

[1] Hucərat, ayə12
[2] Tənbihul-Xəvatir, c.1, səh.115
[3] ət-Tərğib vət-Tərhib, c.3, səh.511, hədis 24
[4] Nəhcül-Bəlağə, hikmət461
[5] Tuhəful-Uqul, hədis 245
[6] Biharul-Ənvar, c.75, səh. 249, hədis 16

buyurdu: «Həmin kişi ilə yoldaşlığın haqqını gözləməmisən. Çünki onun sözünü bizə çatdırmısan. Bizim haqqımızı da gözləməmisən. Çünki qardaşımın mənim bilmədiyim sözlərini mənə çatdırdın!....Qeybət etməkdən çəkin. Çünki o, cəhənnəm itlərinin yalıdır. Bil ki, kimsə camaatın çox eybini tutursa, bu çox eyb tutmağın özü, eybləri özündə olduğu qədər axtardığını göstərir (onun camaatdan eyb tutması göstərir ki, həmin eyblər onun özündə də vardır).»[1]

***1441. Qeybət və din.***

4908. Allahın Peyğəmbəri (s): «Qeybət etmək, insanın dininə (məhv olmasına) xora xəstəliyinin onun daxilinə təsirindən daha tez təsir göstərər.»[2]

4909. Allahın Peyğəmbəri (s): «Kim müsəlman kişi və ya qadının qeybətini edərsə, Allah, qeybəti edilən onu bağışlamasa, qırx gün qırx gecə onun namaz və orucunu qəbul etməz.» [3]

4910. Allahın Peyğəmbəri (s): «Qiyamət günü bir kişini gətirib Allahın dərgahında saxlayar və əməl dəftərini ona verərlər. Onda özünün xeyir əməllərini görməz və ərz edər: «İlahi, bu mənim əməl dəftərim deyil. Çünki mən onda öz itaətimdən heç nə görmürəm.» Ona deyərlər: «Sənin Allahın nə xəta edər, nə də unudar. Sənin əməlin camaatın qeybətini etdiyinə görə bada getmişdir.» Sonra başqa kişini gətirərək əməl dəftərini verərlər. Orada özünün itaətlərinə aid çoxlu yazıları görər. Ərz edər: «İlahi! Bu mənim əməl dəftərim deyil! Çünki mən bu ibadətləri etməmişəm! Ona deyərlər: «Filankəs sənin qeybətini etdi və mən onun yaxşı əməllərini sənə verdim.»[4]

***1442. Qeybətin mənası.***

4911. Allahın Peyğəmbəri (s) *(Əbuzərə xitabən):* «Ey Əbuzər! Qeybət etməkdən çəkin. Çünki qeybət zinadan daha pisdir...» Əbuzər deyir: «Ərz etdim ki, ey Allahın Peyğəmbəri. Qeybət nədir?» Buyurdu: «Qeybət budur ki, qardaşından onun xoşlamadığı bir söz deyəsən.» Ərz etdim: «Ey Allahın Peyğəmbəri! Özünün yanında onun haqda danışığa necə?» Buyurdu: «Əgər onda olan şeydən danışarsansa qeybətini etmisən, onda olmayandan danışsan, ona böhtan atmısan.»[5]

---

[1] Biharul-Ənvar, c.75, səh. 246, hədis 8
[2] əl-Kafi, c.2, səh. 357, hədis 1
[3] Biharul-Ənvar, c.75, səh. 258, hədis53
[4] Camiul-Əxbar, səh. 412, hədis 1144
[5] Biharul-Ənvar, c.72, səh. 89, hədis 3

4912. Allahın Peyğəmbəri (s): «Qeybət odur ki, qardaşın haqda onun xoşuna gəlməyən şeyi danışasan.»[1]

4913. Əmru ibn Şüəyb *(Atasının babasına istinadən sözlərindən):* «Onlar Peyğəmbərin yanında bir kişidən söz açıb dedilər: «Gərək xörəyini də ağzına qoysunlar,dəvəsinin də yəhərini onun yerinə bağlasınlar.»[2] Peyğəmbər (s) buyurdu: «Qeybətini etdiniz.» Ərz etdilər: «Ey Allahın Peyğəmbəri. Biz elə şeylər (eyblərindən) dedik ki, onda var.» Peyğəmbər (s) buyurdu: (Qeybət üçün elə) Qardaşın haqda onda olanlardan deməyin kifayət edər.»[3]

4914. İmam Kazim (ə): «Kim başqasının dalınca onda olan və camaatın da bildiyi şeyləri danışarsa, qeybətini etməmişdir. Ancaq kimsə başqasının dalınca onda olanvə camaatın bilmədiyini danışarsa,qeybətini etmişdir.»[4]

***1443. Qeybəti rəva olanlar.***

4915. Allahın Peyğəmbəri (s): «Dörd nəfər var ki, onların qeybətini etmək qeybət deyil: öz pozğunluğunu aşkar edən pozğun, yaxşılıq etdikdə təşəkkür bildirməyən, pislik etsən bağışlamayan yalan danışan rəhbər, gülmək və zarafat üçün ana söyüşü söyənlər, müsəlmanlardan ayrılıb mənim ümmətimə eyb tutan və onların üstünə qılınc çəkənlər.»[5]

4916. Allahın Peyğəmbəri (s): «Nə vaxta qədər günah əməl sahibinin adını deməyə çəkinəcəksiniz? Camaat onlardan çəkinənə qədər belələrini rüsvay edin.»[6]

***1444.Qeybətə qulaq asmaq.***

4917. İmam Əli (ə): «Qeybətə qulaq asan, qeybət edən kimidir.»[7]

4918. Allahın Peyğəmbəri (s) *(Bir nəfərin, övladı Həsənin (ə) yanında qeybət etdiyi gördükdə):* «Övladım! Öz qulağını belə şəxslərdən uzaq tut. Çünki o, öz qabında (vücudunda) olan ən murdar və çürük şeylərə baxıb onları sənin qabına boşaltmışdır.»[8]

---

[1] Kənzul-Ummal, hədis 8024

[2] Yəni o qədər aciz və tənbəldir ki, su və çörək üçünköməyə ehtiyacı var. Səfərə çıxması üçün kimsə onu belində aparmalı və ya miniyinə minməlidir.

[3] Ət-Tərğib vət-Tərhib, c.3, səh. 506, hədis 13

[4] əl-Kafi, c.2, səh. 358, hədis 6

[5] Biharul-Ənvar, c.75, səh. 261, hədis 64

[6] Kənzul-Ummal, hədis 8074

[7] Ğurərul-hikəm, hədis 1171

[8] əl-İxtisas, səh. 225

4919. İmam Səccad (ə): «Qulağın haqqı budur ki, onu qeybəti eşitməkdən və eşitməyi rəva olmayan hər bir şeydən uzaq saxlayasan.»[1]

***1445. Qeybəti rədd etməyin savabı.***

4920. Allahın Peyğəmbəri (s): «Kim bir məclisdə qardaşından qeybət etdiyini eşidərsə və onu dəf edərsə, Allah dünya və axirətdə min pislik qapısını ondan dəf edər.»[2]

4921**.** Allahın Peyğəmbəri (s): «Kiminsə yanında müsəlman qardaşının qeybətini etsələr və o, kömək edə bilsə də ona (müdafiəsinə) yardım etməsə, Allah onu dünya və axirətdə kimsəsiz qoyar.»[3]

**1446. Qeybət etməyin kəffarəsi.**

4922. Allahın Peyğəmbəri (s)*(«Qeybətin kəffarəsi nədir?» sualına cavabından):* «Kəffarəsi budur ki, hər dəfə qeybətini etdiyin kimsə yadına düşəndə, Allahdan onun bağışlanmasını diləyəsən?[4]

4923. Allahın Peyğəmbəri (s): «Sizlərdən kimsə qardaşının qeybətini edərsə, Allahdan özünün bağışlanmasını diləsin. Çünki bu onun günahlarının kəffarəsidir.»[5]

---

[1] əl-Xisal, səh. 566, hədis 1
[2] Əmali-Səduq, səh. 350
[3] Mən La Yəhzuruhul Fəqih, c.4, , səh. 327, hədis 5762.
[4] əl-Kafi, c.2, səh. 357, hədis 4
[5] Kənzul-Ummal, hədis 8037

# 312

# Qeyrət

***1447. Qeyrətin təqdir olunması.***

4924. Allahın Peyğəmbəri (s): «Həqiqətən, qeyrət imanın bir hissəsidir.»[1]

4925. Allahın Peyğəmbəri (s): «Babam İbrahim (peyğəmbər) qeyrətli idi və mən ondan daha qeyrətliyəm. Allah qeyrəti olmayan müsəlmanın burnunu yerə sürtər.[2]

4926. Allahın Peyğəmbəri (s): «Həqiqətən, Allah qeyrət göstərir və mömin (də) qeyrət göstərər. Allahın qeyrət göstərməsi, mömininin Allahın ona haram etdiyi işi gördüyü yerdədir.»[3]

4927. Allahın Peyğəmbəri (s): «Cənnətin rayihəsi beş yüz illik məsafədən burunlara çatar, ancaq naxələf övlad və dəyyus insana çatmaz.» Ərz edildi: «Ey Allahın Peyğəmbəri! Dəyyus kimdir?» Buyurdu: «Arvadı zina edən və bundan xəbəri olan kişi.»[4]

4928. İmam Əli (ə): «Kişinin dəyəri onun himməti qədərdir....Onun şücaəti abır həya etməsi (alçaqlıq və zəlilliyi qəbul etməməsi), iffəti isə onun qeyrəti qədərdir.»[5]

4929. Allahın Peyğəmbəri (s): «Qeyrətli insan heç vaxt zina etməz.»[6]

4930. Allahın Peyğəmbəri (s): «Həqiqətən, Allahın möminə qarşı qeyrəti var. Belə isə qeyrətsiz şəxs də qeyrətli olsun. Çünki qeyrətsiz adamın ürəyi tərsinədir.»[7]

---

[1] Mən la Yəhzuruhul Fəqih, c.3, səh. 44, hədis 4541
[2] Biharul-Ənvar, c.103, səh. 248, hədis 33
[3] Kənzul-Ummal, hədis 7072
[4] Mən a Yəhzuruhul Fəqih, c.3, səh. 444, hədis 4542
[5] Nəhcül-Bəlağə, hikmət 47.
[6] Nəhcül-Bəlağə, hikmət 305.
[7] əl-Məhasin, c.1, səh. 204, hədis 355

4931. İmam Sadiq (ə): «Allah-taala qeyrətlidir və hər bir qeyrətli insanı sevər. Gizlində və aşkarda çirkin işləri haram buyurması da Onun qeyrətli olmağındandır.»[1]

### *1448. Yersiz təəssüb və qeyrətin pislənilməsi.*

4932. Allahın Peyğəmbəri (s): «Elə qeyrət var ki, Allah onu sevər, eləsi var ki, xoşlamaz. Xoşladığı qeyrət ittiham və bədgümanlıq içində göstərilən qeyrətdir. Xoşlamadığı qeyrət isə arada ittiham və bədgümanlığın olmadığı yerdə qeyrət göstərməkdir.»[2]

4933. İmam Əli (ə) *(Övladı Həsənə (ə) tövsiyyəsindən):*–«(qadınlara qarşı)Yersiz qeyrətdən çəkin ki, bu sağlam qadınları xəstəliyə, iffətliləri bəd- gümanlığa (və günah işlərin fikrinə) salar. Onlara qarşı işini möhkəm tut. Nəsə eyb gördünsə, kiçik və böyük cəza verməkdə ləngimə.»[3]

4934. Allahın Peyğəmbəri (s): «Qadının qeyrəti küfr, kişinin qeyrəti isə imandır.»[4]

4935. İmam Baqir (ə): «Qadınların qeyrəti paxıllıqdandır və paxıllığın kökü küfrdür. Qadınlar qeyrət və qısqanclıq çəkəndə qəzəblənərlər. Qəzəbləndikdə isə küfrə meyl edərlər, yalnız müsəlman qadınlardan başqa.»[5]

4936. İmam Sadiq (ə): «Halalda qeyrət və təəssüb yoxdur…»[6]

---

[1] əl-Kafi, c.5, səh. 353, hədis 1
[2] Kənzul-Ummal, hədis 7067
[3] Biharul-Ənvar, c. 77, səh. 214, hədis 1
[4] Nəhcül-Bəlağə, hikmət 124
[5] əl-Kafi, c.5, səh.505, hədis 4
[6] əl-Kafi, c.5, səh.557, hədis 1

**313**

# Fitnə və ilahi sınaq

***1449. Fitnə və ilahi sınaq.***

**Quran:**

«İnsanlar iman gətirdik dеmələri ilə onlardan əl çəkiləcəyini və imtahan olunmayacaqlarınımı sandılar? Həqiqətən, onlardan əvvəl olanları da imtahana çəkmişdik. Allah düz danışanları da, yalançıları da tanıyır!»[1]

«Onların ildə bir, ya iki dəfə imtahana çəkildiklərini görmürsünüzmü? Bununla belə tövbə edib ibrət almırlar?»[2]

**Hədis:**

4937. Muəmmər ibn Xəllad: «Eşitdim ki, Əbülhəsən (ə) bu ayəni oxuyur: «Əlif, lam, mim. İman gətirdik deməlеrilə onlardan əl çəkiləcəyini və imtahan olunmayacaqlarınımı sandılar?» Sonra mənə buyurdu: «İmtahan nədir?» Ərz etdim: «Sənə fəda olum, bizim bildiyimiz qədəri, dində imtahandır.» Həzrət buyurdu: «Qızıl közərdilərək yoxlanıldığı kimi camaat də elə sınanacaq.»[3] Daha sonra buyurdu: «Qızıl xalisləşdiyi kimi insanlar da xalisləşəcək.»[4]

***1450. Fitnənin növləri.***

**Quran:**

«Bilin ki, mal-dövlətiniz və övladınız sizin üçün ancaq bir imtahandır. Böyük mükafat isə Allah yanındadır.»[5]

**Hədis:**

4938. Allahın Peyğəmbəri (s): «Üç şey fitnə törədər: gözəl saç, gözəl surət və gözəl səs.»[1]

---

[1] Ənkəbut, ayə 2
[2] Tövbə, ayə126
[3] Fitnənin lüğətdə mənası, qarışıqlarının çıxarılması və xalisləşdirilməsi üçün qızılın közərdilməsi deməkdir.
[4] əl-Kafi, c.1, səh. 380, hədis 4
[5] Ənfal, ayə 28

4939. Allahın Peyğəmbəri (s): «Həqiqətən, sizin üçün çətinliyin fitnəsindən daha çox, xoşluğun fitnəsindən qorxuram. Siz çətinliyin fitnəsinə düşdünüz və səbr etdiniz. Ancaq dünya şirin və gözoxşayandır.»[2]

4940. İmam Əli (ə): «Fitnə üç şeydədir: qadın sevmək–bu şeytanın qılıncıdır, şərab içmək– bu şeytanın tələsidir və dirhəmə, dinara məhəbbət – bu isə şeytanın oxudur. Kim qadınsevən olsa, ömrünün faydasını görməz, kim şərabsevən olsa,cənnət ona haram olar. Kim dinar və dirhəmə məhəbbət bəsləsə, dünyanın nökəri olar.»[3]

4941. İmam Əli (ə)–*(Həzrətin atından tutub piyada gedən Hərb adlı kişiyə xitabən):* «Qayıt. Çünki sənin kimi insanın mənimtək insanın atından tutub piyada getməsi fitnəyə, valinin qüruruna və möminin zəlilliyinə səbəb olar»[4].

### *1451.Fitnələrdən sağ-salamat çıxanlar.*

4942. Allahın Peyğəmbəri (s): «Xoşa müxlislərin halına! Onlar doğru yolun çıraqlarıdır və hər bir qaranlıq fitnə onlardan götürülər.»[5]

4943. Allahın Peyğəmbəri (s): «Tezliklə elə fitnələr meydana çıxacaq ki, onun təsirindən insan gecədən səhərə imanlı insan kimi çıxacaq və gündüzünü isə kafir kimi axşama çatdıracaq. Yalnız Allah-taalanın elmlə diri saxladığı şəxslərdən başqa.»[6]

4944. Allahın Peyğəmbəri (s): «Bilin ki, hər kim təqva yolunu tutsa, Allah onunçun fitnələrdən çıxış yolu və qaranlıqlarda işıq yaradar.»[7]

### *1452. Müxtəlif fitnələr.*

4945. Allahın Peyğəmbəri (s): «Məndən sonra fitnələr ümmətimi zülmət gecələrtək bürüyəcək. Elə fitnələr ki, onun təsirindən insan gecə mömin olar, gündüz isə kafir, gündüz mömin olar, gecə isə kafir. Camaat öz dinini azacıq dünya malına satar.»[8]

4946. İmam Əli (ə): «Kim fitnə odunu alovlandırsa, özü ona odun olacaq.»[9]

---

[1] Kənzul-Ummal, hədis 44129
[2] ət-Tərğib vət-Tərhib, c.4, səh. 184, hədis 74
[3] Biharul-Ənvar, c.73, səh. 140, hədis 12
[4] Nəhcül-Bəlağə, hikmət 322.
[5] Ət-Tərğib vət-Tərhib, c.1, səh. 54, hədis 5
[6] Kənzul-Ummal , hədis 30883.
[7] Əchul Bəlağə, xütbə183
[8] Kənzul-Ummal, hədis 30893
[9] Ğurərul-Hikəm, hədis 9163

4947. İmam Əli (ə): Zülmkar və rəhmsiz hökmdar, daimi olan fitnədən (hərc-məclikdən) yaxşıdır.»[1]

4948. İmam Əli (ə): «Fitnə vaxtı, nə minmək üçün arxası və gücü, nə də südünü sağmağa döşü olan iki yaşlı erkək dəvə kimi ol.»[2]

[1] Ğurərul-Hikəm, hədis 10109

[2] Nəhcül-Bəlağə, hikmət 1.

**314**

# Fətva

***1453.Öz rəyinə əsasən fətva verən.***

4949. Allahın Peyğəmbəri (s): «Sizlərin fətva verməkdə ən həyasızınız, od qarşısında ən həyasız olanlardır.»[1]

4950. İmam Baqir (ə): «Biz öz rəy və istəyimizə əsasən camaata fətva versəydik, hər an məhv olanlardan olmuşduq. Ancaq biz Allahın Peyğəmbərinin (s) sözü və sünnəsi, özümüzün malik olduğumuz və əziz atalarımızdan bizə miras qalan elmi üsullara əsasən camaata fətva veririk.»[2]

4951. İmam Sadiq (ə): «Kim öz nəzərinə görə camaata fətva versə, bilmədiyi şeyin ardınca getmişdir. Bilmədiyi şeyin ardınca gedən, bilməyərəkdən halal və haram işlər görməklə Allahla qarşıdurmaya getmişdir.»[3]

4952. İmam Sadiq (ə): «Fətva verməkdən, şirdən qaçan kimi qaç və boynunu camaatın körpüsünə çevirmə.»[4]

***1454. Fətva verməkdən ötru alimin icazəsi.***

4953. İmam Əli (ə) (*Qusəm ibn Abbasa məktubundan):* «Səhər və axşam onlarla əyləş və səndən hökm, sual soruşan üçün fətva ver, nadanı öyrət və bilikli ilə elmi söhbət apar».»[5]

4954. İmam Baqir (ə) *(Əban ibn Təğlibə xitabən):* «Mədinə məscidində əyləş və camaat üçün fətva ver. Çünki mən şiələrimin arasında sənin kimi insanların görünməsini istəyirəm.»[6]

---

[1] Biharul-Ənvar, c. 2, səh. 123, hədis 48
[2] Biharul-Ənvar, c.2, səh. 172, hədis 3
[3] Biharul-Ənvar, c.2, səh. 299, hədis 25
[4] Biharul-Ənvar, c. 2, səh. 260
[5] Mustədrəkul-Vəsail, c.17, səh. 315, hədis 21453
[6] Mustədrəkul-Vəsail, c.17, səh. 315, hədis 21452

# 315

# Söyüş

***1455. Söyüş söyməkdən çəkinmək.***

4955. Allahın Peyğəmbəri (s): «Elə bir şey olmayıb ki, çirkin sözlər danışmaq (çirkin əməllər görmək) ona eyb gətirməsin. Elə bir şey olmayıb ki, abır həya ona zinət verməsin.»[1]

4956. Allahın Peyğəmbəri (s): «Allah-taala cənnəti nə dediyindən və nə də eşitdiyindən qorxusu olan hər bir dili pis, həyasız söyüş söyənə haram etmişdir.»[2]

4957. Allahın Peyğəmbəri (s): «Allahın ən pis bəndələrindən biri odur ki, söyüşkənliyinə və dilinin pisliyinə görə onunla yoldaşlıq xoşagəlməz olsun.»[3]

4958. İmam Əli (ə): «Böyük insan heç vaxt söyüş söyməz.»[4]

4959. İmam Baqir (ə): «Allahın pis dilli, söyüş söyəndən (və ya söyüşə qulaq asandan) acığı gələr.»[5]

4960. İmam Baqir (ə): «Sizə deyilməsini istədiyiniz ən yaxşı şeyləri camaata deyin. Çünki Allah möminlərə söyüş söyən, lənətləyən və haqlarında pis danışan, dili pis olan və simic dilənçiyə nifrət edər.»[6]

4961. İmam Baqir (ə): «Alçaqların hərbə-zorbası çirkin sözlər danışmaqdır.»[7]

4962. İmam Sadiq (ə): «Söyüş söymək, dili pis olmaq və vəhşilik nifaqdandır (onun nişanələrindəndir).»[8]

---

[1] Biharul- Ənvar, c.79, səh.111, hədis 6
[2] əl-Kafi, c.2, səh.323, hədis 3
[3] əl-Kafi, c. 2, səh.325, hədis 8
[4] Ğurərul-Hikəm, hədis 9478
[5] əl-Kafi, c.2, səh.324, hədis 4
[6] Biharul- Ənvar, c.78, səh.181, hədis 67
[7] Biharul- Ənvar, c.78, səh. 185, hədis 14
[8] Biharul-Ənvar, c.79, səh.113 hədis 14.

4963. İmam Sadiq (ə): «Camaat kimin dilindən qorxarsa, o, alovda olar.»[1]

---

[1] əl-Kafi, c. 2, səh.327, hədis 3

316

# Özünü göstərmək

***1456. Özünü göstərmək.***

**Quran:**

«Bilin ki, dünya həyatı əslində oyun, baş qatmaq, bəzək-düzək və bir-birinizə özünüzü göstərməkdir.»[1]

«Həqiqətən, Allah lovğalanıb fəxr edən heç bir təkəbbürlünü sevmir.»[2]

**Hədis:**

4964. Allahın Peyğəmbəri (s): «Allah-taala təvazökar olmağınızı mənə vəhy buyurmuşdur. Kimsə kimsəyə öyünməsin, kimsə başqasının haqqına təcavüz edib zorakılıq göstərməsin.»[3]

4965. İmam Əli (ə): «İki şey camaatı məhv etmişdir: yoxsul olmaqdan qorxmaq və lovğalanmaq.»[4]

4966. İmam Əli (ə): «Özünü göstərməyi kənara at, təkəbbürünü yerə qoy və qəbrinin fikrini çək.»[5]

4967. İmam Əli (ə): «Kim özünü göstərmək naminə iş görərsə, Allah-taala onu qiyamət günündə qaralığı ilə məşhur edər.»[6]

4968. İmam Əli (ə): «Yaxşı insanların nəzərində hakimlərin ən alçaq hallarından biri budur ki, özünü öymək və lovğalıq aşiqi kimi tanınsınlar və rəftarları təkəbbürlülük sayılsın.»[7]

***1457. Özünü göstərməkdən çəkindirən amillər.***

4969. İmam Əli (ə): «Özünü göstərməkdən Adəm övladına nə? Başlanğıcı nütfə və sonu murdar ət olan (Adəm övladı). Nə özünə ruzi verə, nə də ölümünün qarşısını ala bilər.»[8]

---

[1] Hədid, ayə 20
[2] Loğman, ayə18
[3] ət-Tərğib-vət-Tərhib, c.3, səh.558, hədis 1
[4] əl-Xisal, səh.69, hədis 102
[5] Nəhcül-Bəlağə, hikmət398.
[6] Biharul-Ənvar, c.73, səh.292, hədis 20
[7] Nəhcül-Bəlağə, xütbə 216.
[8] Nəhcül-Bəlağə, hikmət 454

4970. İmam Səccad (ə): «Dünən bir nütfə olan, sabahsa murdar ətə çevriləcək birisinin lovğalıq və özünü öyməyinə heyrət edirəm!»[1]

***1458. Qohumlarına özünü göstərməyin pislənməsi.***

4971. Allahın Peyğəmbəri (s): «Əsl-nəsəbin bəlası iftixar etməkdir.»[2]

4972. İmam Əli (ə): «Allahın Peyğəmbəri (s) öz fəzilətlərindən danışanda buyurardı: «Məqsədim özümü göstərmək və öyünmək deyil.»[3]

4973. İmam Rza (ə): «Əmirəl-möminin (ə) xəstə yatan Səsəə ibn Suhana baş çəkir. Getmək üçün yerindən qalxanda buyurur: «Ey Səsəə! Məbada, səni yoluxmağa gəlməyimə görə özünü qardaşların yanında öyəsən. Allahdan qorx!»[4]

***1459. Fəxr etməyə dəyən şeylər.***

4974. Allahın Peyğəmbəri (s): «Yoxsulluq mənim fəxrimdir.»[5]

4975. İmam Sadiq (ə): «Bu üç şey möminin fəxri, onun dünya və axirətdə zivəridir: gecənin sonlarında qılanın namaz, camaatda olanlarda gözü olmamaq və Məhəmməd ailəsinin imamlarına sevgi.»[6]

---

[1] əl-Kafi, c.2, səh.328, hədis 1
[2] əl-Kafi, c.2, səh.329, hədis 6
[3] Biharul-Ənvar, c.16 , səh. 341, hədis 33
[4] Mustədrəkul-Vəsail, c.12, səh. 90, hədis 13599
[5] Biharul-Ənvar, c.72, səh. 30, hədis 26
[6] əl-Kafi, c.8, səh. 234, hədis 311

**317**

# Farslar

***1460. Farslar və iman.***

4976. Allahın Peyğəmbəri (s): «İslamda ən böyük pay fars camaatınındır.»[1]

4977. «Təfsirul-Mizan»: Allahın Peyğəmbəri (s) «Əgər ondan üz döndərsəniz, (Allah) yerinizi sizlər kimi olmayacaq başqa bir camaata verəcək» ayəsini oxuyanda soruşdular: «Biz üz döndərmiş olsaq, Allah-taalanın bizim yerimizi verəcəyi camaat kimdir?»[2] Həzrət əlini Salmanın çiyninə vura-vura buyurdu: «Bu kişi və onun həmvətənləri. And olsun canım əlində olana! İman ulduzdan asılmış olsa da farslardan olan kişilər onu əldə edərlər.»[3]

4978. Allahın Peyğəmbəri (s) *(«Ey iman gətirənlər! Sizlərdən hər biri öz dinindən dönsə, Allah tezliklə onları sevdiyi və onların da Allahı sevdiyi bir camaatı gətirər» ayəsi haqda suala əlini Salmanın çiyninə vuraraq verdiyi cavabından):* «(Onlar) Bunun həmvətənləridir.» Sonra buyurdu: «Əgər din ulduzdan asılmış olsa belə farslardan olan kişilər hər an onu əldə edərlər.»[4]

4979**.** Allahın Peyğəmbəri (s): «Əgər bilik ulduzda olsa belə, şübhəsiz ki, farslardan olan kişilər onu əldə edərlər.»[5]

4980. Allahın Peyğəmbəri (s): «Farslardan kim İslamı qəbul etsə, Qureyşilərdən sayılar. Onlar bizim qardaş və qohumlarımızdır.»[6]

4981. Allahın Peyğəmbəri (s) *(Onun yanında əcəmlərdən söz düşərkən): –*«Mənim onlara və ya onlardan bəzilərinə əminliyim, sizlərə və ya sizlərdən bəzilərinə əminliyimdən çoxdur.»[1]

---

[1] Kənzul-Ummal, hədis 34126
[2] Muhəmməd, ayə38
[3] Təfsirul-Mizan, c.18, səh. 250
[4] Məcməul-Bəyan, c. 3, səh.321
[5] Kənzul-Ummal, hədis 34131
[6] Kənzul-Ummal, hədis 34137

[1] Kənzul-Ummal, hədis 34128

# 318

# Fürsət

***1461. Fürsəti qənimət bil.***

4982. Allahın Peyğəmbəri (s): «Kimin üzünə xeyrin bir qapısı açılsa, onu qənimət bilməlidir. Çünki o qapının nə vaxt üzünə qapanacağını bilmir.»[1]

4983. Allahın Peyğəmbəri (s): «Fürsəti əldən vermək kədər gətirər.»[2]

4984. İmam Əli (ə): «Fürsət bir bulud kimi ötüb keçər. Belə isə, yaxşı fürsətləri qənimət bil.»[3]

4985. İmam Əli (ə): «Fürsət tez keçən və gec tapılandır.»[4]

4986. İmam Əli (ə): «Fürsət qənimətdir.»[5]

4987. İmam Əli (ə): «Fürsəti əldən vermək kədərin mayasıdır.»[6]

4988. İmam Əli (ə): «İşlər öz zamanlarının girovlarıdır.»[7]

4989. İmam Əli (ə): «Fürsət düşməmiş (bir işdə) tələsmək, fürsət düşdükdə isə ləngik və ahəstəlik nadanlığın nişanəsidir.»[8]

4990. İmam Sadiq (ə): «Hər kimin əlinə fürsət düşsə və o, tam fürsəti (yaxşı şəraitə tamamilə nail olmağı) gözləyərək onu təxirə salarsa, ruzigar həmin fürsəti də ondan alar. Çünki ruzigarın işi aparmaq və zamanın üslubu əldən çıxarmaqdır.»[9]

---

[1] Kənzul-Ummal, hədis 43134
[2] Biharul-Ənvar, c.77 , səh.165, hədis 2
[3] Nəhcül-Bəlağə, hikmət 21.
[4] Ğurərul-Hikəm, hədis 2019
[5] Ğurərul-Hikəm, hədis 194
[6] Nəhcül-Bəlağə, hikmət118
[7] Biharul-Ənvar, c. 77 , səh.165, hədis 2
[8] Nəhcül-bəlağə, hikmət 363
[9] Biharul-Ənvar, c. 78, səh.268, hədis181

**319**

# Vacib əməllər

***1462. Vacib əməllərin yerinə yetirilməsinə təşviq.***

4991. Allahın Peyğəmbəri (s): «Allahın vacib buyurduğu əməllərə riayət et ki, ən təqvalı insanlardan olasan.»[1]

4992. İmam Əli (ə): «Vacib əməllər! Fərizələr! Onları Allaha qaytarın ki, sizi cənnətə çatdırsın.»[2]

4993. İmam Əli (ə): «Allahın sizlərə vacib buyurduğunu səylərinizin məqsədinə çevirin və sizdən istədiyi haqqını əda etmək üçün Ondan kömək və uğur diləyin.»[3]

4994. İmam Əli (ə): «Öz nəfsini yumşaqlıqla ibadətə vadar və onunla mülayimliklə rəftar et. Sənə edilməsi vacib buyurulan əməllərdən başqa, onunla güclə danışma və sakit, şad olan vaxtı ibadət et. Belə hallarda onları yerinə yetirməli və vaxtında əda etməlisən.»[4]

4995. İmam Əli (ə): «Vacib əməlləri yerinə yetirmək kimi ibadət yoxdur.»[5]

4996. İmam Əli (ə): «Əgər müstəhəbləri yerinə yetirməyə görə vacib əməllərdən qalırsansa, qazandığın fəzilət heç vaxt zay etdiyin vacib əməllə (onun günahı ilə) bir olmaz.»[6]

4997. İmam Həsən (ə): «Allah sizə ehtiyacı olduğuna görə deyil, Öz kərəm və rəhmətinə görə vacib əməlləri sizlərə vacib buyurdu. Bu, tək olan Allahın sizə rəhmət və mərhəmətindəndr. Ondan ötrü ki, təmizi çirkindən ayırsın, sinələrinizdə olanları sınasın, qəlbinizdəkiləri isə xalisləşdirsin.»[7]

---

[1] əl-Kafi, c.2 , səh. 2, hədis 4
[2] Nəhcül-Bəlağə, xütbə 167.
[3] Nəhcül-Bəlağə, xütbə113
[4] Nəhcül-Bəlağə, məktub 69.
[5] Nəhcül-Bəlağə, hikmət113
[6] Ğurərul-Hikəm, hədis 3793
[7] Biharul-Ənvar, c. 23, səh. 99, hədis 3

4998. İmam Səccad (ə): «Allahın vacib buyurduğunu yerinə yetirən hər bir şəxs insanların ən yaxşılarındandır.»[1]

4999. İmam Sadiq (ə): «Böyük Allah buyurmuşdur: Bəndəm ona vacib buyurduğum şey qədər özünü mənə sevdirməmişdir.»[2]

***1463. Pak olan Allahın insanlara vacib buyurduqları.***

5000**.** İmam Əli (ə): «Böyük Allah ədalətli (haqq olan) rəhbərlərə vacib buyurmuşdur ki, özünü kasıb camaatla eyniləşdirsin və yoxsul öz kasıblığından qeyzlənməsin.»[3]

5001. İmam Əli (ə): «Pak Allah kasıbların yeməyini imkanlıların vardövlətində vacib buyurmuşdur. Buna görə də imkanlı insan onun haqqına sahib çıxmasa, heç bir kasıb ac qalmaz.»[4]

5002. İmam Əli (ə): «Allah, imanı şirkdən təmizlənmək üçün, namazı təkəbbür və lovğalıqdan uzaqlaşmaq və zəkatı (ehtiyacı olanlara) ruzi səbəbi olmaqdan ötrü vacib buyurdu.»[5]

5003. İmam Əli (ə): «Allah sənin bədəninin hər bir əzası üçün vacib olan əməllər buyurmuşdur ki, qiyamət günündə onların vasitəsilə sənə qarşı şəhadət veriləcək.»[6]

***1464. Vacib əməllərin cəmi.***

5004. İmam Əli (ə): «Allahın camaat üçün təyin etdiyi vacib əməllərin hüdud və sərhədləri ən böyük vacib əməllərdən olan beş vəzifədir: namaz, zəkat, həcc, oruc və digər dörd vacib əməlin qoruyucusu olan imamət.»[7]

---

[1] əl-Kafi, c.2, səh.81, hədis 1
[2] əl-Kafi, c.2 , səh. 82, hədis 5
[3] Nəhcül-Bəlağə, xütbə. 209
[4] Nəhcül-Bəlağə, hikmət 328
[5] Nəhcül-Bəlağə, hikmət 252
[6] Nəhcül-Bəlağə, hikmət 382
[7] Biharul-Ənvar, c. 68, səh. 388, hədis 39

**320**

# Asudəlik

***1365. Asudəlik.***

**Quran:**

«Elə ki asudə oldun, ibadətə çalış. Həvəslə Allahına tərəf üz tut.»[1]

**Hədis:**

5005. Allahın Peyğəmbəri (s): «Qiyamət günü ən ağır sorğu- sual, işlərini başqaları (nökər, xidmətçi və s) görən, özü isə başçılıq edən kimsə ilə olacaqdır. İş görmək zəhmət və əziyyət olsa da işsiz dayanmaq fəsad və pozğunluğa səbəb olar.»[2]

5006. Allahın Peyğəmbəri (s): «Allah nə dünya, nə də axirət işləri ilə məşğul olmayan sağlam işsiz insana nifrət edər.»[3]

5007. Allahın Peyğəmbəri (s): «İki şey var ki, camaatın çoxunda fitnəyə (sınaq və ya fəsad) səbəb olar: sağlamlıq və asudəlik.»[4]

5008. İmam Əli (ə): «Nəfsin istəkləri asudəlikdən baş qaldırar.»[5]

5009. İmam Əli (ə): «Bil ki, dünya sınaq və çətinlik sarayıdır. Bu sarayda insanın elə asudə və bekar bir saatı yoxdur ki, qiyamət günündə onda həsrət yaratmasın.»[6]

5010. İmam Əli (ə): «Necə də xoşdur ki, insanın özü ilə elə saatları, elə anları olsun ki, heç bir çəkindirən onu həmin anlardan saxlamasın.»[7]

5011. İmam Əli (ə): «Əgər iş görmək zəhmət və əziyyətdirsə, daima işsiz qalmaq da fəsada və pozğunluğa gətirib çıxarar.»[8]

---

[1] İnşirah, ayə 7-8
[2] Tənbihul-xəvatir, c. 1, səh. 60
[3] Nəhcül-Bəlağənin şərhi, c. 17, səh.146
[4] əl-Kafi, c. 8, səh.152, hədis136
[5] Ğurərul-hikəm, hədis 9251
[6] Nəhcül-Bəlağə, məktub. 59.
[7] Ğurərul-hikəm, hədis 9684
[8] Biharul-Ənvar, c. 77,səh. 419, hədis 40

5012. İmam Səccad (ə) *(duada):* «(İlahi!) Qəlblərimizi Səni xatırlamaqla hər bir yad etməkdən, dillərimizi Öz şükrünlə hər bir şükürdən, bədənlərimizi Özünə itaətlə hər bir başqa itaətdən qoru. Əgər bir işdə bizimçün işdən asudəlik müəyyən etmisənsə, onu sağlam asudəlikdən et ki, ondan bizə heç bir günah çatmasın. Bizdə məyusluq yaratmasın ki, pis əməlləri yazan mələklər günahların olmadığı boş əməl dəftəri ilə qayıtsınlar. Xeyir yazanlar bizə yazılan xeyir əməllərdən şad geri dönsünlər.»[1]

5013. İmam Səccad (ə) *(Məkarimul Əxlaq duasında):* «İlahi! Məhəmməd və Onun ailəsinə salam göndər və məni məşğul edib (ibadət və bəndəliyindən) saxlayan işlərdən məni ehtiyacsız et. Məni sabah (qiyamətdə) barəsində sorğu-sual edəcəyin bir işə vadar et. Günlərimi naminə yaradıldığım məqsədin yolunda asudə et.»[2]

5014. İmam Səccad (ə) *(həmin duada):* «İbadətdə keçən sağlamlıq və səhhəti, iffətlə müşayət olunan asudəliyi mənə ruzi buyur.»[3]

5015. İmam Səccad (ə) *(Ərəfə gününün duasında):* «(İlahi) Güc və qüdrətindən olan güclə, qüdrətlə Sənin sevdiyin şeyləri yerinə yetirmək üçün asudəçiliyin və Sənə yaxınlaşmağa səbəb olanların naminə çalışmağın dadını mənə dadızdır. Mənə tərəf ərməğanlarından bir ərməğan göndər, ticarətimi xeyirli, dönüşümü ziyansız et. Məni Öz məqamından qorxut və Səninlə görüşə müştaq et.»[4]

5016. İmam Kazim (ə): «Böyük Allah çox yatan bəndəyə nifrət edir. Allah bekar bəndəyə nifrət edir.»[5]

---

[1] Əs-Səhifətus-Səccadiyyə, səh.51, dua 11
[2] əs-Səhifətus-Səccadiyyə, səh. 81, dua 20
[3] əs-Səhifətus-Səccadiyyə, səh.87, dua 20.
[4] əs-Səhifətus-Səccadiyyə, səh. 200, dua 47
[5] Mən la yəhzuruhul-fəqih, c. 3, səh.169, hədis 635

## 321

# Fəsad

***1466. Kütləni fəsada çəkən şeylər.***

1. **Günah.**

**Quran:**

«İnsanların öz əlləri ilə etdikləri pis əməllər üzündən suda və quruda fəsad, pozuntu əmələ gələr ki, Allah etdikləri əməllərin bəzisinin cəzasını onlara dadızdırsın. Bəlkə onlar bununla qayıtsınlar.»[1]

**Hədis:**

5017. Allahın Peyğəmbəri (s): «Bəndə gizlində günah etdikdə o günah yalnız öz sahibinə zərər vurar. Aşkarda günah etdikdə isə camaat onu çəkindirməzsə, bu zaman camaatın hamısına zərər vurar.»[2]

**2. İxtilaf.**

5018. İmam Əli (ə): «Allaha and olsun! Haqqı batillərinə üstün gələnlərindən savayı, heç bir ümmət öz peyğəmbərindən sonra ixtilafa düşməyib. Allahın ixtilafa düşmələrini istəmədiyi ümmətlər istisnadır.»[3]

**3. Haqdan məhrum olmaq.**

5019. Allahın Peyğəmbəri (s): «Acizin haqqını qorxmadan, titrəmədən qüdrətli şəxsdən almayan ümmət heç vaxt pak (xoşbəxt) olmaz.»[4]

***1467. Fəsad törədənlər kimlərdir.***

**Quran**:

«Allaha və peyğəmbərə qarşı vuruşanların, yer üzündə fətnə-fəsad salmağa çalışanların cəzası öldürülməkdən başqa bir şey deyildir.»[5]

«(Səba mələyi) Dedi: «Hökmdarlar bir ölkəyə girdikləri zaman onu xarabalığa çevirər, əzizlərini də zəlil edərlər. Onların üslubu məhz belədir»[1]

---

[1] Rum, ayə 41

[2] Biharul-Ənvar, c. 100, səh. 74, hədis15

[3] Əmali –Mufid, səh. 235, hədis 5

[4] Biharul – Ənvar c.77, səh. 258, hədis 1

[5] Maidə, ayə 33

«Onlara «yer üzündə fəsad törətməyin» dedikdə, «biz yalnız islah edənik» deyərlər.»[2]

İsrafçıların (və həddi aşanların) əmrinə tabe olmayın! O kəslər ki, yer üzündə fitnə-fəsad törədər və islah etməzlər.»[3]

**Hədis:**

5020. Allahın Peyğəmbəri (s): «Mənim ümmətimin içərisində iki dəstə vardır. Əgər onlar düzəlsə, ümmətim düzələr, onlar korlansa ümmətim də korlanar.» Dedilər: «Ey Allahın Rəsulu! O hansı iki dəstədir?» Buyurdu: «Fəqihlər və hökmdarlar.»[4]

5021. İmam Əli (ə): «Yol azuqəsini zay etmək fəsad törədən (və israf yaradan) hallardandır.»[5]

5022. İmam Rza (ə): «Fəsad (və israf) hallarından biri də dirhəm və dinarı (başqa məqsədlə istifadə üçün sikkə pulu) sındırmaq və meyvə çərdəyini kənara atmaqdır.» [6]

***1468. Fəsad və puçluğun qarşısını alan şeylər.***

5023. Allahın Peyğəmbəri (s): «Allaha ruku edən bəndələr, südəmər körpələr, otlayan heyvanlar olmasaydı, mütləq onların başına ağır əzab endirərdim.»[7]

5024. İmam Əli (ə): «İnsanlar qəzəb və bəlalar nazil olanda, nemətlər əllərindən çıxanda doğru niyyətlərlə, müştaq qəlblərlə Allaha pənah aparsalar, heç şübhəsiz, (Allah) əllərindən çıxan hər bir şeyi geri qaytarar. Onlar üçün hər bir fəsadı islah edər.»[8]

5025. İmam Sadiq (ə): «Allah-taala bizim namaz qılan şiələrimizin varlığının bərəkətindən, əzabı namaz qılmayan şiələrimizdən uzaqlaşdırar. Əgər onların hamısı namaz qılmağı tərk etsəydilər, mütləq məhv olardılar. Allah-taala bizim zəkat verən şiələrimizin bərəkətindən (əzabı) zəkat verməyən şiələrimizdən uzaqlaşdırar... Allah-taalanın «Allah insanların bir

---

[1] Nəml, ayə 34
[2] Bəqərə, ayə 11
[3] Şuəra, ayə 151-152
[4] əl-Xisal, səh. 37, hədis 12
[5] əl-Kafi, c. 8, səh. 24, hədis 4
[6] Mən la yəhzuruhul-fəqih, c. 3, səh. 167, hədis 3625
[7] Nurus-Səqəleyn, c. 1, səh. 253, hədis1007
[8] Nəhcül-Bəlağə, xütbə 178

qismini, digər qismi ilə dəf etsəməydi, mütləq yer üzü fitnə-fəsada uğrayardı.»[1] kəlamının mənası da məhz budur.»[2]

---

[1] Bəqərə, ayə 251
[2] əl-Kafi, c. 2, səh. 451, hədis 1

# 322

# Fəzilət

***1469. Fəzilətlər.***

5026. İmam Əli (ə): «Üstünlük mal-dövlətin çoxluğu, işlərin (və əsil-nəcabətlərin) böyüklüyü ilə deyil, gözəl kamal və yüksək əxlaqla ölçülür.»[1]

5027. İmam Əli (ə): «Rəhbərlərin üstünlük dərəcələri, onların ibadətinin gözəlliyi ilə ölçülər.»[2]

5028. İmam Əli (ə): «Təqvalılar dünyada fəzilət sahibləridir. Onların danışıqları doğru, geyimləri orta səviyyəlidir.»[3]

5029. İmam Əli (ə): «Özünü pisliklə cəzalandırmaqdan üstün bilən kəs bütün fəzilətləri kəsb etmişdir.»[4]

5030. İmam Əli (ə): «Pislik edənə yaxşılıq edən kəs, şübhəsiz ki, bütün fəzilətləri öz ixtiyarına almışdır.»[5]

5031. İmam Əli (ə): «Qüdrətli olduqda güzəşt edən, çətinlik və kasıblıq vaxtı əliaçıq, yoxsulluq vaxtı fədakar ol ki, fəzilət və üstünlüyün kamil həddə yetişsin.»[6]

5032. İmam Səccad (ə): «Qiyamət günü Allah-taala əvvəldən axıradək bütün insanları bir səhraya yığdıqda, carçı car çəkər: «Haradadır fəzilət əhli?» Bundan sonra bir dəstə adam ayağa qalxar. Mələklər onları qarşılamağa gedər və soruşarlar: «Sizin fəzilətiniz nə idi?» Deyərlər: «Bizimlə əlaqələrini kəsən şəxslə əlaqə yaradardıq, bizi məhrum edən şəxsə bəxşiş edərdik, bizə zülm edən kəsə güzəşt edərdik.» Onlara deyilər: «Doğru deyirsiniz. Cənnətə daxil olun.»[7]

---

[1] Ğurərul-hikəm, hədis 1925
[2] Ğurərul-hikəm, hədis 6559
[3] Nəhcül-Bəlağə, xütbə 193
[4] Ğurərul-hikəm, hədis 5139
[5] Ğurərul-Hikəm, hədis 8905
[6] Ğurərul-Hikəm, hədis 7179
[7] əl-Kafi, c. 2, səh. 107, hədis 4

5033. İmam Cavad (ə): «Fəzilətlər dörd cürdür. Birincisi hikmətdir, hikmətin də canı düşünməkdir. İkincisi iffətdir, iffətin də canı şəhvətdir. Üçüncüsü qüdrətdir, onun da canı qəzəbdir. Dördüncüsü ədalətdir. Onun möhkəmliyi nəfsanı qüvvələri tənzimləməkdədir.»[1]

**1470.Ən üsün fəzilətlər**

5034. İmam Əli (ə): «İnsaflı olmaq fəzilətlərin ən üstünüdür.[2]

5035. İmam Əli (ə): «Dili qorumaq və bəxşişlə yaxşılıq etmək insanın ən üstün fəzilətlərindəndir.»[3]

5036. İmam Əli (ə): «Heç bir fəzilət yaxşılıq etməkdən daha üstün deyildir.»[4]

5037. İmam Əli (ə): «Qəzəbə hakim olmaq və şəhvəti öldürmək fəzilətlərin başında gəlir.»[5]

5038. İmam Əli (ə): «Fəzilətlərin zirvəsi elmdir.»[6]

***1471.Ən üstün insanlar.***

5039. Allahın Peyğəmbəri (s): «Sizin Allah yanında ən yüksək məqam sahibi olanınız, daha uzun müddət aclıq çəkən və düşüncələrə dalanınızdır. Allah yanında ən mənfurunuzsa, çox yatağan, qarınqulu və çox içəninizdir.»[7]

5040. Allahın Peyğəmbəri (s): «Ey camaat! Həqiqətən, insanların ən üstünü odur ki, yüksək məqamına baxmayaraq təvazökarlıq etsin, qüdrətinə rəğmən dünyaya zahid olsun, dövlətli olsa da xərclərində insaflı olsun, güclü olduğu qədər də insaflı olsun. Bilin ki, ən üstün insanlar, dünyadan ona kifayət edən qədər götürən, onda iffətli və izzətli ömür sürən, səfərə (axirətə) azuqə yığan və getməyə hazırlaşan bəndələrdir.»[8]

5041. İmam Əli (ə): «Allahın yanında Onun ən üstün bəndələri yol göstərən və yol tapmış ədalətli rəhbərdir. Beləsi tanınan sünnəni dirçəldər, tanınmamış bidəti öldürər.»[9]

---

[1] Kəşful-Ğummə, c. 3, səh. 138
[2] Ğurərul-hikəm, hədis 805
[3] Ğurərul-hikəm, hədis 4899
[4] Ğurərul-hikəm, hədis 10625
[5] Ğurərul-hikəm, hədis 5237
[6] Ğurərul-hikəm, hədis 6379
[7] Tənbihul-xəvatir, c. 1, səh. 100
[8] Əlamud-din, səh. 337, hədis 15
[9] Nəhcül-Bəlağə, xütbə 164

5042. İmam Əli (ə): «Həqiqətən, Allah yanında ən üstün insan, haqq ona kədər və çatışmazlıq, batil isə xeyir və artım gətirsə də, haqqa əməl etməyi batilə əməl etməkdən çox istəyəndir.»[1]

[1] Nəhcül-Bəlağə, xütbə 125

**323**

# Yoxsulluq

***1472. Yoxsulluğun pislənilməsi.***

5043. Allahın Peyğəmbəri (s): «Yoxsulluq küfrə gedib çıxmağa yaxındır.»[1]

5044. Allahın Peyğəmbəri (s): «İlahi! Mən, küfrdən və yoxsulluqdan Sənə pənah aparıram.» Bir kişi dedi: «Bu ikisi eynidirmi?» Buyurdu: «Bəli.»[2]

5045. Allahın Peyğəmbəri (s): «Əgər Allahımın rəhməti mənim ümmətimin yoxsullarının üstündə olmasaydı, yoxsulluğun küfrə keçməsinə az qalardı.»[3]

5046. Allahın Peyğəmbəri (s): «Kasıbçılıq hər iki dünyada üz qaralığıdır (səbəbkarıdır).»[4]

5047. Allahın Peyğəmbəri (s): «Yoxsulluq öldürülməkdən daha pis və daha ağırdır.»[5]

5048. İmam Əli (ə): «Yoxsulluq böyük ölümdür.»[6]

5049. İmam Əli (ə): «Yoxsulluq zirək adamın ağzını da öz dəlilini demək üçün yumur. Kasıb insan, öz şəhərində də qəribdir.»[7]

5050. İmam Əli (ə) *(Öz övladı Həsənə (ə):* «Öz gündəlik çörəyi üçün çalışanı danlama. Çünki özünü saxlamağa qüdrəti olmayanın xətası çox olar. Övladım! Yoxsul insan həqirdir. Sözünü sayan yoxdur, yeri və məqamını isə tanıyan. Yoxsula, düzdanışan da olsa yalançı deyərlər. Zahid və tərkidünya olsa, nadan adlandırarlar. Övladım, yoxsulluğa giriftar olan, dörd xislətə mübtəla olar: Allaha yəqinlikdə süstlük, ağlın azalması,

---

[1] əl-Kafi, c. 2, səh. 307, hədis 4
[2] Kənzul-Ummal, hədis 16687
[3] Cameul Əxbar, səh. 300, hədis 817
[4] Əvalil lali, c. 1, səh. 40, hədis 41
[5] Cameul Əxbar, səh. 299, hədis 816
[6] Nəhcül-Bəlağə, hikmət 163
[7] Nəhcül-Bəlağə, hikmət 3

dinində kövrəklik, üzündə abır-həyanın azlığı. Belə isə Allaha yoxsulluqdan pənah aparıram.»[1]

5051. İmam Əli (ə) *(övladı Məhəmməd ibn Hənəfiyyəyə):* «Övladım! Mən səninçün yoxsulluq və imkansızlıqdan qorxuram. Onlardan Allaha pənah apar. Çünki yoxsulluq dinin azalmasına, ağlın məyusluğuna, kin və düşmənçiliyə səbəb olar.»[2]

5052. İmam Əli (ə): «Yoxsul öz doğulduğu yerdə belə qəribdir.»[3]

***1473. Yoxsulluğun təqdir olunması.***

5053. Allahın Peyğəmbəri (s): «Yoxsulluq mənim fəxrimdir və onunla iftixar edirəm.»[4]

5054. Allahın Peyğəmbəri (s): «Yoxsullar Allahın dostlarıdır.»[5]

5055. Allahın Peyğəmbəri (s): «İlahi! Məni möhtac saxla, möhtac öldür və möhtacların sırasında qəbirdən qaldır.»[6]

5056. İmam Əli (ə): «Yoxsulluq möminə atın üzündəki bəzəkdən daha çox yaraşandır.»[7]

5057. İmam Sadiq (ə): «Müsibətlər Allah tərəfindən olan hədiyyələrdir və yoxsulluq Allahın xəzinəsində saxlanılır (və onu hər kəsə vermir).»[8]

***1473. Yoxsulluğun varlılıqdan üstünlüyünə dair hədislər.***

5058. Allahın Peyğəmbəri (s): «Yoxsulluq rahatlıqdır, imkanlılıq isə çətinlik.»[9]

5059. Allahın Peyğəmbəri (s): «(Yoxsulların) haqqını və payını ödəyən və ya çətinlikdə başqalarına kömək edəndən başqa, (bütün hallarda) yoxsul olmaq imkanlı olmaqdan daha yaxşıdır.»[10]

5060. İmam Əli (ə): «Yoxsulluğun ziyanı imkanlılığın məstliyindən (baş gicəllənməsindən) bəyəniləndir.»[11]

---

[1] Cameul Əxbar, səh. 300, hədis 818
[2] Nəhcül-Bəlağə, hikmət 319.
[3] Nəhcül-Bəlağə, hikmət 56.
[4] Biharul-Ənvar, c. 72, səh. 55, hədis 85
[5] əl-Firdous, c. 3, səh. 157, hədis 4424
[6] Kənzul-Ummal , hədis 16669
[7] əl-Kafi, c. 2, səh. 265, hədis 22
[8] əl-Kafi, c. 2, səh. 260, hədis 2
[9] Kənzul-Ummal, hədis 44144
[10] Biharul-Ənvar, c.72, səh. 56, hədis 86
[11] Ğurərul-hikəm, hədis 5904

5061. İmam Sadiq (ə): «Böyük Allahın Musaya (ə) münacatında deyilir: «Ey Musa! Nə vaxt yoxsulluğun sənə üz tutduğunu görsən, ona «ey əməli salehlərin geyimi, xoş gəlmisən!», sərvətin sənə üz tutduğunu gördükdə isə «bu cəzası mənə tərəf tələsən günahdır (günaha görədir)» de.»[1]

Məclisi (rizvanullah əleyh) bu haqda buyurur: «Bu barədə olan hədis və xəbərlərdən çıxan ümumi nəticə bundan ibarətdir ki, yoxsulluq və var-dövlətin hər biri öz növbəsində bir ilahi nemətdir. Allah-taala insanların kamilləşməsinə uyğun olaraq, onlara bu iki nemətdən birini verir. Bəndə isə, yoxsul, imkansız olan vaxtı dözümlü olmağa və hətta şükr etməyə borcludur. Allah ona mal və sərvət də versə şükr etməli və onun tələbinə uyğun hərəkət etməlidir. Əlbəttə, çox vaxtı dözümlü yoxsulun savabı şükr edən imkanlının savabından çox olur. Ancaq onların məqamı bir-birindən fərqlənir və hər iki tərəf barədə ümumi hökm vermək olmaz. Aydındır ki, çatacaq qədər ruziyə kifayətlənmək hər iki tərəfdən- yəni yoxsul və varlıdan– daha sağlam, daha az təhlükəlidir. Buna görə də, duaların çoxunda çatacaq qədər ruzi istənilmişdir. Peyğəmbər (s) bunu ailəsi üçün diləmişdir.»[2]

Rağib «Mofrədat» kitabında yazır: «Fəqirlik dörd mənada işlənir.

**Birincisi**, «zəruri ehtiyacın olması». Bu mənada insanlara, bütün varlıqlara dünyada mövcud olduqları müddətdə şamil olunur. «Ey camaat! Siz Allaha möhtacsınız. Heç nəyə möhtac olmayan Allah tərifə layiqdir» ayəsi, eləcə də, insan barədə olan «Biz onları xörək yeməyən cəsəd etmədik» ayəsi də bu mənada işlənmişdir.[3]

**İkinci:** «kasıblıq». Bu ayələrdə yoxsulluq aşağıdakı mənada işlənmişdir: «(Bu sədəqələr) Allah yolunda calışan və yer üzündə (yaşayış ehtiyacını ödəmək üçün) hərəkət edə bilməyən yoxsullar üçündür. Onlar özlərini o qədər saxlayırlar ki, xəbərsiz insan onları dövlətli sayar.» və «Sədəqələr, əslində möhtaclar və ehtiyacı olanlar üçündür.»[4]

**Üçüncü:** «nəfsin yoxsulluğu». Bu hərislik və acgözlükdən ibarətdir. Həzrəti Peyğəmbərin «yoxsulluq küfrə gedib çıxmağa yaxındır.» hədisinin mənası da budur. Bunun müqabilində isə «imkanlılıq nəfsin zənginliyidir» hədisi dayanır. «Kim qənaət etməsə, mal-dövləti onu imkanlı və ehtiyacsız etməz.» cümləsində də məqsəd həmin imkanlılıqdır.

---

[1] əl-Kafi, c. 2, səh. 263, hədis 12
[2] Biharul-Ənvar, c. 72, səh. 31, hədis 26
[3] Fatir, ayə15
[4] Tövbə, ayə 60

**Dördüncü:** «Allaha olan ehtiyac və yoxsulluq.» Həzrəti Peyğəmbərin «İlahi, Özünə möhtac etməklə məni ehtiyacsız et və Sənə ehtiyacsız etməklə məni möhtac qoyma» hədisi də həmin mənaya toxunur. Eləcə də, «İlahi! Sənin mənə nazil etdiyin xeyrə və yaxşılığa möhtacam» ayəsi də bu mənada işlənmişdir.[1]»[2]

***1475. Yoxsulluğun mənası.***

5062. «Biharul Ənvar»: İdrisin səhifələrində deyilir: «Məndən ehtiyacsız olanın qüdrəti olmaz. Mənə ehtiyacı olduğunu bildirən yoxsul və imkansız olmaz.»[3]

5063. Allahın Peyğəmbəri (s): «Ey camaat! …Sizcə yoxsul kimdir?» Ərz etdilər: «Var-dövləti olmayan kişi.» Buyurdu: «Həqiqi kasıb odur ki, özündən sonra çox malı qalsa da, öz var-dövlətindən Allahın hesabına heç nə göndərməsin.»[4]

5064. Allahın Peyğəmbəri (s): «Yoxsul, (əslində) qəlbi yoxsul olandır.»[5]

5065. İmam Əli (ə): «Heç bir yoxsulluq, nadanlıq qədər deyil.»[6]

5066. İmam Əli (ə): «Ən böyük yoxsulluq, ağlın azlığıdır.»[7]

5067. İmam Əli (ə) *(Ən ağır yoxsulluq nədir?» sualına cavabından):* – «İmanlı olduqdan sonra küfr.»[8]

5068. İmam Əli (ə): «Nəfsin yoxsulluğu, ən pis yoxsulluqdur.»[9]

5069. İmam Əli (ə): « (Əsl) İmkanlılıq və yoxsulluq, əməllər Allah dərgahına təqdim olunanda bilinər.»[10]

5070. İmam Əli (ə): «Cənnətin mövcud olduğuna görə yoxsul, cəhənnəmin var olduğuna görə isə varlı yoxdur.»[11]

5071. İmam Həsən (ə) *(«Yoxsulluq nədir?» sualına cavabından):* «Nəfsin hər bir şeyə tamah salması.»[12]

---

[1] Qəsəs, ayə 24
[2] Mofrədatu Əlfazul Quran, səh. 461
[3] Biharul-Ənvar, c. 95, səh. 462
[4] Biharul-Ənvar, c. 77, səh. 150, hədis 86
[5] Biharul-Ənvar, c. 72, səh. 56, hədis 86
[6] Nəhcül-Bəlağə, hikmət 54
[7] Nəhcül-Bəlağə, hikmət 38
[8] Biharul-Ənvar, c. 77, səh. 377, hədis 1
[9] Ğurərul-hikəm, hədis 6547
[10] Nəhcül-Bəlağə, hikmət 452.
[11] Tuhəful-uqul, səh. 216
[12] Tuhəful-uqul, səh. 225

5072. İmam Hadi (ə): «Yoxsulluq nəfsin doymamazlığı və böyük ümüdsizlikdir.»[1]

5073. İmam Sadiq (ə) *(Əbuzərdən nəql olunan «Üç şey var ki, camaat onlara nifrət edir, mən isə sevirəm: Mən ölümü, yoxsulluğu və bəlanı sevirəm» sözləri haqda suala cavabından):* «Bu sözlər camaatın (Əbuzərin sözlərindən) başa düşdükləri kimi deyil. Onun məqsədi budur ki, Allaha ibadət yolunda ölməyi Allaha qarşı günahda yaşamaqdan, Allaha itaətdə yoxsulluğu Allaha qarşı günahla bir olan imkanlılıqdan və Allah yolunda bəlanı, xəstəliyi günahla bir olan sağlamlıqdan çox sevirəm.»[2]

5074. İmam Sadiq (ə): «Yoxsul olub bizimlə olmaq, varlı olub bizdən qeyriləri ilə olmaqdan yaxşıdır. Ölmək və bizimlə olmaq, sağ qalıb başqaları ilə olmaqdan yaxşıdır.»[3]

5075. İmam Sadiq (ə): «Səni zülm etməkdən saxlayan var-dövlət, səni günaha çəkən yoxsulluqdan yaxşıdır.»[4]

5076. İmam Sadiq (ə): «Yoxsulluq qırmızı ölümdür.» Rəvayətçi deyir: «Əbu Abdullaha ərz etdim ki, (məqsədiniz) dinar və dirhəm yoxsulluğudur?» Buyurdu: «Yox, (məqsədim) dini yoxsulluqdur.»[5]

***1477. Yoxsulun təhqir olunması.***

5077. Allahın Peyğəmbəri (s): «Kimsə mömin kişi və ya qadını kasıblığına, var-dövlətinin azlığına görə xar sayıb təhqir etsə, Allah-taala qiyamət günündə onu (bu çirkin əməli ilə) qəbirdən çıxarıb sonra rüsvay edər.»[6]

5078. İmam Əli (ə): «Öz yoxsul qardaşlarınızı təhqir etməyin. Çünki kim mömini həqir saysa, o,tövbə etməyincə Allah onların ikisini cənnətdə bir araya gətirməz.»[7]

5079. İmam Rza (ə): «Kim kasıb müsəlmanla qarşılaşdıqda ona varlı ilə görüşdükdə verdiyi salamdan fərqli salamlaşsa, qiyamət günündə Allah ondan qəzəbli halda görüşünə gələcək.»[8]

***1478. Yoxsulluğu aradan götürən şeylər.***

---

[1] Biharul-Ənvar, c. 78, səh. 368, hədis 3
[2] Məanil Əxbar, səh. 165, hədis 1
[3] əl-Xəraic vəl-Cəraih, c. 2, səh. 739, hədis 54
[4] Mən la yəhzuruhul-fəqih, c. 3, səh. 166, hədis 3614
[5] əl-Kafi, c. 2, səh. 266, hədis 2
[6] Biharul-Ənvar, c. 72, səh. 44, hədis 52
[7] əl-Xisal, səh. 614, hədis 10
[8] Əmali-Səduq, səh. 359, hədis 5

5080. Allahın Peyğəmbəri (s): «Yaxın qohumlarla mehribanlıq ömrü uzadar və yoxsulluğu aradan götürər.»[1]

5081. İmam Əli (ə): «Yoxsulluğa sədəqə və bəxşişlə dərman edin.»[2]

5082. İmam Baqir (ə): «Yaxşılıq etmək və sədəqə vermək yoxsulluğu aradan götürər.»[3]

5083. İmam Sadiq (ə): «Mən mötədil (qənaətcil) olanın yoxsul olmayacağına zəmanət verirəm.»[4]

***1479. Yoxsulluq gətirənlər.***

5084. Allahın Peyğəmbəri (s): «Yoxsulluqdan dəm vuran yoxsul olar.»[5]

5085. Allahın Peyğəmbəri (s): «Əmanətə vəfalılıq var-dövlət gətirər, (əmanətə) xəyanət isə yoxsulluğa çəkər.»[6]

5086. İmam Əli (ə): «Dünyanın çoxunu istəyən yoxsulluğa məhkumdur. Dünyadan üz döndərənə rahatlıq dost olar.»[7]

5087. İmam Əli (ə): «Kim öz üzünə ehtiyacı (başqasından) istəmək qapısını açsa, Allah onun üzünə yoxsulluğun bir qapısını açar.»[8]

5088. İmam Baqir (ə) *(Əbu Nemana buyurduqlarından):*–«Bizi camaatdan pul qazanmaq üçün bir vasitəyə çevirmə. Çünki bu işlə Allah sənin yoxsulluğunu daha da artırar.»[9]

5089. İmam Sadiq (ə) *(əziz ata-babalarına istinadən):* «Kim Allahın fəzilətindən heç nə istəməsə, yoxsul olar.»[10]

5090. İmam Sadiq (ə): «Övladına qarğayan ata oğluna yoxsulluq miras qoyar.»[11]

***1480. Pak Allahın yoxsullardan üzrxahlığı.***

5091. İmam Sadiq (ə): «(Qiyamət günündə) Allah (cəlli sənavə), qardaş öz qardaşından üzr istəyən kimi möhtac mömin bəndəsindən üzr istəyərək

---

[1] Biharul-Ənvar, c. 74, səh. 103, hədis 61
[2] Ğurərul-hikəm, hədis 5156
[3] Biharul-Ənvar, c. 74, səh. 81, hədis 83
[4] əl-Xisal, səh. 9, hədis 32
[5] Biharul-Ənvar, c. 76, səh. 316, hədis 6
[6] Biharul-Ənvar, c. 75, səh. 114, hədis 6
[7] Tuhəful-uqul, səh. 221
[8] Biharul-Ənvar, c. 103, səh. 20, hədis 4
[9] Biharul-Ənvar, c. 78, səh. 184, hədis 11
[10] Biharul-Ənvar, c. 76, səh. 316, hədis 6
[11] Biharul-Ənvar, c. 104, səh. 99, hədis 77

buyuracaq: İzzət və cəlalıma and olsun ki, Mən səni dünyada yanımda xar olduğuna görə möhtac etmədim. İndi bu papağı götür və gör ki, dünyanın yerinə sənə nə vermişəm. O, papağı götürər və deyər: Dünyada məndən aldıqlarına verdiyin əvəzdən mənə nə ziyan olar ki?.»[1]

***1481. Yoxsulluğun zivəri.***

**Quran**

«(Bu sədəqələr) Allah yolunda calışan və yer üzündə (yaşayış ehtiyacını ödəmək üçün) hərəkət edə bilməyən yoxsullar üçündür. Onlar özlərini o qədər saxlayırlar ki, xəbərsiz insan onları dövlətli sayar. Onları üzlərindən tanıyarsan. Camaatdan (bir şeyi) israrla istəməzlər.»[2]

**Hədis:**

5092. Allahın Peyğəmbəri (s): «Allah yoxsulluğu bəndələrinin yanında əmanət qoymuşdur. Kim onu gizli saxlasa, Allah gecəni dirigözlü açıb oruc tutanın savabını ona əta edər.»[3]

5093. İmam Əli (ə): «Özünü saxlamaq (və güclü təbiət) yoxsulun zivəri-dir.»[4]

5094. İmam Sadiq (ə): «İşlərin ən çətini və zəhmətlisi yoxsulluğu gizli saxlamaqdır.»[5].

***1482. Yoxsulların xoş halına.***

5095. Allahın Peyğəmbəri (s): «Xoş dözümlü yoxsulların halına, göylərin və yerin məlakutunu (müccəradat aləmini) görən onlardır.»[6]

5096. Allahın Peyğəmbəri (s): «Yoxsullar cənnət əhlinin padşahlarıdır. Bütün camaat cənnətə, cənnət isə yoxsullara müştaqdır.»[7]

5097. Allahın Peyğəmbəri (s): «Cənnətə gözucu baxdım. Gördüm ki, camaatının çoxu kasıblardır.»[8]

5098. Allahın Peyğəmbəri (s): «Kim öləndə özündən sonra bir dinar-dirhəm belə qoymasa, heç kəs ondan dövlətli (halda) cənnətə daxil olmaz.»[9]

---

[1] əl-Kafi, c. 2, səh. 264, hədis 18
[2] Bəqərə, ayə 273
[3] əl-Kafi, c. 2, səh. 260, hədis 3
[4] Nəhcül-Bəlağə, hikmət 68
[5] Biharul-Ənvar, c. 78, səh. 249, hədis 87
[6] əl-Kafi, c. 2, səh. 263, hədis 13
[7] Biharul-Ənvar, c.72, səh.49, hədis 58
[8] Musnədu İbn Hənbəl, c.1, səh. 504, hədis 2086
[9] Biharul-Ənvar, c.71, səh. 267, hədis 17

5099. İmam Sadiq (ə): «Cənnətə daxil olan son peyğəmbər Süleymandır. Bunun səbəbi də ona verilmiş dünyadır.»[1]

5100. İmam Sadiq (ə) *(Məhəmməd Xəzzaza xitabən):*–«Bazara getmirsən? Satılan meyvələri, ürəyin istədiyi başqa şeyləri görmürsənmi? (Almağa gücün çatmırmı? Məhəmməd deyir ki,) Ərz etdim: «Nə üçün?» Buyurdu: «Bil ki, gördüyün və ancaq almağa gücün çatmadığı hər bir şeydə səninçün bir savab var.»[2]

[1] Biharul-Ənvar, c.72, səh. 52, hədis 76
[2] Biharul-Ənvar, c.72, səh. 25, hədis 19

## 324

# Fiqh

***1483. Dində fəqih olmaq.***

**Quran:**

«Möminlərin hamılıqla (cihad üçün) köçməsi yaraşan deyil. Nəyə görə, onların hər firqəsindən bir dəstə köçməsin ki, (bir dəstə qalsın və) dinləri ilə agah olub, öz qövmünü onlara tərəf qayıtdıqda qorxutmasın? Bəlkə onlar (ilahi cəzadan) qorxalar.»[1]

**Hədis:**

5101.Allahın Peyğəmbəri (s): «Allah bəndənin yaxşılığını istəyəndə onu dinində fəqih edər, onu doğru, düzgün yola ilhamlandırar.»[2]

5102. Allahın Peyğəmbəri (s): «İbadətlərin ən üstünü fiqhdir (dini bilməkdir).»[3]

5103. Allahın Peyğəmbəri (s): «Həqiqətən, hər bir şeyin söykənəcəyi olduğu kimi, dinin də dayağı fiqhdir.»[4]

5104. İmam Əli (ə): «Quranı öyrənin ki, o sözlərin ən yaxşısıdır. Onda bilikli və fəqih olun ki, o qəlblərin baharıdır.»[5]

5105. İmam Kazim (ə): «Fəqihin abiddən üstünlüyü günəşin ulduzlardan üstünlüyü kimidir. Kim öz dinini bilməsə, Allah onun heç bir əməlini bəyən-məz.»[6]

***1484. Fəqih kimdir?***

5106. Allahın Peyğəmbəri (s) *(Əbuzərə tövsiyyəsindən):* «Fəqih insan, camaat onun nəzərində bir ovuc dəvə olmayınca, olmalarına və olmamalarına heç bir əhəmiyyət verməyincə, onun yanında dəvə olanda

---

[1] Tövbə, ayə 122
[2] Kənzul-Ummal, hədis 28690
[3] ət-Tərğib vət-Tərhib, c.1, səh. 93, hədis 3
[4] Kənzul-Ummal, hədis 28768
[5] Nəhcül-Bəlağə, xütbə 110
[6] Biharul-Ənvar, c. 78, səh. 321, hədis 19

halına təfavüt etmədiyi kimi camaatın olması da onda dəyişiklik yaratmayınca kamilləşməz. Bununla belə özünə gəldikdə isə ən çox təhqiri və etinasızlığı öz nəfsinə rəva görməlidir.»[1]

5107. İmam Əli (ə): «Sizləri həqiqi fəqihdən xəbərdar edimmi? Allaha qarşı günah etməyə camaata icazə verməyən, Allahın mərhəmətindən ümidsiz qoymayan, Allahın məkr və əzabından arxayın salmayan və Qurandan qeyri bir şeyə üz tutmayandır.»[2]

5108. Əban ibn Təğləb: «Bir kişi İmam Baqirdən bir məsələni soruşdu. Həzrət ona cavab verdi. Kişi dedi: Fəqihlər bunu demirlər. Həzrət buyurdu: «Vay olsun sənin halına! Nə vaxtsa fəqih görmüsənmi? Əsl fəqih odur ki, dünyaya etina etməsin, axirətə də rəğbəti olsun və Peyğəmbərin (s) sünnəsinə əsaslansın.»[3]

5109. İmam Sadiq (ə): «Bizim eyhamlı və üstüörtülü kəlamımızı başa düşənlərdən qeyri, sizlərdən heç kim fəqih olmaz.»[4]

5110. İmam Rza (ə): «Fəqihliyin (dini başa düşməyin) nişanələrindən biri səbr, bilik və susmaqdır.»[5]

***1485. Fəqihin vücudunun iblisdən dəyərli olması.***

5111. Allahın Peyğəmbəri (s): «İblis üçün bir fəqihin vücudu min abiddən daha ağırdır.»[6]

5112. Allahın Peyğəmbəri (s): «Heç bir şey iblisin belini öz qəbiləsinin arasında olan alim kimi qırmaz.»[7]

5113.İmam Səccad və ya İmam Baqir (ə): «Dində bir fəqihin olması şeytan üçün min abidin olmasından daha ağırdır.»[8]

***1486. Fəqihin dünyadan köçməsi.***

5114. İmam Sadiq (ə): «Mömin bir fəqih vəfat edəndə İslamda elə boşluq yaranır ki, heç bir şey onu doldurmur.»[9]

5115. İmam Sadiq (ə): «Şeytan üçün heç bir möminin ölümü bir fəqihin ölümü qədər sevindirici deyil.»[1]

---

[1] Biharul-Ənvar, c. 72, səh. 304, hədis 51
[2] Tuhəful-uqul, səh. 204
[3] əl-Kafi, c. 1, səh. 70, hədis 8
[4] Məaniul Əxbar, c. 2, səh. 3
[5] əl-İxtisas, səh. 232
[6] Biharul-Ənvar, c. 1, səh. 177, hədis 48
[7] Kənzul-Ummal, hədis 28755
[8] Biharul-Ənvar, c. 1, səh. 213, hədis 10
[9] əl-Kafi, c. 1, səh. 38, hədis 2

[1] əl-Kafi, c.1, səh. 38, hədis 2

**325**

# Düşünmək

***1487. Düşünmək.***

**Quran**

«Allah öz ayələrini sizin üçün elə aydınlaşdırdı ki, bəlkə düşünəsiz.»[1]

**Hədis:**

5116. İmam Əli (ə): «Düşünmək yaxşılığa və ona əməl etməyə çağırar.»[2]

5117. İmam Əli (ə): «Kim düşünsə gözü açılar.»[3]

5118. İmam Əli (ə): «Hər kim öyrəndiyi şey barədə çox düşünsə, öz biliyini gücləndirər və başa düşmədiklərini anlayar.»[4]

5119. İmam Əli (ə): «Heç bir bilik düşünmək qədər deyil.»[5]

5120. İmam Əli (ə): «Düşüncə saf bir güzgüdür.»[6]

5121. İmam Həsən (ə): «Düşünmək bəsirət sahibinin ruhunu diri saxlar.»[7]

5122. İmam Həsən (ə): «Sizə ilahi təqvanı və davamlı düşünməyi tövsiyə edirəm. Çünki düşünmək bütün yaxşılıqların ata-anasıdır.»[8]

5123. İmam Sadiq (ə): «Düşünmək yaxşılıqların aynası və pisliklərin örtüyüdür.»[9]

***1488. Düşünmək kimi ibadət yoxdur.***

5124. «Tənbihul-Xəvatir»: Əbuzərin anasından Əbüzərin ibadəti barədə soruşdular. O, dedi:  Bütün insanlardan kənar gəzər və düşünərdi.»[10]

---

[1] Bəqərə, ayə 219
[2] əl-Kafi, c. 2, səh. 55, hədis 5
[3] Nəhcül-Bəlağə, məktub 31
[4] Ğurərul-hikəm, hədis 8917
[5] Nəhcül-Bəlağə, hikmət 113
[6] Nəhcül-Bəlağə, hikmət 5
[7] Biharul-Ənvar, c. 78, səh. 115, hədis 11
[8] Tənbihul Xəvatir, c. 78, səh.52
[9] Biharul-Ənvar, c. 71, səh. 326, hədis 20
[10] Tənbihul-xəvatir, c. 1, səh. 250

5125. İmam Sadiq (ə): «Ən üstün ibadət Allah və Onun qüdrəti barədə həmişə düşünməkdir.»[1]

5126. İmam Sadiq (ə): «Bir saat düşünmək bir il ibadətdən daha yaxşıdır. «Yalnız ağıl sahibləri ibrət alarlar.»[2]-[3]

***1489. Düşüncəni saflaşdıran şeylər.***

5127. İmam Əli (ə): «Yeməyi az olanın düşüncəsi saf olar.»[4]

5128. İmam Əli (ə): «Daima qarnını doyuzduranın düşüncəsi necə saf və təmiz olar?»[5]

***1490. Düşünülməsi qadağan olan şeylər.***

5129. İmam Əli (ə): «Hikmətdən qeyri şey barədə düşünmək quşbeyinlikdir.»[6]

5130. İmam Əli (ə): «Kim günahlar barədə çox düşünərsə, günahlar onu öz tərəfinə çəkər.»[7]

5131. İmam Əli (ə): «Kim Allahın əzəmətini düşünərsə, mat-məəttəl qalar.»[8]

---

[1] əl-Kafi, c. 2, səh. 55, hədis 3
[2] Zumər, ayə 9
[3] Biharul-Ənvar, c.71, səh. 327, hədis 22
[4] Ğurərul-hikəm, hədis 8462
[5] Ğurərul-hikəm, hədis 6975
[6] Ğurərul-hikəm, hədis 1278
[7] Ğurərul-hikəm, hədis 8561
[8] Ğurərul-hikəm, hədis 9207

# 326

# Qəbr

***1491. Qəbr.***

5132. Allahın Peyğəmbəri (s): «Qəbr axirətin ilk mənzilidir. Kim ondan salamat keçərsə, onun növbəti mənzilləri asan olar. Əgər salamat çıxmasa, sonrakı mənzillərin çətinliyi ondan az olmayacaq.»[1]

5133. Allahın Peyğəmbəri (s): «Axirətin ədalətinin ilk mərhələsi məşhur və ya adsız-sansız, tanınmayan qəbrlərdir.»[2]

5134. Allahın Peyğəmbəri (s): «Elə bir mənzərə görmədim ki, qəbrdən daha qorxulu olsun.»[3]

5135. İmam Əli (ə): «Qəbirstanlıqla qonşu ol ki, ibrət alasan.»[4]

5136. İmam Sadiq (ə): «Qəbr hər gün söhbət edir və deyir: «Mən qürbət eviyəm, mən tənhalığın eviyəm, mən qurdların eviyəm, mən qəbirəm, mən cənnət bağlarından və ya cəhənnəm çuxurlarından biriyəm.»[5]

5137. İmam Kazim (ə) *(Çüxurun kənarında belə buyurdu):*–«Bir şeyin ki, axırı budur, elə əvəlldən onu ürəyindən çıxarsan daha yaxşıdır. Bir şeyin ki, əvvəli budur, sonundan qorxsan yaxşıdır.»[6]

***1492. Qəbr sorğu-sualı.***

5138. Allahın Peyğəmbəri (s) *(«Allah iman gətirənləri dünya və axirət həyatında möhkəm və doğru sözlə gücləndirər»[7] ayəsi haqda):* «Burada, qəbr-də ölülərin sorğu-sualı nəzərdə tutulur.»[8]

---

[1] Biharul-Ənvar, c.6, səh. 242, hədis 64
[2] Müstədrəkul-vəsail, c. 2, səh. 475, hədis 2502
[3] Tənbihul-xəvatir, c.1, səh. 284
[4] Ğurərul-hikəm, hədis 4800
[5] əl-Kafi, c. 3, səh. 242, hədis 2
[6] Məaniul Əxbar, səh. 43, hədis 1
[7] İbrahim, ayə 27
[8] Biharul-Ənvar, c. 6, səh. 228, hədis 29

5139. «Tənbihul Xəvatir»: «Allahın Peyğəmbəri (s) bir gün əvvəl orada bir şəxsin dəfn olunduğu qəbrin yanından keçirdi və ailəsi ağlayırdı. Buyurdu: «Sizin gözünüzə görünməyən iki rükət adi namaz bu qəbr sahibi üçün bütün dünyanızdan daha əzizdir.»[1]

5140. İmam Sadiq (ə): «Ölüdən qəbrdə beş şey barədə soruşarlar: namazı, zəkatı, həcci, orucu və bizim ailəmizə vilayəti. Vilayət qəbrin küncündən qalan dörd şeyə deyər: Sizlərin hər birinizin əyər-əksiyi olsa, onları təkmilləşdirmək mənim boynuma.»[2]

5141. İmam Sadiq (ə): «Qəbrdə əsil mömin və əsil kafirdən başqa, kimsədən sorğu-sual olunmaz.»[3]

5142. İmam Əli (ə): «Ey Allahın bəndələri! Bağışlanmayan üçün ölümdən daha ağırı qəbrdir. Belə işə qəbrin darlığı, təzyiqi, qaranlığı və tənhalığından qorxun. Allahın öz düşmənini xəbərdar etdiyi darısqal həyat qəbr əzabıdır.»[4]

5143. İmam Əli (ə): «Sizdən əvvəlkilərin gördüklərini görsəydiniz, hər an süst düşüb, vəhşət içində olar, sözəbaxan və itaətcil olardınız. Ancaq onların gördükləri sizə görünmür və pərdənin götürülməsi də yaxındadır.»[5]

5144. İmam Baqir (ə): «Kim namazının rukusunu tam yerinə yetirsə, qəbrdə heç qorxu və vəhşət ona yaxın durmaz.[6]

---

[1] Tənbihul-xəvatir, c. 2, səh. 225
[2] əl-Kafi, c. 3, səh. 241, hədis 15
[3] əl-Kafi, c. 3, səh. 236, hədis 4
[4] Əmali-Tusi, səh. 28, hədis 31
[5] Nəhcül-Bəlağə, xütbə 20.
[6] Səvabul-Əmal, səh. 55, hədis 1

## 327

# Öldürmək

***1494. Adam öldürmək.***

**Quran:**

«Bu səbəbdən də İsrail oğullarına hökm etdik ki, hər kəs qisas haqqı olmadan, yer üzündə fitnə-fəsad törətməmiş kimsəni öldürsə bütün insanları öldürmüş kimidir. Hər kəs kimsəni diriltsə bütün insanlara həyat bəxş etmiş kimidir.»[1]

**Hədis:**

5145. Allahın Peyğəmbəri (s): «İnsanların ən dikbaşı, onu öldürmək niyyəti olmayan günahsız birisini öldürən və ya onu vurmayan birisini vurandır.»[2]

5146. Allahın Peyğəmbəri (s): «Qiyamət günü insanlar arasında, barəsində ilk hökm veriləcək şey qan olacaqdır.»[3]

5147. Allahın Peyğəmbəri (s): «Əgər bütün dünya məhv olsa belə Allahın yanında onun əhəmiyyəti, nahaq yerə tökülən qandan daha azdır.»[4]

5148. İmam Rza (ə): «Allah insanı öldürməyi haram buyurdu. Çünki bu işi rəva görsəydi, insanların məhvinə və cəmiyyətdə hərc-mərcliyə səbəb olardı.»[5]

***1495. Mömini öldürmək.***

**Quran:**

«Hər kəs qəsdən bir mömini öldürsə, cəzası əbədi qalacağı cəhənnəm olacaq. Allah ona qəzəb və lənət edər və onunçün böyük bir əzab hazırlamışdır.»[6]

---

[1] Maidə, ayə 32
[2] Əmali-Səduq, səh. 28, hədis4
[3] Kənzul-Ummal, hədis 39887
[4] Ət-Tərğib vət-Tərhib, c. 3, səh. 293, hədis 6
[5] Mən la yəhzuruhul-fəqih, c. 3, səh. 565, hədis 4934
[6] Nisa, ayə 93

5149. Allahın Peyğəmbəri (s): «Ey camaat! Mən sizin aranızda olam və qətlə yetirilənin cənazəsi tapılsın, ancaq qatili məlum olmasın? Əgər göylərin və yerin əhli müsəlman bir kişinin öldürülməsində əlbir olsalar, hər an Allah onların hamısına saysız-hesabsız əzab verər.»[1]

5150. Allahın Peyğəmbəri (s): «Hər kəs özünün bir kəlmə sözü ilə olsa belə, möminin qətlinə kömək edərsə qiyamət günündə alnına «Allahın rəhmətindən naümid (və məhrum)» sözləri yazılmış halda Allahın görüşünə gələr.[2]

5151. İmam Baqir (ə): «Hər kim qəsdən bir mömini öldürsə, Allah-taala bütün günahları ona yazar və qətlə yetirilən günahlardan azad olar. Bu Allah-taalanın sözlərindəndir. Belə ki, O buyurmuşdur: «İstəyirəm ki, mənim və sənin günahlarını çiyinlərinə çəkəsən və cəhənnəm əhlindən olasan.[3]»[4]

5152. İmam Sadiq (ə) *(«Əgər mömin, qəsdən başqa bir mömini öldürərsə, ona tövbə düşürmü?» sualına verdiyi cavab):* «İmanına görə onu öldürmüşsə, tövbə düşmür. Yox əgər qələbə və ya dünya işlərindən birinə görə öldürmüşsə, onun tövbəsi ondan qisas alınmasıdır.»[5]

### *1496. İntiharın qadağan olunması.*

**Quran**

«Ey iman gətirənlər! Bir-birinizin razılığı ilə (olan) alış-verişdən başqa bir-birinizin malını haqsız yerə yeməyin və özünüzü öldürməyin. Həqiqətən Allah həmişə sizinlə mehribandır.»[6]

**Hədis:**

5153. İmam Baqir (ə): «Mömin hər bəlaya giriftar olar və hər ölümlə ölər, ancaq intihar etməz.»[7]

5154. İmam Sadiq (ə): «Kim bilərəkdən özünü öldürsə, həmişə cəhənnəm odunda olacaq.»[8]

---

[1] Kənzul-Ummal, hədis 39952
[2] Kənzul-Ummal, hədis 39895
[3] Maidə, ayə 29
[4] Səvabul-Əmal, səh. 328, hədis 9
[5] əl-Kafi, c.7, səh.276, hədis 2
[6] Nisa, ayə 29
[7] əl-Kafi, c.3, səh. 112, hədis 8
[8] Mən la yəhzuruhul-fəqih, c. 4, səh. 95, hədis 5163

**328**

# Quran

***1497. Quran.***

«Həqiqətən, biz sənə təkrarlanan yeddi ayəni («Fatihə» surəsini) və böyük Quranı əta etdik.»[1]

«Quranı öyüd-nəsihət almaq üçün asanlaşdırdıq. Amma bir öyüd-nəsihət qəbul edən varmı?»[2]

**Hədis:**

5155. Allahın Peyğəmbəri (s): «İşlərin sizlər üçün zülmət gecələr tək qaranlıq və şübhəli olduğu hər vaxt Qurana üz tutun. Çünki şəfaəti qəbul olunan bir şəfaətci, şikayəti qəbul edilən bir şikayətçidir. Kim Qurana üz tutsa, onu cənnətə çəkib gətirər, ona arxa çevirəni isə cəhənnəmə qovar.»[3]

5156. Allahın Peyğəmbəri (s) *(Allah tərəfindən) Ona «Tezliklə sənin ümmətin fitnələrə giriftar olacaq» deyilərkən «ondan xilas yolu nədir?» deyə soruşanlara):* «Allahın əziz kitabı!. Batilin nə öndən, nə də arxadan ona yol tapa bilmədiyi, öyülən Alim tərəfindən nazil edilmiş bir Kitab. Elmi Qurandan qeyri yerdə axtaran hər kimsəni Allah azdırar.»[4]

5157. Allahın Peyğəmbəri (s): «Quran sizinlə olsun. Onu özünüzə rəhbər edin.»[5]

5158. Allahın Peyğəmbəri (s): «Quranın digər sözlərdən üstünlüyü, Allahın öz yaratdıqlarından üstünlüyü qədərdir.»[6]

5159. İmam Əli (ə): «Pak olan Allah öz qüdrətini kitabında göstərmişdir. Bununla da görsənmədən Özünü bəndələrinə göstərmişdir.»[7]

---

[1] Hicr, ayə 87
[2] Qəmər ayə17
[3] Nəvadir ər-Ravəndi, səh.21-22
[4] Təfsir əl-Əyyaşi, c. 1, səh. 6, hədis 11
[5] Kənzul-Ummal, hədis 4029
[6] Biharul-Ənvar, c. 92, səh. 19, hədis 18
[7] Nəhcül-Bəlağə, xütbə 147.

5160. İmam Əli (ə): «Sizi and verirəm Allaha! Sizi and verirəm Allaha! Məbada, başqaları Qurana əməl etməkdə sizdən önə keçsinlər.»[1]

5161. İmam Əli (ə): «Allah-taalanın kitabını öyrənin. Çünki o sözlərin ən yaxşısı, öyüdlərin ən aydınıdır. Quranı başa düşün. Çünki o, qəlblərin baharıdır və onun nurunda şəfa axtarın. Çünki o, sinələrdəki xəstəliklərə şəfa verəndir. Onu yaxşı oxuyun, Çünki o ən yaxşı əhvalatdır.»[2]

5162. İmam Səccad (ə): «Şərqdən Qərbədək bütün insanlar ölsə belə, təkcə Quran mənimlə olsa, heç vaxt qorxu və kimsəsizlik hiss etmərəm.»[3]

***1498. Quran həmişə təzədir.***

5163. Allahın Peyğəmbəri (s): «Quran elə bir sənətdir ki, onsuz imkanlı olmaq, onunla yoxsul olmaq olmaz.»[4]

5164. Allahın Peyğəmbəri (s): «Kimə Quran (onu bilməyin neməti) verilibsə və o, bununla belə başqasına bundan daha çox nemət verildiyini güman etsə, şübhəsiz ki, kiçiyi böyük, böyüyü isə kiçik sanmışdır.»[5]

5165. Allahın Peyğəmbəri (s): «Hər kim əcdadlarının və gələcəkdəkilərin, dünyanın əvvəlindən sonuna qədər olan elmi öyrənmək istəyirsə, Quranı tədqiq edib dərindən düşünsün.»[6]

5166. İmam Əli (ə): «Quran nə qədər təkrarlansa və qulaqlara çatsa da, yenə köhnəlməz.»[7]

5167. İmam Əli (ə): «Ən böyük dərdlərin dərmanı Qurandadır: küfrün, nifaqın, puçluğun və azğınlığın dərdi»[8].

5168. «Biharul Ənvar»: İmam Sadiqdən (ə) soruşdular: «Bu nə sirdir ki, Quran nə qədər çox oxunub bəhs edildikdə onun təzəliyi və təravəti bir o qədər artır?» Həzrət buyurdu: «Çünki Allah-taala onu yalnız xüsusi bir zaman və xüsusi insanlar üçün yaratmamışdır. Buna görə də hər bir zamanda, hər bir insan üçün qiyamət gününə qədər təzə və təravətlidir.»[9]

***1499. Quranı öyrənmək və onu öyrətmək.***

---

[1] Nəhcül-Bəlağə, məktub 47.
[2] Tuhəful-uqul, səh. 150
[3] əl-Kafi, c. 2, səh. 602, hədis 13
[4] Biharul-Ənvar, c. 92, səh. 19, hədis 18
[5] Məaniul Əxbar, səh. 279
[6] Kənzul-Ummal, hədis 2454
[7] Nəhcül-Bəlağə, xütbə 156
[8] Nəhcül-Bəlağə, xütbə 176
[9] Biharul-Ənvar, c. 92, səh. 15, hədis 8

5169. Allahın Peyğəmbəri (s): «Sizlərin ən yaxşısı Quranı öyrənən və onu başqalarına öyrədəndir.»[1]

5170. Allahın Peyğəmbəri (s): «Quranı bilən kimsəyə deyiləcək: «Oxu və yuxarı yüksəl. Dünyada oxuduğun kimi tərtillə oxu. Çünki sənin məqamın oxuduğun son bir ayədədir.»[2]

5171. Allahın Peyğəmbəri (s): «Quranı öyrənmək və onu oxumaq sizinlə olsun.»[3]

5172. Allahın Peyğəmbəri (s): «Kim bir nəfərə Quran öyrədirsə, onun mövlasıdır. Həmin şəxs onu kimsəsiz, köməksiz qoymamalı və özünü ondan üstün tutmamalıdır.»[4]

5173. İmam Əli (ə): «Övladın ata üzərindəki hüquqlarından biri də ona yaxşı ad qoyulması, gözəl tərbiyə olunması və Quran öyrədilməsidir.»[5]

5174. İmam Sadiq (ə): «Layiq olanı budur ki, mömin dünyadan köçməmiş Quranı öyrənsin və ya öyrənərkən vəfat etsin.»[6]

***1500. Quranı əzbərləməyə həvəsləndirmək.***

5175. Allahın Peyğəmbəri (s): «Allah-taalanın öz kitabını əzbərləmək nemətini ona bəxş etdiyi kimsə, başqalarına ondakı nemətdən böyük nemət verildiyini güman etsə, şübhəsiz ki, ən böyük nemətə qarşı hörmətsizlik və naşükrlük etmişdir.»[7]

5176. Allahın Peyğəmbəri (s): «Daxilində Qurandan bir şey olmayan kimsə xaraba ev kimidir.»[8]

5177. Allahın Peyğəmbəri (s): «Sizlərdən kimsənin «filan ayəni unutmuşam» deməsi yaxşı deyil. (Belə deyil) Yadından çıxarılmışdır. Quranı (yaddaşınızda vərəqləyin və) yadınıza salın. Çünki canım əlində olana and olsun ki, Quran insanların sinəsindən, dəvə bəndindən qopandan daha tez qopar.»[9]

---

[1] Biharul-Ənvar, c.92, səh. 186, hədis 2
[2] Kənzul-Ummal, hədis 2330
[3] Kənzul-Ummal, hədis 2368
[4] Kənzul-Ummal, hədis 2382
[5] Nəhcül-Bəlağə, hikmət 399
[6] əd-Dəvat, səh. 220, hədis 600
[7] Kənzul-Ummal, hədis 2317
[8] Kənzul-Ummal, hədis 2478
[9] Kənzul-Ummal, hədis 2850

5178. Allahın Peyğəmbəri (s): «Quranı içlərində daşıyanlar (və əzbər bilənlər) Allahın rəhməti arasında olar və Allahın nuruna bürünərlər.»[1]

5179. Allahın Peyğəmbəri (s): «Mənim ümmətimin böyükləri və kübarları Quran daşıyanlar və gecəni ibadətdə dirigözlü açanlardır.»[2]

5180. Allahın Peyğəmbəri (s): «Allah qarşısında tam və aşkar təvazökarlığa ən layiq olanlar Quranı əzbər bilənlərdir. Namaz qılmağa, aşkarda və gizlində oruc tutmağa layiq olan da, Quranı əzbər bilən dir.»[3]

5181. Allahın Peyğəmbəri (s): «Quranı qoruyan kimsəyə, ona qarşı sərt rəftar edənə sərt olmaq yaraşmaz. Daxilində Allahın kəlamı olan (ona qarşı) cahilcəsinə rəftar edənlə ağılsız davranmaz.»[4]

5182. İmam Sadiq (ə): «Qurana əməl edən hafiz, mətləb gətirən mələklər qədər hörmətli və yaxşı əməl sahibi olar.»[5]

5183. İmam Sadiq (ə): «Kim Quranın bir surəsini unudarsa, həmin surə (cənnətdə) gözəl bir surət və yüksək məqam timsalında qarşısında canlanar. Həmin şəxs onu gördükdə soruşar: «Sən kimsən? Nə qədər gözəlsən! Ey kaş mənim olaydın.» Cavab verilər: «Məni tanımırsan? Mən filan surəyəm. Məni yadından çıxarmasaydın, səni yüksək məkana aparardım.»[6]

### *1501. Quranı avazla oxumağa həvəsləndirmək.*

**Quran:**

«Allahın kitabını oxuyan, namaz qılan, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyənlər heç vaxt kasad olmayan ticarətə ümid bəsləmişlər.»[7]

**Hədis:**

5184. Allahın Peyğəmbəri (s): «Sizlərdən kimsə Allahı ilə söhbət etmək istəyəndə Quran oxusun.»[8]

5185. Allahın Peyğəmbəri (s): «Ürəklər də dəmir kimi pas bağlayar.» Ərz olundu: «Ey Allahın Peyğəmbəri! Ürəkləri cilalayan nədir?.» Buyurdu: «Quran oxumaq.»[9]

---

[1] Camiul Əxbar, səh. 115, hədis 202
[2] əl-Xisal, səh. 7, hədis 21
[3] əl-Kafi, c. 2, səh. 604, hədis 5
[4] Kənzul-Ummal, hədis 2347
[5] əl-Kafi, c. 2, səh. 603, hədis 2
[6] Səvabul-Əmal, səh. 283, hədis 1
[7] Fatir, ayə 29
[8] Kənzul-Ummal, hədis 2257
[9] Kənzul-Ummal, hədis 2441

5186. Allahın Peyğəmbəri (s): «Quran oxumaq sənin işin olsun! Çünki Onu oxumaq günahların kəffarəsidir və alovun qarşısında pərdə, əzabdan qorunmağın səbəbidir.»[1]

5187. Allahın Peyğəmbəri (s): «Övladım! Quran oxumaqdan qəflətdə qalma. Çünki Quran qəlbi dirildər və pozğunluq, pis əməl, zülm və günahdan saxlayar.»[2]

***1502. Gözəl səslə oxumaq.***

5188. Allahın Peyğəmbəri (s): «Hər şeyin bir zivəri var və Quranın zivəri də gözəl səsdir.»[3]

5189. Allahın Peyğəmbəri (s): «Quranı (xoş) səslərinizlə zinətləndirin.»[4]

5190. Allahın Peyğəmbəri (s) *(«Kim Quranı hamıdan daha gözəl oxuyur?» sualına verdiyi cavabdan):–*«Onun Quran oxumağını eşidəndə, səsində Allahdan qorxu və qəzəbi görəsən.»[5]

5191. Allahın Peyğəmbəri (s): «Quranı həzin avazla oxuyun. Çünki o həzin nazil olmuşdur.»[6]

***1503. Tilavətin haqqı.***

5192. İmam Sadiq (ə)*(«Onlara kitab verdiklərimiz, Kitabı layiq olan şəkildə oxuyarlar»[7] ayəsi haqda buyurduqlarından):* «Ayələrini aydın və qısa-qısa oxuyarlar. Mənalarını anlamağa çalışarlar. Hökm və fərmanlarını tətbiq edər, vədlərinə ümid bəsləyər, əzabından qorxarlar. Əhvalatlarından örnək götürər, misallardan öyüd alar, əməllərini yerinə yetirər, qadağalarından uzaq durarlar. Allaha and olsun ki, Quranı tilavət haqqı, ayələri əzbərləmək, hərfləri və sözlərini ardıcıl oxumaq, surələrini tilavət etmək, onun beş-on cüzvünü təkrarlamaqla deyil. (bəziləri) Hərf və sözlərini əzbərlədilər, hədd və mənaları tərk etdilər. Tilavətin haqqı isə onun ayələri haqda dərin düşünməkdir. Allah-taala buyurur: Sənə göndərdiyimiz mübarək bir kitabdır ki, onun ayələrini dərindən düşünəsən.»[8],[9]

---

[1] Biharul-Ənvar, c. 92, səh. 17, hədis 18
[2] Kənzul-Ummal, hədis 4032
[3] Kənzul-Ummal, hədis 2768
[4] Biharul-Ənvar, c. 92, səh. 190, hədis 2
[5] Biharul-Ənvar, c. 2, səh. 195, hədis 10
[6] Kənzul-Ummal, hədis 2777
[7] Bəqərə, ayə 121
[8] Sad, ayə 29
[9] Tənbihul-Xəvater, c. 2, səh.236

***1504. Quran oxumağın qaydaları.***

**1. Ağzı təmizləmək.**

5193. Allahın Peyğəmbəri (s): «Quranın keçdiyi yerləri təmizləyin.» Ərz olundu: «Ey Allahın Peyğəmbəri! Quranın keçdiyi yer haradır.» Buyurdu: «Ağızlarınız.» Ərz olundu: «Nə ilə təmizləyək?» Buyurdu: «Misvakla.»[1]

**2. Allaha pənah aparmaq.**

**Quran:**

«Quran oxuyanda, qovulmuş şeytandan Allaha pənah apar.»[2]

**Hədis:**

5194. İmam Sadiq (ə) *(Hər surəni oxumağa başlayanda, «əuzu billahi minəş şeytanir rəcim» demək barədə suala cavabından):* «Bəli, şeytanların ən alçağı olan qovulmuş şeytandan Allaha pənah apar.»[3]

**3. Tərtil (aydın və qısa-qısa oxumaq)**

**Quran:**

«Ona bir qədər (yarısı) artır və Quranı ağır-ağır oxu.»[4]

**Hədis:**

5195. Allahın Peyğəmbəri (s) *(Quranı ağır-ağır oxu» ayəsi barədə):* «Quranı aydın və ağır-ağır oxu. Onu ot şitili kimi səpmə və şer kimi tələsik, qırıq-qırıq oxuma. Heyrətamiz yerlərində ləngiyin, qəlbləri onunla doyündürüb hərəkətə gətirin. Bütün səyləriniz surəni başa çatdırmaq olmasın.»[5]

**4. Dərindən düşünmək**

**Quran:**

«Sənə göndərdiyimiz mübarək bir kitabdır ki, ayələrini dərindən düşünsünlər və ağıl sahibləri ondan ibrət alsınlar.»[6]

**Hədis:**

5196. İmam Əli (ə): «Bilin ki, Quranı düşünmədən oxumağın bir xeyri yoxdur. Bilin ki, fəhmsiz və düşüncəsiz ibadətin də bir xeyri olmaz.»[7]

---

[1] Biharul-Ənvar, c. 92, səh. 213, hədis 11
[2] Nəhl, ayə 98
[3] Təfsir əl-Əyyaşi, c. 2, səh. 270, hədis 68
[4] Muzzəmmil, ayə 4
[5] Nəvadir ər-Ravəndi, səh. 30
[6] Sad, ayə 29
[7] Biharul-Ənvar, c. 92, səh. 211, hədis 4

5197. İmam Sadiq (ə) *(Quranı bir gecədə xətm etmək barədə suala cavabından):* «Onu bir aydan az müddətə oxumağını istəmirəm.»[1]

**5.Qəlbin yumşaqlığı.**

**Quran:**

«İman gətirənlərin qəlblərinin Allahı xatırlamaq və haqdan nazil olan üçün yumşalma vaxtı gəlib çatmamışdırmı? Bundan əvvəl (səmavi) kitab verilənlər kimi olmasınlar ki, onların gözləmə müddəti uzun müddət çəkdi, qəlbləri sərtləşdi. Onların çoxu fasiq idilər.»[2]

**Hədis:**

5198. Allahın Peyğəmbəri (s) *(«İnsanlardan ən gözəl Quran oxuyan kimdir?» sualına cavabından):* «Quran oxumağını eşidəndə, Allahdan qorxduğunu hiss etdiyin.»[3]

5199. «Əyunul-Əxbaril-Rza» (ə): «İmam Rza (ə) Xorasana səfərə çıxarkən gecələr yatağında çox Quran oxuyardı. Cənnət və oddan bəhs edən ayəyə çatdıqda ağlayar, Allahdan cənnət diləyər, oddan Ona pənah aparardı.»[4]

***1505. Quranın lənətlədiyi kimsələr.***

5200. Allahın Peyğəmbəri (s): «Quranın lənətlədiyi Quran oxuyanlar nə qədər də çoxdur.»[5]

5201. Allahın Peyğəmbəri (s): «Səni (günahlardan) saxlayana qədər Quran oxumusan. Yox əgər saxlamayıbsa, Quran oxumamısan.»[6]

5202. Allahın Peyğəmbəri (s): «Cəhənnəmdə dəmirdən bir dəyirman var və onun başında günahkar qarilər, alimlər üyüdüləcək.»[7]

***1506. Qurana qulaq asmaq.***

**Quran:**

«Quran oxunanda ona qulaq asın və susun ki, bəlkə rəhm olunasınız.»[8]

**Hədis:**

---

[1] əl-Kafi, c. 2, səh. 617, hədis 1
[2] Hədid, ayə 16
[3] Kənzul-Ummal, hədis 4143
[4] Uyun Əxbar ər-Riza (ə), c. 2, səh. 182, hədis 5
[5] Biharul-Ənvar, c. 92, səh. 184, hədis 19
[6] Nəhcül-Bəlağənin şərhi, c. 10, səh. 23
[7] Camiul Əxbar, səh. 130, hədis 254
[8] Əraf, ayə 240

5203. Allahın Peyğəmbəri (s): «Ehey! Kim Allaha müstaqdırsa, Onun sözünə qulaq assın.»[1]

5204. Allahın Peyğəmbəri (s): «Kim Allahın kitabının bir ayəsinə qulaq asarsa, ona ikiqat savab yazılar. Kim Qurandan bir ayə oxusa qiyamət günündə həmin ayə onunçün nura çevrilər.»[2]

5205. İmam Sadiq (ə) *(Zurarənin Quran eşidən kimsənin susmasının və qulaq asmağının zərurəti haqda sualına cavabından):*–«Bəli, sənin yanında Quran oxunanda, qulaq asıb sakit dayanmağın vacibdir.»[3]

***1507. Öz nəzərinə uyğun təfsirdən çəkinmək.***

5206. Allahın Peyğəmbəri (s): «Allah-taala buyurmuşdur: Sözümü öz nəzərinə uyğun təfsir edən alim Mənə iman gətirməmişdir.»[4]

5207. Allahın Peyğəmbəri (s): «Dünyadan köçəndən sonra ümmətim üçün ən çox qorxduğum şey, Quranı yanlış yozandır.»[5]

5208. İmam Sadiq (ə): «Kim Quranı nəzərinə uyğun təhlil etsə və təfsiri doğru olsa, ona heç bir əcr çatmaz və əgər səhv olsa, günahı onun boynundadır.»[6]

---

[1] Kənzul-Ummal, hədis 2472
[2] Kənzul-Ummal, hədis 2316
[3] Biharul-Ənvar, c. 92, səh. 222, hədis 7
[4] Biharul-Ənvar, c.92, səh. 107, hədis 1
[5] Munyətul-Murid, səh. 369
[6] Biharul-Ənvar, c.92, səh. 110, hədis 11